AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu

CEYHUN HÜSEYNOV

# XIX ƏSRİN İKİNCİ YARISINDA ÇARİZMİN MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ VƏ ŞİMALİ AZƏRBAYCANIN İQTİSADİ HƏYATI

Bakı – 2026

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu Elmi Şurasının 2 iyul 2026-cı il tarixli 06 saylı qərarı ilə çap olunur*

**Elmi redaktoru:** **H.N.Həsənov**
tarix üzrə fəlsəfə doktoru, professor

**Rəyçilər:** **E.K.Əliyeva**
tarix elmləri doktoru, dosent

**Z.M.Kərimov**
tarix üzrə fəlsəfə doktoru, dosent

**Hüseynov Ceyhun Əşrəf oğlu. XIX əsrin ikinci yarısında çarizmin müstəmləkəçilik siyasəti və Şimali Azərbaycanın iqtisadi həyatı. Bakı: "Füyuzat", 2026, 220 s.**

Mövcud monoqrafiyada XIX yüzilliyin sonlarına doğru Quzey Azərbaycana iqtisadi həyatının durumu və təkamül meyllərinin burada hər cəhətdən mürtəce müstəmləkəçilik rejimi qurmuş Romanovlar Rusiyanın yürütdüyü sümürgəçilik siyasətinin fonunda, bu siyasətin yerli iqtisadi duruma təsiri fonunda işıqlandırılmasına cəhd göstərilir.

Ulu Öndər Heydər Əliyevin 1997-ci ilin əvvəllərində respublika Elmlər Akademiyasının aparıcı alimləri ilə görüşdəki çıxışında XIX-XX əsrlər Azərbaycan tarixinin yenidən, obyektiv şəkildə araşdırılması barədə, Vətən tarixşünaslığımız qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsi baxımından atılan addımlar çərçivəsində, mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitabda adı çəkilən dövrdə Rusiya imperiyasının yürütdüyü müstəmləkəçi iqtisadi siyasət fonunda Quzey Azərbaycanın iqtisadi həyatının bütün əsas sahələri – kənd təsərrüfatı, sənaye, ticarət və s. sahələrin durumu və təkamüllüyü tədqiq olunub.

ISBN: 978-9952-614-65-7

**© Hüseynov C.Ə., 2026**

# GİRİŞ

Yaşadığımız çağdaş dövrdə gedən sosial-mənəvi proseslərin bir çox özəllikləri bəzi hallarda çox dərin tarixi köklərlə XIX əsrin sonu-XX əsrin əvvəllərində cəmiyyətin həyatında özlərinə möhkəm yer tutmuş amillərlə – faktorlarla bağlılıq nümayiş etdirir. Məlumdur ki, XIX-XX əsrlər Quzey Azərbaycanda əvvəlcə romanovlar imperiyasının, sonra isə (Azərbaycan Xalq Cümhuriyyətinin qısa – 23 aylıq mövcudluğu çıxılmaqla) sovet Rusiyasının müstəmləkə əsarəti altında olmuşdur. Romanovlar imperiyasının bu diyardakı ağalığı dövrünün bir hissəsində – XIX əsrin ikinci yarısında burada getmiş proseslərlə çağdaş sosial-iqtisadi proseslər arasında bir çox ciddi oxşarlıqlar, əlaqələr gözə dəyməkdədir.

Belə ki, XIX əsrin II yarısında Şimali Azərbaycan cəmiyyətinin bütün həyatında, o cümlədən də sosial-iqtisadi, təsərrüfat həyatında, ələlxüsus da iqtisadi-təsərrüfat həyatında çox dərin və köklü dəyişikliklər baş verirdi. Özü də bu dəyişikliklər metropoliyanın müstəmləkə ağalığının boyunduruğu altında baş verirdi. XIX əsrin sonları – XX yüzilliyin başlanğıcında gedən bu proseslər sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatın sonrakı axarı, istiqamətinin təşəkkül tapıb inkişaf etməsində çox mühüm rol oynamışdılar. XX yüzilliyin ilk onilliklərində Quzey Azərbaycan cəmiyyətinin həyatında baş vermiş kəskin və köklü dəyişikliklərin, ictimai-milli şüurun keyfiyyətcə yeni mərhələyə qalxması, müstəmləkə rejiminin iflası, milli dövlətçiliyin bərpası, ictimai-siyasi, mədəni-mənəvi həyatda baş verən heyrətamiz yeniliklərin başa düşülüb izah edilməsi XIX əsrin II yarısında getmiş sosial-iqtisadi proseslər, bu proseslərdə müstəmləkəçi rejimin təsiri kimi proses və amilləri düzgün dəyərləndirmək, qiymətləndirmək çox böyük elmi, mənəvi və əməli əhəmiyyət daşıyan aktual bir vəzifədir.

XIX əsrin II yarısında çar rejiminin bir çox hallarda keçirməyə məcbur olduğu islahatların nəticəsi, habelə bütövlükdə yerli, Qafqaz, Rusiya və dünya təsərrüfat sisteminin bazar iqtisadiyyatı dünyasının "dərinliklərinə" "yuvarlanması" nəticəsində Şimali Azərbaycan iqtisadiyyatının demək olar ki, bütün sahələrinin (bəzilərinin sürətlə, bəzilərinin tədricən) əmtəə-kapitalist münasibətləri sisteminə daxil olması, bu proseslərə təsir edən amillərin, bu proseslərin obyektiv nəticələr, bu nəticələrin xüsusiyyətlərinin öyrənilməsi, həmin proseslərin gedişinin tarixi dərslərinin müəyyənləşdirilməsi, dəyərləndirilməsi və müasir sosial-iqtisadi və ictimai-siyasi proseslərin inkişafı baxımından götür-qoy edilməsi, təxminən 170-120 il əvvəlki proseslərin tarixi dərslərinin nəzərə alınmasına cəhd göstərilməsi həm elmi, həm mənəvi, həm siyasi, həm də iqtisadi baxımdan kifayət qədər sanballı aktuallıq kəsb edir.

Çarizmin XIX əsrin II yarısında Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti və bu siyasətin diyarın iqtisadi durumuna, təsərrüfat və sosial həyatına təsiri məsələsinə indiyədək dünya, Rusiya və Vətən tarixşünaslığında bir sıra tədqiqatçıların əsərlərində bu və ya digər dərəcədə, bu və ya digər baxımdan toxunulmuşdur.

Həmin məsələnin işıqlandırılmasının ilk görüntülərinə hələ çar rejiminin mövcudluğu dövründə işıq üzü görmüş müxtəlif yönümlü nəşrlərdə rast gəlmək olur. Həmin əsərlərdə, təbii ki, çarizmin rəsmi-sosial-iqtisadi siyasətinin başlıca məğzi, onun əsas məqsədləri, nəticələri haqqında obyektiv araşdırmalar axtarmaq əbəsdir: əksəriyyəti müxtəlif səviyyəli dövlət orqanlarında çalışan məmurlardan ibarət olan müəlliflər bu siyasətin, ən yaxşı halda, çar xəzinəsinə daha çox gəlir gətirmək, müstəmləkə rejiminin möhkəmləndirilməsinə daha çox "töhfə vermək" imkanları barədə mülahizələrini ortaya qoya bilərdilər. İstər Sankt-Peterburq, istər Tiflis, istərsə də İrəvan, Gəncə, Bakı, Dərbənd və s. inzibati idarələrində çalışan müxtəlif ranqlı

məmurlardan ibarət olan bu müəlliflərin əsərləri iqtisadi həyat, onun inkişaf meylləri, iqtisadi həyatın müxtəlif sahələri haqqında çox qiymətli faktik materiallar qorunub saxlanılmışdır. Dövlət məlumat qaynaqları ilə yaxınlıq, nadir qaynaqlarla geniş və rahat çıxış həmin tarixşünaslıq ədəbiyyatın məlumatverimlilik əmsalını xeyli yüksək edirdi.

Etiraf etmək lazımdır ki, həmin zəngin qaynaqlara söykənilərək hazırlanmış əsərlərin istər kənd təsərrüfatı, istər sənaye, istər nəqliyyat və rabitə, istərsə şəhər özünüidarəçiliyi, istərsə də su sahibliyi və sudan istifadə məsələlərini araşdırmaq baxımından əvəzsiz qaynaq rolunu oynayırlar. Bu baxımdan [1]

[1] Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. Т III. Одесса, Типография Техник, 1914,- s.182; Акты Кавказской Археологической Комиссии (в дальнейшем АКАК), - Тифлис, 1869, док. № 1184; Аргутинский-Долгоруков, М. «История сооружения и эксплуатации Закавказской железной дороги за 25 лет ее существования (1871-1896)» / -Тифлис: Издание Закавказской железной дороги, - 1896, - s.682; Варавин И.С. Летняя и зимняя пастбища Закавказского края СМИЭБГКЗК, т. 5, часть1, Тифлис-1888; Вейсенгоф В.С.. Сведения о состоянии орошения на Кавказе по 1883 год. Тифлис, 1883; Высочайше утвержденного Мнения Государственного Совета, 19 января 1898 года, «Собрания узаконений и распоряжений правительства», № 18, 1898. – s.168; Гагемейстер, Ю. Закавказские очерки / Ю.Гагемейстер. - СПб: тип. Министерства внутренних дел. - 1845. - s. 162; Гарсеванов М.Н. Очерк гидрографии Кавказского края, СПб, 1886; Городовое положение 1892; Гулишамбаров, С. Всемирная торговля в XIX в. и участие в ней России / С. Гулишамбаров, - СПб: тип. В. Киршбаума, - 1898, - s. 230; Гулишамбаров, С. Краткий очерк развития керосинового производства на Кавказе // - СПб.: Императорское Русское техническое общество. - 1887. - s. 1-32; Деконский А.Г. Экономический быт государственных крестьян Шушинском, Джабраильском уезде, Эриванской губернии-МИЭБГКЗК, Т5, часть 1. Тифлис, 1886; Дингильштедт В. Водовладение и ирригация. Ч.1, Тифлис, 1880; Егиазаров С.А. Водовладение в Закавказье. Киев.1898; Ивашинцов, З. «Очерк берегов Каспийского моря» // - СПб: «Морской сборник», Т.15, - 1855, - s.442; Кавказский календарь на 1852

S.L.Avaliani, M.Arqutinski-Dolqorukov, Y.Qaqemeyster, V.Dinqilştedt və bir çox başqalarının əsərlərini göstərmək olar.

Romanovlar Rusiyasının ağalığı dövründə Şimali Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri barədə məlumatları özündə birləşdirmiş müxtəlif toplu, məcmuə, statistik toplular, ünvan-soraq kitabları və s.b.k. nəşrlər də XIX əsrin II yarısında Quzey Azərbaycanın iqtisadi-inzibati həyatının obyektiv mənzərəsini yaratmaq baxımından əvəzsis rol oynamaqdadır. Bunların içərisindən az qala 70 ildən çox bir müddətdən hər il nəşr

---

г.; Краткий очерк 50-летней деятельности о-ва «Кавказ и Меркурий» 1858-1908, СПб., 1909; Кривенко, В. Очерки Кавказа / В. Кривенко. - СПб: тип. А.Суворина. - 1893. - s. 248; Лерх И.Я. Извлечения из дневника доктора Лерха. TİEA, inv. 488, s. 23; Лефнум Н. Крестьянская реформа в Елизаветпольской губрении. Материалы …, т. 1, Тифлис, 1885; Меликаллахвердов Г. Исторический обзор деятельности Бакинского городского управления в области начального образования в Баку с 1871 по 1914 г. - Известия Бакинской городской думы, 1915, №2; Першке Л. «Русская нефтяная промышленность, ее развитие и современное положение в статистических данных» / Л.Першке, Тифлис: тип. К.П.Козловского, -1913, - s. 193; Пиралов, А. Краткий очерк кустарных промыслов Кавказа / А.Пиралов. - СПб: «Якорь». - 1913. - s. 128; Свешников М. Основы и пределы самоуправления - СПб., 1892; Семенов, П. Географически-статистический словарь Российской империи, Т. 2, СПб., 1865, s. 898; Скалон, А. «Положение о пошлинах за право торговли и других промыслов со всеми позднейшими изменениями и дополнениями» / А.В.Скалон, - Харьков: тип. К.Счасни, - 1869, - s. 82; Скальковский, К. Горнозаводская производительность России / К. Скальковский, Спб.: тип. А.Траншеля, -1881, - s. 140; Старцев, Г. Бакинская нефтяная промышленность. Историко-статистический очерк / Г.Старцев, Баку: «Арор», -1901, - s. 88; Филиппов, Н. Морская география Каспийского водоёма или лоция. - Москва: тип. Н. Куманина. - 1884-1885 - s. 538; Шавров, Н. Русский путь в Закавказье / Н.Шавров. - СПб: тип. А.Суворина. - 1883. - s. 58; Энглер, К. Бакинская нефть // - СПб.: Горный журнал. - 1886. № 10 (октябрь). - s. 32-91; Эсадзе С.С. Исторический очерк распространения русской власти на Кавказе - Тифлис, 1913.

olunan "Qafqaz təqvimi", "Qafqaz haqqında məlumatlar toplu"ları, yeddicildlik "Cənubi Qafqaz diyarı dövlət kəndlilərinin iqtisadi məişətini öyrənmək üçün materiallar", bu materiallar əsasında tərtib edilmiş beşcildlik "Materiallar toplusu", Y.Kondratenkonun redaktorluğu altında tərtib edilmiş az qala 1200 səhifəlik "Cənubi Qafqaz diyarının 5 quberniyasında", Qafqaz xalqları, onların adət-ənənələri, folkloru, məişəti və s. haqqında qiymətli məlumatlar toplanmış müxtəlif məcmuələr və s. bu tədqiqatın araşdırmaları üçün qiymətli qaynaq rolunu oynamışdır.[1]

Bizim tədqiqatımız üçün qaynaq rolunu oynaya biləcək nəşrlər sırasında ayrı-aytrı Cənubi Qafqaz quberniyaları üzrə qubernatorların hər il çara ünvanlanan hesabatları və bu hesabatlar üzrə hər quberniya üzrə çap edilən illik "İcmal"lar[2] da xüsusi əhəmiyyətli qaynaqlar sırasında qeyd edilməlidir.

Nəşr edilmiş qaynaqlar içərisində hər hansı bir sahə, şəhər, istiqamət üzrə tərtib və çap olunmuş dəyərli toplu, icmal və s.b.k. nəşrləri də xüsusi qeyd etmək vacibdir. Məsələn, XX əsrin əvvəllərində Bakı şəhəri, Bakı sənaye rayonu, eyniadlı quberniyanın müxtəlif bölgələri, ayrı-ayrı təsərrüfat sahələri üzrə qiymətli təsviri və stastik məlumatlarla zəngin olan "Баку и

---

[1] Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края / Под ред. Е. Кондратенко. - Тифлис: Закавказский стат. ком., 1899. - s. 824 . разд. паг., 3 л. табл., карт.

[2] Обзор Елисаветпольской губернии ... [по годам]. - Тифлис, 1893-1915. - Обзоры: за 1892-1901 гг. - Приложение к всеподданнейшему отчету; за 1902-1905, 1907 гг. - Место изд. обзоров за 1903-1909, 1911 гг.: Елисаветполь.Обзор Бакинской губернии... - Баку : тип. Губ. правл., [1887]-1915.Обзор Эриванской губернии. - Эривань : типография Эриванского губернского правления, 1882-1911. Всеподданнейший отчет наместника Кавказского по гражданскому управлению Кавказским и Закавказским краем, 1863-1871. - [Тифлис : Б. и., 1871]. - s. 43

его район" adlı toplular seriyasını[1] xüsusi qeyd etməyi lazım bilirik.

Və yaxud Cənubi Qafqaz üzrə 1886-cı ilin ailə siyahılarının sistematik şəkildə əks olunduğu 1893-cü ildə Tiflisdə nəşr edilmiş sanballı toplu,[2] habelə XX əsrin əvvəllərində Sankt-Peterburqda çap olunmuş, imperiyanın hər bir quberniyası üzrə 1897-ci il 15 yanvar tarixli Rusiya imperiyası əhalisinin I siyahıyaalmasının materialları,[3] həmçinin ayrı-ayrı iqtisadiyyat sahələri üzrə çap edilən icmal və topluları[4] (məs. ayrı-ayrı quberniya və vilayətlər üzrə müxtəlif idarələrin hesabat və "xülasələri", o cümlədən üzümçülük və şərabçılıq komitələrinin, Qafqaz Kustar Komitəsinin, Qafqaz İpəkçilik Stansiyasının və s.b.k. bir çox idarə və təşkilatlarının dövri və ya birdəfəlik nəşrləri) mərkəzi romanovlar hakimiyyəti və bu hakimiyyətin regional və yerli idarə və müəssisələrinin hesabatları da bu və ya digər sahələrin ümumi və cari durumu ilə yanaşı bu sahələrdə

---

[1] Баку и его район (изд. М. Шапсович) 1913, s. 35

[2] Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. : изд. по распоряжению главноначальствующего гражд. частью на Кавказе Завкавк. стат. ком. / Закавказ. стат. ком. - Тифлис: Тип. И. Мартиросианца, 1893, s.46.

[3] Материалы Первой всеобщей переписи населения Российской империи 1897 года. Под ред. Н. А. Тройницкого. – Санкт-Петербург: Центральный статистический комитет Министерства внутренних дел, 1903–1905, s.234.

[4] Обзор Бакинской губернии за ... год. – Баку: Типография Бакинского губернского правления, 1873–1916.Кавказский календарь. – Тифлис: Канцелярия Наместника Кавказа, 1845–1916. Отчеты Кавказского кустарного комитета. – Тифлис, 1880- 1910. Труды Кавказской шелководственной станции. – Тифлис, 1890–1917. Сборник сведений о виноградарстве и виноделии на Кавказе. – Тифлис, 1880-1915. Полное собрание законов Российской империи. – Санкт-Петербург, 1830–1916. Свод отчетов по Кавказскому краю. – Тифлис, 1860-1916.

yürüdülən siyasətin məqsəd və xarakterini araşdırıb dəyərləndirmək baxımından xeyli qiymətli qaynaqlardı desək, düşünürük ki, səhv etmərik.

Məhz Azərbaycan, Gürcüstan, Rusiya və b. axrivlərdə saxlanılaraq günümüzədək gəlib çatmış çoxsaylı qaynaqlar, habelə yuxarıda haqqında bəhs etdiyimiz nəşr edilmiş mənbələrə söykənilməklə həm Vətən tarixşünaslığımızda, həm də bir sıra qonşu ölkələrin tarixnəvisliyində XIX əsrin II yarısında romanovlar rejiminin Şimali Azərbaycanda yürütdüyü müstəmləkəçilik siyasətinin bu ölkənin iqtisadi həyatına təsirinin müxtəlif təzahürlərinin incələnib dəyərləndirilməsi sahəsində kifayət qədər sanballı tədqiqatlar aparılmışdır.

# I fəsil
# KƏND TƏSƏRRÜFATINDA MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

## 1.1.Azərbaycan kəndində çarizmin aqrar siyasəti

XIX əsrin ikinci yarısında Azərbaycanda kənd təsərrüfatının vəziyyətini araşdırarkən müqayisəli təhlillərin aparılmasında işğaldan sonrakı dövrü əhatə edən vəziyyət haqqında ümumi məlumatlara malik olmaq vacib məsələdir. Lakin əsrin sonlarına nəzərən bu dövrün mənbələri o qədər də əlçatan və zəngin materiallara malik deyildir. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, onlar hələ XIX əsrin ilk sülsündəki Rusiya-Qacar müharibələrinə qədər və ondan sonrakı illərdə Azərbaycanda kənd təsərrüfatının müqayisəli təhlilinə istiqamətlənmiş araşdırmanın aparılması üçün hər halda qismən də olsa yararlı məlumatlar verə bilirlər. Bununla belə, bəhs edilən dövrə aid tutarlı məlumatların toplanması üçün kifayət qədər əlçatan statistik məlumatların olmaması və bəzi hallarda isə belə qaynaqların səthi və birtərəfli xarakter daşıması monoqrafiya mövzusuna dair tədqiqatlarda həmin işlərin yaxından iştirakını da müəyyən qədər məhdudlaşdırır. XX əsrin əvvəllərində Rusiya administrasiyası məmurlarının, habelə müxtəlif digər müəlliflərin ayrı-ayrı hesabatlarında, yol qeydlərində və müxtəlif yönlü və məqsədli araşdırmalarında özünə yer tapmış təsvirlərin natamamlığı kənd təsərrüfatının vəziyyətini tam dolğun şəkildə təsvir etməyə imkan vermir. Tərtib olunan hesabatların XIX yüzilliyin 30-40-cı illərində hazırlandığını da nəzərə alsaq, vəziyyətin işğalaqədərki dövrlə müqayisəli təhlilindən danışmaq da çətindir.

Çar hökuməti Şimali Azərbaycanı işğal etdikdən sonra ümu-

mi sahəsi təxminən 89586354,312 hektara bərabər əraziyə sahib oldu[1]. Bu sahənin böyük hissəsində əsas iqtisadiyyat sahəsi kənd təsərrüfatı idi. Lap qədimdən aqrar ölkə kimi XIX əsrin 40-cı illərinə qədər də Azərbaycanda mövcud olan kənd təsərrüfatı ənənəvi üsullardan kənara çıxa bilməmiş, əkinçilik və maldarlığı ölkənin başlıca təsərrüfat forması olaraq qalmışdı.

Əlverişli təbii coğrafi mühit müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsində böyük rol oynayırdı. Mil, Muğan, Şirvan düzənlikləri, Böyük və Kiçik Qafqaz dağlarının ətəkləri, çoxlu sayda çayların, kəhrizlərin, digər su qaynaqlarının olması əknçilik təsərrüfatının yüksək səviyyədə inkişafına böyük təsir göstərirmişdir. Əsrlər boyunca Azərbaycanda ənənəvi bitkilərin yetişdirilməsi ilə yanaşı daha çox bu regiona xas olan məxsusi aqrar mədəniyyət formalaşmışdır. Tarixi mənbələr göstərir ki, qədim zamanlardan ölkəmizdə buğda, arpa, çəltik, pambıq, qızılboya (marena), zəfəran, saysız-hesabsız meyvələr becərilirdi. Azərbaycanda yüksək səviyyədə inkişaf etmiş bağçılıq, bostançılıq kimi sahələr kənd əhalisinin təsərrüfat həyatında mühum yer tuturdu. Əkilib-becərilən geniş əraziləri durmadan genişlənmiş və özünəməxsus süni suvarma sistemi formalaşmışdı. Dağətəyi və dağlıq zonaların, zəngin yaylaqlar və qışlaqların bolluğu isə iri və xırda buynuzlu mal-qaranın kütləvi şəkildə yetişdirilməsinə güclü təkan vermişdi.

Zəngin aqrar təcrübə Azərbaycanda digər təsərrüfat sahələrin inkişafında da rol oynamışdır. Əsrlərlə Azərbaycan kənd əhalisi arasında özünəməxsus bir növ ictimai əmək bölgüsü, ixtisaslaşma prosesi getmişdir. Müxtəlif iqlim qurşaqları və təbii coğrafi şərait fərqli sahələrin inkişafına böyük təsir göstərmişdir. Ölkəmizdə hökm sürən yaylaq-qışlaq, köçmə maldralı-

[1] Əhmədova N.Ə. Çarizmin Şimali Azərbaycanda vergi siyasəti (1801-1860) dissertasiya, 2008, Bakı , s. 14.

ğın, eyni zamanda ayrıca götürülmüş atçılığın, ipəkçiliyin, balıqçılıq, boyaqçılıq kimi özünəməxsus sahələrin yüksək səviyyədə olmasını qeyd etməmək mümkün deyil. Bütün bunlar Azərbaycanda inkişaf etmiş aqrar sənətkarlığın olmasına gətirib çıxarmışdır.

Lakin Böyük İpək Yolunun əhəmiyyətinin itirilməsi ilə XVII əsrin sonlarından başlayan iqtisadi tənəzzül, feodal pərakəndəliyi və XIX əsrin əvvəllərində baş vermiş Rusiya-Qacar və Rusiya-Osmanlı müharibələri ölkənin iqtisadi həyatına, o cümlədən də kənd təsərrüfatına böyük zərbə vura bilmişdi.

Sovet tarixşünaslığı belə iddia edirdi ki, Azərbaycanın Rusiya ilə "birləşdirilməsinə" qədər ölkəmiz əsasən geridə qalmış feodal-patriarxal münasibətlər ölkəsi idi[1]. Bu münasibətlər ölkənin patriarxal aqrar münasibətlər çərçivəsindən çıxmasına imkan vermirdi. Digər bir tərəfdən də baş vermiş adı çəkilən müharibələr Azərbaycanın kənd təsərrüfatın sarsıdıcı zərbə vura bişmişdi. Məsələn, bu müharibələrin gedişində iştirak etmiş səlahiyyətli şəxslərdən biri olmuş, tanınmış rus yazıçısı və diplomatı A.S. Qriboyedov, özünün iştirakı ilə tərtib olunmmuş "Zaqafqaziya Rusiya kompaniyasının layihəsi" adlı sənədində qeyd edirdi ki, Cənubi Qafqaz əhalisi son müharibə zamanı "müharibənin ağırlığı altında tamamilə var-yoxdan çıxmışdır"[2].

1828-ci il 10 fevral tarixli Türkmənçay müqaviləsinin bağlanmasından sonra çar höküməti Cənubi Qafqazın iqtisadi resurslarından imperiyanın maraqlarına xidmət edən məqsədəyönlü siyasət aparmağa cəhd edirdi. 1828-ci ildə Qriboyedov və Zavileyski İngiltərənin Hindistanı idarə edən "Ost-Hind" şirkətinə bənzər "kapitalist xarakterinə" malik "Rusiya Cənubi

[1] Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi və mədəni nəticələri. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, B., 1956, s. 57.

[2] Yenə orada, s. 66.

Qafqaz ticarət şirkət"inin layihəsini hazırlamışdılar[1]. Layihəyə görə, dövlət şirkətə 120 min desyatin torpaq ayırmalı və onun gəlir əldə etməsindən ötrü bu şirkətə tam inhisarçı hüquq verməli idi. Rusiyanın müstəmləkəçilik siyasətini özündə əks etdirən layihəyə görə, həmin şirkət öz səhmlərini həm də ali feodal zümrəsini narazı salmamaq üçün yerli tacirlərə və imtiyazlı şəxslərə də sata və ya bağışlaya bilərdi. Lakin çar hökuməti layihənin reallaşmasına imkan verməyib onu rədd etdi. Beləliklə də hökumət XIX əsrin ilk onilliklərində Cənubi Qafqaza, o cümlədən də Quzey Azərbaycana dair dəqiq düşünülmüş, müntəzəm şəkildə əməl olunan iqtisadi siyasət yerli iqtisadi, sosial, mənəvi-mədəni həyatın özəlliklərindən baş tapa, baş çıxara bilmişdi.

Bəhs edilən dövrdə kənd təsərrüfatının mövcud vəziyyəti Azərbaycanın digər iqtisadi sahələrinə də ciddi təsir göstərirdi, çünki məhz kənd təsərrüfatı əhalinin başlıca təsərrüfat sahəsi idi. Sənətkarlıq və ticarət kənd məhsullarından, onun məhsuldarlığından çox asılı idi.

## 1. XIX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatının vəziyyətinə dair

Məlumdur ki, Şimali Azərbaycan xanlıqları rus qoşunları tərəfindən işğal olunarkən feodal zümrəsini özündən narazı salmamaq üçün çarizm I Rusiya-Qacar müharibəsindən sonrakı ilk illər işğal zamanı qəsbkarlara müqavimət göstərməmiş xanlıqların daxili idarə sistemində elə bir əsaslı dəyişiklərin aparılmasına cəhd göstərmədiyini nümayiş etdirmişdi. Bu sırada çar hökumətinə xüsusi "loyallıq" göstərmək zorunda qalmış Qarabağ, Şəki, Şamaxı və Lənkəran xanlıqlarının daxili idarə - üsulu bir müddət əvvəllər olduğu kimi qalmışdı. Gəncə, Bakı, Quba xanlıqları isə əksinə, öz suverenliyini qorumaq üçün mü-

[1] Azərbaycan tarixi, IV c. B., "Elm " nəşriyyatı-2000 , s. 56.

qavimətin mərkəzində olan xanlıqlar kimi öz ənənəvi idarə sistemindən məhrum edilmiş və çar zabitləri- komendantlar tərəfindən idarə olunmağa başlamişdı. Çar hökuməti Quzey Azərbaycanda öz idarəçiliyini yaratmaqda israrlı olduğundan tezliklə xanlıq sistemini saxladığı ərazilərdə də ləğvetmə prosesini sürətləndirdi və Şimali Azərbaycan torpaqlarını büsbütün komendant idarə sisteminin idarəçiliyinə verdi. Bəzi müəlliflərin fikrincə, bu sistemə görə Quzey Azərbaycanda 6 əyalət, 2 dairə və 2 distansiya yaradıldı[1]. Qafqazdakı Rusiya qoşunlarının Baş Komandanı tərəfindən əyalət rəisləri kimi təyin olunan komentantlar əyalət başçıları olaraq ərazinin tam hüquqlu hakimi idilər. Onların torpaq üzrərindəki hüquqi səlahiyyətləri, hətta bəylərə torpaq bağışlamaq, müsadirə etmək, məhkəmələrə rəhbərlik etmək, cəza təyin etmək (ölüm hökmü vermək istisna olmaqla) kimi geniş və demək olar ki, məhdudiyyətsiz səlahiyyətləri var idi.

Komendantlar müəyyən vəzifələrin icrasında, xüsusən də mahal naiblərinin, kəndxudaların təyinatında yerli müsəlmanların ali zümrələrinin xidmətindən də istifadə edirdilər. Mahal naiblərinin başlıca funksiyası vergilərin kəndlər arasında bölüşdürməsi, onların toplanması, müxtəlif mübahisəli məsələlərin həllinə istiqamətlənmişdir. Çar hökuməti vəzifəli müsəlmanlara, daha doğrusu mahal naiblərinə və kəndxudalara əmək haqqı təyin etmirdi. Onların vəzifə öhdəlikləri ağır kəndli əməyinin, ilk növbədə də sonunculardan toplanılan vergilərin hesabına ödənilirdi. Eyni zamanda, əmək haqqı müqabilində komendantlar tərəfindən həmin bəylərə rəncbərlərin işlədiyi torpaqlar da bağışlana bilərdilər.

Komendantlar yerlədə özlərini əsl mütləq hakim kimi aparırdılar. Bir çox hallarda isə çar qanunlarına belə mahal qoymur, özbaşına vergilər təyin edir, kəndlilərə qarşı amansız cəza

---

[1] Azərbaycan tarixi. Bünyadovun Z. M. red., s. 80.

tədbirlərinin həyata keçirilməsindən belə çəkinmir, hətta çar məmurlarının saxlanılması üçün əlavə vergilər də ödəyirdilər[1]. Bu isə kəndlilərin onsuz da çətin olan vəziyyətini daha da ağırlaşdırırdı.

Komendantların cəzasızlığı və bu idarə üsulunun, bütün etirazlara baxmayaraq, saxlanılması çarizm azərbaycanlı kəndlilərin sosial vəziyyətini nəzərə almaqda maraqlı olmadığını nümayiş etdirirdi. Bununla belə komendant üsulu təkcə kəndlilər üçün deyil, ali zümrənin nümayəndələri üçün də özbaşınalıq və milli zülmlə müşayiət olunan istismarçı idarəçiliyin təzahürü idi. Komendantlar özlərini əyalətlərin ağası kimi aparır, özbaşınalıq edir, ağır cəzaların verməkdən çəkinmirdilər[2]. Məsələn, komendant idarə-üsulunun səmərəliliyini yoxlamaq məqsədilə buraya göndərilmiş komissiyanın rəhbərlərindən olan senatorlar Kutaysov və Meçnikov kimi alimənsəb müfəttişlər yazırdılar: "...Burada insan ləyaqəti tamamilə tapdalanmışdır, hər hansı bir ədalət məhkəməsi unudulmuşdur, qanun ancaq sıxışdırma aləti kimi çıxış edir..."[3].

Bəzi əyalət və şəhərlərdə müstəmləkəçilərin yaratdıqları məhkəmələrə komendantlar nəzarət etdiyi halda, kəndlilər arasında məişət, mülkiyyət və vərəsəlik məsələlərin həllinə şəriət məhkəmələri baxırdı. Lakin müsbət hallardan biri əvvəllər mövcud olmuş fiziki cəzaların xeyli azaldılması və son dərəcə ağır və ciddi hökmlərin isə daha ciddi məsələ kimi yalnız Qafqazın Baş hakimi tərəfindən müəyyənləşdirilməsi olmuşdu.

---

[1] Колониальная политика Российского царизма в Азербайджане в 20-60 –х гг. XIX века. Ч. 2, Москва-Ленинград, 1936 г., s. 24.

[2] Azərbaycan tarixi. Bünyadovun Z.M. red., s. 81.

[3] Донесение отставного пор. Добротвореского из Ленкорани ревизирующим Закавказский край сенаторам П.И.Кутаисову и Е.И.Мечникову о злоупотреблениях и произволе Русской и Азербайджанской администрации в Талышском ханстве. Сборник документов. «Колониальная политика Российского царизма…», ч.1 , s. 242-244

Rusiya ilə Qacarlar arasında Azərbaycanın bölüşdürülməsi ilə bitən iki dağıdıcı müharibənin bitməsi kənd təsərrüfatının yenidən tədricən bərpasına müəyyən imkanlar yaratdı. Belə ki, dinc həyat şəraitinin bərpası əhalinin yenidən, müəyyən fərqlərlə olsa da, ənənəvi həyat tərzinə qayıtmasına imkan verirdi. Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanın işğalından sonra ölkəmiz Rusiyanın təkcə siyasi məkanına daxil edilmədi, həm də tədricən onun iqtisadi həyatının üzvi bir tərkib hissəsinə çevrildi. Şimali Azərbaycan Rusiya üçün siyasi-strateji baxımdan nə qədər maraqlı idisə, bir o qədər də iqtisadi baxımdan gərəkli idi. Belə ki, Qafqaza yiyələnməklə öz iqtisadi mənafelərini əsas götürən çarizm öz qarşısına ilk növbədə müstəmləkəçilik məqsədlərini qoymuşdu. Buna görə də dağıdılmış təsərrüfatın bərpası və yenidən qurulması, ilk növbədə, məhz Rusiyanın müstəmləkə maraqlarına xidmət edirdi. Bu mənada, müharibələrdən sonra iqtisadi həyatı canlandırmaq üçün istehsal qüvvələrinin yenidən bərpası kənd təsərrüfatının üzərinə düşən əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmişdi.

Məlumdur ki, XIX əsrin birinci yarısında Şimali Azərbaycan feodal diyarı kimi qalmaqda davam edirdi. Bu mənada aqrar təsərrüfat ölkəsi kimi ölkə gəlirinin başlıca hissəsi kənd təsərrüfatı sahəsindən, torpaq mülkiyyətindən gəlirdi. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ölkəki torpaqlar əsasən iki qrupdan ibarət idi: imperiya torpaqlarının çox hissəsini təşkil edən xəzinə və sahibkar torpaqlarına. Çarizmin işğalçılıq siyasətinə qarşı mübarizə aparmış xanların və feodalların müsadirə olunmuş torpaqları dövlət xəzinəsinin ixtiyarına verilmişdi. Sahibkar torpaqları isə öz növbəsində əvvəlki kimi öz mülkiyyət statusunu saxlamaqda davam edirdi. Bu mənada, ənənəvi feodal torpaq mülkiyyətinin, demək olar ki, bütün növləri bir müddət qalmışdı. Xəzinə kəndlərində məskunlaşmış kəndlilər əhalinin əksər hissəsini təşkil edir, onlardan alınan vergi də birbaşa dövlət xəzinəsinə gedirdi. XIX əsrin birinci

yarısında Azərbaycanda tarixən formalaşmış rəiyyət, rəncbər (əkər) və elat adlanan kəndli qrupları da olduğu kimi qalırdı. Həmişəki kimi xüsusi təsərrüfatı, mal-qarası və çox vaxt heç əmək alətləri də olmayan rəncbərlərin həyatı daha ağır idi. Dövlət rəncbərləri daha çox üç əyalətdə Lənkəran, Şəki və Şirvanda cəmləşmişdilər. Lənkəran bölgəsindəki çəltik plantasiyalarında çalışan rəncbərlər "əkər" adlanırdılar[1].

Lakin müharibələr ilk növbədə Azərbaycanın kənd əhalisinin də say tərkibinə ciddi təsirlər göstərmişdi. Belə ki, minlərlə insanın, xüsusən də kənd əhalisinin həlak olması, sağ qalanların xeyli hissəsinin isə yurdlarını tərk edərək qaçqın düşməsi onların sayını xeyli aşağı sala bilmişdi. Məsələn, müharibə ərəfəsində 1354 min desyatin ümumi torpaq fonduna, 100 min desyatin əkin sahəsinə və 10 min həyətdə cəmləşmiş çox əhaliyə malik Qarabağ xanlığının ərazisində 1812-ci ilin məlumatlarına görə cəmi 3 min ailə yaşayırdı. Əhalinin bir qismi Qacarlar, Osmanlı və b. ölkələrə qaçmaq məcburiyyətində qalmışdı. Təsadüfi deyil ki, mənbələrdə də qeyd olunur ki, "Qacar torpaqlarından qayıdan camaat hesabına əhalinin sayı yenidən çoxalmışdır"[2]. Dosent N.Əhmədovanın hesablamalarına görə, ümumi həcmdə kameral siyahıyaalınma və sinxron mənbələrin göstərişlərinə inanılarsa, Rusiyanın Şimali Azərbaycanı işğal etməsindən sonra, köçkünlərin qaytarılmasından və buraya köçürülən ermənilərin, təriqətçilərin və almanların da sayını nəzərə alsaq yerli əhalinin sayı təxminən 600 min nəfərə çatmışdı[3]. Bu əhalinin böyük əksəriyyəti kənd əhalisinin payına düşürdü.

Hökumət əvvəlcə köçmüş əhalinin qaytarılmasına çalışırdı. Bu işdə çarizmin yerli bəylərin səylərindən istifadə etməsi öz

---

[1] Əhmədova N.Ə. Çarizmin Şimali Azərbaycanda vergi siyasəti (1801-1860) dissertasiya, 2008, Bakı , s. 92.
[2] «Обозрение российских владений за Кавказом……» IV hissə , s. 267.
[3] Əhmədova N.Ə. Çarizmin Şimali Azərbaycanda vergi siyasəti (1801-1860) dissertasiya, 2008, Bakı , s. 24.

nəticəsini göstərə bildi. Məsələn, yenə həmin Qarabağda həyata keçirilmiş "tədbirlərdən" sonra üç il ərzində əhalinin sayı 4 min ailəyə qədər artmışdı. Qeyd etmək lazımdır ki, sonrakı illərdə Qarabağda erməni ailələrin köçürülməsi də onun say tərkibinə ciddi təsir edə bildi.XIX əsrin əvvəllərindən 30 –cu illərin ərəfəsinədək Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində məskunlaşdırılan 88 min erməni köçürə bildilər. II Rusiya-Qacar müharibəsi ərəfəsində isə Qarabağda 7.9 min ailə var idisə, müharibədən sonrakı köçürmələr və s. proseslər hesabına artıq həmin rəqəm ilk növbədə həmin ermənilərin hesabına iki dəfədən çox artmaqla 18.6 min ailəyə çatdırılmışdı[1]. Təəssüflə qeyd etməliyik ki, erməni əhalisinin köçürülməsi təkcə siyasi baxımdan deyil, iqtisadi baxımdan da yerli əhaliyə böyük zərbə vurdu, belə ki, ermənilər daha çox Naxçıvan, İrəvan və Qarabağda yerləşdirilərək Şimali Azərbaycanın bu və digər əyalətlərinin ən yararlı 200 min desyatin torpaqda məskunlaşdırılmışdılar. Təkcə kəndlilərin deyil, bəylərin və ağaların da torpaqları qanunsuz şəkildə zəbt olunmağa başlamışdı. Bütün bunlar əhalinin ciddi narazılıqlarına gətirib çıxarmaya bilməzdi. Bu mənada, XIX əsrin ilk yarısında başlıca problemlərdən biri də torpaqların zəbt olunması nəticəsində azərbaycanlı kəndlilər arasında aztorpaqlılığın sürətlə artması idi.

Torpaq sahələrinin sərhədlərinin müəyyənləşdirilməsi problemi Azərbaycanda kənd təsərrüfatının təbii inkişafına ciddi şəkildə təsir göstərirdi. Hələ 1819-cu ildə Rusiya torpaq sahələrinin ölçülməsinə başlamışdı[2]. Lakin belə lokal tədbirlər həmin ciddi problemi həll edə bilmədi. 1850-ci ildə əmlakın qiyməntlənirilməsi məqsədilə yaradılmış ekspedisiya da öz işini

[1] Ахундова Т., Немцы-колонисты Азербайджана XIX – начала XX вв., Баку: Изд-во «Шуша», 1999, s. 11.

[2] Adıgözəlov K. XIX əsrin ikinci yarısında çarizmin Şimali Azərbaycanda mərzləmə tədbirlərinə dair., // Tarix və onun problemləri 2013, N3, s. 43-44

sona çatdıra bilmədi. Lakin həmin ekspedisiyanın məlumatlarına görə, 1854-cü ildə bəzi torpaq sərhədlərinin müəyyənləşməsinə dair cüzi məlumatlar çap edə bilmişdir. Həmin məlumatlara görə Şirvanda 3milyon 150 min desyatin, İrəvanda 2 milyon desyatin, Dərbənddə 140 min desyatin, Çar-Balakəndə 510 min desyatin xəzinə torpaqları qeydə alınmışdır[1]. Lakin bu torpaqların çox az hissəsi konkret, mübahisəsiz mərzlərə malik idi.

Bununla belə, görülən tədbirlər, eyni zamanda Quzey Azərbaycanda mövcud olan əlverişli təbii coğrafi şərait və kənd əhalisinin əzmkar əməyi müharibələrdən sonrakı 15 il ərzində kənd təsərrüfatının müəyyən dərəcədə canlanmasına gətirib çıxara bildi. Həmin illərdə tərtib edilmiş sənədlərin göstəricilərini müqayisəli şəkildə nəzərdən keçirilməsi deməyə əsas verir ki, XIX əsrin 40-cı illərində buğda və arpanın becərildiyi əsas rayonlar olan Şirvan, Qarabağ, Quba , çəltiyin əsas rayonları Lənkəran, Şirvan, Şəki və Qarabağın məhsul həcmi, üçdə bir qədər artıq istehsal olunmuşdur[2]. Yenə də həmin qaynağın göstərdiyi məlumatlara görə, müharibə meydanından kənarda olan bölgələr də isə bu göstəricilər ikidə birə qədər arta bilmişdir.[3] 1845-ci ildə Şirvan və Qarabağ əyalətlərində buğda yığımı 8347 min puda bərabər olmuşdur[4]. Bu illərdə Azərbaycanda buğda, arpa, çəltik, zəfəran, indiqo kimi ənənəvi məhsullarla yanaşı tütün, şəkər qamışı, kartof və digər bitkilərin də becərilməsinə də təşəbbüslər göstərilmişdir, Lənkəran, Quba, Naxçıvan, Ordubad, Şamaxı bölgələrində yeni bitkiçilik sahələrin yaradılması üçün müəyyən addımlar atılmışdır.

---

[1] Yenə orada.

[2] «Обозрение российских владений за Кавказом……» III, s .282-284; RF DTA, fond 1268, iş N 349, 1846, vərəq 108-113.

[3] «Обозрение российских владений за Кавказом……» III, s .92,93,95; RF DTA, fond 1268, iş N 349, 1846, vərəq 108-113.

[4] Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı – 2000, s. 60.

Məlumdur ki, taxılçılıq əkinçiliyin aparıcı sahəsidir. Akademik Ə.S.Sumbatzadə rus məmurlarının tərtib etdikləri sənədlərə əsasən vaxtilə belə qənaətə gəlmişdir ki, Quzey Azərbaycanın elə bir bölgəsi yox idi ki, orada əhali taxılçılıqla məşğul olmasın[1]. Bununla belə Şirvan, Qarabağ, Zəngəzur, Yelizavetpol (Gəncə), Şəki, Quba və sair ayrı-ayrı bölgələr taxıl becərilməsində daha öndə gedirdi. Buğda və arpa əkin sahələri taxıl əkinlərinin çox böyük hissəsini təşkil edirdi. Digər dənli bitkilər isə əkin sahələrinin çox az hissəsini təşkil edirdilər. Əkin sahələri daha çox kiçik və iri təkərlərə malik ikitəkərli kotanla, və ya qədim alətlərdən biri olan xışla şumlanır, arxlar vasitəsilə suvarılırdı. Biçin aləti kimi daha çox dəmir oraqdan istifadə olunurdu. Lakin biçin zamanı itkilərə yol verildiyindən sahələrdə qalmış məhsulun yığılması üçün əlavə işçilərdən də istifadə olunurdu. Qeyd etmək lazımdır ki, əsrlər boyunca formalaşmış taxıl əkin mədəniyyəti ölkəmizin ayrı-ayrı bölgələrində elə də ciddi fərqlərə malik olmamış və Azərbaycana kənd təsərrüfatına aid texniki avadanlıqların gətirilməsinə qədər dəyişilməz olaraq qalmışdır. Bu dövrdə Azərbaycan kəndlisinin əkin və biçin təcrübəsini İ.Lerx və S.Qmelin qeydlərinə əsasən müəyyənləşdimək mümkündür[2].

Bəhs edilən dövrdə aqrar təsərrüfatın ən gəlirli sahələrindən biri də çəltikçilik idi. Ağır və çətin (işçilərinin, mal-qaranın və su ehtiyyatlarının cəlb olunması baxımından) sahərlərdən biri olan çəltikçilik daha çox Lənkəran, Qarabağ, Şəki və qismən də Naxçıvan və İrəvan bölgələrində yayılmışdı. Eyni zamanda, Gəncə, Şamaxı, İrəvan bölgələrində də çəltik əkilirdi. Məlumatlar göstərir ki, Azərbaycanda çəltiyin müxtəlif növləri yetişdirilirdi. Məsələn, təkcə Lənkəran-Astara zonasında çəltiyin

---

[1] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке, Баку, 1958 , s.165-174.

[2] Əliyeva E. K., XVIII əsrin ikinci yarısı- XIX əsrin əvvəllərində Şimali Azərbaycanda əkinçilik və suvarma sistemi. Dissertasiya / əlyazma hüququnda, s. 60.

sədri, rəsmi, vilhicri, akulə, ənbərbu, reyhani və sair adlarda 36-dək növü becərilirdi[1].

XIX əsrin əvvəllərində Azərbaycanda becərilən texniki bitkilərin sayı və coğrafiyası da maraq doğurur. Bu illərdə ölkəmizdə Mil, Muğan, Şirvan, Gəncə, Naxçıvan, Salyan ətrafında, hətta Abşeronda belə pambıq, Quba, Dərbənd, həmçinin Şamaxı və Qarabağ zonalarında boyaqotu (marena), Bakıda və Dərbəndə, Rusiyanın işğalından sonra isə demək olar ki, bütün Xəzəryanı bölgələrdə zəfəran, Naxçıvanda, Lənkəranda və Qubada tütün, Dərbənddə, İrəvanda, Naxçıvanda kətan becərilirdi və s. Zəfərandan həm də boyaq kimi, pambıq və kətandan yağ almaq üçün də istifadə olunurdu.

Kənd təsərrüfatının aparıcı sahələrindən biri də Azərbaycanını ən qədim aqrar təsərrüfatlarından biri sayılan bağçılıq və bostançılıq idi. Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti bu sahələrin, demək olar ki, bütün bölgələrimizdə inkişafına şərait yaradırdı. İşğaldan sonra Rusiya tərəfindən tərtib olunmuş mənbələrdə bu barədə xeyli məlumatlara rast gəlmək mümkündür. Gəncə, Naxçıvan, Ordubad, Quba, Şirvan və digər bölgələrdən hər il yığılan məhsullar həm yetişmiş, həmdə quru meyvə satışı üçün bol məhsul verirdi. Dağlıq və düzən ərazisindən asılı olmayaraq, hər yerdə bağlar var idi, hətta, qumsal Abşeron torpaqlarında belə əhali böyük zəhmətin hesabına gözəl bağlar salmağa çalışırdı. Məlumatlara görə, Gəncə ətrafında, 17 kvadrat verstlik sahəsinin 5 kvadrat verstliyində beş yüzə qədər bağ sahəsi var idi[2]. İ. Lerx meyvə bağlarının çoxluğuna görə Qəbələni cənnət adlandırırdı[3]. Meyvəçilik sahələrinin genişlənməsi ilə bazara çıxarılan, xüsusi texnologiyaya əsaslanmış meyvə

[1] Yenə orada, s. 70.

[2] Əliyeva E. K. XVIII əsrin ikinci yarısı- XIX əsrin əvvəllərində Şimali Azərbaycanda əkinçilik və suvarma sistemi. Dissertasiya/ əlyazma hüququnda , s. 98-99.

[3] Лерх И.Я. Извлечения из дневника доктора Лерха. TİEA, inv. 488, s.23

qurularının da xüsusi çəkisi artırdı. Rusiya bazarlarına daha çox qoz, fındıq, şabalıd, püstə, badam, kişmiş, əncir, tut ixrac edilirdi. Qoz ixracı bütün meyvə ixracında öz xüsusi çəkisinə xüsusi görə xüsusilə fərqlənirdi.

Üzümçülük də Azərbaycanda kənd təsərrüfatının tarixi ənənəvi sahələrindən biridir. Üzümün becərilməsi həm də dəmyə şəklində mümkün olduğuna görə onu da demək olar ki, ölkəmizin bütün bölgələrində becərirdilər və s. İslamın yayılması ilə şərabçılığa müəyyən qədər zərbə vurulsa da Azərbaycanda üzüm becərilib yığılmasının həcmi o qədər də azalmamışdır. Təsadüfi deyil ki, məşhur orta əsrlər səyyahı J.Şarden XVII əsrdə Azərbaycanda 60 növ üzümün yetişdirilməsindən xəbər verirdi[1]. Rusiyanın Şimalı Azərbaycanı işğal etməsindən sonra isə bu sahənin inkişafı istiqamətində görülən işlərin nəticəsində xeyli artmışdır. Qarabağda, Abşeronda, Gəncədə, Naxçıvanda, Ordubadda, Dərbənddə, İrəvanda üzüm sahələri getdikcə genişləndirilirdi. Üzümdən həm qida kimi, həm sirkə alınması, həm də şərabçılığın inkişafında istifadə olunurdu.

Azərbaycanda inkişaf etmiş aqrar sahələrdən biri də bostançılıq və tərəvəzçilik idi. XIX əsrin əvvəllərinə aid kameral təsvirlərlərin məlumatlarından aydın olur ki, bostançılıq Azərbaycanın bütün bölgələrində çox geniş yayılmışdı.

Məlumdur ki, kənd təsərrüfatına mənfi təsir edən amillərdən biri də vaxtilə natural təsərrüfatın hökm sürməsi olmuşdur. Mal mübadiləsinin birbaşa aparılması və bazara çıxarılmaması bir çox hallarda kəndli əməyinin düzgün "qiymətləndirilməməsini" və kənd təsərrüfatının əmtəə-pul münasibətlərində iştirakını zəiflədir, aqrar təsərrüfatın imkanlarını müəyyən, dar hüdudlarda saxlayırdı. Bu mənada XIX əsrin ilk sülsünün müharibələrindən sonrakı dövrdə geniş Rusiya bazarının tərkib hissəsinə daxil olunması ilə Quzey Azərbaycan kəndlisi qismən də olsa

[1] Рахмани А.А. Азербайджан в конце XVI- и в конце XVII веке. Баку, изд. Элм, 1981, s. 23

əldə edilmiş məhsulun müəyyən satışı imkanlarına yiyələnməyə bilmişdir. Qeyd etmək lazımdır ki, həmin illərin göstəricilərinə görə, kənd məhsulların bazara çıxarılması prosesi hələ də çox ləng inkişaf edirdi[1].

Quzey Azərbaycanın ənənəvi kənd təsərrüfatı sahələrindən biri də ipəkçilik idi. Qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərində ipək istehsalı dünya sənayesinin aparıcı sahələrindən biri olaraq qalmaqda idi. Rusiyanın özü də ipək istehsalın xüsusi maraq nümayiş etdirirdi. Belə ki, XIX əsrin 50-ci illərinə doğru Rusiyada ipək sapını İtaliyadan və Fransadan, xam ipəyi isə Qacarlar və Osmanlı imperiyalarından alan 200-dən çox ipək fabriki fəaliyyətdə idi. Rusiya “ipək maşınının” xam ipəyə tələbatını ödəyən ölkələrdən biri də Azərbaycan idi. Bu mənada, çarizmin ölkəmizdə ipəkçiliyə olan marağı daha yüksək idi. Rusiya sənayeçiləri Cənubi Qafqazdan ucuz xam ipəyin əldə olunmasında daha maraqlı idilər. 1836-cı ildə A.K.Benkendorf, knyaz V.V.Dolqorukov və başqalarının rəhbərliyi ilə “Cənubi Qafqaz ölkəsində ipəkçiliyi və ticarət sənayesini genişləndirmək və yaxşılaşdırmaq üçün” – “Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət” adlı şirkət təsis etdilər. Şirkət Nuxa (Şəki) əyalətindəki bütün tut bağlarından 5 il müddətində bütün gömrük və daxili vergilərdən azad edilməklə pulsuz istifadə etmək, sonra isə 25 il müddətində bunlardan alınan gəlirlərə və vergilərə nəzarət etmək hüququ almışdır[2]. Maraqlıdır ki, şirkət hətta İtaliyadan Şəkiyə 12 fəhlə ailəsi də köçürmüşdür, 1843-cü ildə isə bu şirkətin nəzdində xüsusi təcrübə məktəbi təşkil edilmişdir. İpəkçilik istehsalının

---

[1] Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi və mədəni nəticələri. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1956, s. 68.

[2] Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi və mədəni nəticələri. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1956 , s. 72.

inkişafı ona gətirib çıxarmışdır ki, bir-neçə on ildən sonra Quzey Azərbaycanda barama yetişdirilməsi fasiləsiz olaraq 2 dəfəyədək artmış və Rusiyanın xaricdən gətirdiyi xam ipəyə olan ehtiyacı, demək olar ki, Cənubi Qafqaz ipəyinin sayəsində xeyli azalmışdır[1]. Şəkidə isə ipək istehsalı 5 dəfəyədək artmışdır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının ipəkçilik sahəsi Şimali Azərbaycanda bir sıra digər sahələrin də inkişafına nəzərəçarpacaq təkan verməyə başlamışdı. Kapitalın kənd təsərrüfatına nüfuz etməsi, muzdlu əməkdən istifadə olunması və ilkin primitiv sənaye müəssisələrinin (manufakturaların) açılması baramaçılıq və ipəkçilik sahələrini tədricən feodal münasibətlərinin çərçivəsindən çıxara bilirdi.

XIX əsrin birinci yarısında Azərbaycanda kənd təsərrüfatının vergi sistemi tərkibinə qatıldığı dövlətin mənafelərinə uyğun şəkildə formalaşdırılmağa başlamışdı. Bununla belə inzibati və iqtisadi cəhətdən köklü dəyişikliklərə tələsməyən çar hökuməti buradakı köhnə vergi sistemini qismən saxlamağa məcbur olmuşdu. Belə ki, dövlət kəndlilərin xan (ləğv edilənədək), bəy və ağalara ödədikləri vergilərə (malcəhət, bəhrə və s.) nəzarət edə bilmirdi. Bəy-tuyildar torpaqlarında çalışan kəndlilər isə töycü verirdilər. Lakin bütün xəzinə kəndliləri üzərinə torpağın ali mülkiyyətçisi kimi xəzinənin xeyrinə vergi ödəməyə məcbur edilirdilər. Töycü iki kateqoriyaya – "okladnoy" və "nakladnoy" vergilərdən ibarət idi[2]. "Okladnoy" vergi xəzinə tərəfindən qeydə alınmış və xəzinəyə məlum olan həyətlərdən inzibati ərazi bölgüsünə görə alınırdı, "nakladnoy" vergi isə əvvəlcə xəzinəyə daxil olmuş, sonra isə çıxarılmış sahələrdən alınırdı. Tarixçi N.Əhmədovanın qeyd etdiyi 1834-cü

---

[1] Yenə orada, s. 73.

[2] Əhmədova N.Ə. Çarizmin Şimali Azərbaycanda vergi siyasəti (1801-1860) dissertasiya, 2008, Bakı , s. 36.

ilin məlumatlarına görə, Rusiya Maliyyə Naziri L.Kalinovskinin hesabatlarında göstərilənlərə inanılarsa[1] Quzey Azərbaycan əhalisindən alınan verginin ümumi məbləğini təqribən 195.503 rubl 60 qəpik kimi qəbul etmək olar. Ancaq duşunürük ki, bu rəqəm heç də əsl vəziyyəti əks etdirmirdi.

Komendant idarəçiliyi dövründə xan dövründə mövcud olmuş vergilər ləğv olunmadan müxtəlif əlavələrlə kəndlilərin üzərinə ağır yük şəklində qoyulmuşdu. Məsələn, Qarabağ, Şəki, Şirvan xanlıqlarında rus çarının vassalları kimi yerli xanların öhdəliyinə düşmüş Rusiya "himayəçiliyinə qəbul olunmaları"na görə (Kürəkçay və digər müqavilələr şərtlərinə uyğun olaraq) müxtəlif məbləğlərdə təzminat qoyulmuşdu[2]. Başqa sözlərlə deyilərsə işğalçı, çar hökuməti burada vergi sistemini daha da ağırlaşdırmışdı.

1853-ci ildə Cənubi Qafqaz diyarının Dövlət Əmlakı Ekspedisiyası xəzinə kəndlilərinin biryerdən başqa yerə köçməsini qadağan etdi və bu prosesə ciddi nəzarət edilməsinə başlandı.[*] Belə ki, xəzinə torpaqlarında yaşayan tərəkəmə kəndlilərin dəqiq uçotu onların yerdəyişməsi səbəbindən çətinləşirdi. Lakin XIX əsrin əvvəllərində vergilərin yığılmasında baş verən sistemsizlik və vergilərin məbləğindəki qeyri-müəyyənlik, vergiyığanların özbaşınalıqları vergilərin xeyli hissəsinin dövlət xəzinəsinə deyil, ayrı-ayrı adamların varlanmasına gətirib çıxarırdı. Bu mənada komendant idarə üsulunun ləğv edilməsinə qədər vergi sistemində mövcud özbaşınalıq və müqatiəçilik

---

[1] Yenə orada.

[2] Yenə orada, s. 94.

[*] - Onu qeyd edək ki, kəndliyə az qala qul kimi baxan təhkimçi rus çarizminin bütün cəhdlərinə baxmayaraq Şimali Azərbaycanda nə sahibkar, nə də ki, xəzinə kəndlilərini yaşayış yerinə təhkim etmək, vergimükəlləfiyyət borcu olmayan kəndlinin yaşayış yerini seçmək azadlığından məhrum etmək heç vaxt mümkün olmadı.

kənd təsərrüfatının inkişafını ləngidən və kəndli etirazlarına səbəb olan başlıca amillərdən biri idi.

Beləliklə, XIX əsrin 30-40-cı illərində çar hökumətinin Şimali Azərbaycanda kənd təsərrüfatının bərpası istiqamətində gördüyü tədbirlər müstəmləkəçilik siyasətinin məqsədlərindən asılı olmayaraq, məhsulun bir-çox hallarda satış üçün istehsal olunması, əmtəə-pul əməliyyatlarının qismən də olsa həyata keçirilməsi, şəhərlə kənd arasında əlaqələrin nisbətən artması əsrin ortalarına doğru iqtisadiyyatın inkişafına müsbət təsir göstərə bildi. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra kənd təsərrüfatının Rusiya iqtisadi sisteminə qoşulması prosesi nisbətən ləng gedirdi. Rusiya Quzey Azərbaycandan yalnız xammal ehtiyaclarını (daha çox pambıq, boyaqotu, ipək, üzüm və s.) ödəmək üçün istifadə edirdi. Komendant idarə üsulu isə aqrar sahənin də inkişafını boğur və onun bərpası istiqamətində aparılan işləri tamamlamağa qoymur, təkcə kəndliləri deyil, ayrı-ayrı feodalların da narazılığına gətirib çıxarırdı. Bu siyasət çarizmin həmin illərdə Quzey Azərbaycan və ümumiyyətlə, Qafqazın gələcək iqtisadi inkişafına planlı və məqsədəyönlü şəkildə yanaşmamasından xəbər verirdi.

Çar hökuməti XIX yüzilliyin 30-cu illərində Şimali Azərbaycanı bürüyən üsyan dalğasından və xüsusi komissiyanın hesabatlarından sonra komendant idarə üsulunu ləğv etmək qərarına gəldi. Azərbaycan ümumimperiya inzibati-ərazi bölgüsünə daxil edilirdi. Komendant idarə üsulunun ləğvindən sonra çar hökuməti mülkiyyət məsələlərində qəti mövqeyini nümayiş etdirdi (ilk növbədə 6 dekabr 1846-cı il tarixli bəy və ağaların hüquqları haqqında reskript ilə), kəndlilərə verilən rəyiyyət, rəncbər nökər, elat anlayışı ümumi "mülkədar tabelisi" adında birləşdirildi. 1847-ci ildə isə "Kəndli əsasnamələri" adlı sənəddə sahibkar torpaqlarında yaşayan kəndlilərin hüquq və mükəlləfiyyətləri aydınlaşdırıldı. Feodalların tiyul torpaqlarını mülkə çevrildi, hər 15 yaşına çatmış kişiyə becərilmə məqsədilə 5

desyatin torpaq mülkiyyəti ayrıldı (kağız üzərində). Kəndlilər sahibkara malcəhət, otlaqlardan istifadəyə görə isə çöpbaşı vergisi ödəməli və ildə bir dəfə 18 gün ərzində bəy torpağında biyarda işləmək üçün hər bir kəndli ailəsi bir kişi ayırmalı idi. İki gün isə sahibkarın evi və ya təsərrüfatında hamılıqla "iməciliyə" (əvrəzə) çıxmalı idilər. Sahibkarlar isə kəndlilər üzərində məhkəmə keçirmək və cəzalandırmaq səlahiyyətləri almışdılar. Bu dəyişikliklərlə çarizm kənddə feodalların hüquqlarını genişləndirməklə onların timsalında özünə dayaq yarada bildi. Bu mənada, haqqında bəhs edilən XIX əsrin 40-cı illərində aparılan islahatlar ilk növbədə çarizmin öz müttəfiqlərinə çevirməyə çalışdığı bəy və ağaların imtiyazlarının artırılmasına və kəndli mübarizəsinin cilovlanmasına yönəlmişdir.

## 2. XIX əsrin ikinci yarısında çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi başlıca aqrar islahatlar

XIX əsrin ikinci yarısında, xüsusən də Rusiyanın Krım müharibəsindəki biabırçı məğlubiyyətindən sonra aparılmış bir sıra islahatlar nəticəsində Rusiyada kapitalist münasibətləri intensiv şəkildə inkişaf etməyə başlamışdır. Bu Cənubi Qafqazın, xüsusən də Azərbaycanın baş verən dəyişikliklərə cəlb olunmasını da sürətləndirirdi. Azərbaycan Ümumrusiya bazarının tərkib hissəsinə çevrilirdi. Bir tərəfdən rus kapitalistləri yeni bazarlar axtarır, digər tərəfdən isə sənaye müəssisələrinin xammal ehtiyaclarını ödəmək üçün yeni bazarlar yaranırdı[1]. Bu istiqamətdə atılan addımlardan biri hələ Krım müharibəsi ərəfəsində – 1852-ci ildə Şimali Azərbaycanda natural təsərrüfata xeyli zərbə vuran yeni vergi sistemi tətbiqi oldu. Bu sistemə əsasən kəndlilər daha vergini məhsulla deyil, pulla ödəməli idilər. Buna görə kəndli ilk növbədə becərdiyi məhsulun xeyli his-

[1] Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı - 2000, s. 162.

səsini bazara çıxarmaq məcburiyyətində qalırdı. Yeni vergi qanunu kənd təsərrüfatının bazarla əlaqəsini möhkəmlətməyə, əmtəə-pul münasibətlərinin inkişafına yönəlmişdir. Artıq XIX yüzilliyin 50-60-cı illərindən başlayaraq Şimali Azərbaycanın kənd təsərrüfatında kapitalist istehsal münasibətləri intensiv şəkildə genişlənməyə başlamışdı.

Rusiyada kapitalist münasibətlərinin ümumi dinamikası nəticə etibarı ilə kənddə islahatların keçirilməsinə və 1861-ci ildə təhkimçillik hüququnun ləğv edilməsinə gətirib çıxardı. Lakin çar hökuməti Quzey Azərbaycanda analoji islahatların keçirilməsindən və kəndliləri feodal asılılığından azad etməsindən ehtiyatlanırdı. Buna görə də Cənubi Qafqazda islahatların keçirilməsi bir qədər ləngiməli olur. İlk əvvəl 1865-ci ildə kənddə feodal-asılımünasibətləri sarsıtmaq üçün kənd özünüidarəetməsi-kənd cəmiyyətləri haqqında yeni qanun tətbiq edir. Qanuna əsasən, bəylərin və ağaların polis və məhkəmə hüququnu aradan götürən vahid ictimai kənd idarəçiliyi yaradılırdı. Kəndə kəndxuda, cəmiyyətə daxil olan və kənd məmurlarını seçmək, kənd cəmiyyəti üzvlüyündən məhrum etmək, ictimai torpaqlar haqqında qərarlar vermək, dövlət vergilərini qaydaya salmaq hüquqlarına malik ayrı-ayrı kəndlilərdən ibarət kənd yığıncağı idarə etməli idi. Lakin çarizm üçün ən çətin məsələ islahatlar nəticəsində kəndlilərə ayrılacaq torpaqların müəyyənləşdirilməsində bəy və ağaları narazı salmamaq məsələsi idi. Buna görə də hələ 1861-ci ilin yayında Cənubi Qafqazda torpaqların mərzlənməsi haqqında xüsusi qanun verilmiş, ayrı-ayrı kənd, idarə və s.-yə məxsus torpaqların sərhədlərinin – mərzlərinin müəyyənləşdirilməsi üçün 1862-ci il yanvarın 1-də xüsusi Mərz Palatası fəaliyyətə başlamışdı. 1866-cı ildə isə Şimali Azərbaycanın bir sıra bölgələrində bəy komissiyalarının yaradılması işinə başlandı. Bu komissiyaların əsas işi nəzərdə tutulan islahatın keçirilməsi ərəfəsində Şimali Azərbaycanda

xan və bəy nəsillərinin bu tiyulu daşımaq hüququnu təsdiqləyən sənədlərin həqiqiliyini yoxlamaq, bəy-xan hüquqlarını təsdiq və ya inkar etmək, müəyyənləşdirməkdən ibarət idi[1].

Məlumdur ki, 1870-ci il mayın 14-də Quzey Azərbaycandakı sahibkar kəndlilərinin sosial-iqtisadi həyatında mühüm rol oynamalı olan kəndli islahatının keçirilməsi haqqında xüsusi "Əsasnamə" imperator II Aleksandr tərəfindən təsdiq olundu. 1870-ci il noyabrın 8-də[2] Qafqaz canişinin qərarına əsasən bu – "Cənubi Qafqaz quberniyaları: Yelizavetpol (Gəncə), Bakı, Tiflis, İrəvan və qismən Tiflis quberniyaları "ali müsəlman silkindən " olan şəxslərin torpaqlarında sakin olan kəndlilərin torpaq quruluşu haqqında Əsasnamə" qüvvəyə mindi. "Əsasnamə" iki başlıca bölmədən ibarət idi:

1.Kəndlilərin torpaq məsələlərinin tənzim olunması haqqında ümumi əsasnamə;

2.Kəndli işləri üzrə təsis olunmuş idarələr haqqında qaydalar[3].

İslahat ilk növbədə bəylərin, ağaların torpaq üzərində mülkiyyətinin silki xarakter daşımasını ləğv etdi[4]. Göstərilən bölmələrdən irəli gələrək islahatlar sahibkar kəndlillərininin şəxsi və mülkədar asılılığından azad olması və sahibkarların mülkiyyət hüquqlarının qorunması istiqamətində aparıldı. Bu islahatlara əsasən Yelizavetpol (Gəncə) və Bakı quberniyalarında ümumi hesabla 100 mindən çox kəndli şəxsi azadlıqdan azad oldu[5] (Məxsusi olaraq qeyd etməliyik ki, 1861-ci il fevralın 19-

[1]Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı - 2000, s. 182.

[2] Yenə orada.

[3] Кавказский календарь на 1852 г., s. 434; Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı - 2000, s. 183.

[4] Talıbzadə İ.A XX əsrin əvvəllərində Azərbaycanda mülkədar torpaq sahibliyində baş verən dəyişikliklərin xarakterinə dair. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1978, N3, s.21

[5] Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı - 2000, s. 183.

da Mərkəzi quberniyalar üçün verilmiş, təhkimçiliyin ləğvini nəzərdə tutan müddəanı "yamsılayan" bu maddənin Azərbaycan üçün heç bir praktiki nə əsası, nə də əhəmiyyəti yox idi: yerli və mərkəzi çar məmurları çox gözəl bilirdilər ki, Azərbaycan kəndlisi torpaq sahibindən ancaq iqtisadi cəhətdən, istifadə etdiyi pay torpağına görə daşıdığı öhdəliklər baxımından i q t i s a d i (seyrəltmə bizimdir – Hüseynov C.) cəhətdən asılı idi. Azərbaycan kəndlisi əyyami-qədimdən ş ə x s ə n a z a d i d i (seyrəltmə bizimdir – Hüseynov C.). XX əsr Azərbaycan tarixçilərinin patriarxı, akademik Ə.S.Sumbatzadənin 1970-ci ildə Dünya tarixçilərinin V beynəlxalq konfransındakı məşhur məruzəsində dediyi kimi "Azərbaycan kəndlisi heç vaxt şəxsən asılı, təhkimli olmamışdır, Azərbaycanda kəndli üzərində torpaq sahibkarının heç bir şəxsə ağalığı, xüsusən də mənfur, eybəcər "əşya" hüququ olmamışdır"), həmçinin ağa torpaqlarını azad şəkildə tərk etmək hüquqları əldə etdi. "Əsasnaməyə" görə hər bir 15 yaşlı kəndliyə (kişiyə) beş desyatin pay torpağı verilməsi nəzərdə tutulurdu.

Lakin torpaq mülkiyyəti kəndlilərin həmin torpaqlardan daimi istifadə hüququnun verilməsinə rəğmən vıkup edilənədək feodalın şəxsi mülkiyyəti olaraq qalmaqda idi. Kəndlilər becərilən torpaqlara görə torpaq sahiblərinə əvvəlki kimi vergi ödəməkdə davam etməli idilər. Lakin pay torpağı 5 desyatindən az olan kəndlilərə əlavə torpaq verilmədi, artıq olanlardan isə əlavə hissə ağaların xeyrinə alındı. Bununla belə kəndlilər onlara düşən pay torpaqlarını satın almaq – vıkup etmək hüququna da malik idilər. Rusiya kəndlisi bu torpağı almaq üçün dövlət xəzinəsi tərəfindən ciddi maliyyə yardımından yararlandığı halda, azərbaycanlı kəndlilər bu hüquqdan məhrum idilər[1]. Yoxsul kəndlilərin hər hansı bir ödəmə qabiliyyəti olmadığından və

[1] "Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər". Redaktor İ.Əliyev Bakı, Elm, 1993, s. 212.

torpağa yeganə dolanışıq mənbəyi kimi yanaşdığından mahiyyət etibarilə islahat kəndliyə demək olar ki, heç nə vermədi. Kəndli vıkupadək əvvəlki kimi (1847-ci il "Əsasnamələr"ində-ki ) torpağın sahibinə malcəhət və bəhrə vergilərini ödəməkdə davam etməli idilər. Maraqlıdır ki, malcəhətin sahibkara çatdırılması əvvəllər olduğu kimi natural şəkildə qalırdı. Kənd əhalisinin böyük əksəriyyətini təşkil edən dövlət kəndlilərinin islahatdan kənarda qalması və bu cür məhdud şəkildə aparılması Rusiyanın Azərbaycanda apardığı milli müstəmləkə siyasətinin ayrılmaz bir hissəsi idi.

Lakin bu islahatlar da Şimali Azərbaycanda torpaq mülkiyyət məsələlərinə və onların sərhəd quruluşunu tam şəkildə aydınlıq gətirə bilmədi. İslahatlar kəndlilərin əslində mövcud olmayan şəxsi asılılığının ləğv edilməsi və pay torpaqlarını satınalmaq hüququnun verilməsindən başqa 1847-ci ilin əsasnamələrindən demək olar ki, fərqlənmirdi. Belə ki, islahatların aparılmasından uzun illərin keçməsinə baxmayaraq, 1885-ci ildə Cənubi Qafqazda bütün torpaq sahələrinin cəmi beşdə bir hissəsinə bərabər olan 3 milyondan bir qədər çox desyatin torpaq mərzləşə bilmişdir. K. Adıgözəlovun qeydlərinə əsasən, Yelizavetpol (Gəncə) və Bakı quberniyalarında mərzləmə işləri isə daha ləng gedirdi. Bu mənada, kökündə torpaq məsələlərinin dayandığı islahatların keçirilməsinə baxmayaraq, torpaq problemləri XX əsrin əvvəllərinə qədər davam etdi. Bu isə Şimali Azərbaycanda çarizmin yeritdiyi müstəmləkə siyasətinin bariz ifadəsi idi.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd olunan problemlərin və imperiyanın digər məqsədəyönlü planlarından irəli gələrək Rusiya kəndlilərindən fərqli olaraq, xüsusi sahibkar kəndlilərinə torpağı şəxsi mülkiyyətə çevirmək üçün göstərdiyi yardımı Azərbaycanda etmədi. Bu mənada islahatlar formal olaraq həyata keçirildi, mahiyyət etibarı ilə dəyişikliklər kəndlilər üçün qismən baş verdi, baxmayaraq ki, islahatın məqsədi mülkiyyət

məsələlərinin tam olaraq həlli və kənddə kapitalist münasibətlərinin formalaşmasına istiqamətlənmişdir. Lakin kəndli dövlət tərəfindən müəyyənləşmiş 7.5-15 desyatin pay torpağını belə malcəhəti pula çevirməli və satdığı məhsulun müəyyən böyük bir hissəsini torpaq haqqı olaraq tam şəkildə ödədikdən sonra ala bilərdi[1].

Bu məbləğ Rusiya kəndlilərinin ödədiyi məbləğdən 20-30 dəfə çox idi. Faktiki olaraq, islahat azərbaycanlı kəndlilərini mülkiyyətçiyə çevirmək imkanlarından məhrum etdi. Bir-çox kəndlilər isə ümumiyyətlə bu islahatlardan kənarda qaldılar. Kəndli həyəcanlarından narahat olan çarizm Quba qəzasında bu islahatları 1877-ci ildə, Zaqatala dairəsində isə 1912-ci il 20 dekabr Kəndli islahatından da sonra – 1913-cü ildə keçirməyə məcbur oldu.

### 3. XIX əsrin II yarısında kənddə kapitalist münasibətlərinin inkişafı və kənd təsərrüfatının ümumi vəziyyəti

Çar hökumətinin 70-ci illərdə apardığı islahatlar mahiyyət etibarı ilə burjua islahatları idi və feodal-asılı münasibətlərinə müəyyən zərbə endirməklə kapitalizmin inkişafına istiqamətlənmişdir. Kəndli islahatları ilə bərabər məhkəmə, şəhər, inzibati idarə islahatlarının keçirilməsi də az rol oynamadı. Bu mənada islahatların aparılmasından çox keçmədi ki, kənd təsərrüfatındakı dəyişikliklər öz müəyyən bəhrəsini göstərə bildi. Bu islahat çarizmin həm kənd əhalisinə, həm də kəndin cüzi də olsa müəyyən bir hissəsini əhatə edən "ali müsəlman silki"nə olan münasibətlərinin yenidən qurulması idi.

Təəssüflə qeyd etməliyik ki, islahat bəy və ağaların kəndlilərə verilən pay torpaqlarını süni şəkildə azaltması və ya verilən torpaqların daha əlverişsiz ərazilərlə əvəz etməsi, suyun

---

[1] Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı - 2000, s. 185.

düzgün bölüşdürülməməsi, otlaqlardan istifadənin ədalətsiz şəkildə pozulması halları islahatların ümumi nəticələrinə də təsirsiz keçmədi. Bunun nəticəsi idi ki, dövlətin başlıca məhsuldar qüvvələri olan sahibkar kəndliləri olduğu halda, əhalinin çox az hissəsini əhatə edən mülkədarlar 871377 desyatin şəxsi təsərrüfat torpağı saxlamışdılar[1]. 1897-ci ildə bütün Yelizavetpol (Gəncə) quberniyası üzrə 3044, Bakı quberniyasında 1211 sahibkar qeydə alınmışdı[2]. 1916-cı ildə isə ölkə üzrə 8341 mülkədar həyəti qeydə alınmışdı[*].

Kəndlilərin torpaqsızlaşması prosesi də sürətlə gedirdi. Məsələn,1886-cı ilin ailə siyahılarına görə, Quzey Azərbaycanda 64130 təsərrüfatın sahibkar kəndlisinin istifadəsində, xəzinə kəndlilərindən fərqli olaraq 480639 desyatin torpaq sahəsi olmuşdur[3]. Əgər 1884-cü ildə Şimali Azərbaycanda 18.831 torpaqsız kəndli var idisə, 1895-ci ildən onların sayı 35.709 nəfərə çatır[4] ki, bu da dövlət kəndlilərinin 50 faizlik aztorpaqlılıq göstəricisi qarşısında sahibkar kəndlilərinin 92 faiz aztorpaqlılığı kimi qeydə alınırdı. Bu cür ədalətsizliyi suvarma sistemində də

---

[1] Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. T III. Одесса, Типография Техник, 1914, s. 3.

[2] Talıbzadə İ.A XX əsrin əvvəllərində Azərbaycanda mülkədar torpaq sahibliyində baş verən dəyişikliklərin xarakterinə dair. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1978, N3, s.23.

[*] Onu xüsusi qeyd etmək lazımdır ki, sovet rejimi dövründə yazılmış çox böyük əksəriyyəti sanballı tədqiqatların, demək olar ki, hamısında "Şimali Azərbaycan", "Azərbaycan" dedikdə ancaq Bakı və Yelizavetpol (Gəncə) quberniyaları (ən yaxşı halda Naxçıvan qəzası və Zaqatala dairəsi də nəzərə alınmaqla) nəzərdə tutulur. İrəvan quberniyası, Borçalı və Dərbənd torpaqlarımız "gözdən yayınırdı"; sovet rəsmi tarixşünaslığı buna danışıqsız "tabu" qoymuşdu.

[3] Сборник статических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Тип. М.Шарадзе. Тифлис. 1899 г., s. 34

[4] Azərbaycan tarixi, IV c., B., "Elm" nəşriyyatı - 2000, s. 282.

göstərmək olar. Bu mənada, islahatlar kənddə sosial təbəqələşmənin hüdudlarını bir-birindən daha da uzaqlaşdırmağa başladı.

Xəzinə kəndlilərinin vəziyyəti də dözülməz idi. Əvvəla, yuxarıda qeyd etdiyimiz kimi, islahat onlara toxunmadı, bu qrup kəndlilər torpağa əvvəlki vəziyyətdə qalmaqda davam edirdilər. Kəndlilərin böyük əksəriyyətinin pay torpağının sahəsi 1-2 desyatindən çox ola deyildi, bir çoxu isə ağır şərtlərlə ailəsini dolandırmaq məqsədilə bəylərdən və xəzinədən ağır şərtlərlə torpaq icarəyə götürməyə məcbur idilər[1]. Bu zaman ən geniş yayılmış icarə növü məhsulun yarısını sahibinə vermək şərti ilə verilən yardarlıq – yarıkərlik idi.

Beləliklə, XIX yüzilliyin 70-ci illərinin islahatları ilk növbədə kənd təsərrüfatında və bütövlükdə iqtisadiyyatda sahibkarlıqla məşğul olan təbəqənin iştirakını müəyyən qədər genişləndirdi. Təkmilləşmiş əmək alətlərinə və iş heyvanlarına malik olmayan kəndlilər əkin sahələrini genişləndirə bilmirdilər. Ona görə də bəhs edilən əsrin 80-90-cı illərində isə proses daha da gücləndi və pay torapqlarının sahəsi, mal-qara və qoyunları və əmək alətlərinin sayı, muzdlu əməkdən istifadə imkanları baxımından həm dövlət, həm də sahibkar torpaqlarında əmlak bərabərsizliyinin dərinləşməsi ilə bir sıra yeni problemlərə yol açdı. Kənd əhalisi demək olar ki, iki hissəyə ayrılmışdı: bunlardan biri torpağın böyük hissəsinə sahib olan, təsərrüfatında muzdlu əməkdən geniş istifadə imkanlarına malik sahibkar kəndlilər (qolçomaqlar) və mülkədarlardan, ikinci qrup isə az torpaqlı və torpaqsız kəndlilərdən ibarət idi. Lakin kənd əhalisinin çox az bir hissəsi təsərrüfatını yeni münasibətlərə uyğun təşkil edə bilmişdi, digər bir hissəsi isə var-yoxdan çıxaraq, ucuz muzdlu işçiyə çevrildi. Qolçomaq adlanan varlı kəndlilə-

[1] Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər . Redaktor İ. Əliyev. Bakı, Elm, 1993, s. 215.

rin sayı da elə böyük deyildi, bəhs edilən sənədlərə uyğun olaraq islahatların ilk onilliyində bu təbəqənin ümumi həcmi kənd təsərrüfatlarının 10-15 faizindən artıq təşkil etmirdi. Bununla belə XIX əsrin 80-90-cı illərində kənddə sosial təbəqələşmə prosesi qarşısıalınmaz bir prosesə çevrilmişdi. Məhz bu dövrdən kəndlilər arasında milli zülmə, əsarətə və çar məmurlarının özbaşınalığına qarşı qaçaq hərəkatı da güclənmişdi.

Bəhs edilən islahatın Şimali Azərbaycan kənd təsərrüfatının inkişafına təsirini danmaq olmaz. Məhz bu islahatdan sonra kapitalist münasibətlərinin inkişafı və istehsal sahələrinin genişlənməsi prosesi güclənir, yeni becərilmə üsulları öyrənilməyə başlanırdı (H.Zərdabinin "Əkinçi" qəzetinin bu sahədə oynadığı müstəsna rolunu da qeyd etməmək mümkün deyil). Bu ishatlardan sonra, çar məmurlarının tərtib etdikləri sənədlərdə də islahatların nəticəsi olaraq, iqtisadi göstəricilər XIX əsrin 80-ci illərindən başlayaraq yüksək göstəricilərlə ifadə olunmağa başladı. Bu göstərici Quzey Azərbaycanda XIX əsrin II yarısından etibarən kənd təsərrüfatında kapitalist münasibətlərinin, kənddə kapital qoyuluşunun, yeni texnologiyaların tətbiqi, ixtisaslaşmanın və əmək bölgüsünün sürətli inkişaf dinamikasından xəbər verirdi.

**Taxılçılıq.** XIX yüzilliyin 70-80-ci illərində taxılçılıq kənd təsərrüfatının aparıcı sahəsi olaraq qalırdı, əvvəllər olduğu kimi Şimali Azərbaycanın elə bir bölgəsi yox idi ki, orada taxıl becərilməsin. Bəhs edilən dövrdə təkcə Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında, həmçinin Zaqatala və Naxçıvanda 30 milyon puddan çox, 90-cı illərdən isə bundan iki dəfə çox, yəni 70 miln. puda qədər məhsul əldə edilmişdir. 1896-cı ildə Şimali Azərbaycanda dənli bitkilər üzrə yığım ən yüksək həddə çatmışdır[1] Bu da adambaşına düşən taxıl məhsulunun 37.1

[1] İsmayılov M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. B., 1960, s.43.

puddan bir qədər artıq olduğunu göstərirdi[1]. Professor F.Baxşəliyevin göstərdiyinə görə, Yelizavetpol (Gəncə), Qazax, Cavanşir, Bakı və Lənkəran qəzalarında göstəricilər fərqli olsa da ümumi şəkildə adambaşına düşən taxılın həcmi quberniya göstəricilərindən artıq olmuşdur[2]. Lakin məhsulun yalnız müəyyən bir hissəsi sahibkar torpağında becərilirdi ki, bu da ilk növbədə nəqliyyat problemləri üzündən taxıl sahəsində əmtəə-pul münasibətlərinə marağın olmaması və əkin sahələrinin genişləndirilməməsi, sahibkar kəndlillərin azlığı, eyni zamanda daha gəlirli digər təsərrüfat sahələrinin xüsusən də pambıqçılıq, tütün və s. genişlənməsi ilə izah olunmalı idi.

Qeyd etmək lazımdır ki, XIX yüzilliyin 80-ci illərinin əvvəllərindən etibarən Bakı-Tiflis dəmir yolunun istifadəyə verilməsi bu sahədə vəziyyəti xeyli dəyişdirdi və Azərbaycanda kənddə əldə olunan ərin üçdə iki hissəsi taxılçılığın payına düşdü. Taxıl becərilməsi və yığımında əsrin sonlarından başlayaraq cüzi şəkildə olsa da taxıldöyən və dərzbağlayan maşınlardan, təkmilləşdirilmiş kotandan və başqa kənd təsərrüfatı alətlərindən istifadə etməyə başlamışdılar. Yelizavetpol (Gəncə) quberniyasında taxılın məhsuldarlığı 2.5 dəfəyədək artmışdır[3]. Təsadüfi deyildi ki, məhz Yelizavetpo (Gəncə)l quberniyası "Azərbaycanın taxıl anbarı" hesab olunurdu. Getdikcə Yelizavetpol (Gəncə), Qazax, Quba, Lənkəran və digər bölgələrdə taxılçılıq məhsullarının satışını reallaşdıran bazarlar meydana gəlir, taxıl satışı üzrə möhtəkirlər, tacirlər, ticarət şirkətləri,

[1] Baxşəliyev F. XIX əsrin sonlarında Şimali Azərbaycanda sahibkar kəndində taxılçılıqda əmtəə-kapitalist münasibətlərinin yaranması. // Tarix və onun problemləri, N4, 2012, s 51.

[2] Yenə orada, s. 55.

[3] Baxşəliyev F. XIX əsrin sonlarında Şimali Azərbaycanda sahibkar kəndində taxılçılıqda əmtəə-kapitalist münasibətlərinin yaranması. / tarix və onun problemləri, N4, 2012, s. 53.

kontorları açılır, satışı milyon pudları ötən iri həcmli taxıl ticarətini nəzərdə tutan müqavilələr imzalanırdı. Taxıl dəmir yolu vasitəsi ilə Tiflisə, Bakıya oradan isə imperiyanın digər bölgələrinə də satış məqsədilə aparılırdı. Bu mənada XIX əsrin sonlarında kapitalizmin inkişafı ilə başlanan taxıl yığımının artım dinamikası XX əsrin əvvəllərində daha iri rəqəmlərdə özünü göstərmişdi. Ə.A.Umayevin göstərdiyinə görə, XIX əsrin sonlarına doğru Şimali Azərbaycanın taxıl sahələri 1.5-1.7 mln. desyatinə qədər genişlənmişdi[1]. 1913-cü ildə satılan taxılın ümumi dəyər-qiyməti isə 4.5-5 milyon rubl arasında olmuşdur[2].

**Üzümçülük, bağçılıq və bostançılıq.** Üzümçülük sahəsində baş verən inkişaf ixtisaslaşmış regionlar arasında ayrı-ayrı bölgələrin, xüsusən də Yelizavetpol quberniyasını (Gəncə) daha önə çəkirdi. Üzüm əvvəlki kimi daha çox üzümçülüyün inkişaf etdiyi ənənəvi regionlarda yetişdirilirdi. Yelizavetpol quberniyasında (Gəncə) (Nuxa, Ərəş qəzalarında) üzüm bağlarının sahəsi 1887-ci ildə 1600 desyatinə bərabər idisə[3], 1899-cu ildə bu göstərici 11.768 desyatinə çatmışdı[4]. Bakı quberniyasında əsasən Göyçay, Şamaxı və Quba qəzalarında üzüm yetişdirilirdi. Hər il Şimali Azərbaycandan təxminən 6-7 mln. pudadək üzüm yığılırdı[5].

---

[1] Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX - начале XX века, Баку, Элм, 2002 , s.145.

[2] Baxşəliyev F. XIX əsrin sonlarında Şimali Azərbaycanda sahibkar kəndində taxılçılıqda əmtəə-kapitalist münasibətlərinin yaranması.// Tarix və onun problemləri, N4, 2012, s. 54.

[3] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в., Баку, 1958, s. 53

[4] ARDTA, f.372, siyahı1, iş 31.

[5] Osmanov M. Kənd təsərrüfatında əmtəə istehsalının inkişafı/ Tarix və onun problemləri, Bakı 2003, N 2, s.48 .

Üzümçülük dövlətin maraqla izlədiyi kənd təsərrüfatı sahələrindən biri idi. Bunu hər il Tiflisdə nəşr olunan "Qafqazda üzümçülüyün və üzüm istehsalının vəziyyəti haqqında məlumatlar topulusu"nun timsalında da sübut etmək olar[1]. Ə.A.Umayevin göstərdiyinə görə, XIX əsrin sonlarında Şimali Azərbaycanda üzümçülük təsərrüfatları təxminən 22 min desyatin torpaqları əhatə edirdi[2].

Üzümçülük daha çox şərabçılığın xammal sahəsi olduğundan daha çox qeyri-müsəlmanların çalışdıqları şərabçılıq da inkişafda idi. Bu şirkətlər öz müəssisələrini üzümlə təmin etmək üçün çoxlu sayda üzüm sahələri saxlayırdılar və müəssisələrini də çox vaxt həmin sahələrə yaxın yerdə təşkil edirdilər. Bu sahədə XIX əsrin sonlarında güclü Forer qardaşları şirkətinin şərabçılıqla məşğul olması firmanın üzümçülük sahəsindəki fəaliyyətinə də təsir göstərdi. Təsərrüfatın strukturu və fəaliyyət prinsipləri dövrünün ən qabaqcıl aqrar-sənaye müəssisələrinə uyğunlaşdırılmışdı. Şirkət üzümçülük sahələrindən və ətraf qəzalardan aldığı məhsulların hesabına milyon rubllarla gəlirlər əldə edirdi[3]. Forer qardaşları XX əsrin əvvəllərində şərab, konyak, spirt və digər məhsulların istehsalı üzrə ixtisaslaşmış 12 zavoda malik idilər.

Tanınmış müəssisələrdən biri də Yelizavetpol (Gəncə) quberniyasında yaranmış, fəaliyyəti milyon rubllarla dəyərə malik olan və daha çox bu quberniyanın üzüm sahələri ilə uyğun-

[1] Сборник сведений по виноградарству и виноделию на Кавказе. выпуск V. Бакинская губерния (Шемахинский и Геокчайский уезды). Тифлис, 1886, s. 50.

[2] Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX -начале XX века, Баку, Элм, 2002, s. 130.

[3] Baxşəliyev F. XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda sahibkar kəndində təsərrüfatçılığın yeni formalarından istifadə haqqında // Tarix və onun problemləri,N1, 2012, s.35

laşdıran Hummel qardaşlarını göstərmək olar. Şirkət fəaliyyətinə nəzarət etdiyi 4 şərabçılıq və 2 konyak zavodunu təmin etmək üçün xeyli üzüm plantasiyaları saxlayırdı.

XIX əsrin ikinci yarısında **bostançılıq və bağçılığın** digər sahələrinin inkişafı da sürətli templərlə nəzərə çarpırdı. Azərbaycan torpağı həmişə olduğu kimi bol məhsul verməkdə davam edirdi. Təsadüfi deyil ki, məhz bağçılıq və üzümçülüyə kömək məqsədilə yerli burjuaziya nümayəndələrindən biri olan H.Z.Tağıyev Mərdəkanda bağçılıq məktəbi açmışdı. Akademik Ə.S.Sumbatzadə göstərirdi ki, Azərbaycanın bu dövrünə dair bağçılıq və bostançılıq məhsuldarlığını təkcə 1882-ci ildə Moskva kənd təsərrüfatı sərgisinə göndərdiyi məhsulların çeşidinə görə nümayiş etdirmək mümkündür[1]. Alimin göstərdiyinə görə, XIX əsrin sonlarında ölkəmizdə 46957.39 desyatin torpağı əhatə edən müxtəlif meyvələr yetişdirən 920 iri bağ sahələri var idi. Bu illərdə fındıq, qoz, quru meyvələr, qarpız, nar, alma, üzüm, əncir sənaye sahələrinin əsas xammalına çevrilmişdilər. Hər il Şimali Azərbaycandan xeyli miqdarda qoz-fındıq ixrac olunurdu. Təkcə Zaqatala dairəsindən ixrac olunan qoz-fındığın ümumi çəkisi ildə 150 min puda çatıdır[2]. M.Osmanovun müəyyənləşdirdiyinə görə Nuxa-Zaqatala zonası Rusiya bazarlarını iri partiyalarla qoz-fındıqla təmin edən demək olar ki, yeganə rayon idi.

**Çəltikçilik, zəfəran və qızılboya yetişdirilməsi.** Taxıl məhsulları içərisində çəltik əkini xüsusi yer tuturdu. Çəltik becərilməsi üzrə daha çox Lənkəran və Nuxa qəzaları ixtisaslaşmışdı. Lakin bununla bərabər Ağsu, Şamaxı, Gəncə, Qarabağ, Göyçay, Naxçıvan, İrəvan və b. bölgələrdə də çəltik becərilirdi. Məhsul artımını Göyçay çəltikçilik təsərrüfatının timsalında da

---

[1] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958, s. 200.

[2] Osmanov M. Kənd təsərrüfatında əmtəə istehsalının inkişafı // Tarix və onun problemləri, Bakı 2003, N 2, s.48 .

müqayisəli şəkildə göstərmək olar. 1891-ci ildə burada 145.311 desyatin torpaq sahəsindən 23.400 çətvər alınmışdır[1].

XIX əsrin sonu XX əsrin əvvəllərində təkcə Lənkəran qəzasından kənara hər il orta hesablar 1.827 min rublluq,1.5milyon pud çəltik aparılırdı[2].

Bakı və ətraf 12 kənddə zəfəranın becərilməsi ilə məşğul idilər. XIX əsrin sonlarında (1886-cı il) bu bölgələrdən cəmi 201 pud zəfəran əldə olunmuşdu ki, bu da əvvəlki illərə nisbətən xeyli çox idi[3]. Maştağa kəndi zəfəran satışının əsas mərkəzi sayılırdı. Lakin XX əsrin əvvəllərinə doğru Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar olaraq zəfəran istehsalı azalmağa (zəfəran sahələri neft mədənləri ilə əvəz olunurdu) doğru gedirdi.

Qızılboyanın iri həcmli yığımı isə süni boyanın-alizarinin ixtira edilməsi ilə 1869-ci ildən sonra (həmin ildə 172250 rublluq 201 500 pud qızılboya yığılmışdı ki, bu da Şimali Azərbaycan tarixində ən yüksək illik məhsuldarlıq hesab edilir) tədricən dayanmağa başlamışdı[4]. Ayrıca qeyd etmək lazımdır ki, yuxarıda göstərdiyimiz sahələr daha çox mövsümi məhsulları olduğundan muzdlu əməyin, bir çox hallarda qadın və uşaq əməyinin tətbiqi də mövsümü xarakter daşıyırdı. Çox vaxt isə, xüsusən də taxılçılıqda muzdlu fəhlələr öz əmək alətləri ilə işə gəlirdilər ki, bu da kapitalist münasibətlərinin natamamlığının göstəricilərindən idi.

---

[1] А.Назаров О чалтыководстве в прошлом и перспективы его развития в Гекчайском районе Азербайджанской ССР/ Известия Академии Наук Азербайджанской ССР. Серия общественных наук., 1961 г. № 12, s.19-20

[2] Osmanov M. Kənd təsərrüfatında əmtəə istehsalının inkişafı // Tarix və onun problemləri, Bakı 2003, N 2, s.46-49.

[3] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в., Баку, 1958, s. 220.

[4] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в., Баку, 1958, s. 204.

**Texniki bitkilər (pambıqçılıq və b.).** Əmtəə-pul münasibətlərinin inkişafı ilə texniki bitkilərin, xüsusən də pambığın becərilməsinin, genişləndirilməsi onları ticarət əkinçiliyinin gəlirli sahələrindən birinə çevirmişdir. Daha çox Naxçıvan, Şuşa, Cavanşir, Yelizavetpol (Gəncə), Ərəş, Göyçay və Cavad qəzalarında pambıq sahələrinin genişlənməsi qeydə alınırdı. Pambıqçılıq Şimali Azərbaycanın müstəmləkə xarakterli iqtisadiyyatında öz sürətli inkişafı ilə fərqlənmiş sahələrdən biri olmuşdur. Bir çox məlumatlara görə, XIX əsrin 80-ci illərinin sonlarında təkcə Ərəş və Göyçay qəzalarında hər il təxminən 10-12 min pud pambıq yığılmış, Yelizavetpol (Gəncə) quberniyasında isə pambıq əkinlərinin sahəsi 1870 desyatinə çatmışdı. 1900-cu ildə Quzey Azərbaycanda pambıq əkini sahələri 18 minə, illik məhsul yığımı isə 984min puda çatmışdır[1]. Pambığın çiyidindən yeyinti sənayesində də istifadə edirdilər. Qeyd etmək lazımdır ki, pambıqçılıq muzdlu əməyin ən geniş şəkildə istifadə edildiyi sahələrdən biri idi.

Pambıqçılığın inkişafında H.Z.Tağıyevin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. 1896-ci ildə az sonra Bakıda toxuculuq fabriki açacaq şirkətinin əsasının qoyulması onun “Yevlax mülkü”ndə pambıqçılığın xeyli genişləndirməsi bütövlükdə Şimali Azərbaycanda bu mühüm sahənin inkişafına göstərdiyi müstəsna diqqəti bariz şəkildə əks etdirirdi. Məhz həmin fabrikin səmərəli fəaliyyətini düşünərək, milyonçu pambığın yetişdirilməsinə üstünlük verməyə başlamışdı. Yekun məhsul istehsal etməyə başlamış bu fabrik Quzey Azərbaycan iqtisadiyyatının müstəmləkəçi xarakterinin “sındırılması” yolunda atılmış ilk ciddi addım rolunu oynadı.

Ümumiyyətlə, Şimali Azərbaycanda pambıqçılığın inkişafı

[1] Xəlilova S.S. XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Azərbaycanlıların sahibkarlıq fəaliyyəti. Dissertasiya. Bakı 2014, s. 89.

Rusiya bazarlarına ixrac olunan məhsulun həcminə görə də ölçülə bilər. Belə ki, XX əsrin əvvəllərinə qədər Cənubi Qafqazdan Rusiyaya ixrac edilən pambığın demək olar ki, bütün 100 faizi Yelizavetpol (Gəncə), Bakı, Naxçıvan, İrəvan bölgələrimiz nəzərə almaqla Quzey Azərbaycanın payına düşürdü[1]. Sənədlərin göstərdiyinə görə, 1890-1913-cü illərdə pambıq yığımı 800 min puddan, 6.3 mln. puda çatmışdır[2].

**Tütünçülük.** Tütünçülük Şimali Azərbaycanın kənd təsərrüfatı üçün həm yeni, həm də ənənəvi bir sahə idi. Tütünün becərilməsi daha çox Zaqatala dairəsində, Nuxa, Quba və b. qəzalarda geniş yayılmışdı. Əldə olunan tütün yarpaqları Bakı, Şamaxı, İrəvan və Nuxanın, həmçinin Cənubi Qafqazın digər 15 tütün fabrikini xammalla təmin edirdi. 1872-ci ildə Quba qəzasında ümumi dəyəri 18 min rubl olan 5700 pud tütün istehsal olunmuşdur[3]. Bir çox qaynaqlarda saxlanılmış məlumat göstərir ki, Cənubi Qafqazda tütün yarpağı yığımı 10 il ərzində (1898-1902-ci illər ərzində ) 209.088 puddan 321.028 puda çatmış, iri sahələr isə 3.743.5 desyatin sahədən, 5.372.2.desyatinə qədər genişləndirilmişdir[4]. Bunların arasında Yelizavetpol (Gəncə) quberniyasının "payı" 11418, Bakı quberniyasının – 3933, Zaqatala dairəsinin payı isə 2725 pud olmuşdur.

Bəhs edilən dövrdə aşağı növ tənbəki ilə bərabər yüksək

---

[1] Baxşəliyev F. XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanda sahibkar kəndində təsərrüfatçılığın yeni formalarından istifadə haqqında // Tarix və onun problemləri,N1, 2012, s.36

[2] А.А.Умаев. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX -начале XX вв. Автореф. дис. … Баку, 1987, s. 24.

[3] X.T.Vəliyeva XIX əsrin axırları - XX əsrin əvvəllərində Şimali Azərbaycanın yeyinti sənayesinin xammal bazası haqqında // Tarix və onun problemləri N1 2010, s.69

[4] Джалилов Э. Табачная промыленность Южного Кавказа и Азербайджана (конец XIX – нач. XX в.) // Tarix və onun problemləri, N3, 2016, s. 109-110.

növlü Samsun, Trabzon növlü tütünlər də istehsal olunurdu[1]. Lakin XIX əsrdə Azərbaycanda istehsal həcminin sürətlə artmasına baxmayaraq tütün yerli istehlakın tələbini ödəyə bilmirdi və onun müəyyən hissəsi xaricdən idxal olunurdu. Tütünün çox cüzi hissəsi ixrac edilirdi. İxrac olunan tütün daha çox İran və Rusiya müəssisələrinə göndərilirdi.

**Biyan kökü yığılması.** XIX əsrin sonlarından etibarən biyan kökünün yığılması və emalı daha da genişlənirdi. Belə ki, ondan alınan cövhərdən yeyinti sənayesində, əczaçılıqda və toxuculuqda istifadə olunurdu. Biyan kökü adətən Kür sahilləri boyu – Tovuzdan Cavadadək olan ərazilərdə, Bakı quberniyasının Göyçay, Şamaxı, Quba qəzalarında çıxarılırdı. Biyan yerdən qazılıb çıxarılır və qurudulurdu, bu zaman məhsul 50 faizədək çəkisini itirirdi. Lakin XIX əsrin II yarısında biyana olan tələbat artsa da kəndlidən bu məhsul çox ucuz qiymətə alınırdı. 1886-1893-cü illər ərzində verilən məlumatlara görə, belə demək olar ki, 2 milyon pud civarında biyan kökü əldə olunmuşdu. Lakin sonrakı illərdə biyanın çıxarılması prosesi zəifləmiş, bu da Ön Asiyada yeni, daha zəngin biyan kökü ehtiyatlarının aşkara çıxarılması ilə əlaqələndirilirdi[2].

**İpəkçilik.** XIX əsrin sonlarından etibarən ipəkçilik həm kənd təsərrüfatının həm də sənaye istehsalının ən gəlirli sahələrindən birinə çevrilməyə başlamışdı. İpəkqurdu bəslənilməsi və barama əldə olunması kəndin ayrılmaz təsərrüfat sahələrindən biri olduğu kimi qalmaqda davam edirdi. Mühüm baramaçılıq və ipəkçilik zonaları Yelizavetpol (Gəncə) və Bakı quberniyalarının Lənkəran, Quba, Göyçay qəzaları, Zaqatala dairəsi

[1] X.T.Vəliyeva XIX əsrin axırları-XX əsrin əvvəllərində Şimali Azərbaycanın yeyinti sənayesinin xammal bazası haqqında // Tarix və onun problemləri N1 2010, s.71.

[2] Yenə orada, s.74.

və Naxçıvan qəzası idi[1]. Bu sahənin durumu və inkişafı haqqında növbəti fəsildə geniş şəkildə danışılacaqdır.

**Maldarlıq.** Haqqında danışdığımız dövrdə maldarlığın inkişafı heyvanların otarılması üçün yaylaq və qışlaq örüşlərinin sayının artmasına gətirib çıxarırdı. Məlumdur ki, Azərbaycan həmişə zəngin örüş sahələri ilə məşhur olmuşdu. XIX əsrin ikinci yarısında bütün Şimali Azərbaycanda 683786 desyatin qış, 517802 desyatin yay örüşləri var idi[2]. Əsasən XIX əsrin II yarısından başlayaraq kapitalist münasibətlərinin kənd təsərrüfatına nüfuz etməsi maldarlığın inkişafına da güclü təsir göstərmişdi. Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarında da maldarlıqla məşğuln olan mülkədarlar bazar üçün nəzərdə tutulan malqaranın sayının artırılmasında maraqlı idilər. Maldarlıq Rusiyanın toxuculuq, gön-dəri sənayesinə hər il kifayət qədər iribuynuzlu mal-qaranın, atcılıq və qoyunçuluq təsərrüfatlarından toplanılan xammal verə bilirdi. Bu sahənin gəlirli olması çar hökumətinin maldarlığa olan marağını da artırırdı. Belə ki, məhz bu illərdən başlayaraq, baytarlıq məntəqələrinin açılması, müxtəlif kənd təsərrüfatı sərgilərinin təşkili, yeni becərilmə üsullarının təbliğ edən məlumatların yayılması və təcrübə stansiyalarının açılması genişlənmişdi[3]. Diri mal-qara satışının miqyası da genişlənməkdə idi. Bu istiqamətdə Ağdaş və Ağdam bazarlarını, Cavad qəzasının Petropavlovka, Lənkəran qəzasının Prişib, Masallı, Hasıllı, Zaqatala dairəsinin Qax və Balakənin kənd bazarlarını göstərmək olar. Digər bazarlarda isə

[1] M.İsmayılov XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı Bakı 1960, s. 99.

[2] Г.А.Гаврилов О системах пользовании пастбищными землями в Азербайджане в XIX в. //Azərbaycan SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, N2, s.68

[3] Baxşəliyev Fazil. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanın sahibkar kəndində maldralıqda əmtəə-kapitalist münasibətlərinin inkişafı. // Tarix və onun problemləri, N3, 2013, s. 52.

maldarlıq təsərrüfatının əmtəəlik xarakteri ət və süd məhsullarını, yun, gön-dəri satışını ilbəil artırdı. Sahibkar təsərrüfatlarından hər il orta hesablar 345-350 min pud yun istehsal olunurdu[1] ki, bu da Avropa və Rusiya şəhərlərinin toxuculuq mərkəzləri ilə əməkdaşlığın nəticəsi idi. Şimali Azərbaycanda yun məhsullarının əlverişli qiymətlə alınması məqsədilə xarici ticarət firmalarının və şöbələrinin açılması da sürətlə artırdı.

XIX əsrin sonlarından etibarən atçılıq da inkişafını davam etdirirdi. Atlar daha çox şəxsi və dövlət ehtiyaclarının ödənilməsi üçün yetişdirildiyi üçün onların satışa çıxarılmaq imkanları xeyli məhdud idi. Dəvəçilik də digər iribuynuzlu malqara bəslənilməsi ilə müqayisədə çox zəif idi.

XIX əsrin ikinci yarısında Bakı quberniyasında əsasən sahibkar torpaqlarındakı yerli cinslərdən ibarət malqaranın sayı 2 milyon başdan çox, Yelizavetpol (Gəncə) quberniyasında isə 2 milyon başadək qədər mal-qara bəslənilirdi ki, bunlarında yarıdan çoxu qoyunçuluq təsərrüfatının payına düşürdü. Əsrin sonlarında bu quberniya böyük örüş və otlaq sahələrinə görə birinciliyi özündə saxlayırdı. Quberniya hər il orta hesablar 0.9-1.5milyon baş iribuynuzlu, 1.8-2.4 milyon baş qoyun yetişdirilirdi[2]. Şamaxı quberniyasında isə qaragül qoyun cinslərininin yetişdirilməsi cəhdləri də olmuşdur.

Maldarlığın inkişafı üçün otlaq sahələrin genişlənməsi xüsusi əhəmiyyət kəsb edirdi. Bəhs edilən dövrdə Quzey Azərbaycanın yaylaq otlaqlarının xeyli hissəsi həm də İrəvan quberniyası ərazisində, Yeni Bəyazid qəzasında, Aleksandronopol qəzasında, Şərur-Dərələyəz və Naxçıvan qəzalarında və sa-

---

[1] Исмаилов М.А. Сельское хозяйство Азербайджана в начале XX в. Изд. Элм. Баку, 1960, s. 67.

[2] Baxşəliyev Fazil. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanın sahibkar kəndində maldralıqda əmtəə-kapitalist münasibətlərinin inkişafı. // Tarix və onun problemləri, N3, 2013, s. 53.

ir ərazilərdə yerləşirdi. Onların ümumi sahəsi 350 min desyatindən çox idi.

Yelizavetpol (Gəncə) quberniyasının yaylaq otlaqları isə Nuxa qəzası, Qazax, Yelizavetpol (Gəncə), Şuşa, Cavanşir, Zəngəzur, Cəbrayıl qəzalarında yerləşən 440 min desyatin torpaqları əhatə edirdi. Bakı quberniyasında isə otlaqlar daha çox Lənkəran qəzası və Şamaxı və Göyçay qəzaları ərazisində olub 100 min desyatin torpaqları əhatə edirdi[1].

Ən mühüm əmtəəlik maldarlıq məhsulları ət-süd və gön dəri idi. Kənd təsərrüfatında kapitalist münasibətləri inkişaf etdikcə bu sahələrin əmtəə istehsalı da yüksək sürətlə artırdı. XIX əsrin sonlarından etibarən hər il Şimali Azərbaycandan 500-600 min ədəd dəri satılır və ya xaricə ixrac olunurdu[2].

XIX əsrin ikinci yarısında kənd təsərrüfatına maliyyə yatırımları da artırdı. Bu sahədə fəallıq göstərən sərmayədarlar arasında H.Z.Tağıyevlə yanaşı Aşurbəyov, Fitinqoff Şell, Şvede, Eyxler və başqa sahibkarlar və şirkətlərin adlarını göstərmək olar[3].

Kəndlilərin sahibkara çevrilə bilməmələri, yoxsulluğun və kəndli həyəcanlarının dünbəgün artması hökuməti islahatlara yenidən müraciət etməyə sövq edirdi. Artıq 1897-ci ildə xəzinə kəndlilərinin torpaq münasibətləri məsələsinə baxmaq üçün xüsusi komissiya yaradıldı. Lakin çar məmurlarının məsuliyyətsizliyi və çarizmin müstəmləkə siyasəti bu yarımçıq islahata da on ildən çox vaxtın getməsinə gətirib çıxarmışdır[4].

Məlumdur ki, XIX yüzillik Azərbaycan xalqının tarixində

---

[1] Варавин И. С. Летние и зимние пастбища Закавказского края. СМИЭБГКЗК, т. 5, часть 1, Тифлис – 1888, s. 71-72

[2] В.Четырыгин, М.Нерсесов. Продукция сельского хозяйства Закавказья. Тифлис, 1925, s. 25.

[3] Агаян Ц.П. Крестьянская реформа в Азербайджане в 1870 году, Баку 1956, s. 307.

[4] Гасанов И.М. О реакционной сущности царского аграрного закона от 1 мая 1900 // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüququ seriyası, 1967, N 1, s.31.

sosial-iqtisadi, siyasi və mədəni sahələri əhatə edən ziddiyyətli məqamlarla zəngin olmuşdur. Vətənimiz iki dövlət tərəfindən işğala məruz qalmışdır. Zəngin təbii sərvətlərə və insan ehtiyatlarına malik olan torpaqlarımız XIX əsrin əvvəllərində baş vermiş uzunmüddətli dağıdıcı müharibələrin meydanına çevrilmişdir. Məhsuldar qüvvələrə ciddi zərbə vuran müharibələrin nəticəsində ölkədə təsərrüfat, siyasi və mədəni həyat iflic olmuşdur. Minlərlə insan həlak olmuş, sağ qalanların isə xeyli hissəsi öz torpaqlarını atıb qəribliyə getməyə məcbur olmuşdular. Minilliklərlə formalaşmış dövlətçilik ənənələrimiz məhv edilmiş, milli vəhdət pozulmuşdur.

Çarizm Şimali Azərbaycanı daha ağır milli-müstəmləkəçilik zülmünə məruz qoymuşdur. Bir tərəfdən minlərlə erməni ailəsinin, digər tərəfdən isə rus, kürd və almanların köçürülməsi, xristianlaşdırma siyasəti ölkəmizin milli özəlliyini aradan qaldırmaq, bu bölgədə özünə etnik və dini dayaqlar yaratmaq məqsədlərini güdürdü. XIX əsrin I yarısında çarizmin Şimali Azərbaycanda apardığı siyasi, iqtisadi və mədəni siyasət bir tərəfdən hakim dairələrin gözlədikləri səmərəni vermir, digər tərəfdən isə geniş kütlələrin vəziyyətini daha da ağırlaşdırırdı.

XIX əsrin ikinci yarısından etibarən Şimali Azərbaycan tədricən sənayeləşən Rusiyanın əsas xammal bazalarından birinə çevrilməyə başladı. Lakin feodal münasibətlərinin və natural təsərrüfatın hökm sürdüyü Quzey Azərbaycan kənd təsərrüfatının Ümumrusiya iqtisadi proseslərinə qoşulması Rusiyanın maraqlarına xidmət etmirdi. Belə ki, zəngin iqtisadi resurslara və aqrar təsərrüfat təcrübəsinə malik Azərbaycan xalqının mədəni dirçəlişinə və siyasi oyanışına gətirib çıxaracaq kapitalist münasibətlərinin inkişafı çarizmin müstəmləkəçilik siyasətinə ciddi zərbə vura bilərdi. Buna görə də Şimali Azərbaycan iqtisadiyyatının, xüsusən də kənd təsərrüfatının sənaye cəmiyyətinin mənafeyinə xidmət etməsi prosesi kifayət qədər ləng və feodal təsərrüfatçılığın mövcud olduğu bir şəraitdə gedirdi.

Aparılan islahatlar isə kənd əhalisinin təxminən üçdən birini təşkil edən sahibkar kəndlilərinə şamil edilmişdi. Xəzinə kəndlilərinin statusuna isə toxunmamışdı. Quzey Azərbaycanda aparılan iqtisadi dəyişikliklər də Rusiyanın tələbləri əsasında kənd təsərrüfatında xammal istehsalının inkişafından başqa bir məqsəd güdmürdü. Başqa sözlərlə deyilərsə, Şimali Azərbaycanını kənd təsərrüfatı əsasən Rusiya sənayesinin tələblərinə müvafiq şəkildə inkişaf edirdi.

Bununla belə, XIX əsrin II yarısından kənddə aparılan islahatlar, xüsusən də bazar iqtisadiyyatının inkişafına müəyyən imkanlar açan yarımçıq islahatlar, vergi və inzibati idarəçilik-sistemindəki dəyişikliklər müəyyən müsbət irəliləyişlərə yol açdı. Kəndli islahatları ilə ardıcıl şəkildə məhkəmə, şəhər və inzibati idarə islahatları da həyata keçirildi. İslahatlar nə qədər yarımçıq olsa da, öz mahiyyəti etibarilə burjua xarakteir daşıyırdı və kapitalizmin inkişafına bəzi imkanlar yaradırdı. Bazar münasibətlərinin genişlənməsi, iqtisadi ixtisaslaşma, əmtəə-pul münasibətlərinin artması, dünya bazarı ilə əlaqələrin genişlənməsi kapitalist münasibətləri sisteminin formalaşma prosesini sürətləndirirdi. Kənd təsərrüfatı inkişafda olan kapitalist münasibətlərində baş verən ümumi proseslərə məruz qalır və həmin münasibətlər sisteminin üzvi tərkib hissəsinə çevrilməkdə idi. Lakin çarizmin milli-müstəmləkəçi-imperialist siyasəti Şimali Azərbaycanda dəyişiklikləri milli zülm və feodal istismarını kapitalist istismarın müşayiəti ilə aparılırdı və müstəmləkə hakimiyyətinin möhkəmləndirilməsinə istiqamətlənmişdi.

XIX əsrin ikinci yarısında da əsasən aqrar ölkə olaraq qalsa da Şimali Azərbaycanda taxılçılığın, çəltikçiliyin, maldarlığın istehsalı özünün ən yüksək səviyyəsinə çata bildi, pambıqçılıq, tütünçülük kimi təsərrüfat sahələri inkişaf etdi.Kənddə təsərrüfatını kapitalistcəsinə quran sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa can atan varlı kəndlilər və qolçomaq sosial qrupları

meydana gəldi. Bu dövrün əsas xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, həm ənənəvi, həm də yeni təsərrüfatçılıq sahələrinin əksəriyyəti getdikcə daha çox bazar münasibətləri çevrəsinə cəlb olunur, əmtəə-kapitalist münasibətlərinə xas olan sinfi qüvvələr təşəkkül taparaq sosial-iqtisadi, ictimai-siyasi-mədəni həyatın aparıcı qüvvələrinə çevrilirdilər.

## 1.2. Şimali Azərbaycan kəndlilərinin sudan istifadəsi

Ümumiyyətlə, Azərbaycanın təbii-coğrafi şəraiti tarixən kənd təssərrüfatının inkişafı üçün çox əlverişli olmuşdur. Dağlıq və dağətəyi zonaların kifayət qədər olması, qar və buzlaqlarla örtülü yüksək dağ zirvələri, bol suya malik Kür və Araz çayları, onların vadiləri kənd təsərrüfatının inkişafında böyük rol oynayırdı. Bununla belə, irriqasiyasız ölkəmizin təsərrüfat sistemini təsəvvür etmək çox çətindir.

Məlumdur ki, süni suvarma kənd təsərrüfatının ayrılmaz bir hissəsidir. Ümumiyyətlə isə dövrünün suvarma üzrə mütəxəssisi və Cənubi Qafqazda suvarma məsələlərinin tədqiqatçısı V.Dingelştedtin də bildirdiyinə görə, Şərqdə təbii su mənbələri xüsusi mülkiyyət deyildi və hamının istifadəsində olmalı idi[1]. Azərbaycanda su sahibliyi və sudan istifadə uzun əsrlər boyu əsasən şəriət qanunları ilə tənzimlənirdi. Tanınmış tədqiqatçı İ.A.Talıbzadə özünün "XIX əsrdə Azərbaycanda suvarma suyu üzərində xüsusi mülkiyyət məsələsinə dair" məqaləsində göstərirdi ki, müsəlmanlar arasında suvarma sistemləri eyni zamanda xüsusi mülkiyyətin bir hissəsi idi. O, Quranda da suvarma məsələlərinə dair qeydlərin olduğunu bildirirdi. Burada əkilmiş, işlənmiş yararlıq torpaq "abadon", əkilməmiş, yarasız torpaq isə "mevot" – yəni ölü torpaq kimi qeydə alınmışdır.

[1] Дингильштедт В. Водовладение и ирригация. Ч.1, Тифлис, 1880, s. 68.

Şəriətə görə abadon torpaqlarda mövcud olan arx, quyu, bulaq və s. xüsusi şəxsin və ya kənd cəmiyyətinin mülkiyyəti hesab olunurdu[1]. Alimin göstərdiyinə görə şəriət kitabı "Təhrir-ül-Ehkam"ın ikinci fəslində suvarma sistemi xüsusi mülkiyyət kimi göstərilir[2]. Burada verilir ki, hər hansı bir suvarma hövzəsi kənd cəmiyyətinin mülkiyyəti olarsa, bu cəmiyyət onu satmaq və girov qoymaq hüququna da malik olur. Bundan başqa "İbn Qacar" və "Mövqufat" adlı şəriət kitablarında da suvarma hüquqları müəyyənləşdirilməsindən söhbət açılır[3] .

Azərbaycanda kənd təsərrüfatının inkişafı süni suvarma sistemindən bilavasitə asılı olub Vətənimizin iqlim xüsusiyyətləri ilə sıx bağlı idi və bağlıdır. Belə ki, isti və quraqlıq əraziləri suvarmasız təsəvvür etmək mümkün deyil. Mənbələrin göstərdiyinə görə, tədqiqata cəlb edilən dövrdə becərilən torpaqların təxminən üçdə iki hissəsi süni suvarmaya ehtiyacı olan torpaqlardan ibarət idi[4]. Təsadüfi deyil ki, hələ Səfəvilərin tənəzzülü səbəblərindən birinin də suvarma şəbəkəsinin dağılması nəticəsində kənd təsərrüfatına dəyən ağır zərbə olması da iddia edilir[5].

Tarixən Azərbaycanda suvarma sistemi ərazi inzibati bölgü ilə sıx bağlı olmuşdur. Hələ XIII əsrdə Azərbaycan monqol imperiyasının tərkibində olarkən ölkə suvarma sərhədlərinə görə mahal adlanan inzibati vahidlərə bölünürdü. Rusiyanın Şimali Azərbaycanı işğal etməsinə qədər də hər bir xanlığın ərazisi suvarma rayonları üzrə mahallara bölünürdü. Bunu XIX əsrdə Azərbaycada suvarma sisteminin mövcud vəziyyətini tədqiq

---

[1] Talıbzadə İ.A. XIX əsrdə Azərbaycanda suvarma suyu üzərində xüsusi mülkiyyət // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1973, N 4 , s. 31.

[2] Yenə orada.

[3] Yenə orada.

[4] Talıbzadə İ.A., XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, s. 9.

[5] Bünyadov Z.Azərbaycan tarixi, s. 582.

edən İ.A.Talıbzadə 1928-ci ildə Tiflisdə keçirilmiş "Qafqazda su təsərrüfatının məsələlərinə dair" iclasın stenoqrafik hesabatlarına əsasən qeyd edirdi. Tətqiqatçı bildirirdi ki, Qafqazda sovet hakimiyyətinə qədərki inzibati bölgü suvarma üzrə bölgülər olmuş və inzibati bölgü suvarmanın mənafeyinə uyğunlaşdırılmışdır[1]. Təsadüfi deyil ki, Azərbaycanda mahalların əksəriyyəti onun üzərindən keçən iri çayların adı ilə adlanırdı[2]. Məsələn, İ.Şopenə əsaslanaraq E.Əliyeva bildirir ki, İrəvan xanlığı XVIII əsrin sonlarında inzibati cəhətdən mürəkkəb suvarma şəbəkəsinə malik və müəyyən çay hövzəsinə uyğun gələn 13 inzibati mahala bölünmüşdü. İrəvan və Naxçıvan xanlıqlarında mövcud olan bu cür suvarma sisteminin fəaliyyətinə mirablar tərəfindən nəzarət həyata keçirilirdi və xanın tam tabeliyində idi. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra isə bəzi hallarda bir çox su mənbələri ayrı-ayrı mülkədarların əlinə keçməkdə idi. Məsələn, mənbələrin göstərdiyinə görə, Şuşa qəzasının Lənbəran kəndinə heç bir təsərrüfatla məşğul olmayan mülkədar suvarma suyunun dördə üç hissəsinə, kəndlilər isə cəmi dörddə bir hissəsinə malik idilər[3]. Bu kimi hallar digər bölgələrdə də mövcud idi.

XIX əsrdə Şimali Azərbaycanın suvarma sisteminin tarixi haqqında sanballı bir əsərin müəllifi olmuş İ.A.Talıbzadə qeyd edirdi ki, XIX əsrin əvvəllərində, Rusiyanın işğalından sonra aparılan qeydlərə görə Azərbaycanda 3 milyon desyatin əlverişli torpağın 1700 000 desyatin hissəsini suvarmaya ehtiyacı

---

[1] Talıbzadə İ., XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, s. 28.

[2] Əliyeva E.XVIII əsrin ikinci yarısın – XIX əsrin əvvəllərində su sahibliyi və sudan istifadə. s.42 // Tarix və onun problemləri Bakı 2005, N 1, s. 43.

[3] Н.Лефнум. Крестьянская реформа в Елизаветпольской губрении. Материалы …, т. 1, Тифлис, 1885, s. 46.

olan torpaqlar təşkil edirdi[1] ki, bu da təxminən əkilən torpaqların təxminən 57-60 faizini əhatə edirdi. Məsələn, Yelizavetpol (Gəncə) quberniyasının əkin sahələrinin 55 faizi suvarma şəbəkələrinin hesabına becərilirdi[2]. Bir çox hallarda isə ümumiyyətlə, aran yerlərdə əhalinin rifahı torpağın böyüklüyündən deyil, suvarma suyunun miqdarından asılı hesab olunurdu. Buna görə də süni suvarma kənd təsərrüfatının daha əhəmiyyətli sahəsi hesab olunurdu. Şamaxı və Göyçay qəzalarında isə əkinçilik tamamilə suvarmadan asılı idi[3]. 1885-ci ilin göstəricilərinə görə, Şamaxı qəzasının 54.9 min desyatin, Göyçayın isə 47.4 min desyatin suvarmaya ehtiyacı olan əraziləri var idi[4]. Bəhs edilən dövrün sonlarına doğru bu göstəricilər müvafiq olaraq daha 21.8 min və 41.5 desyatinə qədər artmışdı.

Məlumudur ki, Azərbaycan süni suvarma üçün zəngin su ehtiyatlarına malikdir. Ölkəmizdə çoxlu sayda çaylar, bulaqlar, nohurlar, qara su (şortəhər yeraltı sular) , çeşmələr, dağlarda qar və buzlarqlarla dolu zirvələr var. XIX əsrin göstəricilərinə görə həmin dövrdə Cənubi Qafqazda 13799, 5 km ümumi uzunluğu olan 182 çayın 131-i Azərbaycan ərazisindən axırdı[5]. Eyni zamanda, tədqiq olunan dövrdə dah kiçik təsərrüfatları suvarma imkanlarına malik 310-a yaxın çeşmə var idi[6].

Azərbaycanda XIX əsrdə mövcud olan süni suvarma şəbəkəsi qədim zamanlardan istifadə edilirdi. Rusiyanın işğalçılıq siyasəti və Rusiya-Qacar müharibələri suvarma kanallarının

---

[1] Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, s. 9.

[2] Yenə orada.

[3] Материалы по изучению экономического быта государственных крестьян Закавказского края. Тифлис, 1988, т. VI, ч. 2, s. 76.

[4] Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Bakı, Təhsil 2007, s. 152.

[5] М.Н.Гарсеванов. Очерк гидрографии Кавказского края, СПб, 1886, s. 81.

[6] Собелов В.П. Водное хозяйство Азербайджана, Баку, 1925, s. 26.

yenidən dağılmasına gətirib çıxarmışdı. Suvarma arxlarının çoxu sıradan çıxmış, bəziləri isə ümumiyyətlə istifadəsiz qalaraq yox olmuşdur. Təəssüf ki, tədqiqatlar da göstərir ki, həmin dövrdə suvarma sisteminin mövcud vəziyyəti haqqında məlumatlar məhdud şəkildə toplanmışdır. 1833-cü ilədək Rusiyanın hakimiyyət nümayəndələri Azərbaycanda süni suvarma barədə məlumatlara demək olar ki, yer vermirdilər. Bəzi hallarda isə bu məlumatlar bütöv şəkildə deyil,ayrı-ayrı bölgələri əhatə edirdi. Məsələn, 1842-ci ildən tərtib edilməyə başlayan "Cənubi Qafqaz ölkəsində suvarma arxlarının vəziyyəti haqqında" adlı rəsmi qeydlərdə suvarma arxlarının vəziyyəti haqqındakı məlumatlar yalnız Naxçıvan və Yelizavetpol (Gəncə) qəzalarını əhatə edirdi[1] Həmin sənədə əsasən, göstərilən bölgələrdə ümumi şəkildə 214 iri arx var idi. Daha dolğun məlumatlar 1847-ci ildə təşkil olunmuş komissiyanın hesabatlarında əks olunmuşdur. Burada bildirilirdi ki, Tiflis, İrəvan. Şamaxı və Dərbənd quberniyalarında cəmi 1128 arx var idi[2]. Bu materiallar bizə çar Rusiyası dövründə suvarma sisteminin vəziyyətini ölçmək və onun inkişafına sərf olunan əməyi dəyərləndirmək üçün müəyyən imkan verir. Təəssüflə qeyd etməliyik ki, çar hökuməti Azərbaycanın arxlarının artımında maraqlı deyildi və suvarma şəbəkəsinin genişlənməsi olduqca ləng inkişaf edirdi. Məsələn, müqayisə üçün 1914-cü ilin göstəricilərinə görə 60 il ərzində arxların sayı yalnız 1200-ə çatmışdır[3].

Kənd əhalisi arasında suvarma suyu növbələşmə ilə bölüşdürülürdü və bir-neçə mərhələdən ibarət idi. Birinci mərhələdə su başlıca su qaynağından (çay, böyük arx və s.) kəndlər arasında bölüşdürülürdü, sonra isə növbəti mərhələdə cəmiyyətə

[1] Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, s. 17.

[2] Yenə orada, s. 17.

[3] Малышев А. Достижения в сельском хозяйстве Азербайджана // «Экономический вестник Азербайджана», т. 4, Баку, 1926, s. 12.

daxil olan kəndlər arasında və kəndli sahələri arasında. Həyətlər suvarma suyunu bölüşdürmək üçün öz aralarında qruplar təşkil edirdilər. Kəndlilər arasında dağ, təsnək, kəşkəl, göz, dəngə və sair bölgü qrupları mövcud idi[1]. Naxçıvan qəzasında “dağ” qrupu daha çox yayılmışdı.

Bununla belə, Quzey Azərbaycanla bağlı iqtisadi planlarını reallaşdırmaq üçün kənd təsərrüfatının bərpasına müəyyən marağı olan çar hökuməti tərəfindən müəyyən işlərin aparılması təxirəsalınmaz məsələ idi. Ona görə də hələ XIX əsrin 30-cuillərindən başlayaraq, yerli təcrübədən istifadə etməklə arxların təmir olunması və yenilərin çəkilməsi istiqamətində işlərin aparılmasına başlandı. Belə ki, mənbələr də göstərir ki, kənd təsərrüfatı sahələrinin bərpası üçün ilk növbədə yurdlarını tərk etmiş kəndlilərin qaytarılması və süni suvarma şəbəkəsinin bərpası məsələləri həll olunmalı idi.

Çar hökumətinin gördüyü işlər öz bəhrəsini verə bildi və artıq 40-cu illərə doğru süni suvarma kanallarının bir qismi bərpa olunmağa başladı, Kürdən və Arazdan çəkilmiş iri kanallar yenidən təmizləndi. Bütün bunlar qismən də olsa kəndə təsərrüfatın inkişafına müəyyən təkan verə bildi. Çox güman ki, məhz bu cür işlərin aparılması XIX əsrin həmin illərindən başlayaraq, Qafqazda və Azərbaycanda rəsmi hesabatlarda artıq arxlar və suvarma mənbələri haqqında müəyyən məlumatlara da yer verilirdi. Bu sahədə müxtəlif ekspertlərin, mühəndislərin, suvarma mütəxəssislərin araşdırmaları vəziyyəti təsvir etməyə imkan versə də XIX əsrdə çarizmin quberniyalar üzrə inzibati-ərazi bölgüsü ayrı-ayrı əraziləri əhatə etdiyindən Azərbaycan üzrə ümumi rəqəmlərin əldə olunmasını çətinləşdirmişdir. Bu mənada, bəhs edilən sahənin araşdırılmasında A.Sumbatzadə, İ.Talıbzadə, H.Həsənov kimi azərbaycanlı tədqiqatçıların əməyini yüksək qiymətləndirmək lazımdır.

[1] Егиазаров С.А. Водовладение в Закавказье. Киев.1898, s. 37.

**Suvarma sistemi XIX əsrin II yarısında.** 1870-ci il islahatı və kapitalist münasibətlərinin kənd təsərrüfatına sürətlə nüfuz etməsi, bazar yönümlü ticarət əkinçiliyinin genişlənməsi, su sahibliyi və istifadəsi məsələlərinin yeni şəraitin tələblərini nəzərə alaraq tənzimlənməsini gündəmə gətirirdi. Digər tərəfdən isə çar hökuməti Şimali Azərbaycanın aqrar həyatının bu mühüm sahəsini də öz nəzarəti altına götürməyi məqsədəuyğun sayır, su, suvarma işlərini yerli əhalinin müstəsna nəzarətindən çıxarmağı reallaşdırmağa çalışırdı. İri torpaq sahələrinin becərilməsi və bu sahələrin ilbəil artması da hökumətin suvarma işinin yenidən təşkilinə və suvarma sisteminin yenidən qurulması məsələlərinə baxmağı təhrik edirdi. Məlumdur ki, Şimali Azərbaycanın 3milyon desyatindən də çox əkin sahəsinin 2 milyon desyatindən çoxu suvarmaya ehtiyac duyurdu[1], ancaq bütün suvarılan sahələrin ümumi həcmi isə 582.856 desyatinə çatırdı[2] Ayrı-ayrı quberniyalar üzrə bu rəqəmlər müxtəlif idi. Məsələn, Bakı quberniyasının xəzinə kəndlilərinin istifadəsində olan torpaqların cəmi 19 faizi suvarılan torpaqlar olmuşdur[3].

Əhalinin rifahı da suvarılma suyunun miqdarından asılı idi. Dövlət və sahibkar kəndliləri sudan istifadəyə görə eyni hüquqlara malik idi. XIX əsrin sonlarına qədər sudan istifadə və suyun paylaşdırılması ənənəvi üsullarla həyata keçirilirdi. Çaylar və su mənbələrindən çəkilmiş arxlar icmanın ümumi əmlakı hesab olunurdu. Ənənəyə görə sudan istifadə mənbəyə yaxın və ya uzaq yerləşməsindən asılı olmayaraq hamının hüququ idi və növbəli şəkildə həyata keçirilirdi. Su mənbəyinə vəsait sərf edən şəxs və ya icma sudan istifadə üçün müstəsna hüquqlara malik olurdu. Lakin sudan istifadə haqqında ümumi qanunların olmaması çox vaxt, xüsusən də quraqlıq vaxtı əhali arasında

---

[1] Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı - 2000, s. 268.
[2] Yenə orada.
[3] ARDTA, f 387, s 1, iş 295, v.11-12.

bəzən çox sərt suvarma problemlərinin meydana çıxmasına səbəb olurdu. Problemlərin bir qismi isə kənddə baş verən təbəqələşmə, əkin sahələrinin qeyri-bərabərliyi və sahibkar sahələrinin daimi genişlənməsi nəticəsində kəndli təsərrüfatlarının suvarmadan kənarda qalması idi. Mülkədar və qolçomaqlar suyun adətlərə görə bərabər deyil, suvarma sahələrinə görə bölüşdürülməsini tələb edirdilər. Onların əksəriyyəti suyu və suvarma sistemlərini (arxları və s.) demək olar ki, zəbt edir və öz mülkiyyətlərinə çevirirdilər[1]. Çəltikçiliklə məşğul olan bölgələrdə isə daha böyük problemlər var idi. Su zəbt olunur, hərcmərclik yaranır, onun üstündə nifaq düşürdü[2]. Suyun bölüşdürülməsi ilə bilavasitə məşğul olan, suyun ədalətli bölüşdürülməsinə nəzarət edən olduqca geniş səlahiyyətli mirab və arxların texniki vəziyyətinə baxan cuvarlar imtiyazlı və varlı təbəqələrin mənafeyinə xidmət edirdilər. Belə ki, işğala qədər xanların nəzarətində olan mirabların fəaliyyəti demək olar ki, dövlətin diqqətində deyildi və onlar bəzən ayrı-ayrı şəxslərin avtoritar təsirinə düşürdülər. Bütün bunlar həm də sudan istifadənin dövlət tərəfindən nizamlanmamasından irəli gəlirdi. Bu mənada suvarmaya dair rəsmi qaydaların olmaması və bu problemlərin qanunlarla tənzimlənməməsi kənd təsərrüfatının böyük maneələrindən biri hesab olunurdu.

Qeyd etmək lazımdır ki, xəzinə kəndlilərinin də bu sahədəki problemləri kəskin şəkildə özünü göstərirdi. Deyildiyi kimi, 1870-ci il islahatı onlara şamil olunmamışdı. Su təsərrüfatının texniki problemləri də dözülməz vəziyyətdə qalmaqda idi. Bu da müəyyən şəkildə hər hansı bir maliyyə məsrəfi sərf edən sahibkarın imkanlarının bir daha artması demək idi, çünki yeni arxları salan, kanalları təmizləyən şəxs suvarma məsələlərində

---

[1] Гасанов И.М.Закон 3 декабря 1890 г. о пользовании оросительными водами в Закавказском крае. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüququ seriyası, 1969, N 1, s. 23.

[2] МИЭБГКЗК, т. VII, s. 594.

müstəsna imkanlar əldə edirdi və demək olar ki, suyun bölüşdürlüməsini öz nəzarətində saxlayırdı.

Suvarma sistemində baş verən problemlər yüksək rütbəli çar məmurlarını da ehtiyatlandırırdı. Məsələn, Yelizavetpol (Gəncə) qubernatoru öz çıxışlarının birində deyirdi: "Yelizavetpol (Gəncə) quberniyası təxminən yüz ildir ki, işğal olunub, lakin onun mənəvi işğalı hələ başa çatmamışdır. Bu ancaq yeni suvarma arxları şəbəkəsinin çəkilməsi ilə başa çatdırıla bilər".[1] Həsən bəy Zərdabi də "Əkinçi" qəzeti vasitəsilə süni suvarmanın kənd təsərrüfatındakı əhəmiyyətli rolundan danışır, hətta maraqlı təkliflərlə də çıxış edirdi. Maraqlıdır ki, suvarma şəbəkələrinin genişlənməsinə dair təkliflərin əksəriyyəti Kür çayının imkanları üzərində dayanırdı.

Artıq XIX əsrin ikinci yarısında irriqasiya problemləri məhsuldarlığı ilə fərqlənən iri sahələrin suvarılmasında da başlıca əngələ çevrilmişdi. Su çatışmazlığı məhsulun məhv olmasına, iri sahələrin boş qalmasına və ümumi şəkildə əhalinin rifahına ciddi təsir göstərirdi. Bu isə kənddə ilk növbədə çarizmin siyasəti ilə üst-üstə düşməyən əhalinin ciddi narazılığına və sinfi mübarizənin aktivləşməsinə səbəb olurdu.

Ümumiyyətlə, Quzey Azərbaycanda suvarma sistemi tarixən mürəkkəb şəkildə formalaşmışdır. Çox vaxt eyni arxlardan müxtəlif istiqamətlərdə axan suvarma axını üçün istifadə olunduğundan bu arxların gücü əkin sahələrinin vaxtlı-vaxtında suvarılması inkanlarını məhdudlaşdırırdı. Eyni zamanda, hər bir sahə sahibi öz arxını baş arxın başlanğıcında salmağa çalışırdı, bu isə hər dəfə əlavə vəsaitin hədər yerə xərclənməsi demək idi. Yeni kənd təsərrüfatı sahələrinin salınması və əkin sahələrinin genişlənməsi də arxların şaxələnməsinə ehtiyac yaradırdı. Digər bir tərəfdən isə Rusiyada kapitalist münasibətlərinin in-

[1] Talıbzadə, XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə, s. 11.

kişafı iri rus burjuaziyasının Şimali Azərbaycanın təbii resurslarından istifadə ehtiyacını artırırdı. Rusiyanın sənaye maşını Azərbaycanın xammalına böyük ehtiyac duyurdu. Eyni zamanda bu cür situasiya çarzmin müstəmləkəçilik planlarına düşən köçürmə siyasətinə ciddi zərbə vururdu. Çar hökuməti Mil və Muğan bölgələrinin xristian əhalinin köçürülməsi ilə bağlı "uzaqgörən" planlara malik olduğundan həmin əraziləri ilk növbədə su ilə təchiz etməli idi[1].

Beləliklə yuxarıda göstərdiyimiz səbəblərə görə XIX əsrin birinci yarısında dövlət orqanlarının vasitəçiliyi ilə artıq xeyli arx bərpa olunmağa, təmizlənməyə, yeniləri çəkilməyə, ümumiyyətlə şəbəkə sisteminin genişləndirilməsi işinə başlandı. Bu məqsədlə Rusiyanın müxtəlif bölgələrdindən mütəxəssislər dəvət olunurdu. Maraqlı faktlardan biri də odur ki, çar məmurları suvarma şəbəkələrinin yenilənməsində çəkilməsində yerli təcrübədən daha çox yararlanırdılar. Məsələn, bu illərdə azərbaycanlı ustalar Cəfər Rəşid oğlu, Hüseyn Mustafa və başqaları layihələşdirmə işlərində yaxından iştirak edirdilər[2].

Bununla belə, XIX əsrdə kənd təsərrüfatının asılı olduğu mühüm sahələrdən bir olan suvarma sistemi istənilən səviyyəyə çatdırılmamışdır. Belə ki, layihələrin əksəriyyəti kağız üzərində qalmış, texniki cəhətdən yeniləşdirilməmişdir. Təsadüfi deyildi ki, mənbələrin birində də göstərilir ki, qeyd olunan dövrdə Quzey Azərbaycanda 812 kəhrizə on minlərlə desyatin torpağın suvarılması düşürdü[3]. Həmin kəhrizlər daha çox sahibinin vəsaiti hesabına başa gəldiyindən demək olar ki, onların

---

[1] Гасанов И.М.Закон 3 декабря 1890 г. о пользовании оросительными водами в Закавказском крае. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüququ seriyası,1969, N 1, s. 23.

[2]. Talıbzadə İ.A. XX əsrin əvvəllərində Azərbaycanda mülkədar torpaq sahibliyində baş verən dəyişikliklərin xarakterinə dair. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1978, N3, s. 18.

[3] Yenə orada, s. 20.

xeyli hissəsi mülkədarların və qolçomaqların əlində cəmləşmişdi. Bir çox hallarda isə köhnə, korlanmış, zibillənmiş və doldurulmuş kəhrizlər sadəcə vəsaitsizliyə görə bərpa olunmurdu. Qeyd etmək lazımdır ki, qeyd olunan dövrdə Bakı və ətraf kəndlərdə suvarma məqsədi ilə su quyularından da geniş istifadə olunurdu. Lakin bu su quyuları suvarılmaya möhtac olan becərilən torpaqların suya tələbatını tam şəkildə ödəyə bilmirdi. Nuxa qəzasında isə at qüvvəsinin hesabına suqaldıran çarxların vasitəsilə arxların doldurulması üsulu ilə hündür sahələrin suvarılması işi aparılırdı. Lakin bu yolla çox az, cəmisi 4 desyatin torpaq su ilə təmin edilə bilirdi.

Bəzi bölgələrdə isə suya olan tələbat həmin yerlərdə iri su anbarlarının tikilməsini tələb edirdi. Onların məqsədi quraqlıq zamanı susuz qalmış sahələrin suvarılmasına və məhsulun məhv olmasının qarşısını almağa yönəlmişdi. Bu anbarların əksəriyyəti güclü leysan sularının və çay daşqınları vasitəsilə doldurulurdu. Azərbaycanda bu dövrdə 158 su anbarı mövcud idi1. Bu cür anbarlardan daha çox Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında çəltik sahələrinin becərilməsində istifadə olunurdu.

Artıq 1900-cü ildə Azərbaycanda ilk dəfə olaraq, uğursuz da olsa suçıxaran qurğu tətbiq olunmağa başlayır. Bundan sonrakı illərdə həm çay sahillərində, su kəmərlərində, həmdə su quyularından suyu çıxarmaq üçün müxtəlif mühərriklərdən istifadə təcrübəsi genişlənirdi. Belə ki, mühərrikli qurğu bir mövsümdə 300 desyatin torpağın suvarılmasını təmin edə bilirdi.

**II. Sudan istifadə haqqında "Əsasnamə" və onun nəticələri.** 1873-cü ildə suvarma problemlərinin həllinə istiqamətlənən ilk ciddi və peşəkar komissiya təşkil olundu[2]. Məqsəd suvarma sisteminin problemlərini tənzimləyəcək qanun layihəsi-

[1] Вейсенгоф В.С.. Сведения о состоянии орошения на Кавказе по 1883 год. Тифлис, 1883, s. 111.

[2] Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Bakı, Təhsil 2007, s. 152.

nin hazırlanması idi. Lakin komissiya demək olar ki, öz vəzifəsini yerinə yetirə bilmədi. 1883-cü ildə isə bu sahədə yeni komissiya təşkil olundu. Bu Komissiya geniş bir qanun layihəsi hazırladı və bu layihə üzərində aparılan çox uzunsürən və bürokratik əngəllərlə ləngidilən proseduralardan sonra 3 dekab1890-cı ildə nəhayət ki, Cənubi Qafqazda torpaqlarının suvarılması barədə qayda-qanunun yaratmaq məqsədilə sudan istifadə haqqında "Əsasnamə" şəklində qəbul edildi.

"Əsasnamə" üç hissədən ibarət idi. Onun 5 maddədən ibarət birinci hissəsi su mülkiyyətinə və sudan istifadə haqqında əsaslara aid edilmişdir. Bu hissəyə görə, su xüsusi mülkiyyət anlayışından kənarlaşdırılır, ümumi mülkiyyətə keçir və sahib hüquqları ləğv edilirdi. Qeyd etmək lazımdır ki, bu müddəa əslində Azərbaycanda mövcud olan vəziyyəti qanun şəklində ifadədən başqa bir şey deyildi, ona görə də bu sahədə sahibkar və mülkədarların hüquqlarının pozulması haqqında nəsə demək olmazdı.

Bunlardan başqa "Əsasnaməyə" görə bütün təbii su ehtiyatları dövlətin mülkiyyəti sayılırdı[1] və bütün kənd əhalisinin istifadəsinə verilirdi[2]. Kənd istifadəsinə həmçinin ayrı-ayrı bulaqlar və icmanın mülkiyyətində olan su anbarları da verilirdi. Süni irriqasiya tikililəri isə (məsələn, quyular, nohurlar, hovuzlar və s. ) onun tikilməsinə maliyyə məsrəfi etmiş şəxsin mülkiyyəti hesab olunurdu. Qapalı su hövzələri isə, məsələn, kiçik göllər və s. yerləşdiyi torpağın sahibinin ixtiyarında olsa da onun xüsusi mülkiyyəti hesab olunmurdu ki, bu da su hövzələrinin alqı-satqı obyektinə çevrilməməsi məqsədindən irəli gəlirdi. "Əsasnaməyə" görə, arxların və kanalların yenidən qurulması və bərpası dövlətin üzərində düşdüyü kimi sahibkarın da məsuliyyətində idi.

---

[1] Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Bakı, Təhsil , 2007, s.155.

[2] Yenə orada.

"Əsasnaməyə" görə, Şimali Azərbaycanın Bakı və Yelizavetpol (Gəncə) quberniyalarına daxil edilmiş torpaqları başda su mühəndisləri dayanan suvarılan 6 su sahələrə bölünmüşdü[1] Kür çayı sahillərində inzibati-bölgü sisteminə daxil olmayan 5 suvarma dairəsi (su mahalları) mövcud idi. Məsələn, Şamaxı və Göyçay qəzaları V və IV su sahələrinə ayrılmışdı. Hər su sahəsi su dairəsi adlanan və daha çox da əhatə etdiyi çayların adı ilə adlandırılan xırda ərazilərə bölünmüşdü[2]. Əslində isə layihə üzrə nəzərdə tutulmuşdu ki, Cənubi Qafqazda 75 su dairəsi yaradılsın. Lakin təbii su hövzələrinin tamamilə tədqiq olunmaması və aparılan işlərin ləng getməsi, layihə nəzərdə tutduğu məsələləri həll edə bilməmişdi.

"Əsasnamə" regionda ilk növbədə, su sahibliyi və su şəbəkələrinin işinə nəzarət edən idarələrin hüquq və vəzifələrini müəyyənləşdirirdi. Qanuna əsasən su üzərində mülkiyyət hüququ rəsmən ləğv olundu, lakin ənənəvi su bölüşdürmə sistemini demək olar ki, olduğu kimi saxladı[3]. Bununla belə suvarma üzrə yeni inzibati bölgü yaradıldı və onlara rəhbərlik edən su müfəttişi və hər bir su sahəsinin idarəsi vəzifəsini daşıyan su mühəndisliyi yaradıldı. Bu məsələ, "Əsasnamənin" ikinci, ən böyük hissəsini əhatə edirdi. Buna görə üç ildən bir mirab və ildə bir dəfə seçilən cuvarlar əvvəlki kimi qalaraq öz vəzifələrini dəyişməz şəkildə yerinə yetirməli idilər. Onlar həmçinin suyun oğurlanmamasına və su hövzələrinin zəbt edilməməsinə ciddi nəzarət etməli idilər. Hər bir kənd icmasının suyun bölüşdürülməsində iştirak hüququ var idi, onlar öz nümayəndələrini iki mərhələli seçki yolu ilə seçə bilərdilər. Bu nümayəndələrin (Nümayəndəli Şura) də səlahiyyət müddəti üç il hesab olunurdu[4]. Sakibkarlar öz nümayəndələrini kəndlilərdən

---

[1] ARDTA, fond 429, siyahı 1, iş, 579, vərəq 7.

[2] Yenə orada.

[3] Azərbaycan tarixi, IV c., B., "Elm " nəşriyyatı - 2000, s. 270.

[4] Гасанов И.М.Закон 3 декабря 1890 г. о пользовании оросительными

ayrı seçirdilər ki, bu da azərbaycanlı kəndlilərə qarşı çarizmin müstəmləkə siyasətinin təzahüründən başqa bir şey deyildi.

Qaydalara görə, nümayəndələr Şurasının rolu böyük idi. Belə ki, onun işi yeni kanalların çəkilməsi, problemlərin mövcudluğu, onların həlli yolları istiqamətində təkliflərin verilməsi, təmir və yenidənqurma işləri, dəyişikliklərin edilməsi məsələlərinə baxırdı.Həmçinin suvarma sisteminin işinə sərf olunan maliyyənin düzgün bölüşdürülməsi də Şuranın üzərinə düşürdü.

"Əsasnamə"yə görə, suvarma işinin təşkilində mühüm rol oynayan şəxslərdən biri də seçki yolu ilə müəyyənləşən ağsaqqal – "su ağsaqqalı" idi (starosta). Onun işi də mirabdan elə də fərqlənmirdi. Əsasən suyun düzdün bölüşdürülməsinə, su kanallarının vəziyyətinə, suyun oğurlanmasına, sudan istifadənin ədalətli şəkildə aparılmasına nəzarət etmək su starostasının üzərinə düşürdü[1]. İ. Həsənovun qeyd etdiyinə görə dövlət, tərəfindən müəyyən etdiyi vəzifələrin yerinə yetirilməsində baş verən qüsurlara görə 50 rubl məbləğində cərimə müəyyənləşdirmişdi. Qaydalara görə əhalinin şikayət etmək hüququ var idi.

"Əsasnamə"nin" üçüncü hissəsi suyun bölüşdürülməsi qaydalarını müəyyən edirdi. Su hamının iştirakı ilə bölünməli və onun miqdarı hesabatlarda əks olunmalı idi. Bu məqsədlə "Əsasnamə", "baş" adlı su vahidi müəyyənləşdirmişdi. "Baş" təbii su ehtiyatının dəyişməsi ilə hər il yenilənə bilərdi ki, bu da əksər hallarda narazılıqlara gətirib çıxarırdı. Hər bir kəs suyun bölüşdürlüməsi zamanı payına düşən suyun miqdarına müvafiq olaraq su kanallarının bərpasına və təmirinə vəsait xərcləməli idi. Hər bir sahibkar təbii suların və suvarma kanalları-

---

водами в Закавказском крае. // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüququ seriyası,1969, N 1, s. 24.

[1] Гасанов И.М.Закон 3 декабря 1890 г. о пользовании оросительными водами в закавказском крае. // Azərbaycan CCR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüququ seriyası,1969,N 1, s. 25.

nın (həmçinin arxların və dövlət tərəfindən maliyyələşmiş nohurların, su anbarlarının) öz ərazilərindən keçməsinə və yerləşdirilməsinə borclu idi və bu, maliyyə dəstəyi ilə həyata keçirilməli idi.

Lakin, bu qanunda nəzərdə tutulmuş islahatlar, dəyişikliklər çox ləng gedirdi. Təkcə "Su müfəttişliyi"nin idarəetmə aparatının qaydalarını müəyyənləşdirməyə xeyli vaxt sərf olundu. Məsələn, mühəndislərin iş vəzifələrini müəyyənləşdirən qaydalar bir ilə, su sahələrinin vəzifəli şəxsləri üçün isə qaydaların biri üç, digəri isə dörd ilə müəyyənləşdirildi. Bundan başqa bölgələr üçün nəzərdə tutulmuş tədbirlər də növbəli şəkildə həyata keçirilirdi ki, bu da islahatların reallaşdırma vaxtını xeyli "uzadırdı". Bu mənada, islahatların tam reallaşması üçün yalnız 1895-ci ildə əlverişli məqam yarandı. Lakin maraqlı məqamlardan biri də "Əsasnamədə" mühəndislər üçün ayrıca nəzərdə tutulmuş təkmilləşmə məsələləri idi. Sənəddə qeyd olunurdu ki, mühəndislər hər il Tiflisdə qurultayda iştirak etməli və irriqasiya işlərində görülən tədbirlər, problemlər, təkliflərlə çıxış etməli və təsdiq olunmuş yeni iş planı ilə tanış olmalı idilər[1]. Yeni qanuna görə işini düzgün aparmayan mühəndislər və həmçinin müfəttişlər işdən azad olmalı idilər. Qurultay tərəfindən təklif olunan iri layihələr isə Dövlət Mülkiyyəti Nazirliyi tərəfindən təsdiq olunmalı idi.

"Sudan istifadə haqqında əsasnamə" demək olar ki, tarixən formalaşmış ənənəvi qaydaları ləğv etmədi, lakin bu sahəni rəsmiləşdirməklə və qaydalar müəyyənləşdirməklə istifadə zamanı yaranan problemlərin həllini öz üzərinə götürdü və bütün Şimali Azərbaycan quberniyaları üçün eyni qaydalar müəyyən etdi. Bunlarla yanaşı həmin Əsasnamənin ən başlıca qayəsi kənd təsərrüfatı üçün son dərəcə mühüm olan bu sahə üzərində

---

[1] Гасанов И.М.Закон 3 декабря 1890 г. о пользовании оросительными водами в Закавказском крае. // Azərbaycan CCR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüququ seriyası,1969, N 1, s. 25

dövlət aparatının möhkəm nəzarətinin bərqərar edilməsi, yaradılan rəsmi su idarələrinin bütün saxlanılma xərclərinin yerli əhalinin üzərinə qoyulması oldu.

XIX əsrin sonlarında rəsmi sənədlərin göstəricilərinə görə suvarılan sahələr cəmisi 582.856 min desyatin idisə, artıq XX əsrin əvvəllərində bu rəqəm 856 min 400 desyatinə çatmışdı[1]. Təbii suvarma hövzələrinin əksəriyyəti mülkədar və qolçomaqların (varlı kəndlilərin) əlində qalmaqda davam edirdi. Rəsmi rəqəmlərdə də qeyd olunur ki, 291 kəhrizin 270-i bəy və qolçomaqlara məxsus idi[2].

Yeni kanalların tikilməsi işləri də həddindən artıq ləng aparılırdı. Qeyd etmək lazımdır ki, çar məmurlarının bölgənin suvarma məsələlərində ciddi addımları hələ XIX əsrin ortalarından özünü göstərməyə başlamışdı. Hələ 1856-1862-ci illərdə Qafqaz canişini knyaz A.İ.Baryatinski iki xarici su mütəxəssisini Tiflisə dəvət etmiş, onlara Cənubi Qafqazda suvarma sisteminin layihəsini hazırlamağı tapşırmışdı[3]. Layihəyə görə, Mil düzündə 279.5min desyatin və Muğan düzündə 275.3min desyatin torpağın suvarılmasına xidmət edəcək bir-neçə kanal çəkilməli idi. Lakin vəsait çox tələb olunduğundan hökumət onun reallaşdırılmasına razılıq vermirdi[4].

Ə.S.Sumbatzadə "XIX əsrdə Azərbaycanda kənd təsərrüfatı" monoqrafiyasında göstərirdi ki, rus hökuməti suvarma kanallarının çəkilməsi məsələlərində nə qədər maraqlı olsa da, layihələşdirmə və ərazinin tədqiq olunmasına kifayət qədər vaxt sərf etsə də iri kanalların çəkilməsi istiqamətində əsaslı bir iş

---

[1] ARDTA, fond 387, siyahı 1, iş 300, vərəq 19.

[2] ARDTA, fond 429, siyahı 1, iş 1024, vərəq 3.

[3] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958, s. 237.

[4] Əhmədov Ə.XIX əsrin axırı – XX əsrin əvvəllərində Bakı quberniyasında suvarma sistemlərinin yaradılması tarixindən. // Tarix və onun problemləri, N 3, 2009, s. 47

görə bilmirdi[1]. Məsələn, XIX əsrin 70-ci illərində rus mühəndisləri Psarev və İvanov, sonra isə S.A.Veys von Veysenqof müxtəlif layihələrlə çıxış edirlər, İ.İlyinski də XIX əsrin 80-ci illərində bir-neçə dəfə bir qrup mühəndisləri tədqiqat məqsədilə buraya dəvət etmişdir. 1893-cü ildə Bakı qubernatoru rus carına müraciət edərək bu məsələdə kömək göstərilməsini xahiş etmişdir. 1894-1896-cı illərdə bir-neçə ekspert qrupunun araşdırmalarından sonra bu zonada kanalların çəkilməsi üçün yeni layihə hazırlanmışdır.

Kür çayının hər il daşması və əhalinin təsərrüfatına zərər vurması nəhayət ki, hökuməti hərəkətə keçirməyə məcbur etdi və 1896-cı ildə Araz çayında suyu nizamlamaq üçün şlüz tikintisi başa çatdırıldı. Bu tikintinin vasitəsi ilə kəndlilərin əkin yerləri daşqınlar nəticəsində yaranan əlavə suyun sahələrə ötürülməsi reallaşdırılırdı[2]. 1900-cu ildə dövlət tərəfindən ayrılan 37 min rubl pulun hesabına 1000 desyatin torpağı suvarmaq iqtidarında olan Sarıçala kanalının inşasını reallaşdıra bildi[3]. 1901 və 1903-ci illərdə isə Muğanda Aşağı Qolitsın kanalın çəkilişi başa çatdırıldı. Təəssüflə qeyd etməliyik ki, bəhs edilən dövrdə çarizmin ayırdığı məhdud maliyyə ehtiyatları digər kanalların çəkilməsinə imkan vermirdi və yalnız XX əsrin əvvəllərində çar hökuməti Kürün suları hesabına bir-neçə kanalın çəkilməsi işini tamamlaya bildi. Bunların arasında Yuxarı Qolitsın kanalı ilə Aşağı Qolitsın kanallarının birləşməsi (1908), Araz çayından Yuxarı kanal (1909), 1907-ci llədək isə Muğanda 4 iri kanal və b. göstərmək olar[4]. Bu mənada XIX əsrin II

---

[1] Сумбатзаде А. С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958, s. 238.

[2] Əhmədov Ə. XIX əsrin axırı – XX əsrin əvvəllərində Bakı quberniyasında suvarma sistemlərinin yaradılması tarixindən. Tarix və onun problemləri, N 3, 2009, s. 47

[3] Yenə orada.

[4] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatı,

yarısında suvarma sahəsində çar məmurlarının Şimali Azərbaycandakı fəaliyyəti müxtəlif tədqiqatların və layihələrin hazırlanmasından ibarət olmuşdu.

Çar məmurlarının səriştəsizliyi, Şimali Azərbaycanda işlərin xeyli dərəcədə ləng getməsi, eyni zamanda çar məmurları arasında mövcud olan rüşvətxorluq və korrupsiya meylləri (suyun bölüşdürülməsində özbaşınalıq, hərc-mərclik, ədalətsizlik və s. ) Sudan istifadədə ədalətliyin pozulması hallarına ilk növbədə kəndin nüfuzlu şəxsləri tərəfindən yol verilirdi, hakimiyyət nümayəndələri isə buna göz yumurdular. Kənd nümayəndələrinin seçilməsində də hərc-mərclik hökm sürürdü. Bəzi mirablar öz vəzifələrində 20 ilədək qala bilirdilər. Bəzən isə bu hərc-mərcliyi aradan qaldırmaqdan ötrü, daha yüksək vəzifəli məmurların iştirakı halları baş verirdi ki, bu da qaydalara zidd idi. Su, onun bölüşdürlüməsi məsələləri demək olar ki, sahibkar və mülkədarların əlində qalırdı. Məsələn, XIX əsrin sonlarında Girdmançay su mahalında xəzinə kəndlilərinin yalnız 33.9 faizə qədəri su ilə təmin olunurdursa, bəy və ağalar suvarma suyunun 44 faizindən istifadə edirdilər.

Kənd cəmiyyətlərinə verilən suvarma imkanları da çox məhdud idi. Belə ki, bir çox hallarda su cəmiyyətə daxil olan sahələrin həcminə görə deyil, icmalar üzrə pay şəklində bölüşdürülürdü. Bəzən isə icmanın ümumi razılığı əsasında bölünməsi qaydasına rəğmən icma ağsaqqalları, ayrı-ayrı üzvlərin hüquqlarını pozmaqla suyu düzgün bölünmürdülər. Suyun düzgün bölünməməsi suya daha çox ehtiyac duyulduğu çəltik və pambıq əkini ilə məşğul olan sahələrdə daha qabarıq şəkildə biruzə verirdi. Bəzi hallarda su üstündə münaqişələr qanlı hadisələrlə qeydə alınırdı. Təbii olaraq, bütün bunlar bəhs edilən dövrün hesabatlarında, arxiv sənədlərində və müxbir material-

Bakı, 1964, s. 132.

larında öz əksini tapmamış deyildi. İ.A.Talıbzadənin adını çəkdiyimiz monoqrafiyasında göstərilir ki, Lənkəran qəzasının çəltik təsərrüfatının geniş sahələrinin suvarılmasında sahibkarlar su bölgü qaydalarını pozduqlarına görə kəndlilər narazılıq nümayiş etdirmiş, şikayət ərizəsi ilə müraciət edərək və su müfəttişindən yeni yaradılmış çəltik sahələrinin ləğv edilməsini xahiş etmişdilər[1]. 1894-cü ildə Qazax kəndliləri üçün müəyyən edilmiş 8 baş su payı isə azaldılaraq 5 başa endirildiyi üçün narazılıq baş vermişdi[2]. Bu, təbii olaraq, bəhs edilən dövrdə mövcud vəziyyəti əks etdirən minlərlə belə hadisələrdən birneçəsi idi. Cavanşir qəzasında da eyni səhnə ilə rastlaşmaq olardı. Məsələn, qəzanın tədqiqatçılarından biri yazırdı: “Sahibkarlar birinci növbədə 2-3 başkəsən ələ keçirib, onları cuvar təyin edib, silahlandırıb, arxların üzərində nəzarəti onlara tapşırırdılar”[3]. Sadəlöhv kəndlilər səbəbi mirab və cuvarların səriştəsizliyində və ədalətsizliyində görürdülər. Ola bilsin ki, burada müəyyən həqiqətlər var idi, lakin səbəblərin kökü çarizmin korrupsiya və hərc-mərcliyə qarşı mübarizə əzminin olmamasında, islahatların natamamlığında və əslində yeniliklərin çox cüzi şəkildə təqdim olunmasında, azərbaycanlılara qarşı etinasızlığında, bu dəyişikliklərin müstəmləkə xarakterində gizlənirdi.

Çar məmurları da vəziyyətin acınacaqlı olmasını danmırdılar. Məsələn,1905-ci ilin sənədində göstərilirdi ki, suvarma sis-

---

[1] Talıbzadə İ.A. XX əsrin əvvəllərində Azərbaycanda mülkədar torpaq sahibliyində baş verən dəyişikliklərin xarakterinə dair. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1978, N3, s. 25.

[2] Talıbzadə İ.A. XX əsrin əvvəllərində Azərbaycanda mülkədar torpaq sahibliyində baş verən dəyişikliklərin xarakterinə dair. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1978, N3, s. 26.

[3] Yenə orada , s.27.

teminin pis inkişafı üzündən Yelizavetpol (Gəncə) quberniyasında və Dağıstan vilayətinin bəzi rayonlarında su dairələri hələ də layihələşdirilməmiş qalmışdı[1].

Beləliklə, "Əsasnamənin" suyun bölüşdürülməsi məsələlərini ədalətli şəkildə reallaşmasına imkan yarada bilmədi və qaydalar çoxu, demək olar ki, kağız üzərində qaldı. Suvarma işinin dövlətin tam nəzarətə alınması ilə kəndlilərin istismarı daha da gücləndi. Dövlət təsirli tədbirlər görməyə tələsmirdi ki, bu da çarizmin məsələnin həllində Azərbaycan xalqının inkişafı məsələlərinə müstəmləkəçilik prizmasından yanaşmasını əks etdirirdi. 1893-94-cü illərdə "Əsasnamə" bir-neçə əlavələrlə yenidən nəzərdən keçirilsə də əvvəlki qaydaları ləğv edə bilmədi. Təsadüfi deyil ki, artıq 1901-ci ildə Qafqaz su müfəttişliyi qəbul olunmuş "Əsasnaməyə" yenidən baxılması haqqında məsələ qaldırmışdı[2]. Su idarəçiliyinin səmərəsizliyi o dərəcəyə qalxmışdı ki, çar məmurlarının özləri müfəttişliyin yerli ənənələrlə idarə olunmasını daha məqbul sayırdılar.

Bununla yanaşı müəyyən irəliləyişlər də baş vermişdi. Belə ki, suvarma sisteminin dövlət nəzarətinə keçməsi suvarmanın texniki məsələlərinə də diqqət yetirməyi tələb edirdi. Bir çox ərazilərdə yeni arxlar və su şəbəkələri yaradıldı, suvarılan torpaqların həcminin artırılması işində tədbirlər görüldü. Məsələn, H.Həsənov bəhs edilən dövrdə kənd təsərrüfatının və suvarma məsələlərinin araşdırılmasına dair kitabında qeyd edir ki, görə 30 il ərzində Şamaxı və Göyçay qəzalarında suvarmaya ehtiyacı olan sahələr 40 faizə qədər azalmışdır[3].

Digər bir tərəfdən isə suyun bölüşdürülməsində dövlətin iştirakını və hüquqi əsalarını təmin etməklə kəndlidə müəyyən bir ümidlər doğurdu, su təsərrüfatında sahibkar "nüfuzunün"

---

[1] RFDTA, fond 426, siyahı 1, iş 536, vər. 3.

[2] Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Bakı, Təhsil 2007, s.104.

[3] Yenə orada, s. 122.

və qolçomaq iştirakını qismən məhdudlaşdırdı, kəndin təsərrüfat həyatına müəyyən canlanma gətirdi. Muğana əhalinin köçürülməsi planları bu bölgələrin suvarma şəbəkələrini xeyli genişləndirə bildi. Belə ki, hazırlanmış layihə əsasında 5 milyon rubl pul ayrıldı.

Ən çox suvarılan torpaqlar Bakı quberniyasının Göyçay, Quba, Cavad qəzaları, Yelizavetpol (Gəncə) quberniyasının Ərəş, Cavanşir və Nuxa qəzalarının torpaqları idilər. İ.A.Talıbzadə göstərirdi ki, bu qəzalar üzrə suvarıılan torpağın bütün torpaqların 40-70 faizini təşkil edirdi[1]. Tədqiqatçının tərtib etdiyi cədvələ əsasən, XIX əsridə Şimali Azərbaycanda suvarılmayan torpaqlar bütün əkinlərin 58 faizindən bir qədər çoxunu təşkil edirdi.

Lakin müstəmləkəçilik sisteminin və milli ayrı-seçkiliyin mövcudluğu şəraitində Quzey Azərbaycanda sudan istifadə haqqında "Əsasnamə" müəyyən edildiyi şəkildə həyata keçirilmədi və ancaq cüzi dəyişikliklərlə özünü göstərə bildi. Kəndli yenə də məhsuldarlığı suvarma ilə sıx bağlamaqda davam edirdi. Çünki məhz suvarma imkanları becərilən torpağın sahəsini də müəyyənləşdirir. Belə ki, əksər hallarda suyun düzgün bölünməməsi üzündən kəndli daha iri sahələri becərməkdən çəkinirdi ki, bu da kənddə təbəqələşmə prosesinin daha da güclənməsinə təsirsiz ötmürdü. Bu mənada, iri suvarma şəbəkələrinin nəzərdə tutulmaması və mövcud irriqasiya sisteminin formalaşmaqda olan ictimai-iqtisadi sistemə uyğunlaşdırılması "Əsasnamənin" çatışmayan ən böyük məqamlarından biri idi. Çar hökuməti Şimali Azərbaycanda yeni qaydaları köhnə sistemin üzərində reallaşdırmaq fikrində idi və genişlənməkdə olan əkin sahələrinin sürətlə artan dinamikasını nəzərə almırdı.

---

[1]Talıbzadə İ.A XX əsrin əvvəllərində Azərbaycanda mülkədar torpaq sahibliyində baş verən dəyişikliklərin xarakterinə dair. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1978, N3, s. 22.

Qanun suvarma sistemində tətbiq oluna biləcək texniki məsələlərə də səthi yanaşmış və onu suvarma bürokratiyasının üzərinə qoymuşdu. Su təsərrüfatında bölüşdürülmə və suyun oğurlanması məsələlərində müsbət rola malik ola biləcək su nəqliyyatı və su polisi məsələləri də müəyyən mənada kənarda qalmışdı ki, bu da hərc-mərcliyə və korrupsiyaya daha geniş imkanlar yaradırdı. Suvarma şəbəkələrinin natamam şəkildə qalması torpaq mülkiyyətçiliyi və suvarma torpağının mərzləşmə və maliyyə problemlərinin həll olunmamasından da xəbər verirdi.

Bir çox ərazilərin suvarma ehtiyacları, demək olar ki, nəzərə alınmırdı. Xüsusən də maldar təsərrüfatla məşğul olan zonaların suvarılması məsələsi ciddi problem olaraq qaldı[1]. Çar hökuməti bu torpaqların suya o qədər də ehtiyacı olmadığını onların dəmyə torpaq olması ilə izah etməyə çalışırdı. Əslində isə bu hal suvarma suyunun, suvarma mənbələrinin azlığı, suvarma səviyyəsinin çox aşağı səviyyədə olması və hökumətin bu sahədəki fəaliyyətsizliyi ilə bağlı idi. Belə ki, müxtəlif hesabatlar da göstərirdi ki, çar məmurları sənədlərdə daha çox çaylardan çəkilən suvarma şəbəkələri haqqında məlumatlar verirdilər, kəhrizlər, su anbarları, su quyuları haqqında məlumatlara isə ümumi şəkildə yanaşırdılar.

Beləliklə, suvarma məsələlərində kəndli və sahibkar hüquqlarının ədalətsiz şəkildə formalaşdırılması da çarizmin imperiya üçün ucqar hesab etdiyi Şimali Azərbaycanda suvarma məsələlərinin natamam şəkildə həyata keçirdiyini göstərirdi.

## 1.3. Şimali Azərbaycan kəndində yürüdülən rəsmi vergi siyasəti

---

[1] Kərimli A.T. Şimali Azərbaycanda otlaqlardan istifadə və çarizmin torpaq (otlaq-örüş) siyasətinin tarixindən (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), Pedaqoji Universitet Xəbərləri, 2010, N 6, s. 110.

Məlumdur ki, əvvəllər olduğu kimi XIX əsr boyunca da Quzey Azərbaycanda kəndlilər, çox kiçik istisna ilə, sahibkar və dövlət (xəzinə) kəndlilərinə bölünürdülər. Xəzinə kəndliləri Rusiya işğalına qədər xanların sərəncamında olan və sonra Rusiya dövləti tərəfindən qamarlanmış torpaqlarda yaşayırdılar. Bu torpaqlarda məskunlaşmış kəndlilər əvvəllər birbaşa xana məxsus kəndlilər olmuşlar. Bundan başqa Rusiya tabeçiliyini qəbul etməmiş xan və bəylərin müsadirə edilmiş torpaqları da imperiya xəzinəsinin ixtiyarına keçmişdi. Buna görə də həmin kəndlilərdən alınan vergiləri birbaşa xəzinənin ixtiyarına keçirdi.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonrakı ilk 30 il ərzində çar hökuməti vergi sistemində əsaslı dəyişikliklər edə bilmədi və xanlıqlar dövründən qalmış vergi sistemini, demək olar ki, olduğu kimi saxladı. Bu isə vergi yığımını təkcə onun icarəsi ilə məşğul olan şəxslərin deyil, həm də komendantların qarət və soyğunçuluq qaynağına çevirmişdi.

Hətta XIX əsrin ortalarında belə ölkədə əmtəə-pul münasibətləri kifayət qədər inkişaf etməmiş, natural təsərrüfatın qalıqları mövcud idi. Kəndlilər vergiləri əsasən natura şəklində verməyə çalışırdılar[1]. Yerli müsəlman-şərq sosial-iqtisadi münasibətlərdən baş çıxarmağa qadir olmayan çar hökuməti Quzey Azərbaycanda iqtisadi, o cümlədən maliyyə məsələlərini nizamlamaq üçün tələsmirdi və bu işlərə yüz ilə yaxın vaxt sərf etməli olmuşdu.

Əsrin əvvəllərində çar hökumətinin işğaldan sonrakı idarəçiliyinə dair konkret bir planı yox idi və ölkə keçmiş xanlıqların yerində yaradılmış əyalətlərdə ağalıq edən komendantlar tərəfindən idarə olunurdu. Onların ətrafında idarəetmə sistemində mürəkkəb maliyyə işlərini həyata keçirmək iqtidarında olan

---

[1] Kərimli A.T. Şimali Azərbaycanda otlaqlardan istifadə və çarizmin torpaq (otlaq-örüş) siyasətinin tarixindən (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri), Pedaqoji Universitet Xəbərləri, 2010, N 6, s.109.

məmur aparatı da yox idi. Komendant idarə üsuluna toplanmış əksəriyyəti keçmiş hərbçilərdən ibarət məmurlar korpusu isə yerli-sosial-iqtisadi özəlliklərdən baş çıxarmaq iqtidarında deyildi. Buna görə də ilk əvvəllər xanlıqlar dövründən qalmış qaydalardan imtina etmək və onları yenisi ilə əvəz etmək çarizmin çətin vəzifələrindən birinə çevrilmişdi. Bu mənada çarizm işğaldan sonra Quzey Azərbaycanda əvvəlki vergi sistemini saxlamağa məcbur idi.

Digər bir tərəfdən isə Şimali Azərbaycanın işğalından sonra çar hökuməti regionda ciddi maliyyə çətinlikləri ilə üzləşmişdi. Hökumət orqanları təsərrüfatı idarə edən məmurların olmadığı bir şəraitdə xəzinəyə məxsus sahələrdən dövlətin gəlirini yığmağa borclu idi. Ona görə də hökumət ilk illərdə vergi yığımında orta əsrlərin təcrübəsindən, keçmiş iltizam sistemindən istifadə etmək qərarına gəlmişdi.

İltizam qaydaları xanlıqlar dövründə də, ondan əvvəl də mövcud idi. Rusiya işğalından sonra iltizam sistemi qaydaları hökumətin "Öhdəliklər haqqında Əsasnamə"si əsasında tətbiq edilirdi. "Əsasnaməyə" görə əyalət məhkəmələrində 3,4 hətta 5-6 il müddətinə hərrac zamanı daha çox pul təklif edən tacir və bəylərlə saziş bağlanır və onlara kəndlilərdən vergiyığımı hüquq verilirdi. Bu zaman həmin şəxslər müəyyən vergilərin toplanması hüququnu alaraq dövlətlə bağladığı sazişə əsasən hər il topladıqları vergiləri xəzinəyə təhvil verməyə borclu idilər. Vergilər əsasən ayrı-ayrı kəndlilərin deyil, həyətlərin sayından asılı olaraq bütöv kəndlərin və ya icmanın üzərinə qoyulurdu. Kənd icmasının rəhbərliyi isə bu vergiləri artıq kəndlilər arasında bölüşdürürdü.

Qeyd etmək lazımdır ki, XIX əsrdə Şimali Azərbaycanda yürüdülən vergi siyasəti Rusiyanın regionda tətbiq etdiyi inzibati və idarəçilik sistemindən birbaşa asılı olmuşdur. Çar hökumətinin burada apardığı müxtəlif səpkili islahatlar vergi sisteminə də təsir göstərmişdir. Əsrin əvvəllərində mövcud olmuş

vergi qaydaları və vergilərlə əsrin ikinci yarısında bu sahədəki qaydalar və vergilərdən xeyli fərqlənmişdi. Burjua islahatların ləng getməsi, təsərrüfatın natural xarakterdən çətinliklə azad olması vergilərin yığılmasına da müəyyən dərəcədə təsir edə bilmişdi.

XIX əsrin əvvəllərində çar məmurları vergi məsələlərində gəlir mənbələrini dəqiqləşdirmək, kəndliləri vergi sisteminə cəlb etmək üçün çoxsaylı kameral təsvirlər həyata keçirmişdilər. 1816-cı ilədək çar hökuməti yalnız Gəncə, Şirvan və Qarabağ bölgələrində kameral təsvirlər həyata keçirilə bilmişdir. XIX əsrin 30-cu illərində isə artıq bütün Şimali Azərbaycan ərazisində natamam şəkildə olsa da ölkənin kameral təsvirləri həyata keçirilmişdir. Bu təsvirlər Şimali Azərbaycanda ayrı-ayrı əyalətlər üzrə aparılırdı.

Hələ XIX əsrin 40-ci illərində aparılmış inzibati və məhkəmə islahatları komendant idarə üsulunun ləğvi ilə bitmişdi. Şimali Azərbaycanın Rusiya imperiyasının inzibati və vergi sisteminə uyğunlaşdırılması istiqamətində ciddi addımlar atılmışdı. İnzibati ərazi cəhətdən iki hissəyə ayrılan Cənubi Qafqazla yanaşı həm də Şimali Azərbaycan torpaqlarının məqsədli şəkildə bölünməsi reallaşdırıldı. Azərbaycan ərazilərinin bir qismi Xəzər vilayəti adı altında birləşdirilsə də çox böyük qərb torpaqlarımız Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatıldı. Bu baxımdan tədbirlər Gürcüstanda daha erkən həyata keçirildiyindən bu quberniyanın tərkibinə daxil olan Azərbaycan torpaqlarında da islahatlar daha tez aparılırdı. Məsələn, Şimali Azərbaycanda pul vergisinə keçid 1852-ci ildə keçirildiyi reallaşdırılmağa başladığı halda, Gürcüstan-İmeretiya quberniyasında bu tədbirin bünövrəsi artıq 1843-cü ildə qoyulmuşdu. Qeyd etdiyimiz quberniyanın tərkibində olan İrəvan, Naxçıvan, Gəncə, Borçalı, Şəmşəddil, Qazax və s. bölgələrimizdə pul vergisinə keçidin başlanğıcı daha erkən qoyulmuşdu.

Ümumiyyətlə, çarizm Şimali Azərbaycanda mülkiyyət məsələlərində bütöv bir sıra uğursuz addımlar atmışdı. Bu, ilk növbədə işğallarla barışmaq istəməyən xan və bəylərin nüfuzunu sarsıtmaq və onları tiyul torpaqlarından məhrum etmək istəyindən irəli gəlirdi. Lakin genişlənən üsyanlar dalğası və feodal zümrəsinin bu çıxışlardakı fəallığı çar hökumətini düşünməyə vadar etdi. Çar hökuməti ölkəmizdə torpaq sahiblərinin hüquqlarını məhdudlaşdlrmaqdan ehtiyat edərək yerli bəy və ağaları çarizmin sadiq müttəfiqinə çevirmək fikrinə düşdü. Bu mənada yeni vergi sistemi xəzinə kəndliləri ilə yanaşı, həm də sahibkar kəndlilərinə, xüsusən də onların təkcə xəzinəyə deyil, feodallara ödədikləri vergilərə də təsir etməli idi.

1847-ci ildə tərtib olunmuş kəndli "Əsasnamə"ləri zahirən islahatları xatırladırdı, mahiyyət etibarı ilə isə tiyuldar sahibkarların xanlıq dövründə olduğu kimi kəndlilər üzərindəki hüquqlarını çar hökuməti qanunvericilik yolu ilə tanıyıb təsbüt edir, bu yolla torpaq sahibkarı hüququ tanınmış, tiyulları mülklərə bərabər tutulmuş keçmiş tiyuldar bəylər və ağaları kənddə öz sadiq müttəfiqinə çevirməyə çalışırdı. Dövlət hər bir kəndlinin rəsmi şəkildə yararlı sahələrdən 5 desyatin pay torpağından istifadə hüququnu tanıyır (bu, kağız üzərində qaldı) və bunun əvəzində kəndlilərin sahibkara məhsulun onda birini – "malcəhət" adlı vergi ödəməsini müəyyən edirdi. "Malcəhət" kəndlinin torpağı sahibkar mal-qarasından və alətlərindən istifadə müqabilində beşdə birə qədər arta bilərdi. Bundan başqa kəndli bəyin otlaqlarında mal-qara otraradısa da "çöpbaşı" adlanan vergi ödəməli idi. Qanuna əsasən biyar işləri görmək üçün hər bir kəndlinailəsi bir işçi ayırmalı və bu işçi il ərzində 18 gün müddətinə bəy təsərrüfatında ödənişsiz şəkildə çalışmalı idi. İldə iki gün isə bütün kənd camaatı hamılıqla bəy təsərrüfatında iməcliyə (əvrəzə) çıxmalı idi.

Qeyd etdiyimiz kimi, bu "Əsasnamə" Quzey Azərbaycanda mövcud olan vergi sisteminə heç bir yenilik gətirmədi. Dövlət

vergiləri tətbiq edərkən kadastrlaşdırma -torpaqların ümumi sahəsinin, əkinə yaralı sahələrin ölçülməsi, kəndli təsərrüfatlarının, gəlirvermə dərəcəsinin müəyyənləşdirilməsi istiqamətində də heç bir iş görməmişdi[1]. Torpaqların mərzlənməsi isə, əvvəlki yarımbölmədə qeyd etdiyimiz kimi, Şimali Azərbaycan torpaqlarının heç yarısını da əhatə etmirdi. Hətta sonrakı illərdə belə yalnız xəzinə torpaqlarını əhatə edən səthi mərzlənmə işləri ədalətli torpaq vergisinin müəyyənləşdirilməsində əsas rolunu oynaya bilməzdi. Ərazinin gəlirlilik səviyyəsinin müəyyənləşdirilməsi sahəsində heç bir ciddi və əsaslı iş aparılmamışdı. Təsadüfi deyil ki, bəhs edilən dövrdə torpaqların gəlirvermə qabiliyyəti və dərəcələri haqqında heç bir statistik məlumatlar, demək olar ki, yoxdur[2]. Buna görə də vergi yığımında korrupsiyanın və saxta məlumatların heç bir həddi-hüdudu yox idi. Bu isə vergi imkanlarını müəyyənləşdirmədən üzərinə ağır öhdəliklərin qoyulduğu kəndlinin sosial-iqtisadi durumunu daha da ağırlaşdırırdı. Bu "Əsasnamə"lər bəylərə və ağalara ilk növbədə kəndlilərdən vergi almaq və onlar üzərində polis hüququ verdi.

Şimali Azərbaycan kəndliləri Rusiyanın mərkəzi quberniyalarında yaşayan kəndlilərə nisbətən daha ağır vergilərlə yüklənmişdilər. Vergi məmurlarının özbaşınalığı həddini aşmışdı. Məmurlar kəndlilərdən qanunla nəzərdə tutulmuş vergilərdən daha çox vergi yığırdılar və artıq mükəlləfiyyətlərin yerinə yetirilməsini tələb edirdilər.

Bütün bunlardan başqa 1805-ci ildə Kürəkçay tipli müqavilələr bağlamış keçmiş Qarabağ, Şəki və Şamaxı xanlıqlarının əhalisi müqavilələrin şərtlərinə görə çar hökumətinə hər il xeyli

---

[1] Məmmədova R. Şimali Azərbaycanda vergi sistemi (XIX əsrin II yarısı - XX əsrin əvvəllərində), dissertasiya, Bakı 2011, M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası, s. 64.

[2] Yenə orada.

təzminat ödəməli idi[1]. Bəzi qaynaqlara görə, əhali bu ağır vergini ödəməkdə böyük çətinliklər çəkirdi. Məsələn, Şəki əhalisinin təzminat üzrə borcu bəzi dövrlərdə 7-8 min çervonu ötüb keçirdi.

XIX əsrin ikinci yarısından etibarən çarizmin regiondakı iqtisadi siyasətində müəyyən dəyişikliklər baş vermişdir. Rusiyanın Krım biabırçılığından sonra sürətlə kapitalizmə qədəm qoyması və iqtisadi inkişafın yeni strateji istiqamətlərini müəyyənləşdirməyə göstərdiyi cəhdlər Quzey Azərbaycanda yeni vergi siyasətinin müəyyən edilməsi xəttinə də təsirsiz ötüşmədi. Qeyd etdiyimiz kimi, XIX əsrin birinci yarısında çar hökuməti burada hələ xanlıqlar dövründən qalmış vergi sistemini əsasən dəyişməz olaraq saxlamışdı. Bundan əlavə vergilər Şimali Azərbaycanın müxtəlif bölgələrində fərqli qaydalarla və fərqli məbləğdə yığılırdı. Quzey Azərbaycandakı vergi sistemini Mərkəzi Rusiya quberniyalarında qəbul olunmuş sistemə uyğunlaşdırmaq və ölkəmizin müxtəlif bölgələrində vergilərin miqdarı, növləri və yığım qaydalarını eyniləşdirmək üçün 1852-ci ildən çar hökuməti Şimali Azərbaycanın bir hissəsində (əsasən Şamaxı quberniyasında) vergiləri natura şəklində verməsini dayandırıb pul vergisinə keçirilməsi barədə xüsusi qərar qəbul etdi.

Əmtəə-kapitalist münasibətlərinin, bazar iqtisadiyyatının zəif inkişaf etdiyi bir durumda vergilərin ödənilməsinin dərhal pulla ödənişə keçirilməsi, təbii ki, kəndlilər üçün ciddi problemlər yaratdı, odur ki, pul vergilərinə keçid bir müddət ancaq qismən həyata keçirildi[2]. Təbii ki, kəndlilərin natura şəklində ödədikləri vergiləri uzaq məsafələrə daşımaq çətinliyi var idi.

---

[1] Колониальная политика российского царизма… ч.1, s. 402-406.

[2] Əhmədova N. Çarizmin Şimali Azərbaycanda vergi siyasəti (1801-1860) dissertasiya. Bakı 2008, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, s.81.

Dövlət özü də natural vergilərlə yığılmış məhsulları saxlamaqda çətinlik çəkirdi. Bəzi hallarda, yuxarıda da qeyd etdiyimiz kimi, dəqiq uçot işlərinin aparılmaması, vergi yığımında təsərrüfatın dəqiq qeydə alınmaması və məhsul yığımında və ya təbii səbəblərdən kəndliyə dəymiş zərərlər nəzərə alınmadan aparılırdı ki, bu da vergi yığımında özbaşınalıqları daha da artırırdı. Düşünürük ki, Şimali Azərbaycanda pul vergisinə keçməklə dövlət aşağıdakı məqsədləri ortaya qoyurdu:

1. Rusiyanın mövqeyini burada möhkəmləndirmək, xəzinənin gəlirlərini artırmaq;
2. Vergi yığımında mövcud vəziyyəti dəyərləndirmək;
3. Buradakı vergi sistemini Rusiyanın mərkəzi quberniyalarına müvafiq uyğunlaşdırmaq.

Müəyyən edilmiş qaydalara görə dövlət xəzinəsinə ödənilən vergilərin böyük hissəsi xəzinə kəndlilərinin üzərinə düşürdü. 1873-cüilin məlumatları ilə müqayisədə 80-ci illərdə xəzinə kəndlilərinin sayı hər il təxminən bir faiz artmaqla, ümumi şəkildə 12-13 faiz artmışdı[1]. Yeni vergi qaydalarına görə xəzinə kəndlilərinin mükəlləfiyyətləri ümumi və torpaq vergisindən ibarət olan iki hissəyə bölünürdü[2]. Ümumi vergi bütün əhali üçün müəyyənləşmişdi, ikinci vergi isə torpağın münbitliyindən və sahəsindən asılı olaraq bir-neçə dərəcəyə bölünmüşdü. Xəzinə kəndliləri "həyət vergisi" adlanan torpaq vergisini töycü şəklində ödəyirdilər [3]. Hər şeydən əvvəl xəzinənin mənafeyini güdən çar məmurları torpaqların mərzləmə işlərini tam

---

[1] Həsənov H.N. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan dövlət kəndlilərinin say tərkibi və torpaqla təmin olunması (Şamaxı və Göyçay qəzalarının materialları əsasında) // Azərbaycan SSR EA Xəbərləri, tarix, fəlsəfə, hüquq seriyası,1985, N 3, s.43.

[2] Əhmədova N. Çarizmin Şimali Azərbaycanda vergi siyasəti (1801-1860) dissertasiya Bakı 2008, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, s. 82.

[3] Azərbaycan tarixi, IV c. B., "Elm" nəşriyyatı – 2000, s. 274.

aparmadıqlarından bu vergini gözəyarı hesablayırdılar və çox vaxt da kəndlinin gəlirini nəzərə almırdılar. Bu mənada, torpaq vergisi kəndli təsərrüfatlarında real gəlirə əsaslanmırdı və soyğunçu xarakteri daşıyırdı.

Məhsul rentası da pulla alınırdı, onun qiyməti məhsulun dəyərinin pula çevrilməsi yolu ilə müəyyənləşdirilirdi. Lakin vergilərin ümumi məbləği daim artdığından çar hökumətinin müəyyənləşdirdiyi qaydalara əməl olunmasına nəzarət etmək və onların dəqiq uçotunu aparmaq üçün nə vəsaiti, nə də məmur aparatı var idi. Buna görə də vergi sistemində mövcud boşluqlar məmur özbaşınalığının və korrupsiya hallarının güclənməsi ilə tamamlanırdı. Bu mənada, yeni vergi qanunu kəndlilərin vəziyyətini daha da ağırlaşdırmışdı.

Bundan başqa çar hökuməti özü də Şimali Azərbaycanda heç də ədalətli vergi siyasəti aparmaq arzusunda deyildi. Milli və dini ayrıseçkilik hər şeydə özünü büruzə verirdi. Məsələn, sənədlər göstərir ki, yürüdülən Rusiya vergi siyasəti nəticəsində XIX əsrin sonu – XX əsrin əvvəllərində bir desyatin pay torpağına görə sahibkar kəndliləri Tiflis quberniyasında 3,63 rubl vergi ödəyirdisə, Bakı quberniyasında bu rəqəm 7,38 rubl, Yelizavetpol (Gəncə) quberniyasında isə 12,12 rubl kimi müəyyənləşmişdi[1]. Eyni zamanda xristian və müsəlman kəndlilər arasında mövcud olan ayrı-seçkilik vergi yığımında da özünü göstərirdi. Məsələn, Cənubi Qafqazın müsəlman əhalisi Rusiya kəndlilərindən 6-7 dəfə çox vergi ödəyirdi. Quzey Azərbaycanda zemstvo vergisi olmadığı halda əhalidən "zemski" adlı yerli idarəçilik orqanlarının saxlanılmasına xərclənilməsi nəzərdə tutulan ağır vergilər toplanırdı[2].

---

[1] Məmmədova R. Şimali Azərbaycanda vergi sistemi (XIX əsrin II yarısı - XX əsrin əvvəllərində), dissertasiya, Bakı 2011, M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası, s. 64.

[2] Yenə orada, s. 66.

Zemski vergisi əsas vergilərdən hesab olunurdu və iki hissədən ibarət idi[1]:

a) Bütün Qafqaz diyarı üzrə (dövlət)

b) Quberniya üzrə

Dövlət zemski vergisi bütün dövlət ehtiyaclarına yönəldiyi halda quberniya vergisi yerli ehtiyacların ödənilməsinə nəzərdə tutulurdu. Bütün Qafqaz diyarı üzrə zemski vergisi 4-7 rubl, quberniya üzrə isə 2-4 rubl həcmində dəyişə bilərdi. Xəzinə kəndliləri üçün isə bu vergi 78 qəpik məbləğində müəyyənləşmişdi[2]. Bütün Cənubi Qafqaz üzrə zemski vergisinin 51,17 faizi ancaq iki quberniyanın – Bakı və Yelizavetpol (Gəncə) quberniyalarının əhalisi tərəfindən ödənilirdi[3].

XIX əsrin sonlarına doğru kənd təsərrüfatının sahələri, əmtəə istehsalı, muzdlu əməkdən istifadə genişləndikcə çarizmin idarəetmə sistemi də genişlənir, məmur aparatının üzvrləri artırdı. Kənd əhalisi isə həmin aparatın saxlanılması üçün başlıca gəlir mənbəyi idi. Bu mənada bəhs edilən dövrdə azərbaycanlı kəndlilər yerli əhəmiyyətli (ictimai) "mükəlləfiyyətlər" də daşıyırdılar. Bunlardan aşağıdakıları göstərmək olar:

1. Ictimai idarəetmənin saxlanılması üçün;
2. Kütləvi tibbi tədbirlər üçün;
3. Yolların çəkilməsi;
4. Kəndlərdə mühafizə xidmətinin saxlanılması;
5. Tənha qocaların və yetimlərin saxlanılması;
6. Yanğın və təbii fəlakətlərə qarşı tədbirlərin keçirilməsi və s.

---

[1] Гасанов И.М. Повинности государственных крестьян Азербайджана в конце XIX в. // Известия АН Азерб. Серия общественных наук, 1962, т. 11-12, s. 29-30.

[2] Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и в начале XX вв. Баку, 1964, s. 197.

[3] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказья. Т.1, ч. 3, s. 172.

İctimai mükəlləfiyyətlərin yerinə yetirilməsi məcburi idi. Bunlardan başqa, həmçinin kənddə məscidlərin, ictimai evlərin tikilməsinə və təmirinə, müəllimlərin saxlanılmasına, mirab və cuvarların əmək haqqına, dəyirmana və sair xidmətlərin ödənilməsnə də kəndlilər müəyyən vergilər ödəməli idilər[1].

XIX əsrin 50-ci illərinin islahatları xəzinə kəndlilərinin mükəlləfiyyətlərinə xüsusi yer ayırmışdı. Kəndlilər işləyib ödəmə, natural və pul formalarında vergilər ödəməli idilər. Onlar xəzinənin xeyrinə, poçt stansiyaları və keçikçi məntəqələrinin saxlanılmasına, dövlət tikilililərinə, yol çəkilməsinə kömək etməli idilər[2].

Vergilər kəndlilər üçün çox ağır idi. Digər bir tərəfdən isə kəndlilər həm də kənd icmasının üzərinə düşən, həcmi qanunla müəyyənləşdirilməmiş mükəlləfiyyətləri yerinə yetirməli idilər. Bu mükəlləfiyyətlərin içərisində yol mükəlləfiyyəti də var idi ki, bu da kəndliləri daha ağır işlərdə işləməyə məcbur edirdi. Yol mükəlləfiyyəti kəndlinin əmək alətləri və iş heyvanları hesabına aparılırdı. Bu mükəlləfiyyətin icrası adətən yaz və payız aylarına düşdüyü üçün kəndlilərin əsas mövsümi məşğuliyyətlərinə, yəni əkib-becərmə işlərinə ciddi əngəllər törənirdi.

Eyni zamanda yığılan vergilərin xərclənməsində də ayrı-seçkilik mövcud idi. Tədqiqatçılar sübut edirlər ki, çarizmin Şimali Azərbaycandan topladığı vergilərin çox cüzi hissəsi ictimai ehtiyaclara xərclənirdi. Məsələn, 1907-ci ilin məlumatlarına görə, Bakı quberniyasından toplanan vergilərin 40 faizi Rusiya quberniyalarına, 60 faizi isə yerli dövlət nümayəndələrinin saxlanılmasına xərclənmişdi[3]. Zemski vergisinin 90 faizi

---

[1] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958, s. 350.

[2] Колониальная политика российского царизма в Азербайджане в 20-60-е годы XIX века. М. 1936, ч. 1, s. 235.

[3] Məmmədova R. Şimali Azərbaycanda vergi sistemi (XIX əsrin II yarısı - XX əsrin əvvəllərində), dissertasiya, Bakı 2011, M.F.Axundov ad.

isə Qafqaz hərbi polis aparatının saxlanılmasına sərf olunurdu. Vergilərin daha bir hissəsi isə çarizmin köçürmə planlarının reallaşmasına xərclənilirdi.

Vergi ödəyicilərinin əksər hissəsi dörd qrupa bölünmüşdülər. Birinci qrupa aid olanlar "tüstü pulu" (maxta) adlanan, hər həyət üçün ödənilən vergilər nəzərdə tutulurdu. Digər üç qrup isə "tüstü"nün bölünməsi prinsipinə görə fərqlənirdilər. Bundan başqa sahibkar kəndliləri mülkədarların xeyrinə torpaq və məhsul vergisi – "malcəhət" və torpaq və su vergisi "bəhrə" ödəyirdilər. Heyvanların saxlanılması və örüş üçün "çöpbaşı" və ya "otpulu" ödənilirdi.

Məsələn, bəzi məlumatlara görə, 1885-ci ildə Şamaxı və Göyçay qəzalarına xəzinə kəndlilərindən 36 min desyatin torpaqdan istifadə üçün pulla ödənilən müxtəlif səpkili vergilər alınırdı. Natural icarə isə 1900 min desyatin torpağı əhatə edirdi[1].

1887-ci ildə Quzey Azərbaycanda yeni tətbiq edilən vergilərdən biri də hərbi mükəlləfiyyət vergisi idi. Çar hökuməti azərbaycanlı əhalini hərbi xidmətə çağırmırdı və bunun müqabilində kəndlidən orduda xidmət etmədiyinə görə vergi tələb edirdi. Bu vergi orduya xidmət olunanların üçillik orta qazancı nəzərə alınmaqla hesablanırdı və kəndli üçün çox ağır vergi hesab olunurdu. Bu mənada hərbi vergi çar hökumətinin Azəbryacanda yürütdüyü müstəmləkə siyasətinin bariz nümunəsi idi.

Kapitalist istehsal üsuluna keçid kəndli əməyinin üzərində qurulan vergi sistemini daha ağırlaşdırdı. Aldıqları pay torpaqlarının haqqını ödəmək iqtidarında olmayan sahibkar kəndliləri torpaq sahiblərin xeyrinə, daha çox natura şəklində ödədikləri malcəhət və bəhrə vergisini verməkdə davam edirdilər. Bu vergi əvvəlki kimi məhsulun 10-da bir hissəsini təşkil etsə də onun miqdarı sahibkar tərəfindən tədricən artırılırdı. XIX əsrin 50-ci

Azərbaycan Milli Kitabxanası, s. 66.

[1] Гасанов Г. Из истории североазербайджансокй деревни в конце XIX - в начале XX века. Баку - 2007, s. 145.

illərinin islahatlarından sonra qəbul olunmuş qaydalara görə kəndli və sahibkar verginin pul və ya natura şəklində alınması barədə ümumi razılığa gəlməli idilər[1]. Lakin yuxarıda qeyd etdiyimiz kimi, kəndlilərin böyük əksəriyyəti bu hüquqdan istifadə edə bilmirdilər. Bütün bunlardan başqa kəndli pay torpağının hər desyatininə görə ağaya 30 qəpik pul vergisi də ödəməli idi və bütün bölgədə bu vergi eyni məbləğdə deyildi.

Qanuni vergilərdən başqa kəndlilər işğaldan əvvəlki dövrdən qalmış müxtəlif rüşvət, peşkəş-bəxşiş xarakterli vergilər də ödəyirdi (bayramlıq, toypulu, toyxərci, darğalıq pulu və s.).

Ümumiyyətlə, vergi sənədlərində göstərildiyi kimi, Şimali Azərbaycanda yaradılmış quberniyalar arasında yığılan vergilərin məbləği bir-birindən xeyli fərqlənirdi. Ə.Sumbatzadə bəhs edilən dövrün vergi məsələlərini araşdırarkən 1887-ci ilin materiallarına əsaslanaraq, xüsusən də İ.Baxtradzenin rəqəmlərini göstərərək qeyd edirdi ki, Cənubi Qafqaz vergilərinin 30.77 faizini Bakı quberniyası, 26.63 faizini isə Yelizavetpol (Gəncə) quberniyası ödəyirdi. Yerdə qalan hissəsini isə Cənubi Qafqazın digər üç quberniyası verirdi[2].

Mükəlləfiyyətlərin yerinə yetirilməsində quberniyalar arasında fərqlər çox idi. İ.Baxtadzenin göstərdiyinə görə, bunların da böyük hissəsini (49,31 faiz) Bakı və Yelizavetpol (Gəncə) quberniyaları, habelə İrəvan quberniyası (27 faiz) ödəyirdi[3]. Cənubi Qafqazın ən az vergi ödəyicisi Gürcüstan idi (Tiflis və Kutais quberniyaları ümumi şəkildə 26.42 faiz vergi ödəyirdi). Şimali Azərbaycanın əksər ərazilərini əhatə edən quberniyalarının üzərinə, demək olar ki, bütün Cənubi Qafqaz əhalisinin ödədiyi vergilərin 76%-ə qədəri düşürdü ki, bu da çarizmin

---

[1] Azərbaycan tarixi, IV c. B., "Elm" nəşriyyatı – 2000, s. 276.

[2] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958, s. 249.

[3] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958, s. 250.

milli müstəmləkəçilik siyasətinin bariz ifadələrindən biri idi.

XIX əsrin birinci yarısında Şimali Azərbaycan kəndlilərinin maldar təsərrüfata görə ödənilən vergilər xanlıqlar dövründən qalma qaydalarla müəyyənləşirdi. Əsrlərdən keçib gələn vergi – çöpbaşı əsas otlaq vergisi olaraq qalırdı və ayrı-ayrı bölgələrdə fərqli qaydalarla müəyyənləşdirilib və yığılırdı. Köçmə maldarlıqla məşğul olan əhalinin hər 100 baş qoyun üçün otlaq sahibinə verdiyi 1-2 qoyun "çöpbaşı", hər 100 qoyun üçün alınan 50 qəpik pul isə "küllük" adlanırdı. Bunlar əsas vergilər sayılırdı və hər xanlığın ərazisində fərqli şəkildə və miqdarda müəyyənləşdirilə bilərdi. İşğaldan sonra torpaqların əksər hissəsini xəzinənin ixtiyarında saxlayan çar hökuməti otlaqlardan istədiyi şəkildə istifadə etməyə başladı və vergi yığımını müqaitəyə verməklə komendantların ixtiyarına verdi. Komendantlar hərraclar vasitəsilə vergi yığımı hüququnu ayrı-ayrı bəylərə və ya kənd icmalarına verməklə ənənəvi qaydaları saxlamaqla gəlirin birbaşa imperator xəzinəsinə toplanmasına nəzarət edirdilər.

Maldar təsərrüfatlarda vergi yığımında baş verən özbaşınalıq və qeyri-müəyyənlik ilk növbədə çar hökumətinin Cənubi Qafqazın maldar əhalisinə olan münasibətindən irəli gəlirdi. Ümumiyyətlə, Rusiyada, xüsusən də çar məmurları arasında maldar-köçəri anlayışları dəqiq müəyyənləşməmişdi. Çünki, İ.L.Baxtadzenin də qeyd etdiyi kimi, bu sahədə hətta rus tədqiqatçıları arasında fərqli fikirlər var idi. Belə ki, maldarlıq və köçərilik anlayışlarını eyniləşdirərək bəziləri maldarlara çadır və yalnız heyvan otarmaqla məşğul olan köçmə tayfaları, digərləri maldarlıqla bərabər əkinçiliklə də məşğul olan kəndliləri, üçüncülər isə hətta heyvan saxlayan və arada bir otlaqlarını dəyişən əkinçiləri də maldar hesab edirdilər[1]. Bu mənada

[1] М.А.Исмаилов К вопросу об истории так называемого кочевого скотоводства в Азербайджане в XIX - начале XX вв. // Azərbaycan SSR EA xəbərləri, tarix, fəlsəfə, hüquq seriyası, 1973, N 1, s. 24.

maldarlar təsərrüfatlarını qeydə almaq və onlar üzərinə qoyulacaq vergini müəyyənləşdirmək çar məmurları üçün XIX əsrin birinci yarısında çətin məsələyə çevrilmişdi. Digər bir tərəfdən isə maldarlar bəzən öz örüş sahələrində taxıl əkini ilə də məşğul olurdular. Eyni zamanda bəzən, təbii fəlakətlər zamanı sahələrə dəyən zərər üzündən və ya əkin sahələrinin azlığından bir- çox əkinçi kəndlilər maldarlıqla məşğul olurdular. Məsələn, Cavad, Lənkəran və b. qəzalarda belə hallar tez-tez baş verirdi[1]. Buna görə də hökumət 1853-cü ildə Şimali Azərbaycanda kəndlilərin bir yerdən başqa bir yerə sərbəst şəkildə köçmək hüququ ləğv etməyə cəhd göstərdi. Dövlət köçmə maldar kəndlilərin vergi uçotunu aparmağa çalışdı. Lakin bu da Azərbaycan kəndlilərinin, o cümlədən maldar əhalinin kökü dərin əsrlərə gedib çıxan sərbəst yerdəyişmə hüququnu yerli əhaliyə tərgitdirə, onları torpağa təhkim etdirə bilmədi.

1852-ci il qanunu (natural vergilərin pul vergisi ilə əvəzlənməsi) maldar təsərrüfatların vergi sisteminə müəyyən dəyişikliklər gətirdi. İndi maldarlar üçün vergi hər "tüstü"də olan heyvanın sayına əsasən müəyyənləşdirilməyə başlamışdı. Pulla ödəniləcək verginin tüstü pulu ailənin sosial vəziyyətindən asılı olaraq 5 rubldan 13 rubla qədər dəyişən 5 kateqoriyası müəyyənləşdirilmişdi[2]. Məsələn, 60 baş mal-qarası olan və örüşlərdən istifadə edən maldar 6 rubl, oturaq təsərrüfatda isə qədərindən asılı olaraq 9-13 rubla qədər vergi ödəməli idi. A.Q.Dekonski qeyd edirdi ki, bu qayda uzun müddət davam

---

[1] М.А.Исмаилов О характере так называемого кочевого скотоводства в Азербайджане в XIX - начале XX веков/ Azərbaycan SSR EA xəbərləri, tarix, fəlsəfə, hüquq seriyası,1973, N3, s. 53.

[2] Kərimli A.T. Şimali Azərbaycanda otlaqlardan istifadə və çarizmin torpaq (otlaq-örüş) siyasətinin tarixindən (XIX yüzilliyin sonu XX yüzilliyin əvvəlləri), Pedaqoji Universitet Xəbərləri, 2010, N 6, s. 111.

etmədi.[1] Bundan başqa, Şimali Azərbaycanda maldarların meşələrdən otlaq kimi istifadəsi 1864cü ilə kimi vergi ödənilmədən, sərbəst şəkildə həyata keçirilirdi. Həmin ildə qoyulmuş yeni qaydaya əsasən, meşədən otlaq kimi istifadə üçün hər iribuynuzlu heyvan üçün 10-15 qəpiyə qədər, qoyun üçün 3-4 qəpiyə qədər otlaq haqqın ödənilməli idi. Bunlardan başqa meşədə baş verən problemlərə görə də maldarlardan haqq alınırdı.

H.N. Həsənov göstərir ki, XIX əsrin ikinci yarısında xəzinə kəndlilərinin pay torpaqlarında 152000 desyatin otlaq var idi[2]. Şamaxı qəzasında bu cür torpaqları 50 faizə və Göyçay qəzalarında isə 36.6. faizə çatırdı[3]. Bundan başqa həmin kəndlilər ayrı-ayrı şəxslərdən xeyli miqdarda örüş (qışlaq) icarə edirdilər.

1874-cü ilin qanunlarına əsasən həm sahibkar, həmdə xəzinə maldar kəndliləri üçün otlaqlardan istifadə haqqı bir qədər dəqiqləşdirildi. Söhbət xəzinə torpaqlarında yerləşən otlaqlardan gedirdi və bu, rəsmi sənədlərdə otlaqların icarəsi adlanırdı. Hər iribuynuzlu malqara üçün 10 qəpik, xırdabuynuzlu malqaraya isə 1 qəpik vergi müəyyənləşdirilmişdi. Hər desyatin otlaq üçün müəyyənləşdirilmiş otlaq haqqı çar hökumətini daha çox qane edirdi. Ona görə də imperiyanın Əkinçilik və Dövlət Əmlakı Nazirliyi kəndli əməyini dəyərləndirmədən maldar kəndlilər üçün soyğunçu otlaq haqqı müəyyənləşdirmişdi[4].

1882-ci ildə örüş sahələrindən alınan vergilər haqqında yeni

---

[1] А.Г.Деконский Экономический быт государственных крестьян Шушинском, Джабраильском уезде, Эриванской губернии-МИЭБГКЗК, Т5, часть 1. Тифлис, 1886, s. 318-319.

[2] Həsənov H.N. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan dövlət kəndlilərinin maldar təsərrüfatının bəzi məsələlrinə dair //Azərbaycan SSR, EA xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası, 1989, N 1, s. 48.

[3] Yenə orada.

[4] Варавин И.С.. Летние и зимние пастбища Закавказского края СМИЭБГКЗК, т. 5, часть1, Тифлис, 1888, s. 87-88.

qanun qəbul edildi[1]. Qnuna əsasən maldarlardan natura şəklində yığılan məhsul onda bir vergi ilə əvəz olundu. Qaydalara görə, xəzinə otlaqlarından alınan vergi məmurlar tərəfindən maldar təsərrüfatlarının məhsuldarlığı haqqında toplanmış məlumatlara əsasən yığılmalı idi[2]. Bu qanuna görə bütün xəzinə örüşləri Əkinçilik və Dövlət Əmlak Nazirliyinin sərəncamına verilirdi. Nazirlik otlaqlardan alınan vergi toplama qaydalarını müəyyənləşdirmək üçün Nazirlər Komitəsinə qanun layihəsi hazırlayıb təqdim etmişdi. Qanun 1884-cü ildə qəbul olundu. Bu dəfə otlaqlardan istifadə üçün renta müəyyənləşdi və ayrı-ayrı sahələrin həcminə görə alınmağa başlandı[3]. Lakin bu qaydalar kənd icmalarına aid edilmədi, onlar əvvəlki kimi onda bir vergi ödəməkdə davam etməli idilər. Eyni zamanda sahibkarlar tərəfindən icarəyə götürülümüş otlaqlar köhnə qaydalarla vergi ödəməli idi. Həmin il Muğanda yerləşən və Türkmənçay müqaviləsinə görə Qacarlar imperiyasının təbəələri hesab olunan şahsevən tayfalarının 161min desyatin geniş örüşləri Əkinçilik və Dövlət Əmlak Nazirliyinin sərəncamına verildi.

Təzə qanuna görə xəzinə otlaqlarının hər desyatinindən istifadəyə görə 8-15 qəpiyə bərabər icarə haqqı (renta) müəyyən edilmişdi. Lakin bu qiymətlər yerli dövlət əmlakı idarələri tərəfindən 50 faizə qədər artırıla bilərdi[4]. Ona görə də xəzinə otlaqlarının icarə haqqı hər yerdə eyni deyildi. Azərbaycan maldarları, daha dəqiq isə Bakı və İrəvan quberniyaları yay otlaq-

---

[1] Гаврилов Г.А. О системах пользовании пастбищными землями в Азербайджане в XIX в. // Azərbaycan SSR EA xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, N 2, s. 70.

[2] Yenə orada.

[3] Yenə orada.

[4] Həsənov H.N. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan dövlət kəndlilərinin maldar təsərrüfatının bəzi məsələlərinə dair //Azərbaycan SSR, EA xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası, 1989, N 1, s. 48.

larının hər desyatini üçün 15 qəpik, Yelizavetpol (Gəncə) quberniyası isə 12 qəpik otlaq haqqı ödəməli idi. Yelizavetpol (Gəncə) quberniyası qış otlaqlarının hər desyatinindən istifadə üçün 10 qəpik vergi ödənilməli idi. İcarədarlar Bakı qəzası qışlaqlardan 20 rubl, Şamaxı qəzasında 6 rubl, Naxçıvan, Ordubad bölgələrində hər 100 baş qoyun üçün 6 rubl idi.

Bakı quberniyasının Şamaxı qəzasında 28, Göyçay qəzasında 18 kənd xəzinə torpaqlarına daxil olan otlaqlardan istifadə üçün vergi ödəyirdi[1]. Sonrakı illərdə otlaqların dəyərləndirilməsi üzrə komissiya tərəfindən aparılan işlərdən sonra (ot örtüyü, məsafəsi, su və yol təminatı və sair əlamətlərinə görə otlaqlar fərqləndirilməyə başlandı) vergilər daha da artdı. Otlaqlar qeyd olunan meyarlara əsasən 4 dərəcəyə bölünürdülər.

I dərəcə – hər desyatin üçün 35 qəpik

II dərəcə – hər desyatin üçün 20 qəpik

III dərəcə – hər desyatin üçün 12 qəpik

IV dərəcə – hər desyatin üçün 8 qəpik renta ödəməli idi.

Bu mənada maldar təsərrüfatlarda dövlət kapitalist-icarədar qismində çıxış edir və kəndlinin istismarı daha qabarıq şəkildə görünürdü. Yeni qaydalar otlaqlardan alınan vergilər hesabına xəzinəyə 36 faiz əlavə gəlir gətirmişdi[2].

Sahibkar örüşlərində vəziyyət daha acınacaqlı idi. Belə ki, kapitalist münasibətlərinin maldar təsərrüfatlarda özünü göstərməsi əmtəə maldarlığının formalaşmasını sürətləndirirdi. İnkişaf etməkdə olan maldar təsərrüfatlar dövrün tələblərinə uyğun şəkildə daha sürətlə dəyişirdilər. Maldar təsərrüfatçılar arasında ciddi təbəqələşmə gedirdi, sahibkarlar muzdlu əməkdən daha çox istifadə etməyə çalışırdılar. Torpaq sahibləri daha

[1] Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX - в начале XX века. Баку-2007, s. 149-150.

[2] Гаврилов Г.А. О системах пользовании пастбищными землями в Азербайджане в XIX в. // Azərbaycan SSR EA xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, N2, s. 71.

çox gəlir mənbəyinə çevrilən örüşləri öz əllərində saxlamağa çalışırdılar. İcarədarlıq hətta üçüncü ələ kimi ayrı-ayrı şəxslərin əlinə keçirdi ki, bu da zəif maldar təsərrüfatlarını sürətlə müflisləşdirirdi.

Beləliklə, çarizmin müstəmləkə məkanına daxil edilən Şimali Azərbaycan torpaqları Rusiyada mövcud olan vergi sisteminə elə də tez uyğunlaşdırılmadı. Bunun arxasında, ilk növbədə, işğal rejimi şəraitində çarizmin sistemsiz, soyğunçu və kənardan gətirilən elementlərin hesabına əhalinin etnik tərkibində əsaslı dəyişikliklər etmək, hakim sinifləri himayə etməklə milli vəhdətin yaranmasına mane olmaq, ölkəni imperiyanın xammal bazasına çevirmək, xəzinənin gəlirlərini daim artırmaq kimi müstəmləkəçilik niyyətləri dayanırdı. XIX əsr boyunca çar hökumətinin apardığı islahatlar isə yalnız vergi torlanmasının artırılmasının qayğısına qalmağa yönləndirilmişdi.

Vergi sisteminin natamamlığı aparılan islahatların yarımçıq olmasından xəbər verirdi. Belə ki, torpaq sahələrinin mərzlənməsinin çox ləng aparılması və kəndli gəlirlərinin dəqiqi müəyyənləşdirilməməsi vergi yığımında korrupsiyanın və ədalətsizliyin çox geniş yayılmasına gətirib çıxarırdı. Vergi məmurları çox vaxt dövlətin maraqları adı altında öz şəxsi maraqlarını güdürdülər. Kəndlilərin əksəriyyəti hələ də sahibkar torpağında əkib-becərirdi və sahibkardan asılı idi, ona əvvəlki kimi vergiləri ödəməkdə davam edirdi. Xəzinə kəndliləri isə ümumiyyətlə rəsmən dövlətin feodal asılılığında qalımışdır.

Çar hökumətinin Cənubi Qafqazda apardığı ədalətsiz milli-müstəmləkəçilik siyasəti vergilərdə də özünü göstərirdi. Kəndlilər natural vergilərin ağır yükündən azad olmamış ilboyu çoxlu sayda ağır mükəlləfiyyətlər yerinə yetirirdilər. Regionun yalnız iki quberniyası – Yelizavetpol (Gəncə) və Bakı quberniyaları bütün vergilərin 50 faizini, İrəvan quberniyası ilə birlikdə isə 76%-dən çoxunu ödəyirdi. Cənubi Qafqazdakı quber-

niyalar arasında ən çox vergi ödəyiciləri Azərbaycan kəndliləri, ən az vergi ödəyicisi Gürcüstan idi. Bu mənada XIX əsr boyunca xalqımız çarizmin Cənubi Qafqazdakı bütün idarəetmə aparatının mövcudatının xərclərini öz çiyinlərində daşıyırdı, əvəzində isə heç nə almırdı. İslahatlar çox ləng gedir, yeni texnologiyalar tətbiq olunmur, suvarma layihələrinin əksəriyyəti kağız üzərində qalırdı.

Vergi sistemi silki münasibətləri daha da kəskinləşdirdi, sosial qütbləşməni dərinləşdirdi. Kəndlilər vergilərin məngənəsində əzilirdilər, onlar öz təsərrüfatlarını yeni sisteminin tələblərinə uyğunlaşdırmağa macal tapmır, sahələrini genişləndirmək imkanlarını itirirdilər. Vergi siyasəti aztorpaqlı və torpaqsız kəndlilərin sayını daha da artırırdı, yoxsulluğu genişləndirirdi. Yoxsul kəndlilərin əksəriyyəti qolçomaq sahələrində və ya şəhərdə muzdlu əmək ordusunun tərkib hissəsinə çevrilirdi.

# II fəsil
# ÇARİZMİN MÜSTƏMLƏKƏ SİYASƏTİ VƏ ŞİMALİ AZƏRBAYCAN SƏNAYESİ

## 2.1 Azərbaycanın təbii sərvətlərinin istismarı

Bütün dünya ölkələrinin bir-biri ilə iqtisadi əlaqələri var, bu əlaqələrin formaları müxtəlifdir və bu formalar milli iqtisadiyyata təsir göstərir. Qlobal iqtisadiyyat sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq dövlətlərin beynəlmiləlləşməsi və ya birləşməsi meyli ilə xarakterizə olunur. Bu prosesdə əsas rolu beynəlxalq əmək bölgüsü (BƏB) oynayır. Beynəlxalq əmək bölgüsü ölkələrin müəyyən əmtəə növlərinin istehsalında ixtisaslaşması ilə sonrakı mübadilədə özünü büruzə verir və ictimai inkişaf prosesində istehsal fəaliyyətinin keyfiyyətcə fərqlənməsi nəticəsində formalaşır. Antik dövrdə əmək bölgüsü təbii surətdə baş verirmiş bu müddət ərzində maldarlıq əkinçilikdən ayrılmış, ardınca sənətkarlıq müstəqil fəaliyyət növünə çevrilmişdir. Heyvandarlıq məhsulları istehsalında ixtisaslaşan ovçu və maldar tayfaları onları əkinçi məhsulları ilə mübadilə edirdilər. Növbəti mərhələdə – orta əsrlərdə – şəhər və kənd sakinlərinin əmək fəaliyyəti növləri üzrə ixtisaslaşması bu iki yaşayış məntəqəsinin bir-birindən ayrılmasına gətirib çıxartmışdı. Bununla bağlı Qərbi Avropa şəhərlərini xüsusi qeyd etmək lazımdır ki, burada gildiya, daha sonra sənaye və funksional əmək bölgüsü ilə istehsalat inkişaf edirdi. Nəticədə daxili və xarici bazarlarda satılan malların həcmində xeyli artım müşahidə edilmişdir. Bu müddət ərzində ölkələr arasında geniş məhsul və ticarət mübadiləsi qurulur və dəniz gəmiçiliyi vasitəsi ilə çox asanlaşan yeni torpaqların kəşfi – Şimali və Cənubi Amerika, Avstraliya, Cənub-Şərqi Asiya və s. – baş tutmuşdur. XVIII – XIX əsrlərdə Böyük Britaniyada başlamış Böyük Sə-

naye inqilabı istehsalda “manufaktur” istehsalatını ortaya çıxardır. “Manufaktur istehsalatı” xammalın və ya hissələrin alətlərdən, insan əməyindən, maşınlardan və kimyəvi emaldan istifadə etməklə hazır məhsula çevrilməsi prosesidir[1]. Beləliklə, yeni istehsal növü yeni iqtisadiyyat növlərinin yaranmasına təkan vermişdi.

XIX əsr dünya iqtisadiyyatının strukturunda kənd təsərrüfatı mütləq üstünlüyü təşkil edirdi, sənaye deyildiyində isə əsasən sənətkarlıq sənayesi və kiçik müəssisələr üzərində qurulmuş yüngül və qida sənayesi nəzərdə tutulurdu. Birinci Dünya müharibəsinə qədər Rusiya imperiyasında əhalinin 75%-i kənd təsərrüfatında, 9%-i sənayedə, 16%-i isə xidmət sektorunda çalışırdı. XIX əsrdə Rusiya imperiyasının əhalisinin 70 milyonu savadsız idi, onlardan 70% 9 yaşdan 49 yaşa qədər kişilər təşkil edirdi, orta ömür uzunluğu 35 il idi. Faydalı ərzaq məhsullarının illik istehlakı tələb olunan həddən xeyli aşağı idi, adambaşına ildə 29 kq ət və 11 kq meyvə və tərəvəz təşkil edirdi[2]. Bütün bu göstəricilər onu göstərir ki, Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyasının tərkibinə girdiyi XIX əsrdə bu imperiya digər dünya gücləri ilə müqayisədə kifayyət qədər kasıb bir ölkə hesab edilirdi. 1853-1856-cı illərin Krım müharibəsində məğlubiyyətindən sonra hökumət aparıcı dünya dövlətlərindən Rusiya iqtisadiyyatının geridə qaldığını başa düşür və bu geriliyi aradan qaldırmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsinə başlamışdır. Tədbirlərin arasında “güzəştli tariflərin” ləğv edilməsi, “azad ticarətə” dair doktrinanın qəbulu, nəqliyyatın təkmilləşdirilməsi və yeni dəmir yollarının, su nəqliyyat

---

[1] Александров, Е. Мировая экономика и международные экономические отношения / Е. Александров, В. Круглов. - Москва: Финансовый университет, - 2017, 98 s.

[2] Булатов, А. Мировая экономика / А.Булатов. - Москва: Экономист. – 2003, 354 s.

kanallarının inşası var idi[1]. 1861-ci ildə təhkimçiliyin ləğv edilməsi haqqında "Manifest" imzalanmışdır və bununla Rusiya imperiyasının kapitalist iqtisadi əlaqələrinə keçidi həyata keçirilmişdir. Kapitalizm – dövlətin subyektləri, vətəndaşları arasında sosial və iqtisadi münasibətlərin yeni formasıdır ki, burada iqtisadi resursların burjuaziya və iri sənaye ilə kommersiya sahibləri arasında yenidən bölüşdürülməsi həyata keçirilir. Kapitalist sisteminin hüquqi əsasını xüsusi mülkiyyət hüququnun qanunvericiliklə möhkəmləndirilməsi və onun dövlət sistemindən ayrılmazlığı təşkil edir[2]. 1828-ci ildə Rusiya imperiyasında "Manufaktura surası" təsis edilmişdir. Təsis haqqında rəsmi sənəddə yazılırdı: *"Dövlət İqtisadiyyatı Departamentinin Dövlət Şurası Maliyyə Nazirliyinin Manufaktura şurasının yaradılması ilə bağlı təklifini araşdırıb və hesab edir ki, ölkəmizdə fabrika müəssisələrinin tədricən çoxalması ilə belə bir qurum özəl fabriklər haqqında ətraflı məlumatları toplamaq üçün hökumətin istifadə edə biləcəyi bir vasitə ola bilər. Həmçinin, bu qurum həm də fabriklərin təkmilləşdirilməsinə xidmət edərək, kimya və mexanika elmlərdən yeni biliklər əldə etməyə kömək edəcək"*[3]. Bu təşkilatın əsas vəzifəsi sənaye müəssisələrinin sahibləri tərəfindən verilən məlumatların dəqiqləşdirilməsi, işçilərlə işəgötürənlər arasında yaranan münaqişələrin həlli, sənaye və kommersiya fəaliyyətinin təşkili ilə bağlı təkliflərə baxmaq, istehsalat cəmiyyətlərinin fəaliyyətini və istehsal sərgilərinin təşkil edilməsi, sənayenin inkişafı, istehsalçıla-

[1] Гладков, И. Развитие российской промышленности в XIX - начале XX веков // - Москва: Региональная экономика: теория и практика. - 2009. №5 (98), s. 72-76.

[2] Струмилин, С. Очерки экономической истории России и СССР / С. Струмилин. - Москва: Наука. – 1966, s. 371

[3] Колесников, А. К истории организации экспертизы изобретений / А.Колесников. - Москва: ФИПС. – 2018, s. 39

rın yeni müasir ixtiralarla tanış edilməsi, bunun üçün kitabların, xaricdə istehsal edilən məhsulların nümunələrini almaq ölkəyə gətirmək idi[1]. XIX əsrin 80-ci illərinin ortaları fabriklərə keçid mənasında dönüş nöqtəsi kimi dəyərləndirilir, XIX əsrin 90-cı illəri isə sənaye inqilabının dərinləşməsi və sənaye proletariatının formalaşması dövrü olmuşdur[2] . Belə, XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədər sənaye sektorunda bir sıra mühüm innovativ dəyişikliklər həyata keçirilmişdi. İri mülkiyyətçilərin fundamental hüquqlarının möhkəmlənməsi və davam edən dəyişikliklər müəyyən sektorlar üzrə sənaye müəssisələrinin sayında da öz əksini tapdı: *"1850-60-cı illərdə fabriklərin sayı 25-dən 99-a, işçilərin sayı 1470-dən 11 min 600 nəfərə yüksəldi"*. Bundan əlavə, baş verən transformasiya nəticəsində neft hasilatı kimi yeni sənaye növləri yarandı və bu sahədə mühüm uğurlar əldə edilmişdi; kömür və metal emalı sənayesi hasilatı 16 dəfədən çox artırmışdır; dəmir yolu qovşaqlarının tikintisi, eləcə də mərkəzləşdirilmiş yol təminatının təşkili dünyanın ən böyük ölkəsinin müxtəlif hissələrini etibarlı şəkildə birləşdirməyə imkan vermişdi, çar hökumətinin bu sahədə ən mühüm layihəsi Trans-Sibir dəmir yolunun tikintisi idi; həmçinin kimya sənayesinin yaranması sənaye istehsalının yüksək göstəricilərinə nail olmağa imkan vermişdi[3] .

XIX əsrin ilk yarısında Rusiya imperiyasının tərkibinə daxil olan Şimali Azərbaycan baş verən bütün bu proseslərdən kənarda qalmamış, Rusiya imperiyası ilə paralel keçmişdir.

---

[1] Высочайше утвержденного Мнения Государственного Совета, 19 января 1898 года, s. 159, «Собрании узаконений и распоряжений правительства», № 18, 1898, – s.168

[2] Исмаилова, А. Исследование социально-экономического развития Южного Кавказа в XIX - начале XX вв. в дореволюционной и советской историографии // s. 260 – Кабардино-Балкария: «Кавказология», - 2022. № 4, s. 256-277.

[3] Gregory, P. Economic growth of Russian Empire (end of XIX - beginning of XX century) / P.Gregory. - Moscow: Rosspen. - 2003. - s. 206

Azərbaycan tarix boyu Mərkəzi Asiyanı Anadolu və Qara dəniz bölgələri ilə, Şərqi Qərblə, Şimalı Cənub ilə birləşdirən, İpək yolunun, xüsusən də Qafqaz regionunun inkişafında mühüm rol oynayan, geo-strateji mövqeyinə görə bir sıra imperiyanın diqqətini cəlb edən diyar olmuşdur: *"Xəzər dənizinin qərb sahilində və Qafqaz dağlarının ətəyində yerləşən ölkə qədim zamanlardan quru və dəniz yolu ilə gələn tacirləri bir araya toplayan sivilizasiyaların əsas qovşağı olub"*[1] . Bu, təkcə malların deyil, ideya və ənənələrin, dinlərin və mədəniyyətlərin mübadiləsi üçün böyük mərkəzin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Azərbaycanda ilk güman edilən ticarət yolları hələ eramızdan əvvəl 5-ci əsrdə qurulmuşdur ki, bu dövrə aid Misir və Roma artefaktlarının tapılması buna sübutdur. Eramızdan əvvəl I əsrdə Roma imperiyası ilə Çin Han sülaləsi arasında ticarət Qafqaz və Xəzər dənizindən keçən şimal ticarət yolu ilə aparılmışdır və bu şimal marşrutunun böyük hissəsi boyunca həm Xəzər dənizi, həm də çaylar vasitəsilə daşınma quru yollarından daha ucuz və bəzən daha səmərəli idi. Güclü küləklərdən qorunan regionda tanınmış liman olan Bakı buxtası Xəzər dənizinin ən yaxşı limanlarından biri hesab olunurdu və bununla da Azərbaycan sahillərinə gələn qonaqları cəlb edirdi. "Azərbaycan VII-IX əsrlərdə" adlı fundamental əsərində akademik Ziya Bünyadov yazırdı ki, orta əsr yazılı mənbələri və qazıntı materialları müəyyən etməyə imkan verir ki, tədqiq olunan dövrdə Azərbaycanda və Aranda artıq ictimai əmək bölgüsü mövcud olub, sənətkarlıq kənd təsərrüfatından ayrılıb, sənətkarlığın şəhərlərdə cəmlənməsi, şəhərin kənddən tam ayrılması baş vermişdi. Beynəlxalq tranzit ticarətinin əsas yollarında mənbələrdə "böyük" və "şanlı" adlandırılan böyük

[1] Азербайджан на Шёлковом пути
URL: https://ru.unesco.org/silkroad/content/azerbaydzhanskaya-respublika-okazyvaet-podderzhku-onlayn-platforme-yunesko-shelkovyy-put

şəhərlər mövcud idi[1] Bölgədə zəngin və rəngarəng mədəni inkişaf dövrü olan orta əsrlər boyu Azərbaycan uzun müddət İpək Yolu üzərində mühüm ticarət mərkəzi olmuşdur, Bakı, Naxçıvan, Bərdə, Şəki, Gəncə şəhərlərində, digərləri ilə yanaşı, orta əsr abidələri və memarlıq incilərini görmək olar[2]. Bu isə o deməkdir ki, Şimali Azərbaycan ərazilərində istehsal fəaliyyəti uzun əsrlər boyu artıq mövcud idi. XVIII əsrdə buraya işğal məqsədilə gələn Rusiya imperiyası zəngin ticarət və manufaktur istehsalatı olan ərazi uğrunda mübarizə aparmışdı. XIX əsrin ilk yarısında, 1836-cı ildə nəşr olunan "Qafqazın o tayında rus mülklərinin icmalında" ("Обозрение российских владений за Кавказом") Cənubi Qafqaz ərazilərində iqlim, sular, təbii sərvətlər, əhalinin tərkibi və mədəniyyəti, sənayesi və "xalqın sərvəti" haqqında geniş məlumat verilmişdir. Komissiyanın üzvləri Şimali Azərbaycanda mövcud olan sənayelərdən mədən sənayesi, metallurgiya, kimya sənayesi, yüngül sənaye və qida sənayesinin inkişaf etdiyini bildirmişdilər. Məsələn, metallurgiya sənayesi haqqında məlumat verən mənbə mis mədənlərindən Qafqazda qədim zamanlardan geniş istifadə olunduğunu yazır.

XIX əsrin sonlarına qədər metalların emalı əsas silah istehsalı ilə əlaqəli idi. Bunun üçün dəmirin xüsusi dəyəri var idi. Xəzər dənizinin dibindən neftin çıxarılmasının "atası" adlandırılan polyak əsilli rus geoloqu Vitold Zqlenitskinin sözlərinə görə, metal emal edən mütəxəssislərin çoxu Tbilisi və Bakıda olub. Bakıda 130 nəfər, Şamaxıda 25, Salyanda 13, Qubada 12,

---

[1] Буниятов З. s. 147-160

[2] Азербайджан на Шёлковом пути
URL: https://ru.unesco.org/silkroad/content/azerbaydzhanskaya-respublika-okazyvaet-podderzhku-onlayn-platforme-yunesko-shelkovyy-put

Gəncədə 33, İrəvanda 25, Şəkidə 22, Şuşada 13 nəfər usta yaşayırdı[1]. Bu sənətkarların hər biri bir əşya üzrə ixtisaslaşmış, bəziləri silah ustası, digəri isə qadın zinət əşyaları, metal kəmərlər, eləcə də at ləvazimatları istehsal edirdilər. Mis qablar Qafqazda məşhurdu və hər yerdə, təkcə kəndlərdə deyil, böyük şəhərlərdə də istifadə olunurdu. Qafqazda mis qabların istehsalı ilə məşğul olan ən məşhur yer Şamaxı rayonunun Lahıc kəndi idi: "*Qafqazın varlı ailələri hər fürsətdə öz mis qablar kolleksiyasını nümayiş etməyə çalışırdılar, çünki mis qablara sahib olmamaq yoxsulluğun əlaməti sayılırdı. Misdən boşqablar, çıraqlar, qazanlar, küplər, paltar yumaq və çimmək üçün nəhəng çanaqlar, nimçələr hazırlanırdı və bu məhsullar təkcə yerli əhali üçün deyil, həm də İran və Kiçik Asiyaya ixrac edilirdi*"[2]. Geniş istehsalın nəticəsində Azərbaycanda mis qabların hazırlanması xüsusi sənətə çevrilmiş, "misgərlik" adını almışdır. 1855-ci ildə Gədəbəy rayonu ərazisində yerli bəylər tərəfindən ilk kiçik misəritmə zavodu tikilmişdir. Burada illik 14 min 100 rubl dəyərində 1200 pud məhsul istehsal edilirdi[3]. 1856-cı ildə növbəti misəritmə zavodu Daşkəsəndə tikilir. 1864-cu ildə Gədəbəy zavodu Prussiya vətəndaşı Valter Simens tərəfindən alınır və 1865-ci ildə burada "Simens" şirkətinə aid yeni genişlənmiş zavod fəaliyyətə başlayır. 1883-cü ildə növbəti zavod Qalakənd ərazisində tikilir. 1890-cu ildə nəşr olunmuş "Kaspi" qəzetində "Simens" zavodları haqqında bu məlumat çap olunmuşdur: "Gədəbəy və Qalakənd misəritmə

---

[1] Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4 , - СПб: тип. Департамента внешней торговли, - 1836, s. 87

[2] Пиралов, А. Краткий очерк кустарных промыслов Кавказа / А.Пиралов. - СПб: «Якорь». – 1913, - s. 98-99.

[3] Сумбатзаде, А. Промышленность Азербайджана в XIX в. / А.Сумбатзаде. - Баку: Издательство АН АССР. - 1964. - s. 252

zavodlarında misdən qəhvəyi çöküntü alınır, sonralar bu çöküntüdə xeyli miqdarda qızıl və gümüş tapılmışdır. Əldə edilən qızıl və gümüş Berlinə göndərilir"[1] . Statistik məlumatlara görə XIX əsrin sadəcə son 20 ilində (1880-1900) Gədəbəy mədənlərində emal edilən misin miqdarı 35 milyon pud təşkil etmişdi, buradan 74,5% təmiz mis, 22% qədər gümüş və 1,5% qədər qızıl əldə edilmişdir[2].

O dövrün bir sıra mənbələri Şimali Azərbaycanın ən zəngin təbii sərvətinin Xəzər dənizinin olduğunu vurğulayırlar. 1883-cu ildə "Cənubi Qafqaza Rusların yolu" adlı əsərində Çar hökumətinin görkəmli geosiyasətçilərindən biri, Qafqaz canişinliyində hərbi mühəndis vəzifəsində çalışan Nikolay Şavrov Xəzər dənizinin Rusiya imperiyası üçün əhəmiyyətini geniş izah etmişdir. Burada o, Xəzər hövzəsinin əhəmiyyətini ona bitişik torpaqların Rusiya üçün əhəmiyyəti ilə müəyyən edilməsini vurğulayır. Volqa-Xəzər su yolu Xəzər dənizinin sahillərindən daxili əyalətlərə yüklərin daşınması üçün ucuz su yolu hesab edilirdi: "*Xəzər hövzəsindən pambıq və digər xammalın ucuz çatdırılması zavodlarımızın əcnəbilərdən asılı mövqeyini tamamilə dəyişə bilər. Terekdən cənuba Astaraya qədər, Bakının susuz ətrafı və Kür çayının mənsəbindəki seyrək məskunlaşmış çöllər istisna olmaqla – bütün sahil Cənub Qafqazın zəngin ölkəsini, ən yaxşı bağını təmsil edir. Rusiyada yetişdirilən və gəlir gətirə bilməyən pambıq, tütün, düyü, küncüt, boyama bitkiləri kimi kənd təsərrüfatı məhsulları, burada daha az maddi sərfiyyatla yetişdirilir. Bakının ətrafı öz dərinliklərində saysız-hesabsız neft və onun məhsullarını gizlədir ki, bu da rahat kommunikasiya yolları ilə təkcə bütün Rusiyanı deyil, həm də bütün Avropanı təmin edə bilər. Həmçinin cənubda, Kür çayının aşağı axarında, Rusiyanın bütün daxili əyalətlərini təmin etməyə*

1 «Каспий» газета, 1890, № 140.

2 Сумбатзаде, А. Промышленность Азербайджана в XIX в. / А.Сумбатзаде. - Баку: Издательство АН АССР. - 1964. - s. 260-263

*qadir olan dünyanın ən zəngin balıqçılıq təsərrüfatı var"*[1]. Bundan əlavə, Xəzər dənizinin cənub sahili Gilan və Mazandaran kimi iki zəngin əyalətlərə çıxır. Bu əyalətlərdə portağal, xurma ağacları, şəkər qamışı və s. kimi əhəmiyyətli bar yetişirdi və bu barı əldə etmək üçün Şavrov Təbrizdən Astaraya kiçik bir yolun inşa edilməsini təklif edirdi. Bu yolun digər faydası rus mallarının İran bazarına çıxmasına şərait yarada bilməsi idi. Tehrandan Xəzər dənizi sahillərinə və limanlarına fransızlar tərəfindən inşa edilən dəmir yolunun tikintisi Qəzvindən keçərək Rəştə qədər uzanırdı. Astaradan keçən bu xəttin Cənubi Qafqaz dəmir yolu ilə birləşdirilməsi Çar hökumətinə İran ticarət yollarının zənginliyinə və müxtəlifliyinə qapılar açacaqdı: *"Xəzər dənizinin bütün ərazisi yalnız bizim icazəmizlə avropalılar üçün əlçatan bir bazardır. Ona görə də Rusiyanın rifahı və əzəməti üçün qonşu ölkələrin nəhəng təbii sərvətindən və məhsuldarlığından yararlanmaq mütləqdir!"*. Xəzər dənizinin sahilində yerləşən ərazilərin dəyərləndirilməsini aparan komissiya Bakı quberniyasının xəzinəyə gətirə biləcək faydalarını burada üzüm, heyva, nar, əncir, püstə və s. meyvələrin, xiyar, qarpız, qovun, soğan, sarımsaq, yerkökü, kələm və kartof kimi tərəvəzlərin, dərman bitkiləri arasında biyan kökü və keklikotunun yetişdirilməsinə diqqəti cəlb edir, Şıxov kəndində zeytun ağaclarının bitməsi və ən əhəmiyyətli sərvətlərdən burada duzun və neftin "böyük sərvət təşkil etdiyini" deyirdi. Əsas duz mənbələri eyniadlı kəndlərdə yerləşən Masazır və Zığ gölü idi. "*Masazır gölündən hər yay 150 min pud duz çıxarılırdı, lazım gələrsə, 320 min puda qədər istehsal oluna bilərdi. Zığ Masazırla müqayisədə daha az miqdarda, cəmi 25-250 pud duz istehsal edirdi. Bu ərazilərlə yanaşı, Qala və Məhəmmədli, Balaxanı, Qarayataq gölü, Binəqədi, Maştağa və Kürdəxanı,*

---

[1] Шавров, Н. Русский путь в Закавказье / Н.Шавров. - СПб: тип. А.Суворина. – 1883, s. 22

*Xocəsən kəndlərində də duz hasil edilir"*[1]. Duz hasilatından və İrana satışından çar xəzinəsi hər il ortalama 500 min rubl gəlir əldə etmişdir[2]. Zəfəran əkini isə Bakı quberniyasında ən çox əhalini istehsala cəlb edən sahə idi və yerli əhali üçün çox mühüm gəlir mənbəyi kimi göstərilmişdir: "*Abşeron yarımadasının cənub-şərqində əlverişli torpaq sahəsi olmayan 5-6 kənd istisna olmaqla, demək olar ki, bütün digər kəndlərdə zəfəran becərilir*"[3]. Bakıdan zəfəranın ixracını hesablayan komissiya müəyyən etmişdir ki, burada 1000 puda qədər məhsul çıxarılır və bundan 360 min rubl gəlir əldə edilir: "Zəfəranı farslara satan tacirlər isə əlavə 200 min rubl gəlir əldə edirlər"[4]. Zəfərandan sonra boyaqotunun (marena bitkisi) becərilməsi ikinci yerdə idi[5]. XIX əsrin 70-ci illərinə qədər boyaqotunun əkildiyi əsas ərazi Quba rayonu idi.

Xəzər dənizinin özündə ehtiva etdiyi və Rusiya sənayesi üçün çox faydalı və gəlirli olan təbii sərvətlər haqqında əldə edilən ən maraqlı məlumatlardan biri Xəzər dənizində suiti ovu və suiti məhsullarının sənayedə istifadəsi ilə bağlıdır. Məsələn, Xəzər dənizinin təbii sərvətlərini təsvir edən komissiya üzvləri Xəzərin suitlərlə zəngin olduğunu və onları adalarda tutmaq hökumətin ixtiyarına verildiyi deyirdi. Əsas ov Çilov adasında

---

[1] Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4 / - СПб: тип. Департамента внешней торговли, - 1836, s. 34-35

[2] Сумбатзаде, А. Промышленность Азербайджана в XIX в. / А.Сумбатзаде, - Баку: Издательство АН АССР. – 1964, s. 216-230

[3] Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4 / - СПб: тип. Департамента внешней торговли, - 1836, s.54

[4] Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4 / - СПб: тип. Департамента внешней торговли, - 1836, s. 58

[5] Гагемейстер, Ю. Закавказские очерки / Ю.Гагемейстер. - СПб: тип. Министерства внутренних дел. – 1845, s. 26.

aparılırdı: "Bərəkətli illərdə 4000-ə qədər suiti öldürülür. Xəzinəyə 2000 rubl ödəyən sənayeçilər bu ovlardan özləri daha çox qazanır. Suitinin piyi və dərisi Həştərxana göndərilir, burada piy sabun istehsalı və işıqlandırmada istifadə olunurdu"[1]. Lakin ən çox gəlir gətirən sahə balıqçılıq idi. Şimali Azərbaycanda dənizçilik məktəbinin qurucularından biri və ilk dənizçilik sinfi inspektoru birinci dərəcəli kapitan Filippov Nikolay Makaroviç öz "Xəzər su hövzəsinin dəniz coğrafiyası" əsərində yazırdı ki, balıqçılıq öz ölçüsünə və milli iqtisadiyyat üçün əhəmiyyətinə görə çörəkdən sonra ikinci əhəmiyyətli sahə hesab edilirdi: "Bütün dünyada Xəzər qədər müxtəlif növ balıqlarla zəngin ikinci dəniz yoxdur. Uzunluğu 1000 verst və eni 300 verst olan ərazidə çoxlu sayda qayıqda balıq ovu aparılır. Hər il qayıqların sayı artsa da, lakin dənizdə balıqların tükənməsi heç müşahidə olunmur"[2]. Hər yazda Volqa çayının buzu açılanda onun çoxlu qolları boyunca dənizdən gələn saysız-hesabsız balıqlar çaya axışırdı. Balıq o qədər çox idi ki, Filippovun sözlərinə görə, ona bir çubuq batırılsa, bu çubuq bir neçə dəqiqə axınla yuxarı hərəkət edəcək, çünki onu bir-biri ilə sıx şəkildə hərəkət edən balıqlar üz üzərində aparacaq[3] 1853-56-cı illərdə Xəzər dənizinə ekspedisiya ilə gələn akademik Ber öz hesabatında yazırdı: "Şübhə edirəm ki, bütün dünyanın hər hansı bir yerində iqtisadiyyatın gəlir maddələrində balıqçılıq ayrıca bir maddə kimi verilsin, çünki heç yerdə "Allah Mədənində" ("Божий промысел") olduğu kimi balıqçılıqdan belə

---

[1] Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4 / - СПб: тип. Департамента внешней торговли, - 1836, s. 23-24

[2] Филиппов Н. Морская география Каспийского водоёма или лоция / Н. Филиппов. - Москва: тип. Н. Куманина. - 1884-1885, s. 287-288.

[3] Филиппов Н. Морская география Каспийского водоёма или лоция / Н. Филиппов. - Москва: тип. Н. Куманина. - 1884-1885, s. 288.

böyük gəlir əldə edilmir”[1] . “Allah Mədəni” Salyan rayonunda yerləşən ən böyük balıq vətəgələrindən biriydi. Akademik Berin məlumatına görə, burada hər il 1000-1200 beluga balığı, 20-30 min nərə balığı, 150-200 min uzunburun balığı və 90 min naqqa balığı tutulurdu[2]. 1829-cu ildə “Salyan qəyyumluğu” təşkil olunmuş, Kür çayı boyunca ən iri vətəgələri özündə birləşdirmişdi[3]. Kür və ya Salyan balıqçılıq təsərrüfatı Kürün bütün aşağı axınını tutur, Qızıl-Ağaç balıqçılıq təsərrüfatını, Qızılağacdan cənubda Astaraya qədər olan bütün balıqçılıq müəssisələrini əhatə edirdi. Rusiyaya qoşulmazdan əvvəl Salyan vətəgələri Şirvan xanlarına, Qızılağac vətəgəsi isə Talış xanlarına məxsus idi. Şimali Azərbaycan ərazisinin Rusiya tabeçiliyinə keçdikdən sonra balıqçılıq çar xəzinəsinin mülkiyyətinə keçir, daha sonra isə ayrı-ayrı şəxslərə “otkup” deyilən açıq hərraca (iltizama) verilməyə başlanmışdı. Bu dövrdə xəzinəyə ildə 170 min rubl gəlir gəlirdi, daha sonra gəlir 312 min rubla qədər artmışdır[4]. Lakin, iltizamçılar balıq ovuna ehtiyatsız və qayğısız yanaşdıqları üçün dövlət balıq ovunu nəzarət altına almağa qərar vermişdir. Belə, Kürdə fevraldan may ayına kimi balıq ovu qadağan edilmişdi. Balıq ovunun ən “qızıl dövrü” mart ayı hesab olunurdu: bu ayda ümumi illik gəlirin dörddə üçü kirayəçilər tərəfindən əldə edilir, lakin xəzinəyə bu gəlir çatmırdı. Bu səbəbdən, 1880-ci ildə vətəgələrin mülki şəxslər tərəfindən icarəsi ləğv edilmiş, vətəgələr dövlət nəzarətinə verilmişdir. XIX əsrin sonlarında Şima-

---

[1] Соловьев М. Бэр на Каспии / М.Соловьев. - Москва: Издательство АН СССР. – 1941, s. 87

[2] Соловьев М. Бэр на Каспии / М.Соловьев. - Москва: Издательство АН СССР. – 1941, s. 87

[3] Vəliyeva X. XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanda balıqçılıq və balıq sənayəsi haqqında // -Bakı: Tarix və onun problemləri. - 2009. № 1-2. - s. 55-61.

[4] Соловьев М. Бэр на Каспии / М.Соловьев. - Москва: Издательство АН СССР. – 1941, s. 87

li Azərbaycanda Kür-Xəzər sahillərində çar hökuməti 16 balıqçılıq təsərrüfatını istismar edirdi və ildə bu vətəgələr təxminən 400 min rubl gəlir gətirirdi[1].

Xəzər dənizinin digər ən gəlirli təbii sərvəti neft idi. Filippovun sözlərinə görə XIX əsrdə "neftin çıxarılması və ondan Bakıda fotogen adlandırılan kerosinin alınması, müxtəlif növ sürtkü yağları dünya miqyasında şöhrət qazanmışdır"[2]. 1879-cu ilə qədər Bakıda qazma quyularının sayı təxminən 301 idi: Balaxanıda 47, Sabunçu, Zabrat və Ramanada 204, Bibiheybətdə 19, Suraxanıda 22, Binəqədidə 4, Masazırda 2, Bülbülədə 1, Kürdəxanıda 2.[3]. Şimali Azərbaycanda sənaye miqyasında neft hasilatı 1859-cu ildə Suraxanı kəndində ilk neft emalı zavodunun tikintisi ilə başlanmışdır. 1886-cı ildə nəşr edilən "Mədən jurnalında" çap olunan "Bakı nefti" adlı məqalədə Bakıda neftin hələ XIII əsrdə çıxarılması haqqında məlumat verilmişdi: "XIII əsrin ikinci yarısında Asiyaya səyahəti zamanı Bakıda olmuş Marko Polonun ifadələri maraq doğurur. Onun şahidliyinə görə, Bakıdan dəvələrlə qonşu ərazilərə neft daşınırdı, hətta Bağdada da çatan və işıqlandırmada istifadə olunan neft onun yazılarında təsvir edilmişdi. Xüsusilə maraqlıdır ki, o vaxtlar məlum olan neft fontanları haqqında yazan Marko Polo deyirdi ki, neft fontanları o qədər güclüdür ki, bir saat ərzində onlar yüz gəmiyə neft yükləyə bilirdilər"[4]. 1860-cı illərə qədər neft əsasən qır istehsalında istifadə edilmişdir. 1838-ci ildə neft gəlirləri əhəmiyyətsiz idi, cəmi 75 min rubl. 1844-cü

---

[1] Сумбатзаде А. Промышленность Азербайджана в XIX в. / А.Сумбатзаде. - Баку: Издательство АН АССР. – 1964, s. 298

[2] Филиппов Н. Морская география Каспийского водоёма или лоция / Н. Филиппов , - Москва: тип. Н. Куманина. - 1884-1885, s. 314

[3] Филиппов Н. Морская география Каспийского водоёма или лоция / Н. Филиппов. - Москва: тип. Н. Куманина. - 1884-1885, s. 322

[4] Энглер К. Бакинская нефть // - СПб.: Горный журнал. - 1886. № 10 (октябрь). - s. 32-91.

ildə Balaxanıda 85 quyu işləmiş, ondan 230 min pud neft çıxarılmışdır. Istehsal köhnə üsulla aparılmışdı, avadanlığın islahatı üçün xəzinədən 14 min rubl istənilsə də, xəzinə bu xərcin xəzinə üçün çox yüklü olduğunu deyərək bu vəsaiti verməmişdi[1]. Lakin 1860-cı illərdən sonra bir sıra zavodun inşası ilə neft emalında yeni istiqamətlər yaranmışdı. 1863-cü ildən başlayaraq Suraxanı neft emalı zavodunda "fotogen" adı altında bilinən kerosin istehsalı başlanmışdı[2]. Bakı "dünyanın nəhəng kerosin laboratoriyasına" çevrilmişdir[3]. 1861-ci ildə təhkimçiliyin ləğvindən sonra sənaye daha sürətlə inkişaf etməyə başladı, bu da yanacağa ehtiyacın artmasına səbəb oldu. 1864-cü ildən başlayaraq kerosin – "fotonaftil" Rusiya imperiyasının daxili bazarına ixrac edilməyə başlamışdır. 1865-ci ildə Bakıdan Rusiyaya 100 min pud kerosin ixrac edilmişdir. 1863-1872-ci illər arasında Bakıda neft hasilatının həcmi 395 min puddan 1 milyon puda çatmışdır[4]. 1872-ci ildə neft sənayesində iltizam sistemi ləğv edilmişdir və 1873-1901-ci illərdə Bakıda neft hasilatı 165 dəfə artmışdır. Əgər 1873-cü ildə 3,9 milyon pud istehsal edilmişdisə, 1901-ci ildə istehsal 667,1 milyon pud təşkil etmişdir[5]. Bundan əlavə, 1879-cu ildə Bakıdan daxili quberniyalara 6,7 milyon pud, 1891-ci ildə isə təxminən 90 milyon

---

[1] Кривенко, В. Очерки Кавказа / В. Кривенко. - СПб: тип. А.Суворина, - 1893, s. 158

[2] Гулишамбаров С. Краткий очерк развития керосинового производства на Кавказе // - СПб.: Императорское Русское техническое общество. – 1887, - s. 7.

[3] Кривенко В. Очерки Кавказа / В. Кривенко. - СПб: тип. А.Суворина. – 1893, s. 156.

[4] Самедов В. Нефтяная промышленность в Азербайджане в 70-х - начале 80-х годов XIX в. // - Bakı: "İrs" jurnalı, - 2014. № 3 (69), - s. 34-39.

[5] Исмаилова А. Исследование социально-экономического развития Южного Кавказа в XIX - начале XX вв. в дореволюционной и советской историографии // - Кабардино-Балкария: «Кавказология», - 2022. № 4, s. 23

pud mazut ixrac edilmişdi[1]. Beləliklə, 1821-ci ildən 1824-cü ilə qədər çar xəzinəsi neft yataqlarını bir pud hasilat üçün 62 qəpiyə iltizama vermişdi və 4 il ərzində xəzinə gəliri orta hesabla ildə 92 min rubl təşkil etdi. 1825-ci ildə çar hökuməti özü neftin inhisar istismarına başladı, lakin gəlir 76 min rubla düşdü. 1826-34-cü illərdə iltizam sistemi yenidən tətbiq olundu və gəlir 97 min rubl təşkil etdi. 50-ci illərdən başlayaraq neft yenidən dövlətin əlinə keçdi və gəlir 1,5 milyon rubl oldu. *"İstismarın növbəti 51 ilində Bakı vilayəti Rusiyaya təqribən 21 milyon 400 min pud neft verib, xəzinə isə 5 milyon 970 min rubl gəlir əldə etmişdir"*[2] 1888-89-cu ildə Tiflis şəhərində Kənd təsərrüfatı sərgisi təşkil olunmuşdur. "Tiflis şəhərində kənd təsərrüfatı və sənaye obyektlərinin Qafqaz sərgisinin təsviri" ("Описание Кавказской выставки предметов сельского хозяйства и промышленности в городе Тифлисе в 1889 году") adlı hesabatda əks olunmuş məlumatlara əsasən, həmin sərgidə 72 pavilyon mövcud idi, "onların arasında Borjomi mülkünün, Bakı neft sənayeçilərinin və Novorossiysk sement zavodu pavilyonu xüsusi diqqəti cəlb edirdi"[3]. Bakı neft sənayeçilərinin pavilyonu ən çox ziyarətçi toplayan pavilyon olmuşdur və bunun səbəbi hesabatın "X bölmənin təsviri" ("Описание X-го, горного отдела") adlı fəslində belə izah edilmişdir: "Qafqazın neft sənayesi istehsalın həcminə və ona sərf edilmiş kapitala görə, həmçinin yerli sənayenin digər sahələrə (metallurgiya, tökmə zavodları, mexaniki zavodlar və s.) təsirinə görə, şübhəsiz ki, ölkənin iqtisadi həyatında birinci yeri tutur"[4].

---

[1] Кривенко В. Очерки Кавказа / В. Кривенко. - СПб: тип. А.Суворина. – 1893, s. 162

[2] Кох М. Нефтяная промышленность / М. Кох, П. Оль. - Москва: Гос. Издательство. – 1925, s. 6

[3] "Описание Кавказской выставки предметов сельского хозяйства и промышленности в городе Тифлисе в 1889 году" -Тифлис: тип. А.Михельсона. -1890, s. 17.

[4] "Описание Кавказской выставки предметов сельского хозяйства и

Neft sənayesindən sonra ikinci mühüm sahə ipəkçilik oldu: "İpəkçilik şöbəsi ümumilikdə sərgidə tamlığı, sistemliliyi və eksponatlarının müxtəlifliyi ilə xüsusi seçilmişdir. Sərgidə hər gün ipək baramanın açılması və bir sıra proseslər təkmilləşdirilmiş sistemlərdə nümayiş edilmişdir"[1]. XIX əsrin 60-cı illərin əvvəllərində ipəkçiliyin əsas mərkəzləri Şəki və Şamaxı idi. 60-cı illərin əvvəllərində ipəklə ticarət dövriyyəsi 10 milyon rublu keçmişdi. Bu işdən əldə edilən gəlirlər rus istehsalçılarını cəlb etdi və 1861-ci ildə cənab Alekseyev və Voronin qardaşları Şəkidə Avropanın ən böyük ipək fabriklərindən birini tikdilər. Onun tikintisinə 500 min rubl xərclənib. Lakin 1864-cü ildə yayılan ipək qurdu böyük ziyan verdi və həmin ildə fabrik Mirzəyev tərəfindən 38 minə alınıb[2]. Şavrov N. "Qafqazda ipəkçilik" ("Описание Кавказского шелководства") adlı əsərində yazırdı ki, Cənubi Qafqazda "baramanı əsasən Şəki şəhərinin bazarında satmaq mümkün idi. 1888-ci ildə Padar məktəbində (müasir Oğuz rayonunun Padar kəndi) ipəkçilik bir fənn kimi tədris proqramına daxil edilmişdir"[3]. 1870-ci illərdən başlaayaraq ipək sənayesində canlanma dövrünü başlamışdır. Şəkidə 500-dən çox iri və kiçik müəssisə işləyirdi. 1883-cü ildə Qafqaz ipəkçilik stansiyası fəaliyyətə başlamışdır. Bu təşkilat Azərbaycan ipəkçiliyinin elmi inkişafında mühüm rol oynamışdır. 1887-cü ildə Tiflisdə açılan Stansiya Şəkidə və Şuşada öz qollarını açmaşdır. Burada Azərbaycanda mövcud olan ba-

---

промышленности в городе Тифлисе в 1889 году" / -Тифлис: тип. А.Михельсона. -1890, s.402

[1] "Описание Кавказской выставки предметов сельского хозяйства и промышленности в городе Тифлисе в 1889 году" / -Тифлис: тип. А.Михельсона. -1890, s. 21-28.

[2] Кривенко, В. Очерки Кавказа / В. Кривенко. - СПб: тип. А.Суворина. – 1893, s. 143.

[3] Шавров, Н. Русский путь в Закавказье / Н.Шавров. - СПб: тип. А.Суворина. – 1883, s.58.

rama qurdlarından başqa müxtəlif xarici ölkələrdən buraya gətirilən növlər də yetişdirilmiş, Şimali Azərbaycan torpaqlarında və iqlimində yeni növlərin seleksiya edilməsi həyata keçirilmişdir. Belə, artıq 1892-ci ildə kolleksiyaya dünyanın müxtəlif ölkələrində istifadə edilən 116 növ barama qurdu daxil edilmişdir. 1880-ci illərdə fabrik tipli müəssisələrin sayı xeyli artmış, istehsalın gəliri 3 milyon rublu keçmişdir[1].

Beləliklə, XIX əsrin ikinci yarısında Rusiya imperiyasında baş verən tarixi proseslər Şimali Azərbaycanı da özünə cəlb etmişdir. Bu dövrdə kapitalist münasibətlərin inkişafı imperiyada sənayenin daha da sürətli inkişafına səbəb olmuşdur və bu prosesdə təbii sərvətlərlə zəngin olan Şimali Azərbaycan torpaqları xüsusi diqqət mərkəzində olmuşdur. Bakı və ətraf ərazilərinin sərvətlərini istismar edən çar hökuməti sadəcə bu ərazilərlə kifayətlənməmiş, Cənubi Qafqazın hər tərəfində sənaye müəssisələri üçün xammalın tədarükünü təmin etmiş, xəzinə üçün böyük gəlirlər əldə etmişdir. Məsələn, metallurgiya sənayesi üçün Naxçıvan vilayətində Alagez çayı ilə Arpaçayın qovuşduğu yerdəki Dərəgöz maqasında gümüşlü qurğuşun hasil edilir, yerli sakinlər yun və pambıq məmulatlarının rənglənməsi üçün istifadə edilən alum və vitriol, həmçinin sarı oxra hasil edilmişdir. Aynazır kəndində silisli daşlar çıxarılırdı, onlardan silah üçün çaxmaq daşı istehsalında istifadə olunurdu. Qazax qəzasında fabrik və ya manufakturların olmamasına baxmayaraq burada əsrlərlə mövcud olan rəngləmə emalatxanalarının sayəsində rənglənən xalçalar və kilimlər imperiyanın hər yerində, eyni zamanda xarici ölkələrə satılmışdır. Borçalı qəzasında isə 4 misəritmə və 2 gümüş emalı zavodu mövcud idi. Burada hasil edilən xammal Rusiyanın daxili regionlarına gön-

[1] Садыхов, А. Достожения селекции шелковицы в Азербайджане за 80 лет // - Баку: Аграрная наука Азербайджана. - 2018. № 5, s.111.

dərilmişdir. Bütün bu misallar onu göstərir ki, Şimali Azərbaycan çar hökumətinin müstəmləkə siyasətində və XIX əsrin ikinci yarısında Rusiya imperiyasında inkişaf edən sənaye iqtisadiyyatında mühüm rol oynamışdır.

## 2.2. Şimali Azərbaycanda sənayenin fabrik-zavod şəhərlərinin təşəkkülü

Məlumdur ki, yaşayış məntəqələrinin şəhər kimi tanınmasında ilk növbədə bu məntəqədə yaşayan əhalinin sayı və ölkə təsərrüfatında payı nəzərə alınır. Lakin XIX əsrin yaşayış məntəqələrinin kənd və şəhərə bölünməsi meyarlarında və ümumilikdə "şəhər", xüsusilə "feodal şəhər" və "sənaye şəhəri" anlayışının təsvirində müxtəlif yanaşmalar mövcud olduğundan vahid təsvirin ortaya çıxarılması mümkün deyil. Əksər tədqiqatçıların fikrinə görə, bir bölgə və ya hətta bir ölkə daxilində müxtəlif tarixi dövrlərdə baş verən fərqli proseslər nəticəsində yaranan şəhərlərin təşəkkül prosesini bir yeganə ümumi tərif altına almaq düzgün olmazdı.

Məsələn, Azərbaycan qədim zamanlardan yüksək şəhər mədəniyyətinə sahib olan region idi. Mülayim iqlim və zəngin təbii sərvətlər burada ibtidai cəmiyyətlərin meydana çıxmasına, strateji mövqeyi dünya ticarətinin tranzit ticarət yollarından ən önəmli mərkəzinə çevrilməsinə səbəb olmuş və bu əlverişli ictimai və iqtisadi şərait buraya müxtəlif xalqların nümayəndələrini cəlb etmişdir. Tarix boyu bu torpaqlarda reallaşdırılan işğal və köçürmə siyasəti burada əhali sayının daim artmasına həm müsbət, həm mənfi şəkildə təsir edirdi. Şəhərlərin inkişafında aparıcı rol oynayan ticarət və sənətkarlıq Azərbaycanın hər bölgəsində geniş inkişaf etmişdir və bunun izləri müasir Azərbaycan Respublikasının ərazisində qorunub saxlanılan çox sayıda maddi və mənəvi qədim tarixi abidələrdə öz təcəssümünü tapır. XIX əsrdə Rusiya imperiyasının demoqrafik vəziyyəti

haqqında ilk elmi tədqiqatın müəlliflərindən biri olan Karl Fedoroviç German öz əsərində yazırdı: "Bir çox yerlər yalnız idarəetmə, işəgötürmə, əsgərlərin çağırışı, vergilərin toplanması və ədalətin həyata keçirilməsi baxımından əhəmiyyətinə görə "şəhər" adlanır. Digərləri isə iqtisadi-təsərrüfat tiplərinə görə, yarmarkaların çoxalması üçün, emal sənayesinin onun üçün əlverişli yerlərdə cəmləşməsinə görə, nəhayət, ticarət növünə görə "şəhərlər" adlanır. Rusiya hökmdarları, xüsusən XVIII əsrdə, şəhərlərin sayını istehsal və ticarət sənayesini təşviq etmək üçün deyil, idarəetmə növlərinə görə çoxaldırdı; və yer şəhər adlansa da, istehsal həmişə kənd təsərrüfatı olaraq qalmış və əhalisi həqiqətən şəhər adını verəcək dərəcədə artmamışdır"[1] XIX əsrin ortalarında Rusiya imperiyasında 700 qədər "şəhər" adını daşıyan yaşayış məntəqəsi mövcud idi, onlardan 10-nu Şimali Azərbaycanın ərazisində yerləşirdi: İrəvan, Şamaxı, Bakı, Gəncə, Şəki, Şuşa, Lənkəran, Quba, Naxçıvan və Ordubad[2]. Şimali Azərbaycanın ərazisində təşəkkül etmiş şəhərlərə nəzər yetirsək, məlum olur ki, burada şəhərlər əvvəllər ticarət yollarının üstündə yerləşən əsas məntəqələrdən əmələ gələn, ticarət fəaliyyəti ilə məşğul olan əhalinin böyük sayına görə və sonralar bu ərazilərdə yaranan dövlətlərin ən böyük yaşayış mərkəzlərindən və bu dövlətin hökmdarının yerləşdiyi ərazidən öz adını alırdı.

XVIII əsrin əvvəllərindən etibarən müasir dövrə qədər isə "şəhər" dövlət tərəfindən rəsmi olaraq tanınan yaşayış məntəqəsinə deyilir. XIX əsrdə Rusiya imperiyasının tərkibinə keçən Şimali Azərbaycan xanlıqlarının paytaxt şəhərləri öz "şəhər" statusunu bir müddət saxlaya bilmişdir: Bakı, Şamaxı, Quba,

[1] Миронов Б.Н. «Русский город 1740-1860-е годы» / Б.Н.Миронов, - Ленинград: «Наука», - 1920, s.17.

[2] Ваидова Х. «История города Ордубад» / Х.Ваидова, - Баку: Нурлан, - 2007, s. 96.

Lənkaran Bakı quberniyasının, Gəncə, Şəki, Şuşa – Yelizavetpol (Gəncə) quberniyasının, İrəvan, Naxçıvan və Ordubad Naxçıvan İrəvan quberniyasının tərkibində idi[1] . Məsələn, o dövrdə ən böyük şəhər Şamaxı hesab edilirdi. Rus hakimiyyəti altına keçən şəhər 1820-ci illərdə ilk öncə Şirvan əyalətinin mərkəzi elan edilmişdir. Lakin zaman keçdikcə Azərbaycan ərazisində keçirilən inzibati islahatlar ümumimperiya inzibati bölgüyə tabe edilmişdir.

1785-ci ildə Rusiya imperiyasında qəbul edilmiş Nizamnamə "şəhər sakinlərinin" qanuni hüquqlarını aydın şəkildə müəyyən etmişdir və bununla "şəhərin" formal meyarları təyin edilmişdir. "Şəhər" statusunu almaq üçün imperatordan alınan icazə, ona uyğun olaraq özünü idarə edən şəhər cəmiyyəti və bu cəmiyyətin müəyyən edilmiş hüquqları, təsdiq edilmiş gerb və şəhər planı təqdim edilməliydi. Rəsmi şəhərlərin müxtəlif dərəcələri var idi – paytaxt, əyalət və vilayət şəhərləri mövcud idi. Artemi Volınski – Rusiya imperiyasının dövlət xadimi, 1715-ci ildə Rusiya-İran ticarət müqaviləsini bağlamaq və Böyük Pyotr tərəfindən Xəzəryanı əraziləri "kəşf etmək" üçün (əslində casusluq, kəşfiyyat məqsədi ilə) Səfəvi imperiyasına göndərilmişdir. Bu səyahət haqqında o, öz xatirə kitabını yazmışdı. Bu xatirələrdə Şamaxı zəngin şəhər kimi xarakterizə edilir, "yaşayış yerlərinin çox olduğu və insanların sıx olduğu, hər şeydə bolluq, torpağı bərəkətli, çörəyi çoxlu olduğunu" vurğulayırdı: "xüsusilə dəniz kənarında çoxlu meşələr var. Bundan əlavə, çoxlu vəhşi heyvanlar və quşlar var və onlar da mal-qara və balıqdan məmnundurlar və xüsusən də onların ən çox maraqları hər yerdə tapıla bilən ipəkdir və ipək fabriklərinin olmadığı çox çətin ki, bir kənd var, həm dənizə yaxın, həm

[1] Мурадалиева Э. «Города Северного Азербайджана во второй половине XIX века» / Э.Мурадалиева, - Баку: Изд. Бакинского университета, - 1991, s. 4.

də Kür çayına qədər"[1]. XIX əsrə qədər Şamaxı ərazisində ipəkçilik geniş yayılmışdır və burada aktiv istehsal fəaliyyətinin olması 1840-1846-cı illərdə Şamaxı Xəzər vilayətinin mərkəzi, 1846-1859-cu illərdə Şamaxı quberniyasının mərkəzi olmuşdur. "Mərkəz şəhəri" statusunun alınması ilə Şamaxıya böyük köç başlanmışdır və XIX əsrin əvvəlində burada 10 minə yaxın əhali yaşadığı halda, 1850-ci illərdə əhalinin sayı 19.733 nəfərə çatmışdır[2].

XVIII əsrin sonlarından elmi ədəbiyyatda, XIX əsrin ikinci yarısından isə kütləvi şüurda "şəhər" əsasən ticarət və sənaye yönümlü iri yaşayış məntəqəsi kimi başa düşülməyə başladı. Bu arada, şəhər statusu almaq üçün formal meyarlar eyni qalmışdı: rəsmi qərar, inzibati bölgü, gerb və şəhər planı. Iqtisadi tərəfdən rəsmi şəhərlərin kəndlərdən orada qadağan olunmuş yarmarkaların, bazarların və xüsusilə stasionar ticarət məntəqələrinin yaradılmasında üstünlükləri var idi. XIX əsrdə əhalinin sayına görə ən çox yayılmış təsnifat bu meyarlardan ibarət idi: (1) kiçik şəhərlər – 20 minə qədər, (2) orta – 20 mindən 100 minə qədər, (3) böyük şəhərlər – 100 mindən çox. Bütün təsnifatlarda, bir qayda olaraq, 20-25 min sakin aşağı hədd kimi göstərilmişdir. Bu, təsadüfi deyil, çünki bu sayıda əhalisi olan şəhərlərdə, kənd yerlərindən fərqli olaraq, həyat tərzi dəyişməyə başlayırdı. Orta və böyük şəhərlərin böyüməsi mühüm sosial nəticələr verirdi. Şəhər nə qədər böyükdürsə və onun əhalisinin sıxlığı nə qədər yüksəkdirsə, sosial münasibətlərin transformasiyası üçün bir o qədər çox imkanlar yaranır, orada şəhər həyat tərzinin xüsusiyyətləri bir o qədər aydın görünür. Məsələn, ailə və nəslin ictimai əhəmiyyəti azalır, ailə, qohumluq və qonşuluq əlaqələri zəifləyir, ailədən kənar şəxsiyyətlərarası münasibətlər mürəkkəbləşir və yeni xarakter alır.

---

[1] Бушев П.П. Посольство Артемия Волынского в Иран в 1715-1718 гг. (по русским архивам). М.: Наука, 1978, s. 12.

[2] Azərbaycan tarixi, Cild 4, s. 96

Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra yeni inzibati-ərazi bölgüsü çar Rusiyasının müstəmləkəçilik siyasətini həyata keçirilməsində bir alətə çevrilmişdir. 1840-cı il aprelin 10-da aparılan məhkəmə-inzibati islahat nəticəsində keçmiş Bakı, Şuşa, Nuxa (Şəki), Lənkəran, Şamaxı xanlıqlarının ərazisi yeni yaradılmış Xəzər vilayətinin, Quba isə Dərbənd əyalətin tərkibinə daxil oldu. Çar I Nikolayın 1846-cı il 14 dekabr tarixli fərmanına əsasən Cənubi Qafqazın inzibati-ərazi bölgüsündə yeni dəyişikliklər həyata keçirildi. Bu meqabölgə Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Xəzəryanı vilayətinin tərkibində olan qəzalar Şamaxı quberniyasına, Quba qəzası isə Dərbənd quberniyasının tərkibində qaldı. 1859-cu il zəlzələsi nəticəsində Şamaxı quberniyasının mərkəzi Bakıya köçürüldükdən sonra bu quberniya Bakı adlandırıldı. 1860-cı ildə Dərbənd quberniyası ləğv edildi və Quba qəzası da Bakı quberniyasının tərkibinə daxil oldu. 1867-ci ilin dekabrında Yelizavetopol (Gəncə) quberniyasının yaradılması ilə Şuşa və Nuxa (Şəki) qəzaları Bakı quberniyasının tərkibindən çıxarılaraq Yelizavetopol (Gəncə) quberniyasına verildi. Tezliklə Bakı quberniyasının ərazisində Cavad və Göyçay qəzaları yaradıldı. Həmin vaxtdan Bakı quberniyası 6 qəzadan (Bakı, Şamaxı, Quba, Lənkəran, Cavad və Göyçay) və Xəzər dənizindəki bir sıra adalardan ibarət oldu.

XIX əsrin ikinci yarısından Bakının çoxsahəli inkişaf sürəti, sabit həyat tərzi və dirçəlişi başlanmışdır: 1847-ci ildə Bakının Bibiheybət ərazisində mexaniki üsulla – buruq üsulu ilə ilk neft quyusu qazıldı, 1859-cu ildə Suraxanıda ilk neft emalı zavodu işə salındı, Bakı-Balaxanı-Sabunçu-Suraxanı xətti üzrə ilk dar dəmiryolu (“kukuşka”) 1880-ci ildə, Tiflis-Bakı dəmiryolu isə 1883-ci ildə istifadəyə verildi. Şəhərdə ilk telefon xətti 1886-cı ildə çəkildi. Bundan əlavə, gəmi təmiri, maşınqayırma, metaləritmə, sement zavodları, elektrik stansiyaları, tütün, toxucu-

luq və bir sıra digər genişprofilli sənaye müəssisələri açılmışdır. "XIX əsrin 70-ci illərindən Bakı bilavasitə kapitalist inkişaf yoluna qədəm qoymuş və 1920-ci ilə qədər bazar iqtisadiyyatının tələbləri və prinsipləri əsasında inkişaf etmişdir"[1]. Bununla əlaqədar, yeni iş yerlərinin açılması və maddi imkanların genişlənməsi nəticəsində Bakının əhalisi də xeyli artmışdır. 1870-ci ilə aid "Rusiya İmperiyasının məskunlaşmış yerlərinin siyahısı. Qafqaz regionu üzrə" ("Списки населенных мест Российской империи. По кавказскому краю") adlı topluda verilən məlumatlara əsasən, 1859-1864-cu illərdə Bakı əhalisi 12,2 – 13,5 min insan təşkil etdiyi halda, 1886-ci ildə əhalinin sayı artıq 101 min insana çatmışdır[2] . Bütün bu amillər şəhər ərazisinin genişlənməsinə ehtiyac yaradırdı: "Məsələn, qabaqlar müstəqil əhali yaşayan, şəhərdən uzaq olan Bayıl orada tikililərin çoxalması və əhalinin artımı nəticəsində şəhərə birləşmişdi"[3]. 1870-ci ildə bütün bu amillər dövləti şəhər islahatına vadar etmişdir və "şəhər özünüidarə orqanlarının fəaliyyətinin təşkili", "şəhərin kapitalist yolu ilə inkişafının sosial-təsərrüfat məsələləri", "şəhər əsasnaməsinin tətbiqi" və bütün bu proseslərin təşkilatı-hüquqi bazasının yaradılmasına qərar verilmişdir. Bu əsasnamə Cənubi Qafqazda ilk dəfə Tiflisdə 1877-ci, Bakıda isə 1878-ci ildə tətbiq olundu. 1880-ci illərdə ilk şəhər əsasnaməsinin tətbiqi əsnasında yerli özünüidarə orqanlarının səlahiyyətlərinin genişləndirilməsi məsələsi ortaya çıxmışdır,

---

[1] İbrahimov N. «XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı şəhərinin siyasi və mədəni həyatı» / N. İbrahimov , - Bakı: «Ozan», - 1997, s. 5.

[2] Стригунов И. «Из истории формирования Бакинского пролетариата (70-90-е годы XIX в.)» / И. Стригунов, - Баку: Издательство Акад. наук АзССР, - 1960, s. 49 .

[3] İbrahimov N. «XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı şəhərinin siyasi və mədəni həyatı» / N. İbrahimov, s. 19 - Bakı: «Ozan», - 1997, - s.78

mərkəzi dəftərxanaların və idarələrin bəzi vəzifələri yerli idarəetmə orqanlarına verilməsi təklif edilirdi. Lakin bu təkliflərə rədd cavabı gəlmişdir, çünki çar hökuməti yerli idarələrə və bu idarələrdə əksərən yüksək vəzifələri tutan yerli bəy və xan, zadəgan ailələrinin nümayəndələrinə əlavə səlahiyyət və güc vermək səmərəli addım hesab etmirdi. Lakin, 1892-ci ildə yeni "Şəhər əsasnaməsi" təsdiq edilmişdir: "yeni Şəhər əsasnaməsi nümayəndəliyin tərkibini iri burjuaziyanın və zadəganların xeyrinə daha da daraltdı və şəhər ictimai idarəsinin hüququnu bir qədər də məhdudlaşdırdı. Şəhər idarəçiliyinə 1892-ci il islahatı ilə edilən deyişikliklər iki əsas xətt üzrə aparılmışdır: 1. əmlak senzinin artırılması yolu ilə seçici kontingentinin azaldılması və 2. hökumət orqanları və təsisatlarının şəhər ictimai özünəidarəsi üzərində nəzarətinin gücləndirilməsi"[1]. Buna baxmayaraq, 1892-ci ilin Şəhər əsasnaməsinin müsbət cəhəti ondan ibarət idi ki, əvvəl mövcud olan seçicilərin kateqoriyalara bölünməsi qaydası ləğv olunur və indi bütün seçicilər təşkil olunan bir seçki yığıncaqda iştirak edə bilərdilər. Lakin, Bakıda sənayenin sürətli inkişafı bu qaydalara dəyişikliklər gətirmişdi: artıq XX əsrin əvvəllərində bir seçkilərdə iştirakın qabağını almaq üçün bir sıra məhdudiyyətlər qoyulmuşdur.

Sənaye və idarədən başqa, Bakının görünüşü və memarlığı da dəyişikliklərə məruz qalmışdır. XIX əsr Azərbaycan memarlığı rus şəhərsalma sənətinə əsaslanan şəhərlərin böyüməsi və Gəncə, Şamaxı və Bakı kimi şəhərlərin baş planlarının hazırlanması ilə səciyyələnirdi. Bu prosesə uyğun olaraq şəhər tipli yaşayış binaları da inkişaf etdirilir. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra yeni tipli tikililərin meydana çıxması memarlığın inkişafında mühüm əhəmiyyət kəsb et-

---

[1] İsmayılov X. «XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda şəhər özünüidarəsinin təşkilati-hüquqi əsasları» // - Bakı: AMEA Xəbərlər, "Tarix, fəlsəfə və hüquq seriyası", - 2009, № 10, - s. 326.

di. XIX əsrin ortalarında teatrlar, məktəblər və xəstəxanalar kimi yeni binalar, yaşayış binaları tikilirdi. Kapitalist istehsal münasibətlərinin yaranması və yayılması Azərbaycan memarlığının sonrakı inkişafına mühüm təsir göstərmişdir. Azərbaycan memarlığında müşahidə olunan təzahürlər Bakının inkişafında xüsusilə aydın ifadə olunurdu. Artıq XIX- XX əsrlərin qovşağında, neft sənayesinin sürətli inkişafı dövründə Bakı Rusiya imperiyasının ən böyük şəhərlərindən birinə çevrildi. Bu dövrdə Azərbaycan memarlığı iki istiqamətdə – yaşayış evlərinin memarlıq planlaşdırma strukturunda mühüm yer tutan binaların kompozisiyaları və Avropa memarlığı ənənələri əsasında inkişaf etmişdir. Yerli memarlar və xalq sənətkarları tərəfindən tikilən binaların kompozisiya strukturunun əsasını ənənəvi memarlıq kökləri təşkil edirdi. XIX əsrin ikinci yarısında Azərbaycan milli memarlığı daha çox dini tikililər və mədəni-məişət təyinatlı tikililərlə təmsil olunurdu. Yerli memarlarla yanaşı, Avropa memarlıq məktəbinin tələbələri də fəal idilər (əsasən Sankt-Peterburq İnşaat Mühəndisləri İnstitutunun və İmperator Rəssamlıq Akademiyasının məzunları). Avropa memarlığından qaynaqlanan stilizasiyaya və eklektizmə tab gətirə bilən milli memarlığın geniş dirçəlişi üçün o dövrdə Azərbaycanda müvafiq şərait yox idi. İnşaat mühəndisliyində Avropa memarlığının güclənməsi və peşəkar milli kadrların – memarların çatışmazlığı Azərbaycan memarlığında milli üslubun geniş yayılmasına imkan vermədi. Ona görə də memarlıqda milli formalardan istifadənin istənilən faktı milli memarlığın inkişafı və təbliği baxımından çox mühüm idi. Bu, yalnız dini-mədəni binaların tikintisində özünü göstərirdi. XIX əsrdə yaşayış binaları ilə yanaşı, ən xarakterik bina növü pərakəndə satış yerləri – "ticarət evləri" idi. Onlar tez-tez ticarət müəssisələri və sənətkarlıq emalatxanaları kimi eyni vaxtda istifadə olunurdu. Belə strukturların ən dolğun nümunələri Bakı, Gən-

cə, Şuşa və Qubada pərakəndə satış mağazaları sıralarını göstərmək olar. Bu zaman Azərbaycanda demək olar ki, bütün şəhərlərdə xəstəxanalar, kiçik tibb müəssisələri tikilirdi. XIX əsrin ikinci yarısında inşasına başlanan teatr binaları Azərbaycan memarlığında tamamilə yeni tipli struktur idi. Xüsusilə teatrlar üçün nəzərdə tutulmuş ilk binalar Şamaxıda (1858, memar Q. Hacıbababəyov), sonralar isə Bakıda Tağıyev Teatrı (indiki Azərbaycan Dövlət Musiqili Komediya Teatrı; 1883, K. İ. Konqnovitski) inşa edilmişdir. Kapitalizm dövrü üçün ən xarakterik tikililər Bakıda "Bəy Məscidi" (İçərişəhər, 1895, memarlar Məhəmməd Haşim əl-Bakuvi və Mirəli əl-Nağı bin Seyyid Hüseyn), Qasımbəy məscidi (1896, memar Məşədi Mirzə Qafar İsmayılov) və bir sıra digər din məbədləri idi. Milli memarlıq abidələri və sabit memarlıq ənənələri ilə zəngin olan Qarabağ zonasında Avropa memarlığı dərin kök sala bilməmiş, yerli üslublar arasında itmişdir. XIX əsrin ortalarında Qarabağda artıq nadir memarlıq məktəbi yaranmışdı ki, onun ən görkəmli nümayəndəsi Kərbəlayi Səfixan Qarabaği idi. Ömrünün sonuna qədər memarlıq üslubunda yerli ənənələrə və prinsiplərə sadiq qalan Kərbəlayi Səfixan İmamzadə kompleksinin yenidən qurulmasını həyata keçirdi (1868), onun rəhbərliyi ilə Ağdamda məscid tikildi (1868-1870), Şuşada – Aşağı məscid (1874-1875), Yuxarı məscidi və ya İndiki Füzuli şəhərində Cümə məscidi (1883), məhəllə məscidləri – Hacı Ələkbər məscidi (1890), Odessada Tatar məscidi (1870-ci illər), Aşqabad şəhərində "Qarabağlılar" məscidi (1880-ci illər) və başqa tikililər inşa edilmişdi.

Zavod və fabriklərin, anbarların, limanların, körpülərin, stansiyaların və digər obyektlərin tikintisi Şimali Azərbaycanda sənaye və nəqliyyat strukturları üçün yeni memarlıq sferasının yaradılmasına səbəb oldu. Kapitalizmin inkişafı dövründə Quzey Azərbaycanda müxtəlif xarakterli iki sənaye zonası yaradılmışdır. Bir tərəfdən Abşeronun sənaye qovşağı olan və

iri neft zavodları ilə təmsil olunan Bakı və onun ətraf rayonlarının sənaye inkişafı, digər tərəfdən isə Azərbaycan ərazisində Gədəbəydə və Qalakənddə misəritmə zavodları, Daşkəsən mis-kobalt zavodları inkişafa geniş təkan vermişdi. Bir-biri ilə sıx bağlı olan bu sənaye zonaları arasındakı əlaqə tikintidən sonra daha da genişləndirilib. XIX əsrin ikinci yarısında neft sənayesi və onunla bağlı sənaye sahələrinin, eləcə də yüngül və yeyinti sənayesinin sürətli inkişafı şəhər əhalisinin artması ilə müşayiət olundu və bu, sakinlərin təmiz içməli su ilə təmin edilməsinə təcili ehtiyac yaratdı. XIX əsrin 70-ci illərindən bəri Bakıda kəskin içməli su çatışmazlığı problemi var idi. Sonra 1878-ci ildə fəaliyyətə başlayan Bakı şəhər Duması su təchizatı məsələsini qaldırdı. 1880-ci ilin mayında Bakı şəhər Duması su axtarmaq üçün komissiya yaratdı və Abşeron yarımadasında işlər aparılmağa başlandı. 1899-cu ildə Z.Tağıyev o vaxtkı məşhur mühəndis V. Lindleyi Frankfurt şəhərindən dəvət etdi və artıq 1903-cü ildə onun təklif etdiyi layihə öz təsdiqini taparaq həyata keçirilməyə başlandı. 1917-ci ildə Şollar-Bakı su kəmərinin tikintisi başa çatdırılmışdı[1].

XIX əsrin ortalarından başlayaraq Şimali Azərbaycanda kapitalizmin inkişafı Şuşa şəhərinin təsərrüfat həyatına da öz təsirini göstərmişdi. Bu dövrdən başlayaraq yeni sənaye müəssisələri yaranmağa başladı və bu öz növbəsində şəhər əhalisinin sürətlə artmasına səbəb oldu. Şuşada ipək emalı, tekstil, dəri, ağac emalı, şərabçılıq və s. çox inkişaf etmişdir. Şuşada sənayenin inkişafı həm də nəqliyyatın, rabitənin, bank-kredit sisteminin və ticarətin inkişafına güclü təkan vermişdi. XIX əsrin 90-cı illərindən Şuşanın ipək emalı sənayesi imperiyada kifayət qədər geniş şöhrət qazanmışdır. Hər şəhərin inkişaf tarixin-

---

[1] Али гызы С. «Из истории строительства Баку-Шолларского водопровода» // -Bakı: Tarix və onun problemləri, - 2011, № 2, - s. 73-79.

də olduğu kimi, sənayenin çiçəklənməsi, yeni iş yerlərinin açılması buraya insanların axınına səbəb olmuşdur. O dövrdə müşahidə edilən əhali artımı kiçik müəssisələrin iri müəssisələrlə yerdəyişməsi ilə bağlı olmuşdur: kiçik sənətkar istehsalının öz yerini tədricən fabriklərə verməsi, yeni texnologiyaların tətbiqi ilə yaradılan yeni fabriklər, istehsalda yeni avadanlıqların tətbiqi, buxar maşınlarının və dəzgahların istehsala yeridilməsi, bununla işləyən müəssisələr şəhərin təbii sərvətləri ilə birgə şəhərin sürətlə böyüməsini şərtləndirmişdir. 1900-cü ildə Şuşada 25 ipəkəyirmə fabriki fəaliyyət göstərirdi.

Ordubad şəhəri XIX əsrin əvvəllərində digər şəhərlərlə müqayisədə böyük şəhər hesab edilmirdi. Buna baxmayaraq Ordubadda 615 ev, 6 karvansaray, 170 dükan, 1 bazar, 2 hamam var idi[1]. O dövrün statistik məlumatlarına görə, XIX əsrin 1830-1840-cı illərində Ordubad 5 bölgəyə bölünürdü: Ambaras, Kürdətal, Mingis, Sər-Şağar və Üç-Düdəngə. Demək olar ki, eyni məlumat «XIX əsrin 30-cu illərinin əvvəllərində Qafqazın o tayındakı Rusiya mülklərinin icmalında» da verilir: "Şəhər beş yerə və ya mahala bölünür: Ambaris, Kür-Tatar, Şər-Şəhər, Mingiz və Üç-Tərəngi"[2]. Qeyd edək ki, Ordubadda köhnə yaşayış massivlərinin adları bu günə kimi qorunub saxlanılıb. Şəhər ərazisinin sağ sahilində iki böyük məhəllə – Yuxarı Ambaralar və Aşağı Ambaralar qorunub saxlanılır. Ordubad çayının sol sahilində bir neçə iri yaşayış massivi var idi ki, onlardan ən böyüyü indi şəhərin "Baş" (mərkəz) hissəsini nəzərdə tutan "Sər Şəhər" məhəlləsidir. Sadalanan bütün yaşayış məhəllələrinin – Ordubad məhəllələrinin kiçik meydanlarla təmsil olunan öz məhəllə mərkəzləri var idi. Müxtəlif memarlıq tikililəri ilə bəzədilmiş və çinar ağacları ilə örtülmüş bu

[1] Ваидова Х. «История города Ордубад» / Х.Ваидова, - Баку: Нурлан, - 2007, - s. 32.

[2] Ваидова Х. «История города Ордубад» / Х.Ваидова, - Баку: Нурлан, - 2007, - s. 33.

meydanlar şəhər ansamblının əsas elementlərindən birini təşkil edirdi. XIX əsrin ortalarında Ordubad ərazisi 2641 desyatyin təşkil etmişdir. Şəhərin ərazi dairəsi 4,5 verstdən çox deyildi, o cümlədən şəhərdən kənarda torpaqlar və bağlar – təxminən 12 kv. verst idi. Həmin dövrdə şəhərdə artıq 874 ev, 2 karvansara, 308 mağaza, 370-dən çox meyvə dükanı və 10 üzüm bağı, 63 məscid, bir kilsə, 7 meydan, 5 körpü, 25 küçə və 3 hamam mövcud idi. Sənayenin və ticarətin hesabına şəhərin ərazisi daim genişlənirdi, yeni yaşayış binalar və yardımçı tikililərin tikilirdi. Tədqiq olunan dövrün sonuna qədər şəhərin ərazisi 4725 hektardan çox idi, XX əsrin əvvəllərində burad artıq 3780 ev, 2 kilsə, 10 məscid, 23 fabrik və zavod, 5 meydan və 47 küçə mövcud idi[1]. Ordubadda fəaliyyət göstərən şəhər idarəetmə orqanlarının vəzifəsi əsasən iqtisadi məsələlərlə məhdudlaşırdı: onlar şəhərin abadlaşdırılması, yerli ticarət və sənaye məsələləri, səhiyyə, təhsil və s. məsələlərə nəzarət edirdi. Şəhərin bütün vergi ödəyiciləri, ev sahibləri, ticarət və sənaye müəssisələrinin sahibləri və s. şəhər idarəetmə orqanlarına seçkilərdə iştirak edirdilər. 25 yaşına çatmamış qadınlar və gənclər səsvermə hüququndan məhrum edilmişdir. Şəhərin sürətli böyüməsi Ordubad və ətraf ərazilərdə qədim və güclü ənənələrə malik olan ipəkdorma və ipək eyirmə müəssisələrinə, yerli ipəkçiliyin geniş inkişafına əsaslanmışdır.

Çar Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi inzibati islahat nəticəsində 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradıldı və **Gəncə** bu quberniyanın mərkəzi oldu. Gəncə şəhərinin əlverişli mövqedə, Tiflis-Bakı dəmir yollunun keçdiyi bir yerdə yerləşməsi ona Şərqin böyük ticarət mərkəzləri ilə ticarət əlaqələri yaratmasına imkan yaratdı. Rusiya idarəçiliyi

[1] Ваидова Х. «История города Ордубад» / Х.Ваидова, - Баку: Нурлан, - 2007, s. 40 .

dövründə, xüsusən də 1883-cü ildə Tiflis-Bakı dəmir yolu çəkildikdən sonra Gəncə şəhəri yenidən öz əvvəlki əhəmiyyətini bərpa edərək iqtisadi və mədəni mərkəzə çevrildi. Ümumrusiya əhəmiyyətli iri mərkəzə çevrilən Gəncə şəhərində əhali sürətlə artmağa başladı. 1897-ci ildə Gəncə şəhərində 33.6 min əhali yaşayırdı. Bu dövrdə Gəncə ticarət mərkəzi olmaqla yanaşı, həm də mühüm dəmiryol daşımaları, şərab, konyak və spirt istehsalı məntəqəsi idi. Şəhərdə sənaye müəssisələrinin sayı durmadan artmaqda idi. 1898 ildə nəşr olunan "Yelizavetpol (Gəncə) quberniyasının icmalı" adlı jurnalda verilən məlumata görə, həmən il zavodların sayı keçmiş illərə nisbətən azalmışdır, ümumilikdə quberniyada 1621 "fabrik və zavod" var idi; bu, 1897-ci illə müqayisədə 140 ədəd daha az, istehsal etdikləri məhsulların dəyəri 4 milyon rubldan çox idi, onlarda 8346 nəfər işləyirdi[1] .Yelizavetpol (Gəncə) quberniyasının fabrik və zavodları iki əsas növə ayrılırdı: "heyvan və bitki mənşəli məhsulların emalı" ilə məşğul olan müəssisələr. "Heyvan mənşəli məhsullrın emalı ilə məşğul olan müəssisələrə" ilk növbədə dəri istehsalı zavodları, sonra isə sabun zavodları daxil idi. İkinci növ müəssisələrə isə 1339 ədəd içki zavodları, ipəksarıma, yağ emalı, tütün, taxta emalı və s. zavodlar daxil idi: "Bütün bu müəssisələrdə 5674 fəhlə çalışırdı"[2]. 1900-ci ildə Gəncədə 1425 sənaye müəssisəsi fəaliyyət göstərirdi. 1891-ci ildə burada 7795 işçisi olan və istehsal həcmi 2973967 rubl olan 1517 fabrik və fabrik var idi: sabun fabrikləri – 9, dəri zavodları – 88, ipəkdolama zavodları – 438, tütün fabrikləri – 3, üzüm-meyvə-araq zavodları. 664, pivəbişirmə zavodları – 1, buxar dəyirmanı – 1, yağ dəyirmanı – 62, mişar zavodları – 3, ipək toxuması – 9, ipək toxuması – 7, biyan kökünün preslənməsi üçün – 2, mis əridilməsi – 8, mis məmulatları – 10, kobalt

---

[1] «Обзор Елизаветпольской губернии за 1898 год», Тифлис, 1899, s.67
[2] «Обзор Елизаветпольской губернии за 1898 год», Тифлис, 1899, s.69

– 1, əhəng – 4, kərpic – 102, dulusçuluq – 51, fotogen – 1 , süni mineral sular – 1, silahlar – 1, boyaq zavodları – 51. Fabrik və fabriklərin əhəmiyyətli bir hissəsi təbiətdə sənətkarlıqdır. Quberniyanın bəzi ərazilərində kifayət qədər geniş yayılmış sənətkarlıq əsasən yundan və qismən də ipəkdən çoxlu çeşiddə məmulatların, əsasən xalça və xalçaların istehsalından ibarət idi. Xalça istehsalı xüsusilə Şuşa şəhərində və Şuşa rayonunda inkişaf etmişdir.

Rusiya tərəfindən işğal edildikdən sonra isə **Şəki** mühüm sənətkarlıq və ticarət mərkəzi rolunu oynamağa davam etdi. Təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda ipək istehsalının mərkəzi Şəki olduğunu qeyd etmək lazımdır. 1829-cu ilə qədər burada bu istehsal əsasən ipəkdolama "talvarlarla" təmsil olunurdu. 1829-cu ildə burada bütün Cənubi Qafqazda ilk kapitalist müəssisəsi – Xanabad ipəktoxuma manufakturası açıldı. Xanabad manufakturu həcmcə kiçik olsa da, dövrünün mütərəqqi müəssisəsi idi. Burada 30 dəzgah var idi ki, bu dəzgahda 72 Şəki sakini ilə birlikdə İtaliyadan olan 12 ailə işləyirdi. Şəhərdə dəri istehsalı və metal emalı xeyli inkişaf etmişdir. Şimali Azərbaycanın digər şəhərlərində olduğu kimi, Şəkidə də sənətkatlar eyni sənayenin müəssisələri bu sənət sahəsinin adını daşıyan ayrıca bir məhəllə təşkil edirdi və beləcə şəhərdə dəmirçi, qalaycı və s. məhəllələr mövcud idi. XIX əsrin birinci yarısında şəhərin görkəmində ciddi dəyişikliklər baş verməmişdi. Bununla belə, 1834-cü ildə Şəkidə güclü yanğın baş vermiş, ondan sonra şəhərə bir memar dəvət edilmiş və onun rəhbərliyi altında şəhərin planlı inkişafı başlamışdı, yeni küçələr və meydanlar salınmışdı. 1836-cı ilin məlumatına görə, Şəkidə 2791 ev var idi və onların əksəriyyəti hələ xanlıq dövründən qalan tikililər idi. Qala divarları içərisində yerləşən 24 tikili Rusiya imperiyasının işğalından sonra hərbi məqsədlər üçün, poçt şöbəsi və hərbi hospital üçün ayrılmışdır. Müstəmləkəçi-

liyin parlaq təzahürü o idi ki, burada çarizmin qaba müstəmləkə siyasəti çərçivəsində 1827-ci ildə Xan məscidi qarnizon kilsəsinə çevrilmişdir.[1] 1841-ci il yanvarın 1-də qəbul edilən inzibati-məhkəmə islahatı nəticəsində çar hökuməti Xəzər vilayətinin tərkibində Şəki qəzasını yaratdı. 1846-cı ildə rəsmi sənədlərdə Şəki şəhəri "Nuxa" adlandırıldı və Nuxa qəzası Şamaxı, 1859-cu ildən isə Bakı quberniyasının tərkibinə daxil edildi. 1868-ci ildə o, Yelizavetpol (Gəncə) quberniyasına daxil edilmişdi. XIX əsrin ikinci yarısında Şəki ipəkçilik sənayesinin mərkəzi olaraq qalmaqda idi. 1843-cü ilin iyulunda "yalnız Azərbaycanda yox, bütün Cənubi Qafqazda ipəkçiliyin inkişafında müsbət rol oynamış "Təcrübə İpəkçilik məktəbi" açılmışdır"[2] . Mövcud olduğu 20 il ərzində bu məktəb ipəkçilik sahəsi üçün 236 tələbə yetişdirmiş və daha sonra bu ərazidə iri ipəksarıma fabrikinin yaradılmasına bir təkan vermişdi. Moskva sahibkarları Alekseev və Voronin 1860-cı ildə şirkət quraraq, 1863-cü ildən 1866-cı ilə qədər Şəkidə fəaliyyət göstərən və 850 nəfər fəhlədən çox çalışdıran ən böyük ipək sarğı fabrikinin tikintisinə başlamışdılar[3].

Gördüyümüz kimi, XIX əsrin sonu – XX əsrin əvvəllərində Şəkinin ipək emalı sənayesinin inkişafı fabrik mərhələsində idi və "Qafqazın Lionu" adlandırılan şəhərin özü ən mühüm ipək emalı sənayesinin təkcə Azərbaycanda yox, həm də bütün Rusiyanın mərkəzi qəbul edilirdi. 1890-cı ilin məlumatlarına görə, Şəkidə 600-ə yaxın sənətkarlıq müəssisəsi fəaliyyət göstərirdi və Yelizavetpol (Gəncə) quberniyasının bütün ticarət və

[1] Таирова, А. «История города Шеки» / А. Таирова, - Баку: Elm və təhsil, - 2014, s. 27.

[2] Таирова, А. «История города Шеки» / А. Таирова, - Баку: Elm və təhsil, - 2014, s. 27.

[3] Таирова, А. «История города Шеки» / А. Таирова, - Баку: Elm və təhsil, - 2014, s. 27.

sənaye müəssisələrinin gəlirininin 40%-ə yaxını Şəki şəhəri tərəfindən təmin edilirdi. XIX əsrin ikinci yarısından bəri Şəki sürətlə böyümüş, əhalinin sayı xeyli artmışdı: əgər 1855-ci ildə şəhərdə 2646 ev var idisə, 1865-ci ildə evlərin sayı 3472-yə çatmışdı, yəni 10 ildə 826 yeni ev tikilmişdir. 1904-cü ilin statistik məlumatlarına görə isə şəhərdə artıq 3998 ev var idi[1].

Beləliklə, 1898-ci ilin "Yelizavetpol (Gəncə) quberniyasının icmalında" verilən məlumatlara görə, "Yelizavetpol (Gəncə) quberniyasının şəhərlərindən fabrik sənayesinin inkişafı baxımından birinci yeri 205 fabrik müəssisəsi olan, 1004300 rubl dəyərində məhsul istehsalı ilə Nuxa, daha sonra 56 zavod müəssisəsi olan və 69367 rubl məhsul istehsalı ilə Yelizavetpol (Gəncə), daha sonra 21 fabrik və istehsal həcmi 168500 rubl olan Şuşa tutur. Beləliklə, quberniyada ümumi 282 fabrika müəssisəsi mövcuddur"[2].

**Lənkəran** şəhəri haqqında geniş məlumat 1865-ci ildə çap olunan "Rusiya imperiyasının coğrafi-statistik lüğətin"in 3-cü cildində öz əksini tapmışdır. Burada verilən məlumata görə, 1846-cı ildə Lənkəran Şamaxı quberniyasının qəza şəhəri idi, lakin 1859-cu ildə quberniyanın adı dəyişdirilərək Bakı quberniyası adlandırılmışdı[3]: "Lənkəran diqqətəlayiq bir ərazi deyil və daha çox kəndə bənzəyir, əhalisinin sayı 3970 nəfərə qədərdir. 1862-ci ildə 899 ev, iki xristian və müsəlman bazar, 243 dükan, qalada bir pravoslav kilsəsi, 3 məscid, 90 şagirdin olduğu ilk dövlət məktəbi, 6 küçə, 18 bağ, 960 desyatin şəhər torpağı vardır, şəhər gəliri 3517 rubl idi. Şəhərin sakinləri əsasən əkinçilik və sənətkarlıqla məşğul olurlar – burada 72 sənətkar var, fabrik fəaliyyəti əhəmiyyətsizdir, şəhərdə cəmi 3 fabrik

---

[1] Таирова, А. «История города Шеки» / А. Таирова, - Баку: Elm və təhsil, - 2014, s. 27.

[2] «Обзор Елизаветпольской губернии за 1898 год», Тифлис, 1899, s.89.

[3] Семенов, П. «Географически-статистический словарь Российской империи», Т. 3, СПб., 1865, s.567

var. 1861-ci ildə fabrik fəaliyyəti 3829 gümüş rubl dəyərində məhsul istehsal edən bir dəri zavodu və 4 ipək sarğı zavodu ilə məhdudlaşır. Beynəlxalq ticarət üçün burada 5 gömrük postu fəaliyyət göstərirdi – Astara, Biləsuvar, Lənkəran, Kür və Salyan”[1]. XIX əsrin sonu və XX əsrin əvvəllərində Lənkəranda sənaye müəssisələri açılmağa, bazar iqtisadi münasibətləri yaranmağa başlamışdır. Lənkəranda bir sıra ənənəvi sənət növləri XX əsrdə sənaye istehsalına keçid alaraq kütləvi istehsal xarakteri almışdır. Onların arasında kərpic istehsalını qeyd edə bilərik. Əsrin əvvəllərində şəhərdə kapitalizmin inkişafı mərhələsində olan 3 kərpic zavodu fəaliyyət göstərirdi. Bu zavodlarda 50-dən çox işçi çalışırdı. Bu müəssisələrin illik istehsalı 5200 rubla çatdı. Un dəyirmanı da sənaye inkişafı mərhələsində idi. 1890-cı illərdə şəhərdə su dəyirmanlarından başqa 2 buxar dəyirmanı da fəaliyyət göstərirdi. 8 muzdlu işçinin çalışdığı bu dəyirmanların illik istehsalı təxminən 6100 rubl idi.

1880-ci illərdə Lənkəranın şəhər təsərrüfatında balıqçılıq və ağac istehsalı getdikcə daha çox sənaye xarakteri aldı. Məlum olduğu kimi, xanlıq dövründən Lənkəranın şəhər təsərrüfatında balıqçılıq böyük rol oynamışdır. Hələ 1870-ci illərdə Lənkəranda balıqçılıq artıq əmtəə-pul münasibətləri yaranmağa başlamış, muzdlu əməkdən istifadə geniş yayılmışdı. Lənkəranın ən böyük balıqçılıq təsərrüfatının – dəniz sahilinə bitişik Qumbaşının uzunluğu 15 km, eni isə 1-1,5 verst idi. Bu vətəgənin sahəsi 2 hissədən ibarət idi. Birincinin uzunluğu 6 verst idi və şəhərə yaxın idi. İkinci hissə şəhərdən uzaqda yerləşirdi, uzunluğu 8-9 verst idi və 60-70 kvadratkilometr ərazini əhatə edirdi. 20 iyun 1897-ci ildən bu balıqçılıq vətəgələri Yeni Athos Monastırına 12 il müddətinə icarəyə verildi. Balıqçılığı icarəyə gö-

[1] Семенов, П. «Географически-статистический словарь Российской империи», Т. 3, СПб., 1865, s.568.

türən monastır öz ərazisində çoxlu təşkilati və texniki işlər görürdü. Balıqçılar qayıqlar və balıq torları ilə kifayət qədər təchiz edilmişdir. Qumbaşı balıqçılıq təsərrüfatında hündür qüllə tikilmişdir, oradan monastır icarəyə götürülmüş ərazilərə və bu ərazilərdə balıqçıların fəaliyyətinə nəzarət edirdi. Monastır balıqçılıq sahəsində 3 böyük tövlə tikdi. Onlara gedən yol asfaltlandı. Onlarda 32 taxta çən var idi. Bu çənlərdə balıqlar duzlanır, sonra isə çənlərin yanında taxta rəflərə qoyulurdu. Buradan duzlu balıqlar nəzarət məntəqəsinə əl arabaları və ya arabalarla daşınırdı. Hər çəndə 600-650 pud balıq duzlamaq mümkün idi. Göstərilən qapalı yerlərdən əlavə, balıq ovu ərazisində balıq saxlamaq üçün bir neçə kiçik qapalı yerlər var idi və yaxınlıqda daxili sadəliyi ilə seçilən kilsə tikilmişdir. Balıqçılıq məntəqəsində kiçik, lakin çox rahat bir qonaq evi tikilmişdi. Burada balıqçılıq təsərrüfatının icarəçiləri – “din qardaşları” qonaqları yüksək səviyyədə qəbul edirdilər. Məntəqədən kənarda işçilər üçün kazarma tikilmişdi. Tutulan balıqları şəhərə çatdırmaq üçün balıqçı qayıqlarından istifadə edilirdi. Balıqçılıq öz dəqiqliyi, təmizliyi, texniki təchizatı ilə Astaradan Dərbəndədək olan balıqçılıq təsərrüfatları arasında birinci yeri tutmuşdur. Yay ayları istisna olmaqla, il boyu balıq ovu istiqamətində işlər aparılmışdır. Balıqçılıq təsərrüfatının işçi qüvvəsi demək olar ki, əsasən ruslar və azərbaycanlılardan ibarət idi. XIX əsrin sonlarında Lənkəran şəhərində və ətraf ərazilərdə ağac emalı sənayesi sürətlə inkişaf etməyə başladı. Bu dövrdə ticarətin inkişafı və xarici ticarət əlaqələrinin genişlənməsi ağac emalı sənayesinin inkişafına təkan verdi. XIX əsrin ikinci yarısından başlayaraq Lənkəran qəzasının rayon mərkəzi – Lənkəranda şəhərin təsərrüfat həyatında mühüm rol oynayan daxili və xarici ticarətin inkişafı, tranzit ticarətinin və əmtəə-pul münasibətlərinin inkişafı və artması üçün münbit şərait yaratmışdır.

Rayonun hər yerindən Lənkəran şəhərinə meşə materialları gətirilir, buradan isə İrana, Rusiyaya göndərilirdi[1].

1846-cı ildə Dərbənd quberniyasının yaradılması ilə **Quba şəhəri** quberniyaya qəza (uezd) şəhəri təyin edilmiş, 1859-cu ildə isə Bakı quberniyasına verilmişdir. O dövrdə şəhərdə 1397 ev, 157 dükan, 1 karvansaray, 5 yəhudi, 9 müsəlman, 1 rus məktəbi var idi. Şəhər sakinləri bağçılıqla məşğul olur, al-əlvan rəngləri və naxışları ilə seçilən xalçalar, ipək parça hazırlayırdı. 1861-ci ildə şəhərdə 225 sənətkar yaşayırdı, lakin onların iqtisadiyyata verdikləri fayda o dövrün çar idarəsi tərəfindən daha çox yerli bazara çalışan istehsalat kimi qiymətləndirilir və diqqət daha çox burada fəaliyyət göstərən sənaye obyektlərinə yönəldilirdi. Sözügedən dövrdə Quba şəhərində və ətraf ərazilərdə 5 dəri zavodu, 8 kərpic zavodu, 6 əhəng zavodu və 10 boyama zavodu fəaliyyət göstərirdi[2]. 1865-ci ildə çap olunan "Rusiya imperiyasının coğrafi-statistik lüğətin" ikinci cildində Quba şəhəri "Köhnə Quba" – "Куба Старая" adı altında qeyd edilir, çünki "Yeni Quba" adı Qusar bölgəsinə verilmişdir.

Beləliklə, araşdırmalar göstərir ki, XIX əsrin II yarısında bazar iqtisadiyyatı, əmtəə-pul, əmtəə-kapitalist münasibətlərinin get-gedə sürətlənən inkişafı fonunda Quzey Azərbaycanda da ənənəvi orta əsr iqtisadi durumunun dayaqları tədricən dağılaraq öz yerini yeni istehsal münasibətlərinə verir, köhnə ticarət, sənətkarlıq mərkəzləri həm də yeni sənaye mərkəzlərinə transformasiya edir, müxtəlif təbii sərvət mərkəzlərinin intensiv surətdə mənimsənilməsi fonunda yeni sənaye mərkəzləri təşəkkül tapırdı. Uzun əsrlər boyunca məhdud ticarət, sənətkarlıq və mədəniyyət mərkəzlərinin yerində bir çox nəhəng miqyaslar

---

[1] Меджидова, Л. «О развитии промышленности в Ленкоранском уезде (конец XIX - начало XX вв.)» (электронная статья) // https://azerhistory.com/?p=38945

[2] Семенов, П. «Географически-статистический словарь Российской империи», Т. 2, СПб., 1865, s.767

ala bilmiş sənaye mərkəzləri meydana çıxırdı. Bu prosesdə müstəmləkə rejiminin yürütdüyü xəzinəyönümlü siyasətindən daha çox iqtisadi həyatın təbii inkişaf meyllərinin real amilləri daha əsas rol oynayırdı. Amma bu prosesi bütövlükdə diyarın sosial-iqtisad həyatında hər halda tərəqqi prosesi kimi qiymətləndirmək mümkündür.

## 2.3. XIX əsrin son rübündə sənayedə inkişaf meylləri

XIX əsrin sonu – XX əsrin əvvəllərində Rusiya imperiyasının, habelə onun tərkibinə qatılmış Cənubi Qafqaz, o cümlədən Şimali Azərbaycanın tarixi inkişaf prosesində aparıcı istiqamətlərdən biri ölkənin həm daxili, həm də beynəlxalq mövqeyini dəyişdirən sürətli sənaye inkişafı idi. Bu inkişafın xüsusiyyəti nəhəng imperiyanın müxtəlif regionlarının həmin prosesə qeyri-bərabər daxil olması və onun təmin edilməsində xarici kapitalın xüsusi rolu ilə bağlıdır. Nəhəng imperiyanın "yoxsul" regionları olduğu kimi, "zəngin" regionları da var idi və təbii sərvətlərlə zəngin, sənayə inkişafı üçün xammal baxımından ən əlverişli vəsait mənbəyi Cənubi Qafqaz idi. Rusiya imperiyasının "ucqar regionlarından" biri hesab edilən Cənubi Qafqaz XIX əsrin sonu -XX əsrlərin əvvəllərində bəzi geridə qalmış ərazilərdən fərqli olaraq, kapitalist sənayesinə, ticarət kənd təsərrüfatına, dəmir yolu nəqliyyatına, o dövrün bütün rabitə növlərinə və geniş ticarətə malik idi. Bunun üçün ilkin şərt qiymətli təbii sərvətlərin, ilk növbədə neft və əlvan metallara sahib olması idi. Lakin Cənubi Qafqazın hasilat sənayesinin, xüsusilə neft sənayesinin inkişafı böyük sərmayənin yatırılmasını tələb edirdi. Yerli kapitalın bu qədər böyük investisiyalar yatırmaq imkanı isə yox idi. Rusiya kapitalı da bu imkanlara sahib deyildir. Yaranan vəziyyət xarici kapitalın Cənubi Qafqazın dövriyyə bazarına daxil olması üçün əlverişli şərait yaratdı. Burada o, əvvəlcə xalq təsərrüfatının məhsullarına Rusiya və

dünya bazarlarında böyük tələbat olan və böyük gəlirlər vəd edən sahələrində özünü təsdiq etdi. Həmin sənaye sahələrinə neft sənayesi, dəmir yolu tikintisi və əlvan metallurgiya daxil idi. Məsələn, 1880-ci illərin ikinci yarısında yaranan iri müəssisələrin siyahısına Bakı neftinin ixracının təşkili ilə məşğul olan Rotşild və başqalarının şirkətləri daxildi[1] .1880-ci illərin ortalarında 469 işçinin çalışdığı Rotşild zavodundan əlavə, Rixner zavodunda neft taralarının maşın istehsalı da qurulmuşdur. Azərbaycanda neft hasilatı 1870-ci ildə 27 min tondan 1900-cü ildə 10 milyon tona çataraq, dünyada istehsal olunan neftin yarıdan çoxunu təşkil etmişdir[2]. İqtisad elmləri doktoru, iqtisadçı və siyasi xadim Lev Yeventov öz "Rus sənayesində xarici sərmayələr" adlı kitabında yazırdı: "Rus kapitalizminin taleyi yarım əsrdən çoxdur ki, xarici kapitalla sıx bağlıdır. Beynəlxalq kapital müəyyən mənada rus kapitalizminin təbliğatçısı, sonrakı çətin tarixi keçidlərdə onun dayağı, xüsusən də rus burjuaziyasının 1905-ci il inqilabi tufanından xilaskarı idi"[3]. 1917-ci ildə baş verən hadisələrdən sonra yaranan sovet hökuməti tərəfindən elan edilən iri sənaye və bankların milliləşdirilməsi "xarici mülkiyyətin" ləğvinə gətirib çıxartmışdı. XIX əsrin sonundan XX əsrin ilk onilliklərinə qədər keçən vaxt ərzində dünyada neft hasilatının başlıca mərkəzi kimi tanınan Azərbaycanda bu sahənin inkişafı bir sıra başqa sahələrin də yaranmasına səbəb oldu. Hər şeydən əvvəl hasil edilən, həcmi

---

[1] Булатов, Б., Исмаилова, А. «Влияние иностранных инвестиций на экономику Южного Кавказа на рубеже XIX - XX вв.» // Кабардино-Балкария: «Кавказалогия», №4, -2017, s. 134-144.

[2] Гулишамбаров, С. «Всемирная торговля в XIX в. и участие в ней России» / С. Гулишамбаров, - СПб: тип. В. Киршбаума, - 1898, s. 30

[3] Эвентов, Л. «Иностранные капиталы в русской промышленности» / Л.Эвентов, - Москва: Государственное социально-экономическое издательство, - 1931, s.14

ildən-ilə artan neftin bir hissəsinin Bakıda emalı və neftçıxarma sənayesi ilə bilavasitə əlaqədar olan bir sıra başqa sənaye sahələri də inkişaf edirdi. 1872-ci ildə çar hökumətinin sərəncamı ilə neft sənayesində iltizam sisteminin ləğv olunması, Azərbaycanı dünyanın başqa əraziləri ilə birləşdirən bir neçə istiqamətdə dəmir yolu xətlərinin istifadəyə verilməsi, Xəzər dənizində gəmiçiliyin genişləndirilməsi, kənd təsərrüfatında kapitalist istehsal münasibətlərinin inkişafı, 1897-1907-cı illərdə Bakı-Batum neft kəmərinin çəkilməsi Azərbaycanda iqtisadiyyatın digər sahələrinin də, xüsusilə neft sənayesinin özünün inkişafına güclü təkan vermişdi. Lakin eyni zamanda iltizam sisteminin ləğvi regiona xarici kapitalın axınını təmin etmişdir: "Rusiyada maliyyə resurslarına böyük ehtiyac olduğu halda, Qərbdə onların xeyli hissəsi toplanmışdı. Kapitalizmin qeyribərabər inkişafı nəticəsində bəzi Avropa ölkələrində öz vətənində daha sərfəli istifadə oluna bilinməyən kapital artıqlığı yarandı"[1]. Bu kapital artıqlığı öz səmərəsini Bakı neft sənayesində tapdı: tükənməz neft ehtiyatları, ucuz işçi güvvəsi, sərmayə yatırımlarının sərfəli şərtləri və güclü rəqiblərin yoxluğu Qərb kapitalistlərinə maksimal gəlirin əldə edilməsini təmin edirdi. Belə ki, XIX əsrin son rübündə Bakıda Rotşild 6% saf gəlir əldə etdiyi halda Parisdə şərkətlərinin gəliri güclə 3% təşkil edirdi. Rus hakimiyyəti xarici sərmayənin axınını görərək 1892-1899-ci illər arasında Bakıda 30 xarici neft emalı müəssisələrinin açılmasına icazə vermişdir və bu sənayeyə qoyulan sərmayənin məbləği ildə 14 milyon rubl təşkil etməklə ümumi təxminən 97, 6 milyon rubl olmuşdur[2]. Imperiyaya axın edən

---

[1] Ахундов, Б. «К вопросу об иностранном капитале в дореволюционной бакинской нефтяной промышленности» // Баку: Известия АН АзССР, -1953, s. 77-99.

[2] Ахундов, Б. «Образование монополий в нефтяной промышленности Азербайджана» // Баку: Материалы по экономической истории Азербайджана, -1970, s. 75-80

iri miqyaslı kapital burada bank və kredit sistemlərinin yaranmasına və sürətli inkişafına gətirib çıxartmışdı, kommersiya banklarının fəaliyyəti bu illər ərzində xeyli genişləmişdir. XIX əsrin 70-ci illərinə qədər neftin satışına aksiz vergisi tətbiq edilirdi[1]. Qaydaya görə, aksiz vergisi ağ neftin satışa buraxılmasına qədər müddətdə ödənilməli idi, bu isə o demək idi ki, gəlir sadəcə satışdan sonra əldə edilə bilərdi; satışdan öncə isə vergi sənayeçi tərəfindən öz vəsaiti hesabına ödənilməli idi. Bu qayda bir sıra sahibkarın kredit verən müəssisələrin və ya şəxslərin axtarışına səbəb olmuşdur. Fiziki şəxslər, sələmçilər və s. maliyyə əməliyyatları ilə məşğul olan insanlar bəzi hallarda yüksək faizli kredit verir, bu krediti ödəyə bilməyən bir sıra sahibkar isə fəaliyyətlərinə son qoymaq məcburiyyətində qalırdılar. Sahibkarların fəaliyyəti dayandırmaları iqtisadiyyata zərbə vurur, həmçinin sələmçilərin əlinə keçən maliyyə vəsaitlərinin nəzarətdən kənar qalması çar hakimiyyətini düşündürür və bunun qarşısını almaq üçün 1874-cü ilin fevralın 28-də Bakıda "Bakı qarşılıqlı kredit cəmiyyəti" ("Общество взаимного кредита") açılmışdır. Bu cəmiyyət Şimali Azərbaycanda ilk bank müəssisəsi olmaqla yanaşı burada bank kredit sisteminin yaranmasının təməlini qoymuşdur[2]. Cəmiyyət XIX əsrin 80-ci illərin sonlarında artıq uğurla fəaliyyət göstərirdi; onun 746 üzvü var idi və kredit məbləği 2 milyon 132 min rubla çatmışdı. Bakı kredit cəmiyyətinin illik dövriyyəsi 85 milyon rubl idi. Buna baxmayaraq maliyyə dövriyyəsi o vaxtlar üçün kifayyət etmirdi və 1874-cü ilin iyunun 1-də Rusiya Dövlət Bankının Bakı şöbəsi yaradılmışdır. Dövlət bankının Bakı filialının əsas aktiv əməliyyatları veksellərin diskontlaşdırılması, qiymətli

[1] Həsənov, Ş. "XIX əsrin sonlarında Rusiya kommersiya banklarının Şimali Azərbaycanın neft sənayesi və ticarətində fəalliyyətinə dair" // Bakı: Tarix və onun problemləri, № 1, 2013, s. 78-86.

[2] Касумова, А. «Кредитно-банковские учреждения Азербайджана (1874-1932 гг.) / Баку, 1969, s. 7-9.

kağızlar və mallar (neft və neft məhsulları) qarşılığında kreditlərin verilməsi olmuşdur. Illər keçdikcə və neft sənayəsinin sürətli inkişafı Bakıda Rusiyanın bir sıra şəhərlərində mövcud olan kommersiya banklarının şöbələrinin açılmasına gətirib çıxarmışdı. Belə ki, 1886-cı ildə Bakıda Tiflis Kommersiya Bankı, 1890-cı ildə Volqa-Kama Kommersiya Bankı, 1897-ci ildə Kiyev Sənaye Bankı, 1898-ci ildə Sankt-Peterburq-Azov Kommersiya Banklarının Bakıda şöbələri açılmışdır.[1] Bakı banklarının əsas müştəriləri iri sənayeçilər və səhmdar cəmiyyətləri idi. Azərbaycanın digər şəhərlərində isə, Yelizavetpol (Gəncə), Şəki və Şuşada bankların müştəriləri əsasən ipəksarıma, pambıqtəmizləmə, konyak zavodlarının sahibləri, eləcə də iri kənd təsərrüfatı xammalı, barama, pambıq, üzüm və s. tacirləri idi. Kənd təsərrüfatının pambıqçılıq, ipəkçilik, üzümçülük və şərabçılıq, çəltikçilik və s. kimi sektorlarında işləyən orta və kiçik kənd burjuaziyasının nümayəndələri əsasən kiçik kredit cəmiyyətlərinin və əmanət-kredit cəmiyyətlərinin müştəriləri idi. İri torpaq sahibləri Azərbaycan torpaq banklarının («земельные банки») müştəriləri olub.[2] Beləliklə, nəhəng ucuz kapital və kredit alətlərinin axını region iqtisadiyyatının sürətli inkişafına yardım etdi. Kredit kənd təsərrüfatına nüfuz edirdi və ilk növbədə ondan yararlanan ipəkçilik olmuşdur: “80-ci illərin ortalarında 800 kənd ipəkçiliklə məşğul idi”.[3] Bu-

[1] Həsənov, Ş. “XIX əsrin sonlarında Rusiya kommersiya banklarının Şimali Azərbaycanın neft sənayesi və ticarətində fəalliyyətinə dair” // Bakı: Tarix və onun problemləri, № 1, 2013, s. 78-86.

[2] Умаев, А., Касумова, А. «Роль банковского и ростовщического капитала в экономическом развитии дореволюционного Азербайджана» // Баку: Материалы по экономической истории Азербайджана, 1970, s.41.

[3] Умаев, А., Касумова, А. «Роль банковского и ростовщического капитала в экономическом развитии дореволюционного Азербайджана» // Баку: Материалы по экономической истории Азербайджана, 1970, s. 44.

nunla yanaşı pambıqçılıq sahəsi sürətli inkişaf etməyə başlamışdır və artıq 1888-1889-cu illərdə məhsul yığımı 3,1 min puddan 650 min puda qalxmışdı.[1] Lakin, inkişaf etmiş sahələrin önündə neft sənayəsi durmuşdur. Ucuz kapital və kredit alətlərinin sayəsində qısa müddət ərzində neft hasilatı inkişaf etmiş sənaye sahəsinə çevrilmişdir: 1873-cü ildə 3,9 milyon pud neft hasil edilmişdisə, 1901-ci ildə bu həcm 671 milyon pud olmuşdur[2] . Bu inkişaf Şimali Azərbaycanın iqtisadiyyatında yeni məfhumların yaranmasına gətirib çıxartmışdı.

XIX əsrin 70-80-ci illərində Şimali Azərbaycanda sənaye inkişafının səciyyəvi xüsusiyyətlərindən biri burada "ticarət evlərinin" açılması idi: "Ayrı-ayrı şəxslərə məxsus olan və kiçik payçı formasında fəaliyyət göstərən müəssisələrlə yanaşı daha böyük ticarət evləri və səhmdar cəmiyyətləri meydana gəlirdi. Bakıda ilk ticarət evləri XIX əsrin 70-ci illərində yaranmışdır"[3] . İlk payçı müəssisələrindən biri 1872-ci ildə yaranan və Z.Tağıyev, M.Sultanov, İ.Tumayev, A.Saturov, A.Orbelov, A.Fon-Burmeyster kimi iri sənayeçilərin üzv olduqları "Şəriklər" cəmiyyəti idi. Daha sonra, 1874-cu ildə P.Qubonin və V.Kokorev tərəfindən "Bakı neft cəmiyyəti" və 1877-ci ildə "H.Z.Tağıyev və Sarkisov qardaşları" adlı daha bir ticarət evi yaradılır, lakin 1886-ci ildə Z.Tağıyev bu müəssisəyə məxsus

[1] Умаев, А., Касумова, А. «Роль банковского и ростовщического капитала в экономическом развитии дореволюционного Азербайджана» // Баку: Материалы по экономической истории Азербайджана, 1970, s. 44.

[2] Умаев, А., Касумова, А. «Роль банковского и ростовщического капитала в экономическом развитии дореволюционного Азербайджана» // Баку: Материалы по экономической истории Азербайджана, -1970, s. 44.

[3] Mehdiyev, Ə. "Azərbaycan neft sənayesi XIX əsrin son rübündə" / Ə.Mehdiyev, Bakı: "Altay", 2000, s.26.

bütün əmlakı alaraq özünün yeni şirkətini yaradır[1] , 1875-ci ildə neft sənayesi bir sıra çətinliklərlə üzləşir və maliyyə nazirliyinə aksiz vergisinin ləğv edilməsi ilə bağlı müraciət edilmişdir. Bu müraciətə əsasən 1877-ci ildə ölkədə istehsal edilən ağ neftdən alınan aksiz ləğv edilir və xaricdən gətirilən ağ neft üçün gömrük rüsumu artırılaraq, onun qızıl ilə ödənilməsi qaydası müəyyən edilir.[2]. Qeyd etmək lazımdır ki, o dövrdə qurulan "ticarət evləri" ilə "səhmdar cəmiyyətləri" arasında müəyyən fərq mövcud idi: "ticarət evlərinin" təsisçiləri şirkətlərinin fəalliyətinə görə sahib olduqları bütün əmlakları ilə məsuliyyət daşıyırdılar, amma "səhmdar cəmiyyətinin" üzvləri müəssisəyə yatırdıqları kapital payları qədər məhdud məsuliyyətə sahib idilər. Ticarət evlərinin hüquqi cəhətdən təsdiq olunması prosesi müəssisənin üzvləri tərəfindən imzalanmış müqavilənin notariat kontorunda qeydiyyatdan keçdikdən sonra, onun surəti şəhər idarəsinə təqdim edilməklə başlayırdı. Səhmdar cəmiyyətlər isə nizamnamələrinin layihəsinin Maliyyə nazirliyində və Nazirlər komitəsində baxıldıqdan sonra imperatorun icazəsi ilə Senat tərəfindən təsdiq edilirdi: "Hökumətin razılığı olmadan cəmiyyətin nizamnaməsində heç bir dəyişiklik edilə bilməzdi. Səhmdar cəmiyyəti sahibkarlığın təşkilatlanma formasının yüksək mərhələsidir"[3]. Şimali Azərbaycanda qurulan səhmdar cəmiyyətlərindən ən geniş tanınan 1879-cu ildə Bakıda təsis edilən "Nobel qardaşları" səhmdar cəmiyyəti idi. 1880-ci ildə Şimali Azərbaycanda 11 iri səhmdar şirkəti mövcud idi. Beləliklə, bank kreditləri ilə yanaşı sahibkarlar öz maliyyə gü-

[1] Yenə orada, s. 29

[2] Першке Л. «Русская нефтяная промышленность, ее развитие и современное положение в статистических данных» / Л.Першке, Тифлис: тип. К.П.Козловского, -1913, s. 26.

[3] Mehdiyev, Ə. "Azərbaycan neft sənayesi XIX əsrin son rübündə" / Ə.Mehdiyev, Bakı: "Altay", -2000, s. 32

cü hesabına fəaliyyətlərini davam etdirməyə çalışırdılar: səhmdar cəmiyyətlərinə və "ticarət evlərinə" birləşərək sənayeçilər kapitallarını bir araya gətirib yeniliklər etməyə, zamanın yeni texnologiyalarına yeyələnərək istehsalı müasirləşdirməyə çalışırdılar.

1880-ci ildə nəşr olunan Rusiya dağ-mədən sənayesinin ən qədim mətbu orqanı olan "Gornıy jurnal" («Горный журнал», «Dağ-mədən jurnalı») səhifələrində çap olunan "Paroxodların və parovozların neftlə qızdırılması" adlı məqalədə yazılmışdı: "Neftin parovoz və paroxodların qızdırılması üçün istifadəsi ölkəmizdə o qədər parlaq irəliləyiş əldə edib və o qədər mükəmməlliyə çatıb ki, biz bunu nəinki Qərbi Avropada, hətta Amerikada görmürük, baxmayaraq ki, bu üsul adını çəkdiyimiz ölkələrdə 20 ildir ki, tətbiq edilir. Neftlə qızdırılma məsələsində biz bütün digər ölkələri xeyli arxada qoyduq və bu məqsədlə istifadə etdiyimiz qurğular Bakıya gələn amerikalıları daim təəccübləndirir"[1]. Daha sonra məqalədə 1858-ci ildə Suraxanıda açılan ağ neft – "nöyüt" zavodunun açılışı və fəaliyyəti haqqında, Bakıda neft istehsalında istifadə edilən ən müasir avadanlıqdan və bu sənayenin gələcək inkişaf istiqamətlərindən söz edilir. Ağ neft istehsalı XIX əsrin son rübündə perspektiv sahə hesab edilirdi, çünki onun yeni sürətlə inkişaf edən nəqliyyat və daşıma sahələrində istifadəsi geniş yayılmışdır. Yerüstü nəqliyyatdan başqa, su nəqliyyatı da ağ neft istifadəsinə başlamışdır ki, beynəlxalq ticarət üçün Xəzər dənizi gəmiçiliyi çox mühüm rol oynamışdır. 1879-cu ilin statistik məlumatlarına görə, neft emalı son 5 il ərzində 11.044 pud, 1878-ci ilə görə 6 min pud artmışdır: artımın əsas səbəbi "Amerika kerosininin (ağ neft, nöyüt) tədricən istifadədən çıxarılması və onun qalıqlarının utilizasiyası ilə bağlı idi"[2] . Belə ki, Nobel

[1] «Нефтяное отопление пароходов и паровозов» // Горный журнал», Спб: тип. А.М.Котомина, -1880, апрель/май, s.1

[2] Скальковский, К. «Горнозаводская производительность России» / К.

neft kəməri gündə 25 min kubmetrdən çox xam neft ötürürdü və bu, "Qara şəhərdəki" 180 zavodu təmin etmək qabiliyyətində idi. 1878-79-cu illərdə Nobel şirkəti ikinci daha iri neft kəmərinin tikintisinə başlamışdır və hər iki kəmərin neft ötürmə qabiliyyəti gündə 80 min puda qaldırılmışdı. Neft qalıqlarının daşınması üçün nəzərdə tutulmuş Bakı Neft Şirkətinə məxsus Balaxanadan uzanan boru kəməri və onun Suraxanadan Zığ burnunda limana qədər olan kəməri də həmin dövrün perspektiv neft kəmərlərindəndi. Nobel şirkətlərinə aid kəmərlər iri həcmli neft kəmərləri idi, lakin bu Balaxanı kəməri yeni növ yüngül boru kəmərlərdən idi ki, bu boru kəmərləri neft emalından qalan neft qalıqlarını emalı ilə məşğul olan zavodlara ötürürdü. Bu qalıqlardan sürtkü yağları istehsal edilərək, xaricə ixrac olunurdu. 1880-ci illərin məlumatlarına əsasən, həmin dövrdə sürtkü yağlarının ixarcında iri miqyaslı artım yaşanırdı. Bunun səbəbi bu yağların gəmiçilikdə istifadə olunması idi[1] , Beləliklə, kapitalist münasibətlərinin sürətli inkişafı sayəsində Bakı tez bir zamanda Peterburq, Moskva və digər iri şəhərlərlə birlikdə Rusiya imperiyasının iri sənaye mərkəzinə çevrildi. Yeni sənaye müəssisələrinin açılması işçi güvvəyə tələbatı artırmışdı ki, 1864-1897-ci illərdə buraya müxtəlif yerlərdən, Rusiya imperiyasının regionlarından gələnlərlə birlikdə qonşu ölkələrdən bura iş üçün gələn iri insan axını müşahidə olunmuşdur və şəhərin əhalisi xeyli, 8 dəfədən çox artmışdı. Bununla bərabər 1901-ci ildə Bakı neft hasilatını 667 milyon puda çatdıraraq dünyada birinci yeri tutmuşdu[2]. XIX əsrin ikinci yarısında kapitalist sənayesinin inkişafı cəmiyyətin tərkibində

Скальковский, Спб.: тип. А.Траншеля, -1881, s.13.

[1] Скальковский, К. «Горнозаводская производительность России» / К. Скальковский, Спб.: тип. А.Траншеля, -1881, s. 137-139

[2] Ахундов, Б. «К вопросу об иностранном капитале в дореволюционной бакинской нефтяной промышленности» // Баку: Известия АН АзССР, -1953, s.77

əsaslı dəyişikliklərin baş verməsi yeni kapitalist münasibətlərinin, burjuaziya və fəhlə sinfinin təşəkkül tapması üçün şərait yaratmışdı. Azərbaycan burjuaziyası neft sənayeçilərindən, fabrik, zavod və manufaktura səviyyəsində olan sənətkar emalatxanalarının sahiblərindən, tacirlərdən təsərrüfatlarını muzdlu əmək üzərində quraraq kapitalistə çevrilmiş bəylərdən və b. ibarət idi. Azərbaycan burjuaziyasının XIX ərsin ikinci yarısında başlamış təşəkkül prosesi XX əsrin əvvəllərində də davam etmişdi. Azərbaycanlı sahibkarlar əsasən Bakının yüngül sənaye, neft emalı sahələrində, gəmiçilikdə, Azərbaycan qəzalarındakı sənaye müəssisələrində üstünlük təşkil edirdi.

Beləliklə, 1872-ci ildə neft sənayesinin inkişafına əngəl törədən və sanayedə kapiral axınına manə olan iltizam sistemi ləğv edildi. Neftverən torpaqlar qruplara bölünüb müzaidə yolu ilə ayrı-ayrı kapital sahiblərinə uzunmüddətli icarəyə verilirdi. Tezliklə neft istehsalı ilə məşğul olan şirkətlər yarandılırdı. Neft sənayesinə rus və xarici kapital axını başlandı. 1879-cu ildə “Nobel” qardaşları “birliyi”nin əsası qoyuldu. XIX əsrin 80-ci illərində Bakıya Rotşildin simasında fransız kapitalı nüfuz etdi. Neft sənayesinə kapital axını neftin çıxarılması, emalı texnikasının yaxşılaşdırılmasına, neft məhsullarının məhsuldar işləməyə başlamış daşıma vasitələrinin təkmilləşdirilməsinə səbəb oldu. 1871-ci ildə buruq üsulu ilə ilk neft quyusu qazıldı, nefti quyulardan çıxarmağa başladılar. Neft sənayesində əl əməyinin buxar mühərrikləri ilə əvəz edilməsi manufakturadan iri fabrik istehsalına keçilməsi demək idi. 1870-ci illərin sonunda Balaxanı mədən rayonu ilə neft emalı müəssisələri arasında ilk neft kəməri işə salındı. Əsrin sonunda kəmərlərin sayı 26-ya çatdı. Nefti saxlamaq üçün çənlər quruldu, daşımaq üçün vaqon-sistərnlər istehsal edildi. Azərbaycanda mahir neft ustaları onların arasında azərbaycanlı kapitalistlərdən H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev və b. ortaya çıxmışdı. Neft istehsalının sürətlə inkişafı neft emalı-neftayırma

sənayesinin inkişafına səbəb oldu. 1890-cı ildə Bakıda 150-yə qədər neft emalı zavodu fəaliyyət göstərirdi. Ağ neft məhsullarının daşınmasını asanlaşdırmaq məqsədilə Bakı və Batum arasında 1897-ci ildə birbaşa ağ neft kəmərinin çəkilməsinə başlandı. Neft sənayesində səhmdar cəmiyyətlər yaranır, bu cəmiyyətlər neft istehsalı ilə ticarətin öz əllərində cəmləşdirirdilər. Bakı dünyanın ən böyük neft sənayesi mərkəzlərindən birinə çevrildi. Bakıda mexaniki zavodlar da fəaliyyət göstərirdilər.

Şimali Azərbaycanda eyni zamanda gəmi təmiri emalatxanaları, buxar mühəriklərilə hərəkətə gətirilən dəyirmanlar, tütün fabrikləri və yüzlərdlə yeyinti, tikinti sənaye sahələri vardı. Gədəbəy mis mədənlərində dağ-mədən sənayesi, Şəki, Şuşa və Ordubadda barama istehsalı, ipək emalı əsanayesinin, pambıqçılığın inkişafı pambıqtəmizləmə sənayesi kapitalist sənayesinə çevrilmişdilər. Bakı və Naxçıvanda duz mədənlərində duz istehsalı xeyli artmışdı. Balıqçılıq da genişlənərək 1880-ci ildə vətəqələrin icarəyə verilməsi ilə gücləndi. Balıq vətəgələri Tağıyev, Mayılov, Sianozov kimi neft maqnatlarının inhisarında idi. İpək emalı sənayesinin əsas mərkəzi olan Nuxa şəhərində buxar mühərrikləri ilə hərəkətə gətirilən ipək emalı fabrikləri var idi. Cənubi Qafqazdan ixrac olunan ipəyin 90%-i Azərbaycanın payına düşürdü. Oktyabrdan əvvəl Rusiyada tətbiq edilən islahatlardan sonrakı sənaye əsasən istehlak malları istehsal edirdi, lakin 1880-ci illərdən başlayaraq istehsal olunan məhsulların ümumi strukturunda istehsal vasitələrinin payı artdı. Sənayenin köhnə, ənənəvi sahələri (toxuculuq və metallurgiya) ilə yanaşı, yeniləri – kömür, neft hasilatı, kimya və maşınqayırma yarandı və inkişaf etdi. Sənayedə kapitalist münasibətlərinin inkişafının mühüm göstəricisi muzdlu əməyin payının artması idi. Kapitalist sənayesinin inkişafı nisbətən sürətlə baş verdi. 1866-cı ildə təxminən 2500-3000, 1879-cu ildə 4500-ə yaxın, 1890-cı ildə isə 66 minə yaxın belə sənaye müəssisəsi

var idi. Sənayenin kəmiyyət artımı onun strukturunda keyfiyyət dəyişiklikləri ilə müşayiət olundu. İstehsalın mexanikləşdirilməsi, texnologiyanın müasirləşdirilməsi, enerji bazasının genişləndirilməsi intensiv şəkildə davam etdirildi. Rusiya imperiyasının irəli gedən iqtisadçılrından biri Gülüşambarov öz kitabında yazırdı ki, müxtəlif coğrafi şəraitdə yaşayan, müxtəlif maraqları və məhsuldar fəaliyyəti ilə seçilən müxtəlif xalqlar müxtəlif şəraitə görə bir-biri ilə sıx ünsiyyətə girərək yeni tələblər, yeni təkliflər və ideyalar doğurmuşdur. Təbii ki, dünya ticarəti o dövrdə sabit ola bilməzdi və onun xarakteri zamanın tələblərinə və o zaman mövcud olan rabitə yollarının şərtlərinə uyğun olaraq tez-tez dəyişirdi. Məsələn, ənənəvi kənd təsərrüfatı məhsulları ilə bərabər, kütləvi xalq bazarlarına qəhvə, ekzotik meyvə kimi yeni qida məhsullarının, tütün, şəkər qamışının, Kaliforniya bazarı qızılla, Meksika gümüşlə, Pensilvaniya dəmirlə dolmasını qeyd edirdi[1]. Bu səbəbdən beynəlxalq ticarətin ən böyük oyunçularından biri olan Rusiya dünya bazarında baş verən dəyişikliklərə ayaq uydurmalı idi. Belə ki, sənayedə dəyişən meyllərə təsir edən növbəti ən vacib amil yeni ixtiralar olmuşdu. Ən vaciblərindən biri buxar maşını idi. Ondan sonra metallurgiya, dəmir yolu tikintisi, polad sənayesi və s. sürətlə inkişaf etməyə başlamışdır. Bu ixtiraların bilavasitə nəticəsi olan dünya iqtisadiyyatında və beynəlxalq əmtəə birjasında baş verən dəyişiklikləri aşağıdakı dörd əsas müddəa ifadə edirdi: 1. daha ucuz istehsal 2. daha ucuz və sürətli daşıma üçün əlaqəli marşrutların və rabitə vasitələrinin təkmilləşdirilməsi, 3. dünya bazarında qiymətlərin tənzimlənməsi, 4. dünya ticarət dövriyyəsinin artması və beynəlxalq əlaqələrin canlanması. Ixtiralar əsrin əvvəllərində artıq ortaya çıxmışdır və istifadə olunmuşdur, lakin XIX əsrin sonunda yanacaq kimi

[1] Гулишамбаров, С. «Всемирная торговля в XIX в. и участие в ней России» / С. Гулишамбаров, - СПб: тип. В. Киршбаума, - 1898, s. 21-23

odun deyil, kömür və neft məhsulları istifadə edilməyə başlamışdır: "Məhz bu geniş yayılmış və hasilatı nisbətən asan olan qalıq yanacaqda dünya iqtisadiyyatı böyük enerji potensialı tapmışdır. Bundan əlavə, əsrin sonu birmənalı olaraq elektrik enerjisinin hər yerə nüfuz etməsi ilə xarakterizə olunur"[1]. 1873-1875-ci illərdə Rusiya daxili bazarın həddindən artıq dolması səbəbindən iqtisadi böhrana məruz qalmışdır. Əsasən zərər çəkən, dövlət sifarişləri onların rəqabətqabiliyyətliliyində mühüm rol oynayan fabriklərin rəqabətinə tab gətirə bilməyən kiçik sənaye idi. 1877-1878-ci ildə Rusiya-Türkiyə müharibəsinə görə və xarici ticarətdə proteksionist tədbirlərin tətbiqi nəticəsində sürətli sənaye inkişafı başladı. Bu inkişaf bəzi yüksək vəzifəli məmurları daha da çox istehsala ruhlandırırdı. Məsələn, 1880-ci ildə şəxsi müşaviri N. Bunge imperatora "Rusiyanın maliyyə vəziyyəti və kənd təsərrüfatının, sənayenin və nəqliyyatın yaxşılaşdırılması tədbirləri haqqında" nota təqdim etdi və burada o, bir sıra yeni, imperiyada meydana gəlmiş və ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən sənaye sahələri ilə bağlı məqsədyönlü siyasətin işlənib hazırlanmasını təklif etmiş, xüsusi diqqəti neft sənayesinə yönəldilməsini demişdir: "Beləliklə, hakimiyyətin ən yüksək dairələrində neft sənayesinin inkişafı ilə imperiyanın maliyyə vəziyyətinin yaxşılaşdırılması arasında bilavasitə əlaqəsi haqqında sual qaldırılmış, Qafqaz regionunda sənayenin bütün sahələrindən ən böyük inkişafa nail olmuş neft sənayesinin mərkəzi olan Bakıya xüsusi rol verilmişdi"[2]. Qeyd etmək lazımdır ki, Rusiya imperiyasında iri

[1] Гулишамбаров, С. «Всемирная торговля в XIX в. и участие в ней России» / С. Гулишамбаров, - СПб: тип. В. Киршбаума, - 1898, s. 182-185

[2] Мурадалиева, Э. «Северный Азербайджан в планах и практике Российской империи по экономическому «завоеванию» Кавказа // Баку: Известия НАН Азербайджана. Серия общественных наук, - 2017, №1, -s. 4-14

neft maqnatları ilə dövlət aparatı arasında sıx əlaqə mövcud idi. Xəzinə neft yataqlarının əksəriyyətinin, Zaqafqaziya dəmir yolunun, Bakı-Batumi neft kəmərinin və s. vacib strateji obyektlərin yeganə sahibi kimi Azərbaycanın neft sənayeçiləri ilə sıx bağlı idi və onlarla ümumi maraqlara sahib idi. Bu hal ilk növbədə çar hökumətinin maddi bazasının zəif olması ilə bərabər siyasətdə hakim mövqe tutması, kapitalistlərin isə möhkəm maddi bazaya malik olmaları ilə siyasi hakimiyyətə malik olmamaları ilə bağlıydı. Rusiya imperiyasında Qərb ölkələrindən fərqli olaraq burjuaziya hakimiyyətdə deyildi ki, bu da ona çar hökumətinin siyasətini tamamilə öz maraqlarına tabe etdirməyə imkan vermirdi. Çar avtokratiyasının dövlət siyasəti əsasən rus zadəganlarının və torpaq mülkiyyətçilərinin maraqlarına xidmət edirdi[1] . Bundan əlavə, Bakı sənayesi daxili bazarın ehtiyacları ilə yaranmayıb: onun sürətli inkişafı ümumrusiya və dünya bazarının tələbatları ilə idarə edilirdi. Belə ki, XIX əsrin son rübündə Şimali Azərbaycan sənayesində yeni məfhum ortaya çıxmışdı – inhisar (monopoliya). XIX əsrdə inhisarın ali növü trest və konsernlərin yaranmasında öz əksini tapmışdı. Şimali Azərbaycanın neft sənayesi sayəsində Rusiya imperiyasının ərazisində üç beynəlxalq neft tresti qurulmuşdur – “Nobel qardaşlarının neft istehsalı şirkəti”, “Şell birliyi” və “Oil korporasiyası”. Xarici kapital ilə yerli hakimiyyətin təqdim etdiyi imtiyazlar, həmçinin istehsalda istifadə etdikləri yeni texnologiyalar və avadanlıq ilə rəqabət aparmağa imkanı olmayan bir sıra yerli kiçik müəssisələr bu trestlər tərəfində əldə edilmişdir və beləcə neft emalında inhisarlar yaranmağa başlamışdır. Tədricən bu inhisarlar neft məhsullarına öz maraqlarına və istəklərinə uyğun qiymətlər təyin etməyə başlamışdır və bu qərarlar

[1] Ахундов, Б. «К вопросу об иностранном капитале в дореволюционной бакинской нефтяной промышленности» // Баку: Известия АН АзССР, -1953, s.76-78

digər yerli və xarici istehsalatçılar tərəfindən sənayenin inkişafına sərf edilən səylərin azalmasına gətirib çıxartmışdır: artıq yeni texnika icad edilmir, yeni metodlar tətbiq olunmur və sənayenin inkişafına həm inhisarların, həm də digər istehsalçıların marağı azalır. Beləliklə, növbəti iqtisadi böhran 1881-1883-cü illərdə özünü birüzə vermişdir. Bu vəziyyəti görən Bakı neft sənayeçiləri 1884-cü ilin oktyabr ayında “Bakı sənayeçilərinin I qurultayını” keçirmişdir. Burada 96 nəfərə qədər neft sənayesi sahibkarları iştirak etmişdir: onlardan 25 nəfər mədən sahibkarı, 46 zavod sahibkarı, 28 həm mədən, həm zavod sahibkarı idi[1]. Həmin yığıncağın nəticələrinə əsaslanaraq demək mümkündür ki, neft sənayeçilərini yalnız iqtisadi məsələlər maraqlandırmış və iclaslarda bu məsələlər müzakirə olunmuşdur. İnzibati-təsərrüfat məsələləri isə hələlik gündəmə qoyulmamışdır. Növbəti ildə, 1885-ci ilin mart ayında keçirilən II qurultayda “Qurultay Şurası, onun vəzifəli şəxslərinin hüquq və vəzifələri qaydaları” qəbul edilmişdir. Qaydalara görə, neft sənayeçilərinin hər növbəti qurultayında qurultay Şurasının tərkibi seçilirdi və Bakı Neft Sənayeçiləri Qurultayının yaranmasından sonra ilk 4-5 il ərzində bu təşkilat neft sənayeçilərinin kifayət qədər geniş dairələrinin maraqlarını əks etdirirdi[2].1889-cu ildə vəziyyət tamamilə dəyişir və “senz” sistemi tətbiq edilir. “Senz sisteminə” görə, qurultaylarda firma nümayəndələrinin sahib olduğu səs sayı neftin hasilatı, emalı və daşınmasının ölçülərinə əsasən hesablanırdı. Bu isə o deməkdir ki, iri şirkətlər səsvermə vaxtı daha çox səs sayına sahib idi və müzakirəyə

[1] Xəlilov, P. “Bakı neft sənayeçiləri Qurultayının yaranması, strukturu və tərkibinə dair (XIX əsrin sonları)” // Bakı: Tarix və onun problemləri, № 3, -2016, s.97

[2] Xəlilov, P. “Bakı neft sənayeçiləri Qurultayının yaranması, strukturu və tərkibinə dair (XIX əsrin sonları)” // Bakı: Tarix və onun problemləri, № 3, -2016, s. 97

qoyulan məsələlərin həlli sadəcə onların maraqlarına cavab verirdi, xırda və orta neft sənayeçilərinin problemləri əksər hallarda həllini tapmırdı. Təşkilatın digər önəmli qərarı 1893-cu ildə qəbul edilmişdir: həmən il məcburi vergi sistemi haqqında qərar qüvvəyə minmişdir. Məcburi vergi sisteminə əsasən neft sənayəçiləri neftin hər puduna görə 1,20 qəpik məbləğində neft rüsumunu ödəməli idilər: "Neft rüsumunun tətbiq olunması ilə Bakı Neft Sənayeçiləri Qurultayı inzibati-təsərrüfat sahəsinə də diqqət ayırmağa başlamışdır"[1]. Artıq qurultay Şurasının fəaliyyət dairəsinə yolların çəkilməsi, xəstəxana və məktəblərin təşkil olunması, mədənlərin qurudulması və işıqlandırılması, həmçinin digər təsərrüfat işləri daxil olmuşdur[2].Beləliklə, xərclərin artması gəlirlərin artmasını tələb edirdi, bu səbəbdən neft sənayeçiləri hasilat və emalın yeni yollarını axtarırdılar. Qeyd etmək lazımdır ki, ümumiyyətlə neft sənayeçilərinin 16 qurultayı keçirilmişdir (sonuncu yığıncaq 1902-ci ildə baş tutmuşdur). 1892-ci ildə maliyyə naziri vəzifəsinə Sergey Yuryeviç Vitte təyin olunmuşdu. O, tarixə öz iqtisadi islahatlarıyla girmişdir. Vəzifəyə başlayandan sonra onun ilk addımı neft sənayesində müəyyən tədbirlərin görülməsi idi: hökumət ilk növbədə neft hasilatının miqyasını genişləndirmək qərarını almışdır və bunun üçün Bakı regionunda dövlət kəndlilərinin torpaqlarını müsadirə etmək və onların başqa ərazilərə köçürülməsi siyasətini həyata keçirmişdi. Məlum olduğu kimi, o dövrdə torpaq dövlətin mülkiyyəti idi, lakin neft gətirən ərazilərin icarəyə verilməsi nəticəsində XIX əsrin sonunda boş torpaqların olduqca az qalması, həmçinin bəzi neft çıxan torpaqların iri tor-

---

[1] Xəlilov, P. "Bakı neft sənayeçiləri Qurultayının yaranması, strukturu və tərkibinə dair (XIX əsrin sonları)" // Bakı: Tarix və onun problemləri, № 3, -2016, s. 98

[2] Старцев, Г. «Бакинская нефтяная промышленность. Историко-статистический очерк» / Г.Старцев, Баку: «Арор», -1901, s.78

paq mülkiyyətçilərinin şəxsi mülkiyyətləri olması, çar hakimiyyətinin ən qorumasız təbəqə – kəndlilərin torpaqlarına göz qoymasına səbəb olmuşdur. Müsadirə edilən torpaqlar daha sonra xüsusi mülkiyyətçilərə hər desyatin müqabilində müəyyən məbləğin ödənilməsi şərtilə icarəyə verilmiş, bundan əlavə, neftli torpaqların bir hissəsi ayrılır və mülki və hərbi qüvvələrin nümayəndələrinə xüsusi "ən yüksək mükafat" kimi təltif edilmişdi. 1890-ci illərdə Qafqazda dövlət torpaqlarının zəbt edilməsi geniş vüsət almışdı: zadəganlar və neft sənayeçiləri tərəfindən müxtəlif hiylələrin – rüşvətin köməyi, sənədlərin saxtalaşdırılması, yalançı şahidlərin istifadəsi və s. yollarla əldə edilmişdir.

Araşdırmalar göstərir ki, XIX yüzilliyin son onilliklərində Quzey Azərbaycan sənayesi üçün səciyyəvi olan inkişaf meylləri kifayət qədər rəngarəng olsa da onlar üçün ümumi xarakter daşıyan meyllər də müşahidə olunurdu.

Əvvəla sənaye sahələrinin çox böyük əksəriyyətində başlıca yeri ilk növbədə təbii sərvətlər və yerli sənaye xammalı vasitələrinin hasilatı və ilkin emalı tuturdu.

Dübarə, bir çox aparıcı sənaye istehsalatı sahələrində həm hasilat və emal miqyaslarının, həm də istehsalatın idarə olunmasında təşkilatlanmanın çox sürətlə inkişafı müşahidə olunurdu (məs., neft sənayesi, metallurgiya, şərabçılıq və s.).

Saniyən, bir çox sənaye sahələrində ən aparıcı mövqelər yerli yox, metropoliya və xarici işbazların əlində idi.

Dördüncüsü, yerli kapital, yerli işbazlar ilk dövrlərdə əsasən ticarət, yeyinti sənayesi və s. digər nisbətən az sanballı sənaye sahələrində əsas rol oynayır, ağır və yanacaq sənaye sahələrinə tək-tək yerli sahibkarlar daxil ola bilirdilər.

# III fəsil
# TİCARƏT, NƏQLİYYAT VƏ RABİTƏDƏ MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİ

## 3.1. Ticarət

Sənayenin inkişafının imkan yaratdığı kənd təsərrüfatında, sənətkarlıq istehsalında müşahidə olunan canlanma, sənayenin müxtəlif ənənəvi və yeni sahələrinin inkişafı, rabitə yollarının təkmilləşdirilməsi, Şimali Azərbaycanın ümumrusiya və dünya əmtəə dövriyyəsinə daxil olması regionun xarici və daxili ticarətinə böyük təsir göstərmişdir. Sürətlə inkişaf edən xarici ticarətlə, ilk növbədə neft və neft məhsullarının satışı ilə, müqayisədə daxili ticarət sürətlə inkişaf etməmişdir. Kapitalist, bazar-əmtəə əlaqələrinin yaranması və inkişafı ilə ticarət kapitalının rol və mövqeyi dəyişirdi. Ticarət kapitalı öz müstəqilliyini itirir və sənaye kapitalının tədavül dairəsinə daxil olurdu.

1869-cu ildə çap edilmiş "Ticarət hüququ və digər sənaye sahələri üzrə rüsumlar haqqında əsasnamədə"[1] Rusiya imperiyasının ərazisində ticarət topdan satış, pərakəndə və kiçik ticarətə bölünür. Topdansatış ticarət kontorlarından, anbarlardan və ticarət gəmilərindən həyata keçirilir və bütün növ malların "partiyalarla" satışından ibarət idi. Pərakəndə ticarət mağazalardan, dükanlardan və digər pərakəndə satış müəssisələrindən həyata keçirilən malların hissəli satışına verilən ad idi. "Xırda ticarət" termini isə aşağıdakıları ifadə edirdi: 1. Xüsusi siyahılarda göstərilən malların müəyyən müəssisələrdən parça-parça satışı, 2. Ayaqla və ya nəqliyyatla aparılıb onun üçün müəyyən edilmiş hədlərdə həyata keçirilən istehsal və müstəmləkə mal-

---

[1] Скалон, А. «Положение о пошлинах за право торговли и других промыслов со всеми позднейшими изменениями и дополнениями» / А.В.Скалон, - Харьков: тип. К.Счасни, - 1869, s.1

larının alveri və çatdırılması. Bu əsas üç ticarət növündən başqa əlavə ticarət növlərindən, ticarət əməliyyatları kimi aşağıdakılar təsnif edilirdi: 1. Ticarət gəmilərinin, paroxodların və bütün növ gəmilərin tikintisi, təmiri, saxlanması və icarəyə götürülməsi, 2. Malların alqı-satqısı, daşınması və çatdırılması üçün tacir sifarişlərinin yerinə yetirilməsi və ya başqa sözlərlə komissiya, ekspeditorluq və broker (makler) fəaliyyəti; 3. Rusiya və xarici şəhərlərə pul köçürmələri və ümumiyyətlə bütün bank işləri; 4. pul dəyişdirmə dükanlarının saxlanması, 5. Dövlət faizli qiymətli kağızların və səhmlərin, səhmdar cəmiyyətlərinin və ticarət cəmiyyətlərinin və ortaqlıqlarının alqı-satqısı üzrə əməliyyatların aparılması üçün müəssisələrin saxlanması; 6. Sığorta idarələrinin işlədilməsi; 7. Mənzillərin kirayəsi, əmlakın alqı-satqısı üzrə məlumat bürolarının saxlanması; 8. Mağaza və dükanların, sənətkarlıq emalatxanalarının saxlanılması; 9. Sərnişin daşıma və nəqliyyat idarələrinin işlədilməsi və texniki xidməti[1]. Ticarət fəaliyyəti üçün verilən şəhadətnamələr gildiya və sənaye şəhadətnamələrinə bölünür. Gildiya şəhadətnamələri topdan və pərakəndə ticarətə icazə verir, sənaye şəhadətnaməliri isə xırda ticarət, daşınma və ticarət işçilərinə verilirdi[2] .

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələri arasında daxili ticarət kiçik çeşidli mallarla məhdudlaşırdı ki, burada əsas alqı-satqı obyekti həmin bölgənin zəngin olduğu təbii və ya istehsal etdiyi məhsul idi. Məsələn, məlum olduğu kimi, Şimali Azərbaycanın bütün ərazisi üçün sitrus meyvələrinin əsas tədarükçüsü ölkənin cənub rayonları idi.

Yerli kənd təsərrüfatı məhsullarının, sənaye mallarının və sənətkarlıq məmulatlarının ticarətində mühüm rol oynayan

---

[1] Скалон, А. «Положение о пошлинах за право торговли и других промыслов со всеми позднейшими изменениями и дополнениями» / А.В.Скалон, - Харьков: тип. К.Счасни, - 1869, s.1

[2] Yenə orada, s.9.

"həftə bazarları" adlandırılan kənd bazarları idi. Onların ən məşhuru və irimiqyaslıları Lahıc, Basqal, Altıağaç, Bərgüşad, Salyan, Qəbələ, Ağdaş, Masallı, Astara, Ağdam, Bərdə, Tərtərdə və b. yerlərdə fəaliyyət göstərirdi. XX əsrin 70-ci illərində ən böyük bazarlardan biri olan Ağdaş bazarı haqqında "Kavkaz" qəzeti bunları yazırdı: "Ağdaş bütün ipəkləri, həm də baramaları özündə birləşdirən mərkəzdir ki, buranın ipəyi xaricə Marsel və İtaliyaya göndərilir"[1] .Əmtəəlik heyvandarlığının inkişafı və biyan kökünün tədarükü ilə Ağdaş bazarı xüsusilə canlanırdı. Buraya Cənubi Qafqaz regionunun hər tərəfindən gəlib alış-veriş edən tacirlər, şərabçılıq və toxuculuqla məşğul olan sənayeçilər Ağdaşda yerləşən Azərbaycan ərazisində qədim karvansaraylardan birində qalırdılar: "Ağdaş karvansarayında həmçinin həmişə taxıl ehtiyatı olub"[2] .

Qarabağ regionunun ən böyük bazarı isə Ağdam bazarı idi: "Nəinki əsasən Qarabağdan olan kəndlilər və mülkədarlar öz kənd təsərrüfatı məhsulları ilə buraya axışırdılar, hətta bir çox Şuşa tacirləri və sənətkarları da öz emalatxanalarından mal və məhsullarla buraya gətirirdilər"[3] .Yarmarkalar və bazarlar təkcə iqtisadi cəhətdən inkişaf etmiş bölgələrdə deyil, həm də dəmir yolu xətlərindən nisbətən uzaq ərazilərdə təşkil olunurdu. Məsələn, 1890-cı ildə Qax kəndi yaxınlığındakı Zaqatala qəzasında yaza qədər əsas əkin işlərindən sonra həftəlik yarmarka keçirilirdi.

---

[1] История Азербайджана (в трех томах) / ред. И. Гусейнов, А. Сумбатзаде, А. Гулиев, Е. Токаржевский, - Баку: Изд. АН АзССР, - 1960, Том 2, s. 242

[2] История Азербайджана (в трех томах) / ред. И. Гусейнов, А. Сумбатзаде, А. Гулиев, Е. Токаржевский, - Баку: Изд. АН АзССР, - 1960, Том 2, s. 242

[3] История Азербайджана (в трех томах) / ред. И. Гусейнов, А. Сумбатзаде, А. Гулиев, Е. Токаржевский, - Баку: Изд. АН АзССР, - 1960, Том 2, s.243.

Analoji yarmarkalar Salyan və Basqalda da təşkil olunurdu[1] .

Şimali Azərbaycanın Asiya ilə Avropanın qovşağında yerləşməsi, o dövrdə burada neft, ipək, boyaqotu, duz, zəfəran, xalça, ipək parçalar və b. qiymətli ticarət məhsullarının olması, həmçinin çar hökumətinin İranla ticarətin genişlənməsinə müsbət münasibəti ticarət və iqtisadi əlaqələrin daha da güclənməsinə səbəb olmuşdu. İxracın artması Rusiya imperiyasının vahid təsərrüfat orqanizminə daxil olan Azərbaycanla ilk növbədə ölkənin mərkəzi quberniyaları ilə ticarət əlaqələrinin möhkəmlənməsinə kömək etdi. XIX əsrin 60-cı illərində bu əlaqələr genişləndi, ticarət dövriyyəsi artdı, əmtəə mübadiləsinin formaları dəyişdi. İranla Rusiya arasında vasitəçi kimi çıxış edən Azərbaycan tacirləri XIX əsrin ikinci yarısında Rusiya şəhərlərindəki yarmarkalara – Nijni-Novqoroda və başqalarına mallar aparmağa başladılar. Dəmir yolları çəkildikdən sonra Azərbaycandan Rusiyanın mərkəzinə xammal ixracı xeyli artdı. 80-ci illərin ortalarında Qara dəniz limanları vasitəsilə kifayət qədər böyük taxıl ixracı olunur, yun, pambıq və tütün ixracı artıb. İpəkdorma zavodlarının məhsulları əsasən Moskvaya və Fransaya göndərilirdi. 90-cı illərin ortalarından başlayaraq fabrik istehsalı olan ipək vasitəçi alıcılar vasitəsilə Moskvaya göndərilir, oradan ən yaxşı nümunələr yerli istehsal adı altında Qərbi Avropa ölkələrinə göndərilirdi[2]. Beləliklə, bütün dünyada məşhur olan böyük miqdarda rus ipəyi əslində Azərbaycan istehsalı idi, lakin Rusiya imperiyasının müstəmləkəçilik siyasəti bu faktın gizlədilməsinə imkan verdi, məhsulları Rusiya istehsalı kimi təqdim edilirdi. Xarici ticarət əlaqələri ilə daha

[1] История Азербайджана (в трех томах) / ред. И. Гусейнов, А. Сумбатзаде, А. Гулиев, Е. Токаржевский, - Баку: Изд. АН АзССР, - 1960, Том 2, s. 243

[2] История Азербайджана (в трех томах) / ред. И. Гусейнов, А. Сумбатзаде, А. Гулиев, Е. Токаржевский, - Баку: Изд. АН АзССР, - 1960, Том 2, s. 245

çox məşğul olan şəhərlər Bakı, Şuşa, Salyan, Şəki və Şamaxı idi. Bakı Xəzər dənizi hövzəsində beynəlxalq ticarət mərkəzinə çevrilirdi. 1862-ci ildə Bakının ümumi ticarət dövriyyəsi 4,8 milyon rubl idi. 1897-ci ildə şəhərin sənaye və ticarət müəssisələrinin dövriyyəsi 64,3 mln rubla çatdı və onlardan alınan mənfəət 16 mln rubl oldu[1] .Yük dövriyyəsinə görə Bakı limanı Rusiya imperiyasının limanları arasında ilk yerlərdən birini tuturdu: "Əhalinin bir qismi kənd təsərrüfatı – əkinçilik, bağçılıq, dəyirmançılıq, atçılıq və maldarlıqla, bir qismi də xırda ticarətlə – çayçılıq, kababçılıq, qənnadıçılıq, halvaçılıq, çörəkçilik, hamamçılıq, baqqallıq, bəzzazlıqla məşğul olardı. Bakıda iri ticarətlə məşğul olan düyüçülər, xuşgəbarçılar, ipəkçilər, xalçaçılar, qənd-çay alış-verişi edənlər, qara neft satanlar da az deyildi. Onların bir çoxu İranda alış-veriş edərmiş"[2] .XİX əsrin sonlarında Bakı ticarətinin inkişafı bir tərəfdən onun özünün iqtisadiyyatının son dərəcə böyük sürətlə yüksəlməsinə imkan yaratmış, digər tərəfdən isə Şimali Azərbaycanın daxili və xarici ticarətinin inkişafında rolunu şərtləndirirdi. Məlum olduğu kimi, Bakı neft ticarətinin mərkəzi idi. "Hələ XIX əsrin birinci yarısında, daha doğrusu, Bakıda neft istehsalının çox məhdud olduğu dövrdə, burada neft ticarəti mühüm əhəmiyyət kəsb etmiş"[3] .Bakının neft ticarəti Şimali Azərbaycanda ilkin kapital yığımında misilsiz rol oynamışdı. Bu kapital sonralar Mərkəzi Rusiya və onun ucqar rayonlarında, həmçinin Şimali Azərbaycan rayonlarında xalq təsərrüfatını duru yanacaqla təchiz etməklə, orada məhsuldar qüvvələrin inkişafına əlverişli imkan

[1] История Азербайджана (в трех томах) / ред. И. Гусейнов, А. Сумбатзаде, А. Гулиев, Е. Токаржевский, - Баку: Изд. АН АзССР, - 1960, Том 2, s. 245

[2] Yenə orada, s. 18-19

[3] Musayev, M. "XİX əsrin sonlarında Bakı şəhərinin ticarəti" / M.Musayev, -Bakı: Elm, - 1972, s.5

yaratmışdı. Ticarətin digər tərəfi – istehlak bazarıdır. Bakı Şimali Azərbaycanın ən mühüm istehlak mərkəzi idi. XIX əsrin sonlarına doğru artıq Bakı şəhərində istehsal vasitələrinə və istehlak vahidlərinə yaranan tələbat yüksək surətlə artırdı. Pərakəndə satışlar daxili ticarətin əhəmiyyətli hissəsini təşkil etmişdi. Yarmarkaların təşkili isə daxili ticarətin ən geniş yayılmış forması idi. Yarmarkaların həftə bazarlarından əsas fərqi ondan ibarət idi ki, onlar qısa müddətə, əvvəlcədən elan edilmiş vaxtda və ərazilərdə təşkil edilirdi. Bu isə o deməkdir ki, həm o ərazinin əhalisi, həm də yarmarkada mallarını təqdim edəcək tacirlər alıcının ehtiyaclarını və zövqünü əvvəlcədən araşdıraraq, satışa gətirilən malların çeşidlərini və miqdarını təqribən müəyyən edə bilirdilər.

Şimali Azərbaycan Ümumrusiya yarmarkaları üçün həmişə əlverişli coğrafi mövqeyə malik olan ərazi idi: müxtəlif əlverişli su yolları bu ərazini Qafqazın və Mərkəzi Rusiyanın rayonları ilə əlaqənin yaranmasına imkan yaradırdı, Volqa-Xəzər dənizi su marşrutu isə beynəlxalq ticarəti mümkün edirdi. Məsələn, Bakı Mərkəzi Rusiya rayonlarının Orta Asiya və İranla ticarət əlaqələrində ciddi dayaq nöqtələrindən biri kimi mühüm rolu oynayırdı və XİX əsrin sonuna doğru genişlənən ticarət dövriyyəsi 1887-ci il 6 may tarixində Bakıda ilk yarmarkanın təşkil edilməsinə gətirib çıxarmışdı. Yarmarkaya satış üçün gələnlərdən 3 nəfəri Həştərxandan, 2 nəfəri Peterburqdan, 2 nəfəri Moskvadan, 2 nəfəri Tiflisdən, 1 nəfər Nijni-Novqoroddan, 1 nəfər Odessadan, 1 nəfər İrandan idi[1]. Bundan sonra bu yarmarka, demək olar ki, hər il keçirilirdi – 1888, 1889, 1890, 1892 və s.

Bakı regionun həm də ən iri topdansatış ticarətinin mərkəzi idi. Topdansatış ticarətinin artmasıyla 1886-cı ildə Azərbaycan

[1] Musayev, M. "XİX əsrin sonlarında Bakı şəhərinin ticarəti" / M.Musayev, -Bakı: Elm, - 1972, s. 40

ərazisində ilk birja hesab edilən Bakı Birjası yaradılmışdır.1895-ci ildən etibarən Bakı birjasının mal dövriyyəsi ilk illərdəki 6 milyon rubl 23, 4 milyon rubla yüksəlmişdi. Rusiyanın daxili rayonlarından və xarici ölkərəndən ən iri şirkətləri özünə cəlb edən Bakı şəhəri, "Azərbaycan rayonlarını yüksək keyfiyyətli sənaye malları və ərzaq məhsulları ilə təchiz etməkdə ciddi rol oynamışdı"[1].Bundan əlavə, Rusiyanın daxili rayonları ilə Azərbaycan və Cənubi Qafqaz, Orta Asiya və İran arasında mövcud olan ticarətdə başlıca bölüşdürücü mərkəz olan Bakıda açılan topdansatış ticarət müəssisələri də ticarət-iqtisadi əlaqələr genişləndikcə əhəmiyyətli dərəcədə çoxalırdı. Məsələn, 1877-ci ilə nisbətən 1886-cı ildə xarici şirkətlərin Bakıda açdıqları kontor, anbar, şöbələrinin sayı 53%, 1893-cu ildə 80%, 1897-ci ildə 154%, 1900-cu ildə isə 249% artmışdı. Həmin dövrdə ticarət müəssisələrinin qazandıqları mənfəətin artımına nəzər salsaq görərik ki, 1892-1900-cu illərdə Bakıda ticarət müəssisələrinin sayı 91% artmış, onların illik dövriyyəsi 287%, mənfəəti isə 404% çoxalmışdı. Artımın müşahidə edildiyi sahələrdən biri mağazaların, dükanların və traktir kimi iaşə obyektləri idi ki, 1887-ci ildə satış obyektlərinin sayı 50-dən 1294-ə, traktirlərin sayı 411-ə çatmışdır. Eyni zamanda mağazaların sayının artımı ilə anbarlara tələbat artmış və anbarların sayı 30-dan 90-na, kontoraların sayı isə 29-dan 112-yə qalxmışdı[2]. XIX əsrin ikinci yarısında Azərbaycan şəhərlərində ticarətin yüksəlişini ticarət hüququ üçün gildiya şəhadətnamələrinin sayının artması da sübut edir. 1891-ci ildə Bakı quberniyasında 9140 belə şəhadətnamə verilmişdir.

Qeyd etmək lazımdır ki, ticarətlə məşğul olan insanlar "ta-

---

[1] Musayev, M. "XİX əsrin sonlarında Bakı şəhərinin ticarəti" / M.Musayev, -Bakı: Elm, - 1972, s. 37

[2] Musayev, M. "XİX əsrin sonlarında Bakı şəhərinin ticarəti" / M.Musayev, -Bakı: Elm, - 1972, s.29-33

cir" adlanırdılar və onlar gildiyalara bölünürdülər. Tacirlər Rusiya imperiyasının üçüncü imtiyazlı ictimai təbəqəsi idi. İkinci gildiya tacirləri çay gəmilərinə sahib ola bilərdilər. Bundan əlavə, birinci və ikinci gildiyaların tacirləri fabrik və zavodlara sahib ola bilərdilər, onlar fiziki cəzadan və hərbi xidmətdən azad edilirdilər. Üçüncü gildiya tacirləri kiçik ticarətlə məşğul ola, traktir və "meyxana" işlədə bilərdilər. Bu sistemi yaradan I Pyotrun məntiqinə görə, Rusiyada hər bir təbəqə müstəsna olaraq öz işi ilə məşğul olmalı, özünəməxsus hüquq, imtiyaz və vəzifələri ilə cəmiyyətdə aydın mövqe tutmalı idi. Bununla belə, ticarətlə məşğul olan insanlar haqqında belə aydınlıq baş vermədi – demək olar ki, hamı ticarət ilə məşğul olmağa başladı: zadəganlar, sənətkarlar, kəndlilər, balıqçılar, ovçular və hətta ruhanilər. Məhz buna görə də sırf ticarətlə məşğul olan, bu fəaliyyət növünə qanunla inhisar hüququ verilə bilən şəxslərin (tacirlərin) kateqoriyasını müəyyən etmək mümkün olmamışdır. Belə ki, 1711-ci ildə bütün rütbələrdən olan insanların ticarət haqqını ödəmək şərti ilə ticarətlə məşğul olmasına icazə verən fərman hazırlamaq ehtiyacı yarandı və 1722-ci ildə "tacirlər" sinfi, qrupu yaradıldı. Sonra 1755-ci il Gömrük Qaydaları müəyyən edildi və bu da qeyri-tacir siniflərə yalnız öz istehsal etdiyi mal və məhsullarla, digər mallarla "xüsusi inventar" əsasında ticarət etməyə icazə verildi. 1760-cı ildə Hakim Senat tacirlərdən başqa heç bir rus və ya xarici tacirin malını heç bir adi insanlara ticarət edilməməsi haqqında fərman verdi. Nəhayət, 1775-ci ildə yeni çariça II Yekaterina həyata keçirdiyi Gildiya islahatları ilə tacirlərin haqq və hüquqları genişləndirildi və artıq tacir sinfi sahib olduğu kapitalın ölçüsünə uyğun olaraq üç gildiyaya bölündü. Üçüncü gildiyaya daxil olmaq üçün tələb olunan minimum kapital 500 rubl, ikincisində isə min rubl müəyyən edilmişdi. Birinci gildiyaya yalnız kapitalı 10 min rubl elan edən iri tacirlər daxil ola bilərdi.

1876-cı ilin mart ayından etibarən gildiya ticarət qaydası

Quzey Azərbaycanda da tətbiq edilməyə başladı. “Əkinçi” qəzetinin 1875-ci il 22 iyul tarixli buraxılışındakı “İkinci daxiliyyə” bölməsində Azərbaycanın görkəmli maarifçisi Həsən bəy Zərdabi həmin qərarla bağlı ilk dəfə belə yazırdı: “Gələn təzə ildən alış-veriş və ... xərcinin ... bizim Qafqaz vilayətində qoyulacaqdır. Bu hökmü polisdə xalqa məlum edibdi. Bu barədə bizim xalqın arasında hər bir qism xəbərlər vardır. Kimi deyir ki, bu xərci qoymaqdan murad budur ki, bizlər öz vilayətimizi qoyub baş götürüb başqa vilayətlərə gedək. Kimi deyir ki, Badkubəyə gələn dəmiryolu təmir etməyə on minə qədər fəhlə lazımdır. Çünki o qədər fəhlə tapmaq çətindir, ona görə bu qərardadı qoyurlar ki, xalq öz dadüstədini qoyub o yolda fəhləlik eləsin. Xülasə, xəbər çoxdur. Hər kəs öz təsəvvürünü əqəliyyən danışır və bu danışıq ağızdan-ağıza düşüb Koroğlu nağılı kimi nağıl olubdur”[1]. Qəzetin sonrakı buraxılışlarında müəlliflər həmin qərarın maddələrini izah etmişdir. Bu yazılara əsasən demək olar ki, qərarın 139 maddəsi vardı, “məzkur qərardadı biz öz türk dilimizə tərcümə etmişik və əgər məqdur olsa, bu zamanda onu əlahiddə çap edəcəyik”[2]. Belə ki, qərara əsasən Cənubi Qafqazda, Şimali Azərbaycan daxil olmaqla, tacirlər üç gildiyaya bölünürdülər. Birinci gildiya tacirlərinə Rusiya imperiyasında və xarici ölkələrdə istehsal edilən məhsulları Rusiyanın hər yerində “yük ilə, tay ya top ilə” satmaq üçün lazım olan “kontor və anbarların” inşası ixtiyarı verilirdi. Bunun üçün xüsusi şəhadətnamələrin verilməsi həyata keçirilirdi. Bu şəhadətnaməni verən qəza şəhərində və kəndlərində tacirlər istənilən “dükan və mağazinlər açıb Rusiya və qeyri dövlətlərin gömrükdən keçmiş malını arşını ilə və çəki ilə satmaq” hüququnu alırdılar: “Həmçinin onun ixtiyarı var zikr olan uyezdə

---

[1] “Əkinçi” (Tam mətn) / tərtibatçı Turan Həsənzadə, - Bakı: Avrasiya Press, -2005, s. 25

[2] Yenə orada, s. 26

hər bir qisim dadüstəd üçün lazım olan yer saxlasın və karxanalar və zavodlar açsın...Salis hər podrada girə bilir və nə qədər mal istəsə özü üçün ya özgə üçün ala bilir və hər icarəyə girə bilir"[1]. Lakin burada qeyd etmək lazımdır ki, bunun üçün xüsusi bilet almaq lazım idi.

Ikinci gildiya tacirləri isə "şəhadətnamə aldığı qəza şəhərində və ya kəndlərdə istədikcə dükan və mağazin saxlayıb Rusiya və qeyri dövlətin gömrüklənmiş mallarını arşın ilə ya çəki ilə sata bilər, həmçinin o qəzada lazım olduqca karxana və zavod aça bilər. Mal alıb aparıb gətirə bilir və hər icarəyə girə bilər"[2] . Birinci gildiya tacirlərindən fərq isə ondan ibarət idi ki, ikinci gildiya tacirlərinin əmtəə dövriyyəsi 15 min rubldan çox olmamalı idi. Həmçinin, ikinci gildiya tacirlərinə məxsus zavod və karxanalarda dəzgahların, buxar mühərriki ilə çalışan maşınların mövcudluğu təqdirində işçi sayı on altı nəfərdən çox olmamalı idi. Fəhlə sayı on altı nəfərdən çox olduğu zaman fəaliyyət göstərmək üçün ikinci gildiya şəhadətnaməsi alınırdı və istehsal olunan məhsullar "yük ilə, ya da çəlləklə öz karxanası və zavodunda, ya birjada sata bilərdi"[3] .Lakin, həmin məhsulları zavod və karxanadan kənar, mağaza və dükanlarda satmaq üçün və ya bunun üçün kontor (idarə), ya da anbar açmaq istənilsə, birinci gildiya şəhadətnaməsi alınmalı idi. Müxtəlif qəzalarda ticarətlə məşğul olmaq üçün hər qəzanın şəhadətnaməsini ayrıca almaq lazım idi.

Üçüncü gildiya tacirləri bir neçə qrupa bölünürdülər. Onlardan ilk qrup xırda ticarətlə məşğul olanlar idi. Xırda ticarət şəhadətnaməsini əldə edəndən sonra tacir qəzada 4 dükan açmaq hüququnu alırdı və bu dükanlarda dövlət tərəfindən tərtib edilən siyahıda yer alan məhsullar satıla bilərdi: "Bu siyahıları

---

[1] Yenə orada.

[2] "Əkinçi" / tərtibatçı Turan Həsənzadə, - Bakı: Avrasiya Press, -2005, - 496 s. / s. 27

[3] Yenə orada.

müəyyən etmək vagüzar olunub cənab velikiy knyaz sərdari-Qafqaziyaya”[1]. Hər ticarət dövründə siyahı yenilənir və məhsulların növü dəyişirdi. Üçüncü gildiya tacirləri hər podrata və icarəyə cəlb edilə bilər, “podratın və icarənin qiyməti min iki yüz rubldan artıq olmasın”[2] .Üçüncü gildiya tacirlərinin ikinci qrupuna “yük ilə arşın malın və ya qeyri malları şəhərdən kənar gəzdirib” satan tacirlər aid edilirdi, “üçüncüsü, o malları oralarda əli ilə gəzdirib satan, dördüncüsü meşşanlıq, yəni sınıqkarlıqdır, beşincisi amillikdir. Hər kəs öz yerindən əmələ gələn şeyləri qeyri dövlətlərə satmağa apara bilər, amma özgələrin yerlərindən əmələ gələn şeyləri alıb anbara yığıb sonra qeyri dövlətlərin yerinə satmağa göndərmək üçün gərək birinci gildiya şəhadətnaməsi olsun”[3] .

Beləliklə, 1876-cı ilin mart ayından etibarən gildiya ticarət qaydası Şimali Azərbaycanda da tətbiq edilməyə başladı. Bundan sonra tacirlərin hər biri malik olduğu kapitalın həcmindən və fəaliyyət dairəsindən asılı olaraq gildiyanın hər hansı bir dərəcəsinə yazılmalı və öz müəssisələri üçün müəyyən bilet götürməli idi. 1899-cu ildə “Rusiya İmperiyasının tacirlərin, sənayeçilərin, ticarət-sənaye cəmiyyətlərinin və ortaqlıqlarının adlarının və firmalarının əlifba sırası” nəşr olundu və burada H.Z.Tağıyevin və digər azərbaycanlı iri tacirlərin adları qeyd edilmişdir[4]. Bu islahatlardan sonra təkcə Azərbaycanda deyil, həm də Rusiyanın daxili bazarında malların alqı-satqısında əsaslı rol oynayan tacir gildiyası yaranmışdı. Şimali Azərbaycanda 1-ci gildiyanın 190-dan çox, 2-ci gildiyanın isə 1000-ə

---

[1] Yenə orada

[2] Yenə orada

[3] “Əkinçi” (Tam mətn) / tərtibatçı Turan Həsənzadə, - Bakı: Avrasiya Press, -2005, s. 27

[4] «Алфавитный указатель фамилий и фирм, купцов, промышленников, торгово-промышленных обществ и товариществ Российской империи» / - СПб: тип. Суворина, - 1899, s.34.

yaxın taciri var idi. Bu gildiyaların üzvləri xarici ölkələrdə geniş ticarət aparırdı və böyük kapitala malik idi. Azərbaycan neft sənayeçiləri M. Nağıyev, Ş. Əsədullayev, H.Z. Tağıyev neft ticarəti ilə də məşğul olurdular. Ş. Əsədullayevin firması əsas neft ticarətini həyata keçirən 4 iri firmadan biri idi və birlikdə Rusiyada 400-dən çox neft anbarına malik idi. 1882-ci ildə H.Z. Tağıyev birinci gildiya taciri adını aldı, onun ticarət əməliyyatları ildən-ilə artır, ona məxsus ticarət müəssisələrinin sayı da çoxalırdı.

Lakin Bakı Şimali Azərbaycanın XIX əsr ticarətində yeganə ticarət mərkəzi deyildir. Başqa iri ticarət mərkəzi İrəvan şəhəri hesab edilirdi.

1827-ci ilin dekabrında imperatorun göstərişi ilə baş qərargah rəisi xarici işlər, daxili işlər və maliyyə nazirlikləri ilə birlikdə İrəvanın və rus qoşunları tərəfindən işğal edilmiş digər ərazilərin idarə olunması üçün yeni layihə hazırladı. Layihədə İrəvan vilayət rəhbərliyi tərəfindən ticarət əlaqələrinin və sənayenin bərpası, bu sahələrə dəstək göstərilməsi, bununla yanaşı, pambıqçılığın təkmilləşdirilməsi və diqqətin artırılması, taxılçılıq, maldarlıq, ipəkçilik, bağçılıq və ümumiyyətlə, ticarət, fabrik və sənaye sahələrinə dair məlumatların toplanması nəzərdə tutulurdu. Məlumatların toplanmasının rahatlığı üçün idarə xan və bəylərin gəlirlərini göstərən sənədləri və digər məlumatları əldə etməyə çalışmalı, ticarət tranziti və gömrük rüsumları, xüsusilə gömrük sisteminin yaradılması, gömrük məntəqələrinin və postlarının yerləşdirilməsi ilə bağlı məlumatları Maliyyə Nazirliyinə təqdim etməli idi. 3 iyun 1831-ci ildə imperator bir anda iki Əsasnaməni təsdiq etdi: "Cənubi Qafqaz diyarının gömrük idarəsi haqqında Əsasnamə və "Cənubi Qafqaz diyarında ticarət və gömrük işinin təşkili haqqında" Əsasnamə. Əsasnaməyə əsasən, Cənubi Qafqaz Gömrük Dairəsi yaradıldı, Qacarlar və Osmanlı dövlətləri ilə sərhəddə Ağoğlan, Naxçıvan və İrəvan gömrük məntəqələri təşkil edildi,

Tiflisdə və Bakıda "taxıl anbarı gömrüyü" yaradıldı. Ermənistan vilayətinin ərazisindən keçən quru sərhədləri boyunca Mehri, Ordubad, Culfa, Abbasabad, Şahtaxtı, Qaraoğlan, Bağıdjuvazlı və Gümrüdə zastavalar yaradıldı. İkinci "Əsasnamə" əslində 8 oktyabr 1821-ci il tarixli fərmanın 10 illik müddətinin başa çatması ilə əlaqədar verilmişdir. Bu "Əsasnamə"də bildirilirdi ki, bölgədə gömrük və ticarətin yenidən qurulmasına bir tərəfdən bölgədəki yeni vəziyyət və yerli istehsal sənayesinin maraqları nəzərə alınmaqla, digər tərəfdən mümkünsə xarici ticarətin sadələşdirilməsi ilə başlanılmışdır. 1831-ci il Əsasnaməsinin müddətinin başa çatması ilə əlaqədar 1836-cı il iyunun 4-də "Cənubi Qafqaz diyarında gömrük işi haqqında Əsasnamə"yə əlavə qaydalar təsdiq edildi, ona əsasən Cənubi Qafqaz Gömrük İdarəsinin yeni tərkibinə uyğun olaraq İrəvan gömrük idarəsi ləğv edildi.

XIX əsrin 40-cı illərində ticarət qanunvericiliyi məsələsi yenidən gündəmə gəlib. Cənubi Qafqaz vasitəsilə ticarətin dayandırılmasından təşvişə düşən qraf Voronsov Avropa mallarının rüsumsuz tranzitinin təşkili zərurəti ilə bağlı bir sıra təkliflər irəli sürdü. Yerli hakimiyyət orqanları, xüsusilə diyarın Mülki hissə üzrə baş rəisi Voronsov, diyarın inzibati başçısı güzəşt müddətinin hüquqlarını bərpa etməyə çalışırdı. Lakin onların səylərinə baxmayaraq, əvvəlki tarif qaydalarını bərpa etmək mümkün olmadı. Bu məsələ ilə əlaqədar olaraq, Voronsov Qolovinin özünə müraciət etdi və ona ticarətin bərpası üçün bir sıra tövsiyələr verdi. Qraf Voronsovun 31 avqust 1846-cı ildə Çernışova yazdığı məktubda bildirilirdi ki, Tiflisdən sərhədə qədər olan marşrut üzrə: Qoridə, Həsənbəylidə, Dilicanda və İrəvanda gömrük postlarının yaradılması barədə maliyyə nazirinə məlumat verilib.

Nəhayət, Baş mülki rəisin təşəbbüsü 1846-cı il dekabrın 14-də "Zaqafqaziya vilayətinin ticarətinin asanlaşdırılması haqqında" fərmanla təsdiqləndi və tətbiq edildi. Fərmana əsasən,

1847-ci ildən başlayaraq beş il müddətində Kerçdən Redutqala və Suxumqaladan gətirilən rus pambıq parçalarından xarici parçalar üçün ödənilən ümumi rüsumun cəmi 50%-i yığılırdı. Təsdiq olunmuş qaydalara əsasən, Avropa mallarının Redutqal və Suxumqaldan tranziti rüsumsuz həyata keçirilib. Bu fərman yalnız 1848-ci ildə qüvvəyə minmişdir.

1865-ci il martın 25-dən Avropa mallarının Cənubi Qafqazdan keçməklə Qacarlar dövlətinə və geriyə yük daşınması Rusiya Gəmiçilik və Ticarət Cəmiyyəti və "Nadejda" şirkəti tərəfindən həyata keçirilməyə başlandı. 1868-ci ildə xüsusi Gömrük İdarəsinin yaradılması tranzit yüklərin daşınmasını sürətləndirən qaydaların qəbul edilməsinə şərait yaratdı. 19-cu əsrin 60-cı illərinin əvvəllərində bu istiqamətdə müəyyən işlər görülmüşdür. Belə ki, 1863-cü il dekabrın 20-də qanun təsdiq edildi ki, bu qanuna görə 1864-cü ildə tacirlərə və sənətkarlara 1863-cü il 1 yanvar tarixli Əsasnamə ilə müəyyən edilmiş rüsumları ödədikdən sonra ticarət və sənaye fəaliyyəti ilə məşğul olmaq hüququna dair şəhadətnamələr, habelə ticarət və sənaye müəssisələrinə biletlər – Tiflisdə – II, Bakı, İrəvan, Lənkəran, Kütaisi, Dərəkənd, Lənkəran və Vladiqafqazda – III, digər yerlərdə – IV dərəcəli biletlər təqdim olunurdu[1] .

Bu qanunvericilik aktı qüvvəyə minənədək gildiya dərəcəsi olmayan İrəvan tacirləri şəhər xəzinə kəndliləri kimi təsnif edilirdilər və onlar əvvəlki qaydada kapitalı elan olunmadan ticarətlə məşğul ola bilirdilər.

Lakin 1876-cı il martın 1-dən yuxarıda qeyd olunan gildiyalar haqqında qanun həyata keçirilməyə başlandı, bunun nəticəsində ticarət qaydalarında əsaslı dəyişikliklər baş verdi. "Ticarət hüququ və digər sənaye sahələrinə görə rüsumlar haqqında

[1] «Из истории города Иревана в XIX- начале XX веков» / Под редакцией Г.Н.Гасанова. - Баку: Институт истории НАНА, - 2023, s. 176

Əsasnamə"yə uyğun olaraq ticarətçilər sertifikatlara görə, istehsalçılar isə biletlərə görə rüsum ödəyirdilər.

Birinci gildiyanın topdansatış ticarəti ilə məşğul olan tacirlərinə, habelə ikinci gildiyanın pərakəndə ticarətlə məşğul olan tacirlərinə tacir sertifikatları verilirdi; Çatdırılma ilə məşğul olan kiçik ticarətçilərə, podratçılara və ticarət müştərilərinə ticarət şəhdətnamələri verilməyə başlanıldı. Ticarət, bank, komissiya, sığorta, arayış, broker, nəqliyyat, gəmiçilik kontorları, onların yardımçı filialları, habelə səhmdar cəmiyyətləri və tərəfdaş firmalar Əsasnamə əsasında bilet ala bilərdilər. Bilet rüsumunu ödəmiş fabrik və digər istehsal müəssisələrinin sahiblərinə bu məqsədlə xüsusi bilet almadan öz müəssisələrində istehsal olunan malları satmaq üçün pərakəndə satış məntəqələri açmağa icazə verilirdi. Birinci gildiya tacirləri şəhadətnaməyə uyğun olaraq imperiyanın hər yerində vahid vergi məbləği ödəməli idilər.

İkinci gildiya tacirlərinin imperiyanın müxtəlif yerlərində ödədikləri rüsum müxtəlif idi və dərəcələrə bölünürdü. Şəhadətnamələr və biletlər rüsum ödənildikdən sonra noyabrın 1-dən yanvarın 1-dək yenilənirdi. Əgər şəhadətnamələr və biletlər yanvarın 1-dən əvvəl yenilənməyibsə, onlar etibarsız hesab edilir və onların sahibləri onları yeniləmək hüququnu itirirdi.

Qüvvədə olan başqa bir qanuna görə, 20 il fasiləsiz olaraq birinci gildiyanı tutan tacir ailəsi ilə birlikdə fəxri irsi vətəndaş ola bilərdi. İrəvan qubernatorunun 1888-ci il hesabatında göstərilirdi ki, İrəvan şəhərinin 1037 tacirinə 19775 rubl məbləğində tacir şəhadətnaməsi verilmişdir.

İrəvan-Tiflis və Tiflis-İrəvan istiqamətlərində də həm xarici tranzit ticarəti, həm də bölgədaxili ticarət əlaqələri həyata keçirilirdi. İrəvan tacirləri Naxçıvan, Ordubad və digər rayon və şəhərlərlə ticarət aparırdılar. Tiflisin diyarın inzibati mərkəzinə çevrilməsi, burada taxıl anbarının, gömrük idarəsinin yaradılması, bu şəhərin Cənubi Qafqazın ticarət mərkəzi rolunu yerinə yetirməsi, İrəvanın Rusiya tərəfindən işğalından sonra ticarət strukturunda

baş verən dəyişikliklər – bütün bunlar İrəvanın Qacarlar dövləti ilə ticarət mərkəzi kimi əhəmiyyətini azaltmadı.

Nəticədə onu qeyd etmək istərdik ki, tədqiq olunan dövrdə də çarizmin bütün müstəmləkə ucqarlarında, habelə Güney Qafqazın çox böyük hissəsini təşkil edən Quzey Azərbaycanda ticarət sahəsində yürütdüyü rəsmi dövlət siyasəti də sırf müstəmləkəçi xarakter daşıyıb ilk növbədə çarizmin fiskal maraqlarına, imperiya xəzinəsinin hər bir vəchlə doldurulmasına xidmət edirdi. Bu siyasətdə də hökumət yerli ticarətin xüsusiyyətlərindən tam bixəbərlik və naşılıq, qeyri-ardıcıllıq nümayiş etdirir, bəzi hallarda qısa vaxt ərzində bir-birinə $180^0$ zidd olan təmtəraqlı tədbirlərlə çıxış edirdi.

Bunlarla yanaşı etiraf etmək lazımdır ki, müxtəlif valyutalılığın aradan qaldırılması, vahid pul sisteminin tətbiqi, daxili maneələrin (rahdar və s.) aradan qaldırılması, xarici və daxili siyasətdə sabitlik və unifikasiyanın tətbiqinə göstərilən cəhdlər, ticarət təşkilatları, qurumları və s.-nin tətbiqi bütövlükdə Quzey Azərbaycanda ticarətin inkişafı və təşkilinə müsbət təsir göstərmişdir.

## 3.2. Nəqliyyat

XIX əsr Şimali Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynayan nəqliyyat növləri üç əsas təsnifat qrupuna ayrıla bilər: su, quru və dəmiryolu nəqliyyatı.

Onlardan ən qədimi, təbii olaraq, əsrlər boyu bu regiondan keçən quru ticarət yollarında yükdaşımada istifadə edilən müxtəlif heyvanlar, daha sonra icad edilən və istifadəyə verilən yüngül yerüstü təkərli nəqliyyat vasitələri idi. Tədqiq olan dövrdə Şimali Azərbaycanda quru nəqliyyat yollarında yükdaşıma nəqliyyat vasitəsi kimi əsasən heyvanlardan – "atlardan, uzunqulaqdan, qatırdan, dəvədən, qismən də qaramaldan isti-

fadə olunmuşdur. Tədqiqatçılar arxeoloji materiallara istinadən Cənubi Qafqazda dəvədən istifadə tarixini eramızdan əvvəl II minilliyin ikinci yarısına aid edirlər. 1896-cı ildə Qarabulaq kəndində aparılmış arxeoloji tədqiqat işləri göstərmişdir ki, eramızdan əvvəl I minilliyin əvvəllərində Azərbaycanda dəvə artıq minik vasitəsi kimi istifadə edilmişdi”[1] . Aclığa və susuzluğa davamlı, ağır yük götürmək qabiliyyətinə malik bu heyvanlar XIX əsrdə belə quru karvan yollarında yükdaşıma üçün istifadə olunmuşdu. 1845-ci ilin statistik məlumatlarına görə, Şimali Azərbaycanda yetişdirilən dəvələrin sayı 4637 baş olduğu halda, 1858-ci ildə onların sayı artıq 11542 baş təşkil etmişdir[2].Ənənələrə sadiq olan əhali XIX əsrdə belə coğrafi və iqlim şəraitinə görə təkərli nəqliyyatın keçə bilmədiyi yerlərdə yük heyvanlardan istifadə edirdi. “Məsələn, XIX əsrin axırıncı rübündə Şərurda və İrəvanda dəvələrin saxlanılması ilə burada yaşayan xalqlardan sadəcə tatarlar (azərbaycanlılar) məşğul olurdu. Dəvə ilə əsasən uzaq yerlərə, Tiflisə pambıq və İrəvan quberniyasının müxtəlif yerlərinə duz daşınırdı”[3] . XIX əsrin 50-ci illərində Bakı neftinin qəzalara tuluqla daşınması başlamışdı və dəvələrə tələbat artmışdır. Lakin artıq XIX əsrin 80-90-ci illərində iqtisadi və sosial inkişaf, Rusiya imperiyası kimi böyük bir ölkənin müxtəlif bölgələri arasında əlaqənin, insanların və yüklərin daşınmasını təmin etmək ehtiyacı yeni nəqliyyat sisteminin qurulub inkişafına zəruri etmişdir.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində “Şimali

---

[1] Kərimov, T. “XIX əsrdə Azərbaycanda karvan (dəvə) nəqliyyatı haqqında” // -Bakı: Известия АН АзССР, Серия истории, философии и права, - 1978, № 4, s. 89

[2] Сумбатзаде А. «Сельское хозяйство Азербайджана в XIX в.» / А.Сумбатзаде, - Баку: Элм, 1978, s. 87.

[3] Kərimov T. “XIX əsrdə Azərbaycanda karvan (dəvə) nəqliyyatı haqqında” // -Bakı: Известия АН АзССР, Серия истории, философии и права, - 1978, № 4, s. 91.

Azərbaycan ticarətinin inkişafında su nəqliyyatı da çox mühüm rol oynayırdı”[1] . Həmin dövrdə Xəzər ticarət donanmasında ümumi yükgötürmə qabiliyyəti 16-17 mln. pud olan 4 mindən çox gəmi var idi. 1899-cu ildə Xəzər dənizində 247 buxar mühərrikli, 450-dən çox yelkənli gəmi var idi: “Ayrı-ayrı dənizlər arasında ticarət gəmilərinin tonnajına görə, xüsusilə əhəmiyyətli buxar donanmasına malik olan Xəzər dənizi birinci yeri tutur, tutumuna görə Xəzər donanması yalnız Qara və Azov dənizlərində bütün yelkənli gəmiləri üstələyir, əhəmiyyətinə görə isə Ağ və Baltik dənizlərini üstələyir”[2]

Xəzər Dəniz Gəmiçiliyinin yarandığı rəsmi gün 1858-ci il mayın 21-i hesab olunur. Həmin gün Rusiya Senatının fərmanı ilə “Qafqaz və Merkuri” Səhmdar Cəmiyyəti yaradılmışdı. 1853-cü ildə Qafqaz canişini knyaz Voronsov imperator Aleksandrın qardaşı Konstantin Nikolaeviçə məktubunda Xəzər ticarət gəmiçiliyinin inkişafı haqqında yazırdı ki, Bakıda kommersiya məqsədləri üçün gəmi təmiri və gəmiqayırma müəssisələri tikmək xəzinə üçün çox sərfəli olacaq və hətta kiçik gəmilərin dənizə çıxması üçün “Morton ellinq” qurğunu ucaltmaq təklif etmişdir. O qeyd edirdi ki, bu müəssisə çoxlu maliyyə xərcləri və investisiyalar tələb etsə də, buradan gələcəkdə əldə edilən qazanc bütün xərcləri qarşılaya biləcək[3]. Bundan əlavə o, qeyd edib ki, Xəzər dənizinin yeni xəritəsi hazırlanmalıdır, çünki əldə mövcud olan xəritə düz deyil. Belə, 1854-cü

[1]Osmanov, M. “XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycan ticarətinin inkişafında nəqliyyatın rolu” // -Bakı: Tarix və onun problemləri, -2000, s. 68

[2] Русский торговый флот к 1 января 1898 г. // - СПб: Мин. фин., Отд. по делам торг. мореплавания, - 1898, s. 4

[3] Гасанов, М. «Судоходство в Азербайджане: документальная история» / М.Гасанов, - Баку: по заказу ЗАО «Азербайджанское Каспийское морское пароходство», - 2018, s. 9

ildən başlayaraq Xəzər dənizinin qərb sahili – Abşeron yarımadası və Bakı sahili elmi araşdırmalar və tədqiqatların predmetinə çevrilmişdir və bir sıra tədqiqat işi işıq üzü görmüşdür.

"Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin tarixinə nəzər salsaq görərik ki, bu şirkət 1848-1918-ci illərdə Volqa-Kama hövzəsində və Xəzər dənizində fəaliyyət göstərən ən böyük özəl gəmiçilik şirkəti idi. 7 aprel 1848-ci ildə rus mühəndis-professor Nikolay Arsenyeviç Jerebtsov Xarici Konfessiyalar Departamentinin gələcək direktoru Valeri Valeriyeviç Skripitsın ilə birlikdə Volqa, Kama və Oka çaylarında yükdaşımanı həyata keçirmək üçün "Merkuri" adı altında gəmiçilik cəmiyyətini açmaq üçün çar administrasiyasına ərizə təqdim etmişdir. Cəmiyyətin ilkin nizamnamə kapitalı 750 min rubl təyin edilmişdi. Birinci ildə 2 paroxod ("Minin" və "Pojarski"), 7 barja və 27 kiçik gəmi tikildi. İşlərin yaxşı getməsi və ticarətin böyüməsi, eyni zamanda Bakıdan Həştərxan yolu ilə gəmilərlə daşınan müxtəlif ticarət malları və neft məhsulları şirkətin işini genişlətmək məcburiyyətində buraxdı və bir neçə il sonra "Merkuri" Volqa çayında yükdaşımanı həyata keçirən "Rusalka" adlı şirkəti aldı. direktoru N. A. Novoselskinin təşəbbüsü, Maliyyə Nazirliyinin və Qafqaz canişini knyaz A. İ. Baryatinski dəstəyi ilə Xəzər dənizində fəaliyyət göstərən "Qafqaz" gəmiçilik şirkəti "Merkuri" şirkəti ilə birləşdirildi. İmperatorun 21 may tarixli fərmanı ilə Volqa-Xəzər regionunda nizamnamə kapitalı 4,5 milyon rubl olan "Qafqaz və Merkuri" adlı yeni səhmdar cəmiyyətinin yaradılması elan edildi. Regional gəmiçiliyi praktiki olaraq inhisara alan "Qafqaz və Merkuri" texniki yeniliklərin tətbiqinə çoxlu vəsait xərcləyirdi. Xüsusilə, neft məhsullarının daşınması üçün tanker barjalarını ilk dəfə quran, buxar qazanları üçün neftdən ilk dəfə istifadə edən "Derjavin" gəmisi, paroxodlarında elektrik işıqlandırmasından istifadə edən ilk gəmi "feldmarşal Suvorov" onlara aid idi. Rıbinskdən Həştərxana qədər hər yerdə Xəzər sahilində yeni estakadalar,

anbarlar və təmir dokları tikilirdi. "II Aleksandr", "Feldmarşal Suvorov", "İvan Qroznı", "Svyatoslav" sərnişin paroxodları birinci və ikinci dərəcəli sərnişinləri dəbdəbəsi və rahatlığı ilə heyran edərək, öz sinfində ən müasir gəmi kimi şöhrət salmışdır. Kommersiya mallarının və insanların daşınması ilə yanaşı, "Qafqaz və Merkuri" bu bölgədə poçt xidmətində və hərbi təchizatda dövlət inhisar imtiyazından fəal şəkildə istifadə edirdi. 1896-cı ildə Ümumrusiya Ticarət Sərgisində qalib gələn "Qafqaz və Merkuri" Cəmiyyəti öz gəmilərində imperiya gerbini yerləşdirmək hüququnu əldə etmişdi və bu hüquq onlara gəmiləri uzaqdan tanınsın deyə xüsusi rənglənməsi hüququ vermişdir: bütün çay gəmilərinin gövdələri ağ rəngə, tüstü bacaları isə qara rəngə boyanmışdı; dəniz gəmiləri isə ağ üst quruluşa və qara gövdəyə malik idi. Gəmiçiliyin öz bayrağı (üst zolağında qızıl imperator tacı və ağ-göy-qırmızı parça) və işçilərinin 1884-cü ildə təsdiq edilmiş xüsusi geyim forması var idi. Bütün Volqa, Kama və Xəzər dənizi boyunca poçt daşımaları yalnız "Qafqaz və Merkuri" şirkətlərinin paroxodlarında həyata keçirilirdi. Həmin şirkət eyni zamanda Cənubi Qafqazda su yolu ilə ilk sərnişindaşımanı həyata keçirmişdi. Sərnişin daşıması genişləndiyi vaxt ortaya yeni qaydalar çıxmağa başladı. Məsələn, "Qafqaz və Merkuri" sərnişin daşıma kitabçası"nda həmin qaydalara uyğun olaraq beş yaşa qədər uşaqlar yer tutmadıqları halda biletsiz səfər edə bilərdi, 5 yaşından 10 yaşa qədər uşaqların bileti böyüklərin biletindən daha ucuz idi; 1 puddan çox olmayan əl yükü sərnişin oturacağını tutmaması şərti ilə pulsuz daşınırdı; şirkət əl yükünün təhlükəsizliyinə görə məsuliyyət daşımırdı; hər bir bilet 1 pud böyüklər və 20 fut uşaq baqajının baqaj hissəsində pulsuz daşınma hüququ verirdi. Baqaj qəbul edilərkən sərnişinə baqaj qəbzi verilir və məntəqəyə çatdıqda baqaj yalnız qəbzin təqdim edilməsi ilə təhvil verilirdi. Ticarət yükləri isə Ərdəbil, Astara, Bakı, Balaxanı, Culfa, Cavad,

Qroznı, Dərbənd, Yevlax, Nuxa, Xaçmaz və ölkə üzrə 25-ə yaxın digər məntəqələrdə tranzit və anbarlarda qaimə ödənişləri və sığortası ilə qəbul edilirdi. Malların çatdırılmasını sürətləndirmək məqsədi ilə İdarə Heyəti 30.000 puda qədər yük daşıya bilən və sərnişinlərin yerləşə biləcəyi Amerika sistemli bir paroxod üçün layihə hazırlamışdı. Hər bir belə paroxod yedək gəmisini və ekspress barjı əvəz edə, yükü iki dəfə tez çatdıra bilərdi. Spasski Zaton zavodunun həyata keçirdiyi həm layihə, həm də tikinti çox uğurlu oldu. Bu paroxodlara "II Yekaterina", "Böyük Pyotr", "Dmitri Donskoy" və "Aleksandr Nevski" adı verilmişdir. 1880-ci ildə Cəmiyyət öz vəsaiti hesabına Spasski Zaton zavodunda 40.000 pud yük qaldıra bilən yeni Amerika tipli buxar gəmisi inşa etdi. Bu paroxod daşıma qabiliyyətində bütün gözləntiləri doğrultmaqla əvvəlkilərdən daha böyük uğur qazandı. 1870-1879-cu illərdə "Qafqaz və Merkuri" şirkəti 1.200.000 rubldan mənfəəti artırmaqla 2.000.000 rubla qədər çatdırmışdı[1] . Lakin Xəzər dənizi Rusiya imperiyasının Cənubi Qafqazda müstəmləkə siyasətini həyata keçirmək üçün göz dikdikləri yeganə su hövzəsi deyildi: dənizdən sonra ikinci iri su yolu Kür çayı idi.

Cənubi Qafqazın sənaye və ticarət gücünü hərtərəfli təhlil etdikdən sonra çarın məxfi müşaviri baron F.E.Meyendorf öz hesabatında yazırdı: "Əminəm, Rusiyanı sənaye nöqteyi-nəzərindən bu regionla birləşdirən əsas şərt aydın hesablanmış su yolu bağlantısıdır. Xəzər dənizi və Kür çayı vasitəsiylə Volqa çayı ilə əlaqə qurmağın faydası imperiyanın mərkəzini Cənubi Qafqazla birləşdirməyin ən yaxın və ən təbii yoludur"[2] .1899-

[1] Виноградов, С. «Конкуренция новаторов: о некоторых особенностях развития волжского судоходства в 1870-1890 гг.» // - СПб: «История», - 2021, s. 59

[2] Гасанов, М. «Судоходство в Азербайджане: документальная история» / М.Гасанов, - Баку: по заказу ЗАО «Азербайджанское Каспийское морское пароходство», - 2018, s.9

cu ildə 3 oktyabr tarixli "Kaspi" qəzetində Azərbaycanın görkəmli ziyalılarından biri – maarifçi Həsən bəy Zərdabi "Kür çayında gəmiçilik" adlı məqalə dərc etdirmişdir. Burada o, Kür çayında gəmiçiliyin təsis edilməsinin üstünlüklərindən bəhs edərək, layihə haqqında ətraflı məlumat verir və bu fikirləri bildirirdi: "Heç bir düz-əməlli ölkədə Kürlə müqayisədə böyük bir çay tapmazsan ki, orada gəmiçilik olmasın... Hələ keçmiş canişin knyaz Vorontsov Kürün mənsəbi ilə Tiflis şəhərini birləşdirmək istəyirdi, ancaq mühəndis araşdırmalarına görə, Tiflisdən aşağı hissədə çayın yatağında olan astanaya görə bu mümkün olmamışdı. Buna görə də o vaxt Salyanı Zərdab kəndi ilə birləşdirən kiçik bir gəmi ilə kifayətləndilər"[1] . Lakin XIX əsrin sonlarında neft sənayesinin sürətlə inkişafı ilə layihə yenə marağa səbəb olmuşdur və Kürdə gəmiçilik haqqında "düşünməyə başladılar, bu dəfə onun mənsəbindən Yevlax stansiyasına qədər. Nəqliyyat mühəndisləri tapdılar, sualtı əyriləri təmizləyən bütöv suölçən ştatı yaratdılar; rəhbərlik üçün kayutalı gəmilər qurdular və su hövzəsini təmizləyən donanma Kür ilə irəliləyərək ildə 25 min dövlət pulunu udmağa başladı"[2] . "Kür-Xəzər dənizi" Gəmiçilik Səhmdar Cəmiyyəti ancaq XX əsrin əvvəllərində 1904-cü ildə təsis edilmişdi. 24 yanvar 1904-cu ildə çar hökumətinə təqdim edilən Cəmiyyətin nizamnaməsində yazılmışdı: "Şirkətin yaradılmasında məqsəd Xəzər dənizində, eləcə də Kür və Volqa çaylarında və onların qollarında yük və sərnişin daşımaları məqsədilə gəmiçilik xidmətlərinin yaradılması və təmin edilməsi idi. Cəmiyyətin təsisçiləri 1-ci gildi-

---

[1] Zülfüqarlı, M. "XIX əsrdə yarımçıq qalmış layihələr" // - Bakı: "Turizm və qonaqpərvərlik tədqiqatları", - 2021, - s. 105

[2] Zülfüqarlı, M. "XIX əsrdə yarımçıq qalmış layihələr" // - Bakı: "Turizm və qonaqpərvərlik tədqiqatları", - 2021, s. 105

ya taciri Hacı Zeynalabdin Tağıyev və 2-ci gildiya taciri İmamverdi Vəliyevdi[1] . Zaman keçdikcə Bakı böyük dəniz nəqliyyatının mərkəzinə çevrilirdi. Təkcə onu demək kifayətdir ki, neft və neft məhsullarının daşınmasının həcminin artması ilə yeni su gəmilərinə ehtiyac da artıb. 1873-cü ildə Xəzər dənizində dünyada ilk neft daşıyan barjı olan "İsgəndər" istismara verildi. 1878-ci ildə Bakıya dünyanın ilk dəmir tankeri "Zərdüşt", 1903-cü ildə daxiliyanma mühərrikli ilk motorlu "Vandal" gəmisi, bir az sonra dünyada ilk dəfə iki reversiv mühərriklə idarə olunan "Delo" gəmisi yük daşımalarına gətirilmişdi. Dənizdə yükdaşımaların həcminin artması və donanmanın genişlənməsi limanın texniki vəziyyətinin yaxşılaşdırılmasını və gəmi təmiri bazasının yaradılmasını tələb edirdi. Beləliklə, Xəzər dənizinin sahillərində böyük limanlar yaradıldı: Bakıda, Petrovskdə (Mahaçqala), Krasnovodskda (Türkmənbaşı). Bundan əlavə, Bakıda gəmi təmiri üçün ayrıca sexlər yaradılmışdır. 1889-cu ildə gəmiqayırma zavodunun təməli qoyulmuşdu. Əsas diqqət qərb sahillərinə, o cümlədən Abşeron və Bakıya yönəldilmişdi. Belə ki, məşhur alim-hidroqraf və Xəzər dənizinin kəşfiyyatçısı, 2-ci dərəcəli kapitan N.A. İvaşintsev 1858-ci ildə qeyd edirdi ki, "Abşeron yarımadasının ətrafı gəmiçiliklə bağlı Xəzər dənizinin ən mühüm hissəsini təşkil edir, çünki Həştərxan, Zaqafqaziya və Fars limanları arasında üzən bütün ticarət və hərbi gəmilər mütləq dənizin bu hissəsindən keçir. Abşeron boğazı bütün bu dənizçilər üçün labüd külək gözlədikləri və adadan bütün qərb sahilində olduğundan güclü şimal və şərqdən sığındıqları qaçılmaz dayanacaq kimi xidmət edir. Çeçenistanda və Abşerona qədər bir dənə də olsun sakit lövbər stansiyası yoxdur"[2]. Bütün bu işlərin nəticəsi olaraq 1860-cı ilin əvvəllərində

[1] «Устав Куринско-Каспийского акционерного пароходного общества» // -СПб: Сенатская типография, - 1904, s. 1

[2] Ивашинцов, З. «Очерк берегов Каспийского моря» // - СПб: «Морской сборник», Т.15, - 1855, s. 28

Abşeron yarımadasının ən yaxın adaları, Abşerondan Lənkərana qədər olan ərazisi, Xəzərin cənub-qərb hissəsi, Abşeron boğazı və Bakı körfəzi ilə birlikdə 22 xəritədən ibarət Xəzər dənizinin yeni atlası tərtib edilmişdi. Bundan başqa, sonuncunun ölçüləri və çəkilişləri Bakıda Xan sarayının minarəsindən aparılıb. Ticarət və hərbi gəmilərin üzmə təhlükəsizliyini təmin etmək üçün Abşeron yarımadasında yeni mayakların quraşdırılmasına və köhnə mayakların yenidən qurulmasına böyük diqqət yetirilmişdir. 1858-ci il iyunun 13-də Qız Qalasının üzərində quraşdırılmış, 15 km-lik görünmə diapazonuna malik mayak işıqla gecə saatlarında Bakı yol bağının girişi qeyd olunurdu. Gündüz vaxtı mayak konturunun ətraf dağların fonu ilə birləşdiyinə görə 1895-ci ildə Qız qalasının təpəsində geniş ağ zolaq çəkilmişdir. Mayakın şüaları artan şəhər işıqları bürcləri arasında itməyə başlayanda Bakı mayakı öz əhəmiyyətini tamamilə itirdi. XX əsrin əvvəllərində Bakı ətrafında mayaklar inşa edilməyə başlamışdır[1] .

Beləliklə, Rusiya imperiyasında, xüsusilə Cənubi Qafqazda ilk yollar qədim zamanlarda yaranıb, lakin təbii-coğrafi şəraitə görə, ölkənin ucqar rayonlarına yüklərin daşınması və yüklərin dəniz limanlarına çatdırılması üçün dəmir yollarının kütləvi tikintisinə qədər su nəqliyyatı ənənəvi olaraq aparıcı rol oynamış, su yolları, geniş çay və göllər şəbəkəsi fəal şəkildə istifadə edilmiş, gəmiçilik kanalları fəal şəkildə tikilmişdir. Su nəqliyyatının ənənəvi rəqibi atlı və dəvə nəqliyyatı idi. Su ilə hərəkət təbii amillərə görə qeyri-müntəzəm idi: uzun soyuq qışlar, yaz daşqınları, yayın dayaz suları və ya çətin ərazi. Bu səbəbdən alternativ yol kimi XIX əsrin sonlarına doğru Rusiya İmperiyasında dəmiryolları inkişaf etməyə başlamışdır.

---

[1] «Описание маяков, башен и знаков Российской Империи по берегам Каспийского моря» // - СПБ: тип. Морского Министерства, в главном Адмиралтействе, - 1905, s. 24

Şimali Azərbaycanda nəqliyyatın, xüsusən də dəmiryolu şəbəkəsinin inkişafı, iri əmtəə mərkəzləri və anbarlar sisteminin yaradılmasına təkan vermiş, topdansatış ticarətin rolunu xeyli artırmışdı. Şəhər və kənd arasında ticarət əlaqələrinin miqyası son dərəcə genişlənmişdi. XX əsrin əvvəllərində Şimali Azərbaycan dəmiryolu xətlərinin uzunluğuna görə (969 km) Cənubi Qafqaz ölkələri arasında birinci yeri tuturdu[1] . Azərbaycanda dəmir yollarının yaranması ölkənin neft sənayesinin tarixi ilə birbaşa bağlıdır. Şimali Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil edilməsindən sonrakı ilk dövrdə Abşeron quyularından çıxarılan neft emal olunmaq üçün Bakıya və ya Xəzər dənizindən keçərək gəmilərlə daşınmaq üçün ənənəvi taxta çəlləklərə doldurularaq heyvan və ya "araba" – təkərli nəqliyyat vasitələri ilə daşınırdı. XIX əsrin ortalarında neft daşınması ilə məşğul olan yükgöndərənlərin sayı 10 minə çatırdı və onların neftlə yüklənmiş arabaları yollarda bir neçə gün ərzində hərəkət edirdi. Bakıda neft sənayesinin yaranması və inkişafı ilə neft yataqlarını neft emalı zavodları ilə birləşdirən dəmir yolu xəttinin çəkilməsi məsələsi ildən ilə aktuallaşırdı. İlk dəfə rəsmi dairələrdə rus siyasi xadimi və islahatçı qraf N.S.Mordvinov Bakı-Tiflis-Poti dəmir yolu xəttinin çəkilməsi təklifini irəli sürərək, bunun hərbi-strateji zərurət olduğunu əsas gətirmişdi[2]. Bir qədər sonra görkəmli rus siyasi və hərbi xadimi qraf N.N.Muravyov-Amurski Sankt-Peterburqla Tiflis arasında dəmir yolu əlaqəsi yaratmaq təklifi ilə imperatora məktub göndərir. Hərbi mühəndis kapitan-leytenant V.Statkovskinin məruzəsində Tiflisdən Samuxa dəmir yolunun çəkilməsi, sonra isə Kür boyu Xəzər dənizinə qədər paroxod xidmətinin yaradılma-

---

[1] Osmanov, M. "XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycan ticarətinin inkişafında nəqliyyatın rolu" // -Bakı: Tarix və onun problemləri, -2000, s. 68

[2] Ахмедов, С. «Железные дороги Азербайджана в XIX – XX веках» // - Bakı: "İRS", № 2 (98), - 2019, s. 28

sı təklif olunurdu. Bu cür təşəbbüslərə baxmayaraq, hakimiyyət Qafqazda dəmir yolu şəbəkəsi yaratmağa tələsmirdi, çünki bu, böyük maliyyə xərclərinə səbəb olacaqdır. 1857-ci ildə general-leytenant S.İ.Xrulyov hərbi-strateji nöqteyi-nəzərdən Cənubi Qafqazda dəmir yollarının çəkilməsini zəruriliyi haqqında məruzə etdi və bunun üçün hətta özəl şirkətin təşkil edilməsini məqsədəuyğun görmüşdü. Elə həmin il Qafqaz canişini knyaz A.İ.Baryatinski imperator II Aleksandra "Dəmir yolu və Cənubi Qafqazda güzəştli ticarət haqqında" hesabat yollayır və bu hesabatda Xəzər və Qara dənizləri arasında dəmir yolunun tikintisinə imperiyanın maraqları baxımından hərtərəfli əsaslandırmanı təqdim edir, sənədin birinci hissəsində hərbi-strateji məsələlər, ikinci hissəsində isə iqtisadi faydalar təsvir eləyirdi. Müəllif bu hesabatında Şərqlə Qərbin qovşağında yerləşən Cənubi Qafqazın əhəmiyyətli potensialına işarə etmiş, Cənubi Qafqazı "qlobal azad ticarət arenası" adlandıraraq, bu bölgənin "yerli istehsalı ilə imperiyanın ən zəngin hissəsinə çevrilə biləcəyini" vurqulamışdı[1] 1859-cu ildə A. Baryatinski Şamaxıdan Bakıya dəmir yolunun çəkilişini Bakı şəhərinin inkişafını kəskin surətdə artıracağını və ən qısa müddətdə onu Xəzər dənizində mühüm limana çevirəcəyindən bəhs edirdi.

Lakin yenə də Cənubi Qafqazda ilk dəmir yolu Qafqazın inzibati, siyasi və mədəni mərkəzi olan Tiflisdən şərqə deyil, qərbə, Qara dəniz sahillərinə qədər gedən, 1872-ci il oktyabrın 10-da istifadəyə verilən və 1877-ci ildə bu xətt Kutaisiyə qədər uzadılan Tiflis-Poti dəmir yolu olmuşdur. Amma bu yolun tikintisinə qoyulan maddi və maliyyə vəsaiti özünü doğrultmadı. Bununla bağlı İmperator Rus Texniki Cəmiyyətinin Qafqaz bölməsinin sədri, Qafqazda mülki strukturların baş müfəttişi M.Gersevanov yazırdı: "Tiflis Zaqafqaziya (Cənubi Qafqaz) bölgəsinin istehsal mərkəzi deyil, taxıl, düyü, balıq, meyvə,

[1] Ахмедов, С. «Железные дороги Азербайджана в XIX – XX веках» // - Bakı: "İRS", № 2 (98), - 2019, s. 29.

ipək, yun, pambıq, mis, neft, hətta bütün Cənubi Qafqaz bölgəsinin zənginliyinin rəmzi olan şərab şərq ərazilərində, yəni Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında və Zaqatala qəzasında istehsal olunur və buna görə də rayonun istehsal mərkəzi Tiflisə nisbətən Bakıya yaxındır...”[1]. Burada qeyd etmək lazımdır ki, Cənubi Qafqazda dəmir yolu nəqliyyatından istifadə haqqında layihələrinin müəlliflərindən biri rus ordusunun istehkamçı mühəndisi general-mayor A. Sankovski olmuşdur ki, öz layihəsində o, Kür çayında gəmiçilik üzrə komitənin “1855-ci ildə fəaliyyəti haqqında hesabatında izahedici qeydində paroxodun yolunu Mingəçevir keçidinə kimi deyil, Alazan çayının Kürə töküldüyü məntəqəyə kimi uzatmaq, oradan da Tiflisədək 180 verstlik məsafədə Kür çayının sol sahili ilə dəmir yolu çəkmək” təklif edirdi[2] Bəhs olunan ərazidə – Kür çayının sol sahili boyunca heç bir ciddi təbii maneə olmaması bu dəmir yolu xəttini nisbətən asanlıqla çəkilməsini mümkün edirdi. Bu səbəbdən də həmin dəmir yolunun çəkilməsinə xərclənəcək vəsaitlər azalır, bu hal isə həmin layihəni çox əlverişli edirdi. Lakin bu layihə də həyata keçirilməmişdir. Ancaq XIX əsrin sonlarına doğru neft sənayesinin sürətli inkişafı ilə dəmir yolu layihələri yenidən müzakirə obyekti olmuşdur. 1878-ci il iyunun 16-da Rusiya Nazirlər Komitəsinin imperator II Aleksandrın iştirakı ilə keçirilən iclasında Abşeron neft mədənlərini Bakı limanı neftayırma zavodları və dəniz limanları ilə birləşdirməli olan 25,2 verst (26,7 km) uzunluğunda Bakı-Sabunçu-Suraxanı dəmir yolunun tikintisi layihəsi təsdiq edildi. Dəmir yolunun tikintisi gələcək marşrut boyunca bir torpaq zolağının müəyyən edilməsini zəruri edirdi. Şəhər rəhbərliyi bu torpaqların müəyyən edilməsini və gələcək qiymətləndirilməsini

[1] Ахмедов, С. «Железные дороги Азербайджана в XIX – XX веках» // - Bakı: “İRS”, № 2 (98), - 2019, s. 28-31.

[2] Əliyev, Q. “Azərbaycan nəqliyyatı və iqtisadiyyatı” / Q.Əliyev, -Bakı: Elm, - 2001, s. 57

məşhur neft sənayeçisi və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin rəhbərlik etdiyi ictimai komissiyaya həvalə etdi. Komissiya yol üçün ayrılmış 21 desyatin torpağı 34 min 580 rubl dəyərində qiymətləndirdi. Tikinti işlərinin ümumi dəyəri 78 872 rubl təşkil etmişdi. Əsas tikinti işləri 1879-cu ildə başa çatdırılmışdır. Eni 1524 mm olan bu xəttin uzunluğu 19 km idi. Dekabrın 17-dən etibarən Balaxanı, Sabunçu və Suraxanı stansiyaları yüklərin daşınmasına başlanıldı. 1880-ci il yanvarın 20-də Azərbaycanda ilk dəmir yolu xətti olan Bakı-Sabunçu-Suraxanı dəmir yolunun təntənəli açılışı baş verdi. Həmin ildə Bakıda həmçinin ilk dəmir yolu deposu tikilmişdi[1]. Beləliklə, 1880-1914-cü illər arasında müasir Azərbaycan ərazisində çəkilən dəmir yolları regionun iqtisadi inkişafını xeyli sürətləndirdi. Tiflis-Bakı və Petrovsk (Mahaçqala) – Bakı magistral xətləri ilə əvvəlcə əsasən neft, sonra isə pambıq, kömür, filiz və kənd təsərrüfatı məhsulları nəql edilirdi. Neft hasilatının davamlı artması dəmir yolu vaqonlarının neft sənayeçiləri tərəfindən icarəyə götürülməsinə gətirib çıxartmışdı və bu səbəbdən vaqonların daimi çatışmazlığı müşahidə edilirdi. Belə ki, 1883-ci ilin yanvar ayında Bakıda texniki cəmiyyətin yerli şöbəsinin iclasında "açıq şəkildə bildirilmişdir ki, "Bakı yalnız o vaxt sakit ola bilər ki, Cənubi Qafqaz dəmir yolu ildə 50 milyon pud yük daşımağa qadir olsun"[2]. 1884-ci ildə azərbaycanlı təhsilli mühəndislər Möhsün bəy Xanlarov və Əbdülqədir Əfəndiyevin də daxil olduqları Bakı Vaqonlarının Paylanması Komitəsi yaradıldı[3].

Dəmir yolları bir sıra digər sənaye sahələrinin inkişafına da

---

[1] Əliyev, Q. "Azərbaycan nəqliyyatı və iqtisadiyyatı" / Q.Əliyev, -Bakı: Elm, - 2001, s.44

[2] Əliyev, Q. "Azərbaycan nəqliyyatı və iqtisadiyyatı" / Q.Əliyev, -Bakı: Elm, - 2001, s.81

[3] Ахмедоглу, Ч. «Железные дороги Азербайджана в XIX – XX веках» // - Bakı: "İRS", № 5 (101), - 2019, s. 52-56.

təkan verirdi. Qeyd edək ki, dəmir yolu avadanlıqları və vaqonların ehtiyat hissələrinin əksəriyyəti Bakıdakı zavod və sexlərdə istehsal olunurdu. 1892-ci ildə alman sahibkarı Eyzenşmidtə məxsus neft-mədən avadanlıqlarının təmiri emalatxanasının bazasında Bakı təmir sexi açıldı. "Qeyd etmək lazımdır ki, Avropada ilk dəfə olaraq məhz Azərbaycan dəmir yollarında neft məhsullarının daşınması üçün xüsusi hazırlanmış yük vaqonlarından – vaqon-sisternlərdən istifadə edilməsinə keçilmişdir. Hələ 1879-cu ildə tikintisi başa çatdırılmamış Bakı-Balaxanı dəmir yolunda neft daşınması üçün vaqon-sisternlər uğurla sınaqdan çıxarılmışdır"[1]. XX əsrin əvvəllərinə doğru neft sənayesində 462 vaqon-sistern istifadə edilirdi. Bundan əlavə, XIX əsrin 70-ci illərindən etibarən bütün imperiya miqyasında yük vaqonları istehsalı kəskin sürətdə genişlənmişdir. Belə ki, 70-ci illərin birinci yarısında 21 241, sonrakı 5 ildə – 1876-1880-ci illər ərzində isə 32736 müxtəlif təyinatlı yük vaqonları istehsal edilmişdi"[2] .

XİX əsrin son onilliyində stansiyalarda neft terminalları tikilməyə başlandı. Bakı stansiyasında 200 min pud, Yelizavetpol (Gəncə) stansiyasında 60 min pud, Hacıqabul, Yevlax və Ağstafada hər birinin tutumu 30 min pud olan su anbarları quraşdırılmışdır. Böyük stansiyalarda yaşayış və xidmət binaları da tikilir və beləliklə, tədricən yaşayış məntəqələri yaranırdı. Belə ki, dəmiryolçuların məskunlaşdığı yerlər – Biləcəri, Xudat, Xaçmaz, Yalama, Ucar, Yevlax, Yelizavetpol (Gəncə) stansiyaları ətrafında yeni qəsəbələr yaranırdı. 1883-cü ildə eyniadlı stansiyanın yaxınlığında yaranan Kürdəmir kəndinin

[1] Əliyev, Q. "XIX əsrin son – XX əsrin ilk onilliklərində Azərbaycanda neft sənayesi və nəqliyyatın qarşılıqlı təsiri" // - Bakı: "Tarix və onun problemləri", №1, -1999, s. 81-90.

[2] Əliyev, Q. "XIX əsrin son – XX əsrin ilk onilliklərində Azərbaycanda neft sənayesi və nəqliyyatın qarşılıqlı təsiri" // - Bakı: "Tarix və onun problemləri", №1, -1999, s. 81-90.

1903-cü ildə 1291 əhalisi var idi. Hacıqabul kəndinin əhalisi 1905-ci ildə 980 nəfərə çatmışdı. Bu qəsəbələrdən ən böyüyü olan Yelizavetpolda (Gəncə) stansiyası ətrafında yaranmış qəsəbədə 3 minə yaxın sakin yaşayırdı. Böyük stansiyalarda xəstəxanaların açılması ucqar rayonlarda tibbi xidmətin yaxşılaşmasına da öz töhfəsini verirdi. Bundan əlavə, dəmir yolları boyunca teleqraf xətlərinin çəkilməsi rabitə xidmətlərinin yaxşılaşdırılması demək idi. Dəmiryol vağzallarından onlardan uzaq şəhərlərə magistral yollar çəkilirdi. Belə ki, Ucar stansiyasından Göyçay, Nuxa və Zaqatala şəhərlərinə, Yevlax stansiyasından Şuşa şəhərinə, Hacıqabul stansiyasından Salyan və Lənkəran şəhərlərinə avtomobil yolları çəkilmişdi. Bundan əlavə, böyük dövriyyə nəzərə alınaraq 1882-ci ildə Yevlax-Şuşa-Naxçıvan əsas magistral yolunun layihəsi hazırlanmışdır[1].

Beləliklə, XIX əsrin ikinci yarısından başlayaraq, xüsusilə də 80-90-ci illərdən sonra, Rusiya imperiyasının Cənubi Qafqazda və ən əsası Şimali Azərbaycan ərazilərində tətbiq etdiyi iqtisadiyyatda müstəmləkə siyasətində nəqliyyata ayırdığı xüsusi rol böyük əhəmiyyət daşıyırdı. Məsələn, həmin dövrdə Bakıda, Abşeron yarımadasında neft sənayesinin inkişafı və buradan neft və neft məhsullarının ixracının artması və bununla xəzinəyə daxil olan gəlirlərin sürətlə artması bütövlüklə Cənubi Qafqaz dəmir yolunun sayəsində baş vermişdi. Yaxud, 1883-ci ildə Bakı-Tiflis-Batum (digər adı ilə Poti-Bakı) dəmir yolunun inşası və istifadəyə verilməsi ilə "Azərbaycan ağ nefti Rusiya bazarlarından amerikan ağ neftini tamamilə sıxışdırıb çıxartmağa müvəffəq olmuşdu"[2] və dəmir yolu ilə Bakıdan Batuma aparılan neft məhsullarının ilk dəfə olaraq xarici ölkələrə ixracı başlamışdı: "dəmir yolu nəqliyyatı daşınma xərclərini

[1] Ахмедоглу, Ч. «Железные дороги Азербайджана в XIX – XX веках» // - Bakı: "İRS", № 5 (101), - 2019, s. 52-56.

[2] Əliyev, Q. "Azərbaycan nəqliyyatı və iqtisadiyyatı" / Q.Əliyev, -Bakı: Elm, - 2001, s. 100.

aşağı salmaqla Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrində, Almaniyada, Avstriya-Macarıstanda və bir sıra Şərq ölkələrində Bakı ağ neftinin müvəffəqiyyətlə amerikan ağ nefti ilə rəqabət aparmasına imkan vermişdi" və artıq 1885-ci ildə İtaliyanın Venesiya şəhərinin Şurası amerikan və Bakı ağ neftini müqayisə edərək daha ucuz və yüksək keyfiyyətli olmasına görə sonuncuya üstünlük vermişdi; "bunun nəticəsi idi ki, təkcə Avropa ölkələrinə 1883-cü ildə 1,5 milyon pud Bakı ağ nefti ixrac edilmişdi və iki il sonra bu rəqəm 4,8 dəfə artaraq 7,2 milyon puda çatmışdı"[1].

Rusiyanın daxili quberniyalarına neft nəqlinin artırılması məsələsində, eləcə də Azərbaycanın neft sənayesinin inkişafında Cənubi Qafqaz dəmir yolunun tikintisi böyük əhəmiyyət kəsb edirdi. Bölgənin özündə dəmir yolu xətlərinin ümumi sayı cəmi 257 mil (413 km) idi. Bu ərazinin əsas dəmir yolu qovşağı Bakı şəhəri idi. 1900-cü ildə Dərbənd-Biləcəri xəttinin tikintisinin başa çatması və Azərbaycanın bu dəmir yollarının istifadəyə verilməsi ilə şəbəkənin uzunluğu 746 km-ə çatmışdı. Cənubi Qafqazın bu magistral yolunun əhəmiyyətinin nə qədər sürətlə artdığını qiymətləndirmək üçün qeyd etmək kifayətdir ki, əgər 1884-cü ildə bu magistral yolu ilə cəmi 367,8 min insan daşınırdısa, 1895-ci ildə sərnişinlərin sayı artıq 1,8 milyon nəfərə qədər artmışdı[2]. Nəqliyyatın inkişafı Bakının Rusiyanın sənaye rayonlarının Zaqafqaziya (Cənubi Qafqaz) regionu ilə birləşdirici mərkəzi rolunu müəyyən etmişdir. Dəmir yollarının tikintisi ilə Rusiyaya və xaricə neft ixracı artdı. Mühəndis V. S. Şuxovun təklifi ilə dəmir yolunda metal çənlər tətbiq olundu

---

[1] Əliyev, Q. "Azərbaycan nəqliyyatı və iqtisadiyyatı" / Q.Əliyev, -Bakı: Elm, - 2001, s. 100-102.

[2] Исмаилова, А. «Значение железнодорожного транспорта в развитии экономики Южного Кавказа на рубеже веков (- начало XX в.)» // - Челябинск: «Вестник Челябинского государственного института», - 2013, № 18 (309), s. 28

ki, bu da bu xətti canlandırdı, maye tipli yanacağın uzun məsafələrə daşınma üsulunu kökündən dəyişdirdi. 1884-cü ildə Cənubi Qafqaz dəmir yolu Bakıdan 5 575 018 pud müxtəlif neft yükləri daşımışdır. XIX əsrin 80-ci illərinin sonlarında neft yükləri Rusiya statistikası tərəfindən ölkənin dəmir yollarının ən mühüm yükü kimi təsnif edilirdi. 1890-cı ildə onlar Rusiya dəmir yollarının ümumi yüklərinin 5,9%-ni (116,2 milyon pud) təşkil edirdi. 1891-ci ildə dəmir yolu ilə 122 pud, 1900-cü ildə isə 340,4 milyon pud neft yükü daşınmışdır. XIX əsrin 90-cı illərində neft yükləri Rusiya dəmir yolları ilə daşınan yüklərin ümumi həcminin 6,3-8,9%-ni təşkil edirdi. 1890-cı ildə dəmir yolu ilə 50 milyon neft məhsulları yol boyu daşınırdı. Cənubi Qafqaz dəmir yolu ilə 62,0 milyon pud ixrac edilmişdir[1] . 1896-cı ildə çap olunmuş "Cənubi Qafqaz dəmir yolunun quruluş və istismar tarixi" adlı əsərdə Rusiya imperiyasında "1893-cü ildə hasil edilən bütün neftin – 338 milyon pudu – 337 milyonu Bakı bölgəsinin payına düşürdü. Nəticə etibarı ilə, Amerika ilə demək olar ki, eyni dərəcədə neft bazarında hökmranlıq edən Bakı regionu eyni zamanda Rusiya neftinin və onun məhsullarının əsas tədarükçüsüdür. Düzdür, Cənubi Qafqazın və Şimali Qafqazın digər ərazilərində də neft yataqları var, lakin buna baxmayaraq, bu ərazilərdə hasilat Rusiyada hasilatın ümumi həcmi ilə müqayisədə o qədər cüzidir ki, çox səhv etmədən Bakı regionunu, ilk növbədə, Abşeron yarımadasını bütün Rusiya neftinin demək olar ki, yeganə təchizatçısı kimi tanımaq olar" kimi ifadələr yazılmışdır[2]. Cənubi Qafqaz dəmir yolunun Bakı

[1] Исмаилова, А. «Значение железнодорожного транспорта в развитии экономики Южного Кавказа на рубеже веков ( начало XX в.)» // -Челябинск: «Вестник Челябинского государственного института», -2013, № 18 (309), s. 28

[2] Аргутинский-Долгоруков, М. «История сооружения и эксплуатации Закавказской железной дороги за 25 лет ее существования (1871-1896)» / -Тифлис: Издание Закавказской железной дороги, - 1896,

bölməsi 8 may 1883-cü ildə fəaliyyətə başlamışdı və onun sayəsində Bakıda emal edilən neft həm imperiyanın daxili bazarına, həm imperiyaya külli miqdarda onilliklər boyu gəlir gətirən xarici bazara ixrac edilmişdi.

Lakin neft sənayesi dəmir yolundan aktiv istifadə edən yeganə sahə deyildi. 1891-ci ildə bütün növ taxıl yükləri Cənubi Qafqaz dəmir yolunun son məntəqələrinə – Bakı, Poti və Batuma, və buradan daha sonra daxili quberniyalara və xaricə daşınmaq üçün aktiv istifadə edilir, məsələn, həmin ildə 4 milyon pud müxtəlif məntəqələrə çatdırılmışdı[1]. Kutaisi quberniyasında əsas yük qarğıdalı təşkil etdiyi halda, dəmir magistral yola bitişik olan hər üç Cənubi Qafqaz vilayətində – Tiflisdə, Yelizavetpolda (Gəncədə) və Bakıda buğda və arpa da üstünlük təşkil edirdi. 1884-cü ildən buğda daşımanın ağırlıq mərkəzi Bakı ərazisinə keçir. 1884-1894-cü illərdə regionda bu sahədə əhəmiyyətli olan 16 stansiya mövcud idi: Mihaylovo, Suram, Gomi, Qori, Tiflis, Poili, Ağstafa, Şəmkir, Yelizavetpol(Gəncə), Qeran, Yevlax, Ləki, Kürdəmir, Hacıqabul və s. İstər ixrac üçün limanlara göndərilən, istərsə də əyalətdən-vilayətə daşınan yerli mənşəli buğdanın hərəkəti ilə bağlı tərtib edilən məlumat cədvəlləri göstərir ki, ən böyük göndərmə məntəqələri Yelizavetpol(Gəncə) vilayəti daxilində yerləşən Yelizavetpol(Gəncə) və Yevlax məntəqələri idi. Əsasən İrəvan əyalətindən taxıl yükləri toplayan Ağstafada daşınan yükün miqdarı İrəvan əyalətində məhsulun istehsalından asılı idi: taxılın bol məhsullu illərində daşımalar yüksəlir, qıtlıq vaxtlarında isə aşağı düşürdü[2].

---

s.559-561

[1] Аргутинский-Долгоруков, М. «История сооружения и эксплуатации Закавказской железной дороги за 25 лет ее существования (1871-1896)» / -Тифлис: Издание Закавказской железной дороги, - 1896, s. 602

[2] Аргутинский-Долгоруков, М. «История сооружения и эксплуатации Закавказской железной дороги за 25 лет ее существования (1871-

Nəticədə, XIX əsrin sonlarında nəqliyyatın inkişafı Şimali Azərbaycanın sosial-iqtisadi həyatına güclü təsir göstərmiş, imperiyanın bu regionla sabit əlaqələrinin qurmasına və daha sonra burada müstəmləkə siyasətinin tətbiqinə geniş imkanlar yaratmışdı.

Araşdırmalar sübut edir ki, XIX əsrin II yarısında Şimali Azərbaycan nəqliyyatının durumunda baş vermiş yeniliklər əsasən aşağıdakılar idi:

Əvvəla, dövrün son onilliklərində Şimali Azərbaycanda dəmir yolu nəqliyyatı meydana çıxıb daxili və xarici daşımalarda əsas rol oynamağa başladı.

Ənənəvi karvan yollarının abadlaşdırılması sahəsində bəzi tədbirlər görüldü, daxili yük və sərnişin daşımalarında yeni vasitələr (çoxtəkərli arabalar, fayton və s.) tətbiq olunmağa başladı.

Boru nəqliyyatının bünövrəsi qoyuldu.

Dəniz nəqliyyatında inqilabi dəyişikliklər baş verdi, mayedaşıyan gəmilər, paroxodlar təzə dəniz nəqliyyatının tədricən əsas daşıma vasitələrinə çevrildi.

Lakin bütün bunların hamısı çarizmin müstəmləkə məqsədlərinə xidmət edir, yerli sərvətlərin, Azərbaycan xalqının halal mallarının metropoliyaya, gəlirləri Rusiya xəzinəsinə axan xarici ixrac daşımalarına xidmət edirdi.

## 3.3. Rabitə

XİX əsr Şimali Azərbaycanda əsas rabitə növləri poçt, teleqraf və telefon xətti olmuşdur. Şimali Azərbaycanın Rusiya imperiyasının tərkibinə ilhaq edilməsi ilə burada imperiya poçt xidməti fəaliyyətə başlamışdı. Bu poçt çox ləng və əlverişsiz

---

1896)» / -Тифлис: Издание Закавказской железной дороги, - 1896, - 682 s.

rabitə vasitəsi idi. Belə ki, Peterburqdakı Moskvadan Şimali Azərbaycana göndərilən sənədlər təxminən 2 aydan çox vaxt ərzində buraya çatdırılırdı.

**Poçt** rabitəsi əsasən çay, dəniz və quru yolları ilə həyata keçirilirdi. Şimali Azərbaycan ərazisində ilk poçt kontoru 1818-ci ildə Gəncə şəhərində açılmışdır. Daha sonra 1826-cı ildə Bakıda, 1828-ci ildə isə Naxçıvanda poçt "ekspedisiyaları" təşkil edilmişdi. 1830-cu ildə Rusiya ilə Cənubi Qafqaz arasında əlaqələrin gücləndirilməsi çərçivəsində poçt kontorları Şuşada, Şamaxıda, Bakıda və Naxçıvanda 1-ci dərəcəli, Gəncə və Qubada isə 2-ci dərəcəli poçt kontorları təşkil olunmuşdu. Şimali Azərbaycanın torpaq yollarından ən mühüm və bütün Cənubi Qafqazın başlıca rabitə yollarından biri, ümumi uzunluğu 509 verst olan Bakı-Tiflis poçt yolu idi. Baş poçt yolundan Şimali Azərbaycanın bütün digər müxtəlif ranqlı bölgə mərkəzlərinə poçt yolları gedirdi. Bu yolların əsas nöqsanı onları kəsən çoxlu çaylar üzərində körpülərin olmaması idi. Poçt xidməti daha çox Bakıda inkişaf etmişdi. Bakı və Yelizavetpol (Gəncə) quberniyalarındakı ümumilikdə 60 poçt stansiyasından 33-cü Bakıda, 27-si isə cəmi Yelizavetpol (Gəncə) quberniyasında, Lənkəran, Salyanda yerləşirdi. Rabitə üçün vəsaitlər büsbütün Daxili İşlər Nazirliyinin nəzarəti və sərəncamında idi. 1861-ci ildə ilk dəfə Qafqaz və İranın Rəşt şəhəri arasında, həmçinin Astarabad limanları arasında dəniz poçt mübadiləsi yaranmışdır. 1840-cı ildə Xəzər vilayətinin mərkəzi Şamaxıda yerləşən poçt xidmətində məktubların çatdırılması və çeşidlənməsi üçün bir poçt rəisi ("poçtmeyster"), iki kiçik çeşidləyici, bir unter-zabit və səkkiz poçtalyon işləyirdi. 1846-cı ildə Şamaxı quberniya şəhərinə çevrildi. Bu zaman onun əhalisi 20 min insana çatmışdı. 1859-cu ildə baş verən dəhşətli zəlzələyə qədər Şamaxı poçt xidməti şimalın bütün poçt xidmətini idarə edirdi. 1860-cı ildən sonra quberniya mərkəzi Bakıya köçürülmüş və artıq mərkəzi poçt xidməti Bakıda açılmışdır.

1874-cü ildə Berndə 22 Avropa ölkəsinin iştirakı ilə beynəlxalq poçt konqresi yaradıldı, Ümumdünya Poçt İttifaqı təsis olundu, Rusiya imperiyası da bu ittifaqa üzv oldu.

1883-cü il mayın 9-dan Tiflis və Bakı arasında gündəlik poçt daşınmasına başlanılan, Tiflis ilə Bakı arasında dəmir yolunun tikintisi başa çatdıqdan və ölkənin Poçt Nəqliyyatı Mərkəzi yaradıldıqdan sonra Azərbaycanın poçt rabitəsi daha müntəzəm xarakter almışdır.

Azərbaycanda poçt rabitəsinin inkişafında müəyyən təkan Rusiya Dövlət Şurasının 1885-ci il mayın 28-də qəbul etdiyi "Yerli poçt-teleqraf müəssisələrinin təkmilləşdirilməsi haqqında" fərmanı ilə verilmişdir. Bu fərmana əsasən poçt-teleqraf bölmələri yaradıldı. Həmin vaxt Bakı poçt-teleqraf bölməsi yaradılmışdı. 1886-cı ildə bu şəhərdə xüsusi "Glavpoçtamt" ("Baş poçt idarəsi") binası tikilmişdi. Artıq Bakıdan bütün bölgələrə məsafə bu binadan hesablanırdı. Bu tarixi binanın əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, burada ikinci mərtəbədə Bakı Mərkəzi Teleqraf yerləşirdi.

XIX əsrin ikinci yarısında baş verən iqtisadi inkişaf Şimali Azərbaycana yeni rabitə növünü gətirmişdir: 1864-cü il yanvarın 21-də Naxçıvanı İran sərhədində yerləşən Culfa ilə birləşdirən və Tiflis-İrəvan-Naxçıvan-Culfa **teleqraf** xəttinin bir hissəsi olan ilk teleqraf xətti istifadəyə verilmişdir. 1868-ci ilin yanvarında Tiflis-Bakı teleqraf xətti istifadəyə verilmişdir. Həmin ildə Şəkidə də teleqraf açılmışdır. Xüsusi xətt Gəncə-Gədəbəy misəritmə zavodları ilə birləşdirdi, ticarətlə məşğul olanların ehtiyacını ödəmək üçün Şuşada teleqraf stansiyası işə salındı. Sonra ordu yerləşən yerlərdə – Qusarda (1880-1882), 1883- Salyanda, Yevlaxda, Lənkəranda və Ağdaşda stansiyalar açılmışdı.

Qeyd etmək lazımdır ki, 1860-cı illərin əvvəllərinə qədər Rusiya imperiyasında vahid rabitə sistemi yox idi. 1819-cu ildə

Poçt İdarəsi Daxili İşlər Nazirliyinin tərkibindən ayrılaraq, Ruhani İşlər və Xalq Maarif Naziri vəzifəsini tutan A.N. Qolitsının nəzarətinə verildi. 1819-cu ildə A.N. Qolitsın öz vəzifəsinin rəsmi statusunu müəyyən etmək üçün yüksək orqanlara müraciət etmişdir. Məhz o zaman poçt şöbəsinin rəisini Poçt idarəsinin baş rəisi adlandırmağa başladılar. Beləliklə, poçt xidməti 1819-cu ildən artıq əlahiddə qurum kimi fəaliyyətə başlamışdır. 1824-cü ildə Ruhani İşlər və Xalq Maarif Nazirliyi ləğv edildikdən sonra poçt şöbəsi Daxili İşlər Nazirliyinin tabeliyinə qaytarılmadı; əksinə, müstəqilliyini qorudu, onun tərkibində bir idarə yaradılmış və A.N. Qolitsın Poçt İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. Teleqraf rabitəsinin inkişafı isə lap əvvəllər Hərbi Nazirliyinin rəhbərliyi altında idi. 1842-ci ildə teleqraf xidməti Rabitə və İctimai Binalar Baş İdarəsinə ("Главное управление путей сообщения и публичных зданий") verildi (daha ətraflı bax Перекрестова).[1]

Azərbaycanda teleqraf rabitəsinin inkişafının başlanğıcını 1868-ci il hesab etmək olar[2] .Belə ki, çar hökumətinin strateji məqsədləri üçün Tiflis şəhəri Morze aparatından istifadə etməklə Gəncə (Yelizavetpol) vasitəsilə Bakı şəhəri ilə teleqraf rabitəsi ilə əlaqələndirilirdi. Azərbaycanda teleqraf rabitəsinin inkişafının növbəti addımı çar Rusiyasının hərbi idarəsinin Xəzər dənizinin o tayından – Bakının qarşı tərəfi ilə, Krasnovodsk

---

[1] Высочайше утвержденное Положение об управлении телеграфическими линиями // ПСЗ. Собр. II. Т. XXIX (1854). Отд. I. СПб., 1855. № 28632. s. 861–862.

[2] Каграманзаде, А. «Этапы развития телекоммуникации Азербайджана» / - Баку: «Элм», -2011, s.163 Ахундов Б.М. Особенности развития связи в Азербайджане. Баку, Чашыоглы, 2000, s. 52; Гусейнов Т.К. Развитие связи, радиовещания и телевидения в Советском Азербайджане. Баку, Азернешр, 1988, s. 32; Давыдов Г.Б. Информация и сети связи. М., Наука, 1984, s. 28; Нейман В.И. Теоретические основы Единой автоматизированной сети связи. М., Наука, 1984, s.44

dəniz limanı (indiki Türkmənbaşı şəhəri) ilə də əlaqə yaratmaq qərarı ilə bağlıdır. Məhz bu məqsədlə 1879-cu ildə Bakı ilə Krasnovodsk arasında sualtı üçnüvəli teleqraf kabeli çəkilmişdir. Tiflis-Bakı dəmir yolu xəttinin tikintisindən sonra bütün yol boyunca teleqraf xətti çəkilmiş və 36 teleqraf stansiyası istifadəyə verilmişdi. Azərbaycanda teleqraf rabitəsinin inkişafına xüsusi təkan 1886-cı ildə "Bering & K°" şirkəti tərəfindən Bakının mərkəzində, Zərifə Əliyeva küçəsi-33 (keçmiş Azərbaycan prospekti-33) ünvanında Bakı şəhəri Baş Poçtamtının (indiki Azərbaycan Rabitə Nazirliyi) ixtisaslaşmış binalar kompleksinin tikintisi reallaşdırılmışdır. Həmin ildə – 1886-cı ilin sentyabr ayında Qara şəhərdə teleqraf stansiyası, Yelenendorf poçt-teleqraf şöbəsi istifadəyə verildi. Qazax poçt şöbəsinin nəzdində isə 1887-ci ilin mayında teleqraf əlaqəsi işə salındı. Ağstafada 1892-ci ildə, Gorusda – 1893, Yevlaxda – 1894, Ağdamda – 1895, Tərtərdə – 1895, Dəvəçidə – 1896, Cəbrayıl və Ağdaşda, Kürdəmirdə – 1900 və s. yerlərdə teleqraf stansiyaları açılmışdır.

Şimali Azərbaycanda növbəti rabitə növünün – **telefon şəbəkəsinin** – tarixi 1880-ci ildə "Qafqaz və Merkuri" gəmiçilik cəmiyyəti tərəfindən çəkilən ilk telefon xətti ilə başlamışdır.

1878-ci ildə rus ordusu yeni rabitə növünü qəbul etdikdən sonra Teleqraf İdarəsi də telefonla maraqlanmağa başladı. 1879-cu ilin noyabrında Sankt-Peterburq Teleqraf Dairəsinin rəisi F. Y. Gervarta "teleqraf xətlərimizdə və stansiyalarımızda telefonun teleqraf üçün istifadəsi" ilə bağlı təcrübələr aparmaq tapşırıldı. Və artıq 1881-ci ilin sentyabrında "Şəhər telefon rabitəsinin təşkili və istismarı üçün əsas şərtlər" təsdiq edildi. Telefon rabitəsi dövlət inhisarı kimi tanındı, lakin ümumi istifadədə olan telefon şəbəkələrinin qurulması və istismarı hüququ da özəl sahibkarlara (fiziki şəxslər, səhmdar cəmiyyətlər və şirkətlər) verildi. Bunun üçün Daxili İşlər Nazirliyinin Teleqraf İdarəsi ilə 20 il müddətinə müqavilə bağlanması, bundan sonra

telefon şəbəkələrinin hökumətə verilməsi tələb olunurdu.1886-cı ildə Baş Poçt idarəsinin "Bakı şəhərində **telefon** stansiyasının tikintisi və onun iyirmi illik istismarı haqqında" imzaladığı müqavilə əsasında tikinti işlərinə başlandı. Dövlət mülkiyyəti olan poçt-teleqraf müəssisələrindən fərqli olaraq telefon xətti ayrı-ayrı fərdlər tərəfindən çəkilə bilərdi. Bu huquq 1881-ci ildə xüsusi qanun ilə müəyyən edilmişdir. Bu qanun telefon xətlərini müstəqil şirkətlərə vermiş, və artıq telefon xidməti şirkətlərin əlində idi. Belə ki, 1890-cu ilə qədər Bakıda "Nobel qardaşları", "Kaspi" şirkətlərinə, H.Z.Tağıyeva, 9 digər ticarət firmalarına məxsus 14 telefon xətti mövcud idi. 1886-cı ildə Bakıda sistemləşdirilmiş telefon xəttinin çəkilməsinə qərar verilmişdir. 1886-cı il 29 sentyabr "Qustav List" ilə 20 il müddətinə Bakıda, Qara şəhərdə və Bakının Sabunçu meydanında xüsusi telefon əlaqəsini nizamlamaq haqqında müqavilə bağladı. 1880-ci illərin sonuna qədər Rusiya imperiyasında 11 şəxsin telefon stansiyası var idi, onlardan biri Bakıda yrləşən mərkəzləçmiş telefon xətti idi: Bakı telefon şəbəkəsinin stansiyası şəhərin özündə, köməkçi stansiya isə şəhərin 12 verstliyində Balaxanıda yerləşirdi. Gəncədə 1887-ci ildə vağzalla şəhər arasında telefon rabitəsi yaradılmışdı, 1890-ci ildə Qarasu suvarma stansiyasından dəmir yolu stansiyasına qədər telefon xətti quraşdırılmış, 1891-ci ildə Hacıqabulda təlefon xətti çəkilmişdi.

1900-cu ilə qədər Bakıda telefon stansiyası və idarəsi Polis küçəsində (Məmmədəliyev k.) Tumayevin evində, mühəndislik istedadına malik sahibkar Qustav İvanoviç List zavodunun ofisində yerləşirdi. Hətta ofisin telefon nömrəsi də qorunub saxlanılıb – 2. O vaxt Bakıda ümumilikdə 40 abonent var idi. Telefon qovşağı binanın damında qəribə tikili – alban kilsəsinin günbəzini xatırladan, şəbəkəli konstruksiya və çoxsaylı məftillərlə əhatə olunmuş telefon qülləsindən ibarət idi.

Təəssüf ki, o zaman Azərbaycan üçün telekommunikasiya

sahəsində milli kadrların hazırlanması məsələsini gündəmə gətirmək mümkün olmurdu. Milli kadrların yaradılması üçün ilk real cəhd Azərbaycan Xalq Cümhuriyyəti (ADR) (1918-1920) illərində başlamışdır. Azərbaycanın müstəqilliyinin bu çətin illəri xüsusi mərhələ hesab edilə bilər. Ölkədə telefon rabitəsinin inkişafında Azərbaycan Demokratik Respublikasının Poçt və Teleqraf Nazirliyi yaradılmışdır. Respublika illərində bu sahədə böyük işlər görülmüşdü. Məsələn, 1918-ci il sentyabrın 1-də Bakının Poçt və Teleqraf Məktəbinin ilk buraxılışı baş tutdu; 1918-ci il noyabrın 15-də Azərbaycan Ordusunun tərkibində Baş Qərargah İdarəsi, tərkibində isə Rabitə Komandası yaradıldı; 1919-cu il yanvarın 10-da Bakı-Gəncə-Tiflis beynəlxalq telefon xətti açıldı; 1919-cu il martın 17-də "Kənar müdaxilələri istisna etmək" məqsədilə "Poçt və Teleqraf Nizamnaməsi"nə bir sıra dəyişikliklər edildi; 1919-cu il sentyabrın 13-də Şuşa şəhərində telefon stansiyası quraşdırılmışdır; 1919-cu il oktyabrın 9-da Azərbaycan hökumətinin qərarı ilə ölkədə "Poçt, Teleqraf və Telefon Qaydaları" qüvvəyə mindi; 1919-cu il oktyabrın 29-da Ağdam və Füzuli arasında telefon xətti çəkildi; 1919-cu il oktyabrın sonunda Bakıda Mərkəzi Poçt və Teleqraf Nazirliyinin Telefon Stansiyası təşkil olundu; 1919-cu il noyabrın 18-də Ucar-Göyçay telefon xəttinin tikintisi başladı, 1919-cu il noyabrın 18-də Bakını Qarabağla birləşdirən magistral telefon xəttinin təmiri başa çatdırıldı, 1920-ci il fevralın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin Poçt və Teleqraf Nazirliyində yeni əmək haqları üzrə komissiya yaradıldı, 1920-ci il aprelin 16-da Bakı Telefon Şəbəkəsi məsələ qaldırdı ki, 1920-1921-ci illər üçün yeni kitabça tərtib edilsin və çap edilsin və s.. Həmin illərdə xarici universitetlərə oxumağa göndərilən istedadlı gənclərdən çox şey gözlənilsə də, bu gərəkli işin başa çatdırılmasına sovet Rusiyasının işğalı imkan vermədi. Bu gənclər öz vətənlərinə qayıtdıqda Azərbaycan Demokratik Respublikası artıq mövcud deyildi. Azərbaycanda telefon rabitəsi sahəsində ilk ixtisaslaşmış milli kadrı Şəkidən olan,

1906-cı il təvəllüdlü Əliyev Əbdüləli Rza oğlunu hesab etmək olar[1].

Telefon xidmətinin inkişafında növbəti mərhələ şəhərlərarası telefon xətlərinin quraşdırılması idi. Rusiya imperiyasında ilk şəhərlərarası telefon bağlantısı 1890-cı ildə Moskva ilə Peterburga şəhərləri arasında baş tutmuşdu. 1895-ci ildə başlanan dövlət şəhərlərarası Sankt-Peterburq-Moskva telefon xəttinin tikintisi 31 dekabr 1898-ci ildə başa çatmışdı. Bu hadisə Rusiya imperiyasında geniş yayılmış ictimai hadisəyə çevrilmişdi. Hələ 1887-ci ildə Rusiya Daxili İşlər Nazirliyi Poçt və Teleqraf Baş İdarəsinə Moskva ilə Sankt-Peterburq şəhərlərini birləşdirəcək telefon xəttinin çəkilməsi məsələsini həll etməyi tapşırmışdı. Avropada ən uzun şəhərlərarası telefon xəttinin tikintisinə 1895-ci ilin mayında başlanılıb. Onun uzunluğu 660 kilometr idi. Layihəni mühəndis Pavel Voynarovski öz üzərinə götürmüş və tikintidə Rusiyanın poçt və teleqraf regionlarının ən yaxşı mütəxəssisləri də iştirak edirdilər. Xəttin təntənəli açılışı 1898-ci il dekabrın 31-də Sankt-Peterburqda baş verdi. Belə bir əlamətdar münasibətlə şəhərdə dualar oxundu və daxili işlər naziri İvan Qoremıkin moskvalıları və Peterburq sakinlərini təbrik edərək, imperatorun sağlamlığına bir qədəh şampan qaldırdı.

Bakıda neft bumu, Azərbaycanda neft hasil edən şirkətlərin böyüməsi, Bakı və Batumi arasında neft kəmərinin tikintisi diqqəti Azərbaycanda şəhərlərarası rabitənin də inkişafına yönəltdi. Fakt budur ki, çar hökuməti artıq 1868-ci ildə Tiflisdən Bakıya Yelizavetpol (Gəncə) vasitəsilə teleqraf əlaqəsi yaratmışdı. Morze aparatından istifadə etməklə iki şəhər arasında ilk mesajlar artıq göndərilmişdir. Eyni məqsədlə 1879-cu ildə Ba-

---

[1] Каграманзаде, А. «Этапы развития телекоммуникации Азербайджана» / - Баку: «Элм», -2011, s. 225-226

kı ilə Krasnovodsk arasında sualtı üçnüvəli teleqraf kabeli çəkilmişdi. Lakin Azərbaycanda ilk şəhərlərarası telefon rabitəsi xətti 1900-1916-cı illərdə çar Rusiyası dövründə yenə Tiflis ilə Bakı arasında Yelizavetpol vasitəsilə telefon əlaqəsinin təşkili hesab edilməkdədir. Bu xətt Nobel qardaşları tərəfindən Bakı-Batumi neft kəməri marşrutu boyunca mis birləşmə zənciri ilə inşa edilmişdir. Yeri gəlmişkən, bu şəhərlərarası (bugünkü beynəlxalq standartlara görə) kommunikasiya xətti asılmış dəmir yolu dayaqları üzərində həyata keçirilmiş və Azərbaycan ərazisində əsaslı şəkildə yenidən qurulmuş, NR163 zənciri adını almış və sonradan regionun 90-a qədər şəhəri istifadə etmişdir. Həmin dövrdə Ağdam – Füzuli, Ağdaş, Bakı – Yalama, Göyçay – Ucar, Lənkəran – Lerik və s. hissələrində 4-5 mm diametrli polad zəncirlər şəhərlərarası əlaqə üçün qurulmuşdu[1].

Şimali Azərbaycanda şəhərlərarası rabitənin kəskin inkişafı 1926-1927-ci illərdə Azərbaycanın bir sıra rayon mərkəzləri ilə və onların vasitəsilə respublikanın digər rayon mərkəzləri ilə əlaqələr təşkil olunduqdan sonra başlandı.

Azərbaycanın müstəqillik əldə etməsi və ölkədə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaradılması ilə Rabitə sənayesinin inkişafı və onun müstəqilliyinin möhkəmləndirilməsi üçün çox işlər görmüşdür:

- 1919-cu il yanvarın 10-da Bakı-Gəncə-Tiflis beynəlxalq telefon xətti açıldı;
- 1919-cu il sentyabrın 1-də Bakıda (Bayılda) "Sahil" radiostansiyası yenidən fəaliyyətə başladı;
- 1919-cu ilin oktyabrında bir qrup gənc azərbaycanlı hərbi qulluqçu Gürcüstan Respublikasındakı Radio-Teleqraf Məktəbini radioteleqrafçı ixtisası üzrə bitirdi;
- 1919-cu il oktyabrın sonunda Poçt Nazirliyinin Mərkəzi

[1] Каграманзаде, А. «Этапы развития телекоммуникации Азербайджана» / - Баку: «Элм», -2011, s. 251-252

Telefon Stansiyası və Bakıda Azərbaycan teleqrafı yaradıldı;

- 1919-cu il noyabrın 18-də iki Ucar və Gökçay şəhərləri arasında telefon xəttinin çəkilişinə başlandı və Bakını Qarabağla birləşdirən magistral telefon xəttinin təmiri başa çatdırıldı;
- 1920-ci il aprelin 6-da Azərbaycanla İran arasında poçt və teleqraf mübadiləsi bölməsi açılmışdı.

Beləliklə, araşdırmalar göstərir ki, tədqiq edilən dövrdə Şimali Azərbaycanda rabitənin yaradılması, təşkili və inkişafı sahəsində də yürüdülmüş rəsmi dövlət siyasəti sırf müstəmləkə xarakteri daşımışdır. O dövr üçün çağdaş rabitə növləri imperiyanın müstəmləkə ucqarlarından biri olan Quzey Azərbaycanda da çox gec və ləng yaradılmış, onların inkişafına vəsait çox məhdud şəkildə ayrılmışdır. Bu məhdud rabitə vasitələrinin şəbəkəsi çox lokal xarakter daşımış ölkə əhalisi və iqtisadiyyatının durmadan genişlənən tələbatına qətiyyən cavab verməmişdir.

Ölkəmizin ərazisində yaradılan rabitə şəbəkələri ilk növbədə çar Rusiyasının hərbi-siyasi-fiskal maraqlarına, habelə ayrı-ayrı işbaz maqnatların biznes maraqlarına xidmət göstərmişdir. Çarizmin bu sahədə də yürütdüyü rəsmi dövlət siyasətinin müstəmləkə xarakteri bir də onunla özünü bariz şəkildə göstərir ki, AXC-nin mövcud olduğu cəmisi 23 ay ərzində ölkəmiz ərazisində rabitə şəbəkələrinin inkişaf etdirilməsi sahəsində çarizmin az qala 110-115 illik ağalığı dövründə olduğundan xeyli çox iş görülmüşdür.

## 3.4. Şəhər həyatı

Bakıda şəhər özünüidarəsinin tətbiqi kapitalist münasibətlərinin inkişafı ilə bağlı idi və ilk növbədə yuxarı və orta təbəqələrin maraqlarına xidmət etmək məqsədi daşıyırdı. Lakin ümumilikdə şəhər özünüidarə orqanlarının fəaliyyəti bütün şəhər əhalisinin tələbatının ödənilməsinə, şəhərin abadlığına və həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmişdi. 1807-cı ilin

aprelində Bakının ilk rus qubernatoru Qraf Qudoviçə şəhərdə orada yerləşən rus komendantının sədrliyi ilə müvəqqəti hökumət yaratmaq, "ona həm rus, həm də müsəlman məmurlarından köməkçilər və dövlət gəlirlərini toplamaq və saxlamaq üçün bir xəzinədar təyin etmək" (AKAK) tapşırıldı.

Bu gəlirlər həm dövlətin xeyrinə, həm də ticarətin genişlənməsinə xidmət edə biləcək fövqəladə ticarət üçün istifadə edilməli idi (AKAK). Komendant idarəsi komendant, plats-adyutantdan ibarət idi: burada inzibati məsələlər komendantın, hərbi idarə isə plats-adyutantın əlində idi. Komendant idarəsi hərbi-inzibati xarakter daşıyırdı. Bundan əlavə idarə heyəti xüsusi tapşırıqları yerinə yetirən zabit, polis rəisi, dövlət əmlakının mühafizəçisi, xəzinədar və tərcüməçilərdən ibarət idi. 1840-cı il aprelin 10-da "Cənubi Qafqaz diyarının idarə edilməsi" haqqında qanun qəbul edildi. Bu fərmana əsasən, Cənubi Qafqaz şəhərləri dörd qrupa bölünürdü: çox əhalili, orta, az əhalili və kiçik şəhərlər[1]. Bu təsnifata görə Bakı orta şəhərlər kateqoriyasına aid edilirdi, onun idarə edilməsini "qorodniçiy" - "şəhər başçısı", iki şəhər deputatı, 10 polis əməkdaşı və məhəllə nəzarətçiləri həyata keçirirdilər[2]. 1859-cu ildə Şamaxıda baş verən güclü zəlzələ ilə əlaqədar Bakı quberniya şəhəri oldu və Şamaxı quberniyasının adı dəyişdirilərək Bakı quberniyası adlandırıldı. Bakının quberniya mərkəzinə çevrilməsi idarəetmə qaydasını da dəyişdi. Şəhəri idarə etmək üçün Bakı şəhər polisi yaradıldı, onun tərkibində polis rəisi, 2 pristav, məhəllə nəzarətçisi, bazar müfəttişi və s. b. kimi vəzifələr təsis edilmişdi. 1840-cı il aprelin 10-da "Cənubi Qafqaz diyarının idarə edilməsi" fərmanı ilə komendant idarəetmə sistemi ləğv edildi. Komendant vəzifələri çarın 21 oktyabr 1867-ci il fərmanı ilə

---

[1] Эсадзе С.С. Исторический очерк распространения русской власти на Кавказе - Тифлис, 1913, s. 41

[2] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-начале XX века», Баку, 2003, s. 28

Cənubi Qafqazda hərbi qalalar ləğv edilənə qədər şəhər qarnizonlarının rəislərinə tapşırıldı.

1860-1870-ci illər Rusiyada kapitalist münasibətlərinin möhkəmlənməsi dövrü oldu. Yeni sosial-iqtisadi münasibətlərin formalaşması çarizmi müəyyən dərəcədə kapitalist iqtisadiyyatının tələblərinə uyğunlaşmağa məcbur etdi. Belə bir şəraitdə çar hökuməti bir sıra burjua islahatları həyata keçirməyə məcbur oldu: təhkimçiliyin ləğvi, məhkəmə, hərbi, şəhər və s. islahatları Rusiyada yerli özünüidarə orqanlarının yenidən təşkili ideyası 19-cu əsrin birinci yarısında yaranmışdır. Bununla belə, Rusiyanın bütün şəhərlərində bələdiyyə özünüidarəsinin ümumi islahatına hazırlıq 1862-ci ildə başladı. Şəhər Nizamnaməsinin layihəsi 1864-cü ildə hazırlanmışdır. O, 1866-cı ilin mart ayına qədər yenidən işlənmiş və müzakirə edilmiş, bundan sonra baxılması üçün Dövlət Şurasına təqdim edilmişdir. Nəhayət 16 iyun 1870-ci ildə Şəhər Əsasnaməsi təsdiq olundu. O, sinfi təmsilçilik prinsipini rədd etdi, lakin mülkiyyət senzini tam olaraq saxladı. Seçki sistemi şəhər əhalisinin şəhər xəzinəsinə vergi ödəməsi prinsipinə əsaslanırdı. Beləliklə, daşınmaz əmlaka malik olmayan və şəhər vergisini ödəməyən şəhər əhalisinin əksəriyyəti (və bura şəhər hakimiyyətinin xüsusilə ehtiyac duyduğu ziyalıların əksəriyyəti də daxil olmaqla) seçki hüququndan məhrum edildi. 1874-cü il oktyabrın 28-də Dövlət Şurası Qafqaz canişininin Cənubi Qafqazdın şəhərlərində Şəhər Nizamnaməsinin tətbiqi qaydası haqqında təqdimatına baxdı. Qəbul edilən qərara əsasən, Qafqaz canişininə Cənubi Qafqazın şəhərlərində onun üçün əlverişli hesab etdiyi qaydada Şəhər Qaydalarını tətbiq etmək hüququ verildi. "Şəhər Nizamnaməsinin şəhərlərdə tətbiqinə dair müvəqqəti qaydalar" da qəbul edildi[1] . 1877-ci ilin dekabrında

[1] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-начале XX века», Баку, 2003, s.23; RFDTA, f. 1268, siy. 18, iş.67, v. 23,24; GMAMTA, Gürcüstan Milli Arxivinin Mərkəzi Tarix Arxivi f.7, siy. 1, iş. 1000, v. 95-96; Мурадалиева Э. – Göstətilən iş., s. 132

Bakı Şəhər Duması və Şəhər İdarəsi (Uprava) yaradılmışdır. Bakı Duması 1878-ci il yanvarın 8-də fəaliyyətə başlamışdır. Şəhər hakimiyyəti orqanlarının fəaliyyəti fabrik-zavod ərazisini əhatə etmir, ancaq sırf Bakı şəhər hüdudları ilə məhdudlaşırdı. Özünüidarə orqanlarının səlahiyyətləri yerli məsələlərlə, məsələn, şəhərin abadlaşdırılması, ərzaq təminatı, səhiyyə və təhsil və s. ilə əhatələnirdi.

Özünüidarə orqanlarının müstəqilliyi o qədər məhdud və dar idi ki, onu "özünüidarəetmə" adlandırmaq belə çox çətindir. Belə ki, ərzaq təminatı qanunla tamamilə qubernatorun əlində cəmləşərək Daxili İşlər Nazirliyinin təsərrüfat idarəsində mərkəzləşdirilmişdi; "xalq" sağlamlığı da qubernatorun və ona tabe olan əyalət tibb müfəttişi timsalında quberniya "hökumətinin" nəzarəti altında idi; xalq təhsili 1872-ci il qanunu ilə Məktəb Şurasına həvalə edilmişdi[1].1870-ci il şəhər nizamnaməsi ictimai şuralara seçkilərdə «25 yaşına çatmış və şəhərdə mülkiyyət hüququ əsasında daşınmaz əmlaka sahib olan, ticarət və ya sənaye müəssisəsi saxlayan və ya şəhərdə iki il qalmaq şərti ilə ticarət və ya sənaye şəhadətnaməsi ilə rüsum ödəmiş şəxslərə» səs vermək hüququ verdi[2]. Seçki sistemi şəhər əhalisinin şəhər büdcəsinə vergi ödəməsi prinsipinə əsaslanırdı. Qadınların şəhərdə əmlak təsnifatına uyğun daşınmaz əmlak sahibi olduqları hallarda, onların şəhər şurasına seçkilərdə müstəqil şəkildə deyil, öz nümayəndələri vasitəsilə iştirakına icazə verilirdi. Belə ki, şəhər əmlakına sahib olmayan və şəhər xəzinəsinə heç bir vergi ödəməyən şəxslər səsvermədən kənar qalırdı. Bundan əlavə, sosial bərabərsizliklə yanaşı, Şəhər Qaydaları "milli əsaslarla" bərabər-

[1] Свешников М. Основы и пределы самоуправления - СПб., 1892, s. 133

[2] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-начале XX века», Баку, 2003, s. 27, Полное собрание законов Российской империи. Собрание 2. Т. 45. Отделение 1. СПб., 1873. № 48498. s. 823-839

sizliyi də möhkəmləndirdi. Belə ki, Bakı Şəhər Dumasının aldığı qərarla Dumanın tərkib üzvlərindən "qeyri-dindən", yəni xristian olmayanların sayı üzvlərin sayının yarısından çox olmasına nəzarət edilməliydi. Nəticədə, 1877-ci ildə 490 xristian seçici Dumada 2900 qeyri-xristian seçici ilə eyni sayda üzvlə təmsil olunurdu[1].Tezliklə – 1892-ci ildə yeni Şəhə Əsəsnaməsi qəbul edildi. 1892-ci il şəhər Əsasnamənin giriş hissəsində yazılırdı: "1870-ci il iyunun 16-da qəbul edilmiş Şəhər Əsasnaməsi tətbiq olunduğu iyirmi il ərzində xeyli fayda gətirdi. Şəhər yaşayış məntəqələrinin abadlığı nəzərəçarpacaq dərəcədə artdı, şəhər həyatının bir çox şəraiti yaxşılaşdı. Lakin bu əlverişli hadisələrlə yanaşı, şəhər qurumlarının strukturunda və fəaliyyətində qüsurların da aşkara çıxarılmasına nail olundu və bu qüsurlar təkmilləşməni tələb edir"[2] 1892-ci il nizamnaməsi şəhər idarəsini tamamilə hökumət idarəsinin nəzarətinə tabe etdi. Şəhər şurasının heç bir qərarı artıq qubernatorun və ya daxili işlər nazirinin icazəsi olmadan həyata keçirilə bilməzdi. 1892-ci il Şəhər Qaydalarının tətbiqi şəhər seçicilərinin sayının əhəmiyyətli dərəcədə azalması ilə də nəticələndi. Xırda ticarətlə məşğul olan şəxslər, az dəyərli və kiçik ölçülü daşınmaz əmlak sahibləri seçicilər sırasından çıxarılmışdı. Yeni Şəhər Əsasnaməsi seçicilər üçün vergi təsnifatını əmlak təsnifatı ilə əvəz etdi. Şəhər Nizamnaməsinin 24-cü maddəsinə əsasən, ən azı bir il ərzində şəhərdə daşınmaz əmlaka sahib olan, yalnız 25 yaşından kiçik olmayan rus təbəəsi kişilər; qiymətləndirmə haqqı paytaxtlarda ən azı 3000 rubl, böyük quberniya şəhərlərində ən azı 1500 rubl, bütün rayonlarda ən azı 1000 rubl və eyni zamanda ən azı bir il şəhərdə ticarət və sənaye müəssisəsi saxlayanların səsvermə hüququ var idi.

Bakı Şəhər Dumasının strukturuna nəzər salsaq əsas şöbələrin fəaliyyəti üzə çıxır. Məsələn, "məhkəmə şöbəsi" 1883-cü ildə

---

[1] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-началe XX века», Баку, 2003, s. 28

[2] Городовое положение 1892 https://www.prlib.ru/history/619334

yaradılmışdır. Şöbənin əsas fəaliyyəti hüquqi sənədlərin tərtibi, Duma və Administrasiya tərəfindən qəbul edilmiş qərarların qanuniliyi barədə yazılı rəylərin verilməsindən, şəhərə məxsus torpaqları zəbt edənlərə qarşı iddiaların hazırlanması və təqdim edilməsi, şəhərə qarşı iddialara, xüsusi, apellyasiya və kassasiya şikayətlərinə baxılma, Dumanın məcburi qərarlarının pozulması ilə bağlı cinayət işlərinə baxılması; icra edilmiş notariat hərəkətləri, şəhərin mənafeyinə toxunan işlərə baxılarkən məhkəmə iclaslarında iştirak etmə, məhkəmə qərarlarını icra etmə kimi işlərdən ibarət idi.

İdarənin nəzdində "Məktəb" (təhsil) şöbəsi 1904-cü ildə yaradılmışdır. Ona Məktəb Komissiyasının sədri rəhbərlik edirdi. Bu idarənin tərkibinə məktəb maddi-texniki bazasının təşkili üzrə məmur, tədris materialları anbarının müdiri, xadimə və katiblər daxil idi.

Statistika İdarəsi isə Dumanın 23 oktyabr 1902-ci il tarixli qərarı ilə Bakının su təchizatı layihəsinin hazırlanması üçün lazım olan məlumatları toplamaq üçün yaradılmışdır. Onun tərkibinə şöbə müdiri, statistik işçilər və kargüzarlıq işçiləri daxil idi. 1903-cü ilin yanvarında fəaliyyətə başlamış və 1906-cı ildə ləğv edilmişdir.

Tibbi-sanitariya xidmətinin təşkili Bakı şəhəri hakimiyyətinin əsas tərkib hissələrindən biri idi. XIX-cu əsrin son rübündə şəhər büdcəsində səhiyyə xərcləri artmışdı. Belə, 1886-cı ildə şəhər tibbi hissəyə təxminən 36 min rubl xərclədi. Sonrakı onillikdə şəhərin bu ehtiyaclar üçün xərcləri xeyli artaraq 1896-cı ildə 90140 rubl, 1897-ci ildə 106 900 rubl, 1898-ci ildə 139493 rubl, 1900-cü ildə isə 181153 rubl təşkil etdi. Beləliklə, şəhərin səhiyyə xərcləri 1900-cü ilə 5 dəfə artdı[1]. XIX-cu əsrin sonu – XX-ci

[1] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-начале XX века», Баку, 2003 , s.56

əsrin əvvəllərində xalq təhsili Dumanın 17 fevral 1882-ci il tarixli qərarı ilə yaradılmış Təhsil Şurasının səlahiyyətində idi. Təhsil şurası "məktəblərin təsərrüfat hissəsinə rəhbərlik edirdi, bu məktəblərin ehtiyaclarının ödənilməsi ilə məşğul olurdu, yeni təhsil müəssisələrinin açılması fikirlərini təqdim edir" və Dumanın bir şöbəsi idi[1]. Təhsil şöbəsinin ilk üzvləri H. Məlikov (Zərdabi), Ə.Topçibaşov, Ə. Ziyadxanov, H.Z.Tağıyev, Ə.Ağayev, H. Mahmudbəyov, A. Benkendorf və b. olmuşdur. 1907-ci ilə qədər şuranın sədri vəzifəsi ictimai əsaslarla, yəni maaşsız, icra edilirdi. Bakı şəhər hökuməti – idarəsi (Uprava) 1881-ci il avqustun 30-da şəhərdə ilk məktəblərini açdı. 1890-cı ildə məktəblərin sayı artıq 4, 1900-cü ildə – 19, 1910-cu ildə – 36, 1914-cü ildə – 40 idi. 1914-1915-ci tədris ilində 15 ümumi, 9 rus-azərbaycan, 6 rus-erməni, 3 qızlar məktəbi var idi. Həmçinin Bakıda 7 dörd sinifli məktəb, onlardan 2 Azərbaycan və 1 erməni məktəbi idi[2].

"Şəhərin abadlaşdırması" maddəsi Şəhər idarəsinin büdcəsində ən önəmli bəndlərindən biri idi. 1897-ci ildə Duma "Bakı şəhərində tikintinin qaydaları" adlı sənədi təsdiq etdi. Bu "Qaydalar" 12 bölmə və 76 maddədən ibarət olub, şəhərdə tikintinin əsas prinsiplərini müəyyən edirdi. İdarə şəhər mühəndisi vəzifələrini təyin etdi və bu vəzifəni memar İ.V. Qoslavskiyə həvalə etmişdi. Şəhərin baş memarının tövsiyyəsi ilə şəhər hissələrə bölünmüşdü. Bu hissələr memarlar Skibinski, Eichler və Skureviç arasında bölüşdürülmüşdür və əsasnamədə bu, şəhər hissələrinin üzərində nəzarəti gücləndirmək və təkmilləşdirmək üçün edildiyi bildirilmişdir. 1904-cü ilə qədər bütün şəhər tikintisi işləri şəhər təsərrüfatının bu sahəsindəki məsələləri təkbaşına həll edən

[1] Меликаллахвердов Г. Исторический обзор деятельности Бакинского городского управления в области начального образования в Баку с 1871 по 1914 г. - Известия Бакинской городской думы, 1915, №2, s. 68

[2] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-начале XX века», Баку, 2003, s. 95

baş şəhər mühəndisinin əlində cəmləşmişdi. Onun rəhbərlik etdiyi tikinti idarəsi memarlıq və tikinti işləri, yol işləri, su təchizatı, kanalizasiya, elektrik işləri və s. kimi işlərə baxırdı. XIX-cu əsrin sonu və XX-ci əsrin əvvəllərində Bakı sürətlə böyüdü, şəhərsalma inkişaf etdi ki, bu da şəhər hökumətinin şəhərin abadlaşdırılması üzrə fəaliyyətinin aspektlərindən biri idi. XIX-cu əsrin sonunda şəhərdə tikililərin sayının 1886-cı illə müqayisədə 2,8 dəfədən çox, 1910-cu ildə isə 6 dəfə artması şəhərdə tikinti işlərinin necə sürətlə genişləndiyini göstərir[1]. Bundan əlavə, Bakı şəhər hökuməti son nəticədə şəhərin abadlaşdırılmasına xidmət edən müxtəlif şəhər xidmətlərinin yaradılmasına və inkişafına da böyük diqqət yetirirdi. Məsələn, 1885-1887-ci illərdə Bakı Duması şəhərdə baş verən bir sıra iri yanğınlardan sonra quberniya və Qafqaz idarəsinin təşəbbüsü və nəzarəti ilə yanğınsöndürmə xidməti yaratdı, Bakı Yanğın Cəmiyyətinin nizamnaməsini işləyib hazırladı, binalar, vəsait ayırdı, təcrübəli mütəxəssislər dəvət etdi, hətta Bakı yanğınsöndürənlərini xüsusi geyimlərlə təmin etdi[2].

XIX əsrin sonunda Bakının abadlaşdırılması üçün tətbiq edilən ən maraqlı yenilik ictimai nəqliyyatın təşkil edilməsi idi. İlk nümunə Bakı konkası olmuşdur. Bakıda at dəmir yolu (və ya başqa adla – konka) 1889-cu il aprelin 7-də öz fəaliyyətinə başlamışdır. Layihənin müəllifi və inşaatçısı mühəndis B.A.Rotşild idi. Konkanın əhali üçün xidməti 1889-cu il mayın 24-də rəsmi olaraq açılmışdır. 1893-cü ilin "Bakı illiyi" adlı topluda verilən məlumatlara görə, həmin ildə Bakıda artıq 4 əsas marşrut xətti

[1] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-начале XX века», Баку, 2003, s. 107

[2] Оджагова, К. «Городское самоуправление Баку в конце XIX-начале XX века», Баку, 2003, s. 108,. ARDTA, f.389, siy., 3, iş. 2602, v.30

